AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

A.A.BAKIXANOV adına TARİX və ETNOLOGİYA İNSTİTUTU

**NƏRGİZ QULİYEVA**

# BİRİNCİ VƏ İKİNCİ QARABAĞ MÜHARİBƏLƏRİ:

## *AZƏRBAYCANIN ERMƏNİ İŞĞALÇILARI ÜZƏRİNDƏ QƏLƏBƏSİNƏ ETNOLOJİ BAXIŞ*

BAKI – 2024

AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun
Elmi Şurasının qərarı ilə çap olunur

**Redaktor:** **Şirin Bünyadova**
*tarix elmləri doktoru, professor*

**Rəyçilər:** **Şövqi Həsənov**
*tarix üzrə fəlsəfə doktoru, dosent,*

**Xəliyəddin Xəlilli**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Quliyeva Nərgiz. Birinci və İkinci Qarabağ müharibələri:** ***Azərbaycanın erməni işğalçıları üzərində qələbəsinə etnoloji baxış.*** **Bakı, "Parlaq İmzalar" Nəşriyyatı, 2024, - 312 s.**

Monoqrafiya XX əsrin sonu – XXI əsrin əvvəllərində erməni təcavüzkarlarının başladıqları Qarabağ müharibələrinin Azərbaycan ailələrinə faciəvi təsiri mövzusuna həsr olunmuşdur. Bu müharibələrin xalqımızın məişətinə gətirdiyi müsibətlər bədii ədəbiyyat və dövri mətbuat materialları, informatorların məlumatları, müharibə iştirakçılarının, Qarabağ şəhidlərinin valideynlərinin məlumatları əsasında tədqiq edilir.

Monoqrafiyadan tarix, etnologiya, sosial antropologiya və folklorşünaslıqla maraqlananlar, həmçinin geniş oxucu auditoriyası faydalana bilərlər.

ISBN: 978-9952-5803-7-2

© AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, 2024

## GİRİŞ

Azərbaycan Respublikasının Qarabağ bölgəsi bəşər sivilizasiyasının ən qədim insanlarının yaşayış məskənlərindəndir.

**Əzizinəm, Qarabağ,**
**Şəki, Şirvan, Qarabağ!**
**Aləm cənnətə dönsə,**
**Yaddan çıxmaz Qarabağ.**

Bu bayatı Qarabağda qədimdən yaşayan insanların ürək sözləridir, Vətənə məhəbbətidir. Qarabağ ərazisində yaşayan qədim əhalinin yaşayış məskəni kimi formalaşdığı Azıx mağarası sakinləri 700 min il bundan əvvəl oddan istifadəni bacarmış, hesabı bilmiş, ətraf mühitdə baş verən hadisələr haqqında ibtidai təsəvvürlərə malik olmuşlar. Qarabağ ərazisində yaşayan əhali qədim tarixə, zəngin mənəvi irsə malikdirlər.

Məlum olduğu kimi, Qarabağ xanlığı 1747-1805-ci illərdə İrana və Türkiyəyə tabe olmadan istiqlaliyyəti və suverenliyi uğrunda xarici müdaxilələrə qarşı uğurlu mübarizə aparmışdır. 1805-ci ildən etibarən Qarabağ xanlığı Rusiya dövlətinə birləşdirilmiş və 1822-ci ilə kimi daxili muxtariyyəti qalmaqla xanlıq kimi davam etmişdir. II Rusiya-İran müharibəsinin tamamlanması ilə əlaqədar olaraq 1828-ci il Türkmənçay müqaviləsi bağlandıqdan sonra çar Rusiyası İran və Türkiyə sərhədlərində xristianların sayını çoxaltmaq məqsədi ilə İran və Türkiyədə yaşayan erməniləri Naxçıvan və İrəvan xanlıqlarına köçürməyə başladı.

Rus diplomatı və yazıçı A.S.Qriboyedov bilavasitə ermənilərin İran və Türkiyədən Zaqafqaziya ərazisinə köçürülməsinin

iştirakçısı olmuş və bu haqda qeydlərini yazmışdır [34, s.339-341].

Bu ərəfələrdə Arazın o tayından gələn ermənilərin bir çoxunu Qarabağ xanlığına köçürdülər. Nəticədə Qarabağda ermənilərin sayı süni surətdə artmağa başladı. Xristianlığın Qriqoryan dinini qəbul etmiş keçmiş albanlarla bərabər çar Rusiyasını dəstəklədilər.

XVIII əsrin 60-70-ci illərində yaranmış gərgin beynəlxalq vəziyyətdən və Rusiyanın yardımından yararlanan, istər Rusiya ərazisində, istərsə də xaricdə yaşayan ermənilər Azərbaycan torpaqları hesabına "erməni dövləti" yaradılması üçün müxtəlif layihələr işləyib hazırlamağa başladılar. Bu layihənin əksəriyyətində Qarabağ xanlığı ərazisində erməni dövləti yaradılması planlaşdırıldı [9, s.113].

1747-ci il Nadir şah Əfşarın öldürülməsindən sonra Qarabağın xristian məlikləri "Otuzikili" tayfa birliyinin başçısı, yerli Cavanşir tayfasından olan Sarıcalı Pənah xana tabe oldular. Qarabağ xanlığı paytaxtı Pənah xan tərəfindən 1751-ci ildə tikilmiş Pənahabad qalası (Şuşa) olmaqla, tezliklə Azərbaycan xanlıqları arasında ən güclü xanlıqlardan birinə çevrildi [36, s.136].

Qarabağın xristian Alban tikililəri XVIII əsrin əvvəllərində Rusiya imperiyasının təsiri altında erməni ideologiyası birliyinə daxil oldular.

1836-cı ildə I Nikolayın fərmanı ilə alban mənəvi birliyinin dayağı olan Alban kilsəsi ləğv olunaraq, bütün sənədləri məhv edilir və albanlar erməniləşməyə qarşı mənəvi-ideoloji mübarizə imkanlarını itirirlər.

XX əsr azərbaycanlılar üçün faciələrlə başladı. Erməni daşnak dəstələri ilk dəfə 1905-1907-ci illərdə açıq şəkildə azərbaycanlıların məhvinə fərman verdilər və milli-etnik münaqişə zəminində ilk soyqırımı cinayəti törətdilər. Azərbaycanlıların soyqırımının II mərhələsi 1913-1920-ci illərdə davam etdirildi. 23 ay yaşayan Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 1920-ci il aprelin 27-dən 28-nə keçən gecə Sovet Rusiyasının işğalçı XI Qırmızı Ordusu tərəfindən işğal olundu [16, s.7].

Sovet Rusiyası tərəfindən Azərbaycan torpaqları hesabına 1921-ci ildə Ermənistan SSR yaradılarkən tarixi Qarabağın Zəngəzur qəzası da itirildi. 1923-cü il iyunun 7-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi 4,4 min kv.km. ərazidə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında dekret verdi. Cavanşir qəzası bütünlüklə, Şuşa və Cəbrayıl qəzalarının dağlıq hissələri daxil olmaqla erməni əhalisinə muxtariyyət verildi və o vaxtdan etibarən, "Dağlıq Qarabağ" termini meydana çıxdı.

Rusiya tərəfindən yaradılması təşkil edilən DQMV-nin bu ərazidə separatçılıq meyllərinin əsası qoyulmuşdur. Əslində isə problemin kökündə Qarabağa XVIII əsrdən başlayaraq köçürülən ermənilərin Azərbaycan torpaqlarına yiyələnmək iddiası dayanırdı.

SSRİ-nin dağılması ərəfəsində "Ocaq" kitabının müəllifi (1981) Z.Balayan özünün Azərbaycan əleyhinə mövqeyi ilə fəallaşmışdı. 1988-ci ildə Moskvada çap olunan "Yol" kitabında diqqətini Azərbaycan əleyhinə süjetlərə cəlb etmişdi. Gec də olsa akademik Nailə Vəlixanlı Azərbaycan tarixinin xüsusi dövrünə aid arxiv mənbələrinə əsaslanan faktlarla müəllifin bu kitabına özünün tənqidi qeydlərini bildirmişdi [35, s.136].

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi 1988-ci ildə ermənilərin Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları ilə başlamışdır. Sovet İttifaqı rəhbərliyində təmsil olunan ermənilər, Ermənistan SSR-in rəhbərliyi və xaricdəki erməni diasporu 1980-ci illərin əvvəllərindən SSRİ-nin mərkəzi hakimiyyətinin zəifləməsindən istifadə edərək Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi üçün fəaliyyətə başladılar.

1987-89-cu illərdə Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlı öz tarixi torpaqlarından zorla qovulub, onlardan 216 nəfər vəhşicəsinə qətlə yetirilmiş, 1154 nəfər isə yaralanmışdı.

20 fevral 1988-ci ildə DQMV-nin Xalq Deputatları Sovetinin iclasında vilayətin erməni icmasının nümayəndələri DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-ə keçirilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetlərinə müraciət etmək haqqında qərar qəbul etdilər.

22 fevral 1988-ci ildə Əsgəran qəsəbəsi yaxınlığında ermənilər DQMV-nin Xalq Deputatları Sovetinin qərarına qarşı etiraz edən dinc azərbaycanlı nümayişçilərə atəş açdılar. Nəticədə həlak olan iki azərbaycanlı gənc münaqişənin ilk qurbanları oldular.

Bu dövrdə Ermənistandakı emissarların mənbəyi ilə DQMV-də separatçı hərəkatın təşkilatı əsasları yaradıldı.

1988-ci ilin martında Xankəndində, 1923-1991-ci illərdə Stepanakertdə, "Krunk", Yerevanda "Qarabağ" təşkilatlarının fəaliyyəti qanuniləşdirildi [16, s.21].

1988-ci ildən başlayaraq Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın azərbaycanlılar yaşayan 126 yaşayış məntəqəsindən onların zorla çıxarılması planı həyata keçirildi. Məhz bu dövrdə XX əsrin ən faciəli hadisələrindən biri törədildi – Dağlıq Qarabağda 6 min nəfər azərbaycanlının yaşadığı Xocalı şəhəri erməni silahlı qüvvələri tərəfindən Sovet qoşunlarının köməyi ilə bir gecədə darmadağın edildi.

Ermənistan silahlı qüvvələrinin 1988-ci ildən başlayaraq ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20%-i Dağlıq Qarabağın, eləcə də ona bitişik olan 7 rayonun ərazisi işğal olunmuş, Dağlıq Qarabağın ətraf rayonlarından isə 600 min nəfərdən çox soydaşımız öz daimi yaşayış yerlərindən məhrum olaraq məcburən köçkün düşmüş və respublikanın 62 şəhər və rayonunda, 1600-dən çox sıx məskunlaşma obyektində müvəqqəti məskunlaşmışdılar.

Bundan başqa respublikamızın Ermənistanla və ya Dağlıq Qarabağla həmsərhəd olan Naxçıvan Muxtar Respublikasının, Ağcabədi, Ağdam, Ağstafa, Füzuli, Tərtər, Goranboy, Gədəbəy, Qazax və Tovuz rayonlarının sərhədyanı yaşayış məntəqələrindən 100 min nəfərdən çox soydaşımız təhlükəsizlik baxımından öz daimi yaşayış yerini tərk etmək məcburiyyətində qalmışdır.

Həmin dövrdə Azərbaycanda həmçinin 11 min nəfərədək "qaçqın" statusu almaq niyyətində olan (sığınacaq axtaran) şəxs mövcud idi. Onların böyük əksəriyyətini çeçen mənşəli Rusiya

vətəndaşları, əfqanlar, İran, İraq, Fələstindən olan şəxslər təşkil edirdi [48].

Beləliklə, Azərbaycanda bir milyona yaxın qaçqın, məcburi köçkün şəxslər var idi. 1990-cı ildə Orta Asiyadan didərgin salınmış 50 min nəfərədək Məhsəti türkü də Azərbaycana pənah gətirdi.

1991-ci ildə Sovet İttifaqı dağıdıcı siyasi proseslər burulğanında parçalanıb bölündü. Bunun ən müxtəlif səviyyələrdə hələ də müzakirə və təhlil edilən bir çox səbəbləri var idi. O da məlumdur ki, SSRİ kimi nəhəng dövlətin dağılmasının katalizatorlarından biri Ermənistanın Azərbaycana tamamilə əsassız və qanunsuz ərazi iddiaları oldu. Bu aqressiv iddialar yaddaşlarda iki ölkə arasında otuzillik qanlı münaqişənin başlanğıcı kimi qalmaqdadır [32, s.6].

30 avqust 1991-ci ildə Azərbaycanın Ali Soveti dövlət müstəqilliyinin bərpasını elan etdi. 18 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olundu.

26 noyabr 1991-ci ildə Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv edilməsi haqqında" Qanun qəbul etdi.

1991-ci ilin sonu – 1992-ci ilin əvvəlində münaqişənin hərbi mərhələsi başlandı. Sovet İttifaqının parçalanması və Azərbaycanda daxili çəkişmələr nəticəsində yaranmış siyasi qeyri-sabitlikdən istifadə edərək, Ermənistan xarici hərbi yardımla Dağlıq Qarabağda hərbi əməliyyatlara başladı.

1988-1992-ci illər ərzində Ermənistanın hərbi təcavüzü nəticəsində 20 min nəfər azərbaycanlı həlak olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur.

Münaqişə dövründə 4852 nəfər (o cümlədən 54 uşaq, 323 qadın, 410 qoca) azərbaycanlı itkin düşmüş, onlardan 1368 nəfəri (o cümlədən 169 uşaq, 338 qadın, 286 qoca) əsirlikdən azad edilmiş, 783 nəfəri (o cümlədən 18 uşaq, 46 qadın, 69 qoca) isə bu

günədək Ermənistanda əsirlikdədir. Beynəlxalq Qızıl Xaç Komitəsinin məlumatına görə 439 nəfər əsirlikdə ölmüşdür [118].

8 may 1992-ci ilədək Şuşa şəhəri də daxil olmaqla "Dağlıq Qarabağ" ərazisi işğal olundu [47].

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi – Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayon: Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal olunmuşdu.

1988-1993-cü illərdə Qarabağda, ümumilikdə, 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdılıb [47].

Azərbaycanın işğal edilmiş ərazilərində dünya əhəmiyyətli abidələrə Cəbrayılda orta əsrlərə aid 11 və 15 tağlı Xudafərin körpüləri və Tunc dövrünə aid Niftalı kurqanları, Kəlbəcərdə orta əsrlərə aid Gəncəsər və Xudavanq monastırları, Ağdamda XIV əsrə aid Qutlu Musa oğlu türbəsi və Tunc dövrünə aid Üzərliktəpə yaşayış massivi, Xocavənddə Paleolit dövrünə aid Azıx və Tağlar mağarası və Xocalıda Tunc və Dəmir dövrünə aid kurqanlar daxildir.

Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair vasitəçilik prosesi 1992-ci ilin fevral ayında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirə (ATƏM) çərçivəsində başlamışdır.

12 may 1994-cü il tarixində atəşkəsə dair razılıq əldə olundu. ATƏM-in dövlət və hökumət başçılarının 1994-cü il 5-6 dekabr tarixlərində Budapeştdə keçirilən sammitində ATƏM çərçivəsində bütün vasitəçilik səylərinin əlaqələndirilməsi üçün Minsk konfransı həmsədrlik institutunun yaradılması barədə qərar qəbul

olundu. Budapeşt sammiti ATƏM-in fəaliyyətdə olan sədrinə silahlı münaqişənin dayandırılması üçün siyasi razılaşmanın əldə olunması məqsədilə danışıqlar aparmaq tapşırığı verdi. Sözügedən siyasi razılaşma münaqişənin nəticələrini aradan qaldırmalı və Minsk konfransının çağırılmasına imkan verməli idi.

23 mart 1995-ci ildə ATƏT-in fəaliyyətdə olan sədri Minsk prosesinin həmsədrlərinə mandat verdi. 2-3 dekabr 1996-cı il tarixlərində keçirilən ATƏT-in Lissabon sammitində ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədri Dağlıq Qarabağ münaqişəsinin həllinin əsasını təşkil etməli olan prinsipləri tövsiyə etdi, lakin Ermənistan bu prinsipləri qəbul etmədi və ATƏT-in 54 üzv dövləti arasında bu təklifin əleyhinə səs verən yeganə dövlət oldu [47].

Ermənilərin öz alçaq məqsədlərinə çatmaq üçün günahsız insanlara qarşı dəhşətli terror aktları törətdikləri hamımıza bəllidir. Bağanis-Ayrımda, Malıbəylidə, Xocalıda və digər kənd-şəhərlərimizdə düşmənin törətdiyi dəhşətli qırğınları xatırlamaq belə ağırdır.

Cəbhədə atəşkəs rejiminin tətbiq olunması barədə razılaşma imzalandıqdan sonra da ermənilər öz çirkin əməllərindən qalmırdı. Tez-tez qoşunların təmas xəttində düşmən sükutu pozur, ordumuzun mövqelərinə güllə və mərmi yağdırırdılar. Hələ bu azmış kimi onlar Azərbaycanın təmas xəttinə yaxın ərazilərdə yerləşən yaşayış məntəqələrini də atəşə tuturdular. Bununla da dinc əhalinin rahatlığı pozulur, ev və təsərrüfatlarına ciddi ziyan dəyirdi. Müdafiə Nazirliyinin məlumatlarında tez-tez erməni silahlı bölmələri tərəfindən yaşayış məntəqələrimizin atəşə tutulması barədə xəbərlərə rast gəlirdik. Bu xəbərlərdə Tovuz rayonunun Əlibəyli, Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Qapanlı, Ağstafa rayonunun Köhnə Qışlaq kəndlərinin adları daha çox çəkilirdi. Ən acınacaqlısı isə odur ki, mülki insanlar düşmən tərəfdən atılmış güllə və mərmilərdən həlak olur və ciddi xəsarət alırdılar.

Bir çox beynəlxalq təşkilatlar münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı çoxsaylı sənədlər qəbul etmişdi. BMT Baş Assambleyasının 2008-ci il martın 14-də qəbul etdiyi qətnamə münaqişənin hüquqi, siyasi və humanitar aspektlərini əhatə edir və həlli prinsiplərini yenidən təsdiqləyirdi. Bu prinsiplər Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörməti, erməni qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını, işğal edilmiş ərazilərdən məcburi köçkün düşmüş insanların öz doğma yurdlarına qayıtmaq hüququnu, hər iki icmanın Azərbaycanın tərkibində muxtar idarəetmə formasına malik ərazidə birgəyaşayış şərtlərinin təmin edilməsini və ərazilərin işğalı nəticəsində yaradılmış vəziyyətin qeyri-qanuniliyini vurğulayırdı.

Münaqişə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində də dəfələrlə müzakirə edilmişdi. Təşkilat beynəlxalq hüququn prinsip və normalarını rəhbər tutaraq, Azərbaycanın hərbi təcavüzə məruz qaldığını elan etmişdi. Hələ 1993-cü ildə təşkilatın xarici işlər nazirlərinin Pakistanın Karaçi şəhərində keçirilən 21-ci iclasında qəbul edilən qətnamə Azərbaycana qarşı erməni təcavüzünü qınayır, erməni qoşunlarının işğal edilmiş bütün ərazilərdən dərhal çıxarılmasını tələb edirdi. Ermənistanı Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə və münaqişənin dövlətlərin ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına əsaslanan sülh yolu ilə, ədalətli həllinə çağırırdı. Növbəti qətnamələrdə təşkilat BMT Təhlükəsizlik Şurasını münaqişənin siyasi həlli prosesində fəal iştirak etməyə, qəbul olunmuş dörd qətnamənin icrasını tam təmin etməyə və Azərbaycan Respublikasına qarşı təcavüz aktının mövcudluğunu tanımağa çağırırdı.

2016-cı ildə İƏT-in İstanbulda keçirilən sammitində İƏT çərçivəsində "Ermənistan Respublikasının Azərbaycana təcavüzünə dair Təmas Qrupu" yaradılmışdı. Təmas Qrupunun tərkibinə 7 ölkə daxil idi: Türkiyə, Səudiyyə Ərəbistanı, Pakistan, Malayziya, Mərakeş, Cibuti, Qambiya [47].

2016-cı ilin əvvəlində münaqişənin həlli ilə əlaqədar konkret planlar müzakirə olunduğu vaxtda Ermənistan hərbi təxribata əl ataraq, aprelin 2-də qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı əraziləri ağır silahlardan atəşə tutmuşdu. Ermənistanın hücumları nəticəsində dinc Azərbaycan əhalisi arasında uşaqlar da daxil olmaqla 6 nəfər həlak olmuş, 33 nəfər isə ağır yaralanmışdı. Öz növbəsində, Azərbaycan Silahlı Qüvvələri düşmənə layiqli cavab verib, əks-həmlə nəticəsində strateji əhəmiyyətli mövqeləri işğaldan azad etmişdi. Aprel hadisələrindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi erməni işğalından azad olundu. Cocuq Mərcanlı kəndində bərpa və quruculuq işləri görülmüş, kənddə normal həyat bərpa olunmuşdur.

Tarixə "Dördgünlük müharibə" adı ilə düşən Aprel döyüşlərinin nəticəsi olaraq 2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycan Silahlı qüvvələrinin 3 üzvü Azərbaycanın Milli Qəhrəmanı, 7 üzvü "Azərbaycan Bayrağı" Ordeni və digərləri orden və medallarla təltif olunmuşlar [22].

Ermənistan siyasi və hərbi təxribatlarını 2017-ci ildə də davam etdirmişdi. Ermənistan hərbi hissələri ağır artilleriya qurğularından Azərbaycan Silahlı Qüvvələrinin cəbhə boyu mövqelərini və mülki əhalinin yaşadığı əraziləri intensiv atəşə tuturdu. Nəticədə iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndində 2 mülki şəxs qətlə yetirilmiş, bir nəfər isə ağır yaralanmışdı.

Avropa İttifaqı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə, Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasına, tərəflərin ərazi bütövlüyünə, beynəlxalq sərhədlərinə hörmət göstərilməsinə və heç bir beynəlxalq legitimliyi olmayan, güc yolu ilə yaradılmış vəziyyətdən imtina edilməsinə çağırırdı. 2017-ci il noyabrın 24-də Brüsseldə keçirilən Şərq Tərəfdaşlığı sammitində qəbul edilən birgə bəyannamə-

də Avropa İttifaqı bütün tərəfdaşların ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini dəstəkləməklə bu məsələdə qərarlı olduğunu nümayiş etdirmişdi.

Azərbaycanın bütün sülhsevər səylərinə baxmayaraq, Ermənistan destruktiv siyasəti ilə problemin mərhələli şəkildə tənzimlənməsinə mane olur, siyasi və hərbi təxribatlar vasitəsilə danışıqlar prosesini pozmağa çalışır və Azərbaycan ərazilərinin işğalına əsaslanan münaqişəsində dünya birliyi Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birmərtəbəli şəkildə tanıyır və dəstəkləyirdi.

Birinci Qarabağ müharibəsi nəticəsində öz torpaqlarının 20 faizini itirən Azərbaycan Respublikası əsasən 1994-cü il mayın 5-də imzalanmış Bişkek protokolundan sonra Ermənistan Respublikası ilə BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin qeyri-şərtsiz Azərbaycan torpaqlarından çıxarılmasını nəzərdə tutan qərarlarının icra olunması üçün müxtəlif beynəlxalq qurumlar çərçivəsində uzunmüddətli diplomatik danışıqlar apardı. Sülh danışıqları prosesi 2018-ci ildə Ermənistan inqilabi nəticəsində hakimiyyətə gəlmiş Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi bəyanatları Azərbaycanın işğal olunmuş ərazilərinə ardıcıl qanunsuz səfərləri kimi təxribatçı xarakter daşıyan hərəkətləri ilə ciddi ölçüdə sarsıldı [49].

Ermənistan Silahlı Qüvvələrinin bölmələri 2020-ci ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində əlverişli mövqeləri ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərsə də, müvəffəq ola bilmədi.

23 iyul 2020-ci ildə Ermənistan Silahlı Qüvvələri, Rusiya ilə ortaq hava hücumundan müdafiə sistemi təlimlərinə başladığını elan etdi. Bunun ardınca Azərbaycan ərazisində, Azərbaycan Silahlı Qüvvələri və Türkiyə Silahlı Qüvvələrinin birgə iştirakı ilə sentyabr ayının əvvəlinə qədər davam edən bir sıra hərbi təlimlər

keçirildi. Avqust ayında təmas xəttinin Goranboy rayonu istiqamətində Ermənistan Silahlı Qüvvələrinin diversiya-kəşfiyyat qrupu itki verərək geri çəkilmiş və qrupun komandiri baş leytenant Qurgin Alberyan əsir götürülmüşdür [49].

25 sentyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformat çıxışında Ermənistanın təxribatları nəticəsində azərbaycanlı hərbçilərin və 76 yaşlı mülki vətəndaşın həlak olması, habelə mülki infrastruktura vurulan ciddi ziyan qeyd olunmuşdur. O cümlədən, Azərbaycan Respublikasının Prezidenti iyulun 17-dən etibarən sentyabr ayına qədər hərbi yük təyyarələri ilə Ermənistana min tondan artıq hərbi avadanlığın daşındığını bildirmişdir. Tədbirdə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyən çıxışlar etmişdir.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan Silahlı Qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozması ilə bağlı bəyanat yaymışdır. Həmin gün Azərbaycan Silahlı Qüvvələri erməni təxribatlarının qarşısını almaq üçün əks-həmlə əməliyyatlarına başlamış və respublika ərazisində hərbi vəziyyət elan olunmuşdur [49].

İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi və ya "Dəmir yumruq" əməliyyatı Azərbaycan Silahlı Qüvvələri və Ermənistan Silahlı Qüvvələri arasında Dağlıq Qarabağda davam edən silahlı qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saatlarından Qarabağ müharibəsindən sonra yaradılmış təmas xətti boyunca başladı. Davam edən müharibə nəticəsində 2020-ci ilin oktyabr ayında Azərbaycanın Gəncə şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən 5 dəfə ayrı-ayrı zamanlarda bombalandı. Nəticədə 27 nəfər şəhid oldu, 125 nəfər yaralandı. Erməni təcavüzü Bərdədə 31 nəfərin həyatını əlindən aldı, 70 şəxs yaralandı. 29 sentyabr 2020-ci

ildə Ermənistan silahlı birləşmələrinin dinc Azərbaycan əhalisini hədəfə alması səbəbindən növbəti dəfə toplarla atəş nəticəsində Naftalan rayonunda, Qaşaltı kənd sakini Qurbanov Elbrus İsa oğlu və onun 4 ailə üzvü həlak oldu.

Azərbaycan ordusunun 1920-ci il sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə, 286 kənd işğaldan azad edildi. Noyabrın 20-də Ağdam rayonu, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verildi.

Azərbaycan ordusunun şücaəti nəticəsində torpaqlarımız azad edildi. Lakin itkilərimiz çox oldu. Bu itkilər 3000 Azərbaycan ailəsinin taleyinə hakim kəsildi. Şəhidlər, yaralılar, qazilər xalqımıza baş ucalığı gətirdilər.

# I FƏSİL

## BİRİNCİ QARABAĞ MÜHARİBƏSİ VƏ ONUN NƏTİCƏLƏRİNƏ DAİR

Azərbaycan xalqının taleyində tarixə Birinci və İkinci Qarabağ müharibəsi kimi daxil olmuş Azərbaycan-Ermənistan münaqişəsinin nəticələri xalqımız üçün müsibətlər gətirmişdir.

1987-ci ildə Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri akademik Abel Aqambekyanın təkidi ilə Parisdə keçirilən erməni ümummilli konqresi SSRİ-də yaranmaqda olan dəyişikliklərdən istifadə edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə qərar qəbul etdi. 1987-ci il iyun-iyul aylarından ermənilər Xankəndinin küçələrində vərəqələr yayır, Dağlıq Qarabağın Azərbaycandan ayrılması üçün təbliğata başladılar. 1987-ci ilin oktyabr ayında İrəvanda "Qarabağ komitəsi" ilk açıq mitinq keçirdi. Komitəyə İqor Muradyan və Levon Ter-Petrosyan başçılıq edirdilər. Artıq ermənilər hərtərəfli geniş fəaliyyətə başlamışdılar.

1988-ci ildən başlayaraq Ermənistan SSR-in Azərbaycan SSR-ə qarşı irəli sürdüyü ərazi iddialarına əsaslanan Qarabağ münaqişəsinin davamı 1991-1994-cü illərdə Azərbaycanın Dağlıq Qarabağ ərazisi və ətraf 7 rayonlar Ermənistan silahlı qüvvələrinin işğalçılıq siyasətinə məruz qalmışdılar.

1988-ci ildə Dağlıq Qarabağda ermənilər kompakt yaşayış məntəqələrindən azərbaycanlıları qovmağa başladılar.

Qukark qırğını kimi tarixdə iz qoymuş faciə isə 1988-ci ilin noyabr ayında baş verdi: Ermənistanın Qukark rayonunda ermənilər tərəfindən 15-i yandırılaraq 21 azərbaycanlı öldürülmüşdü.

1988-ci ilin yanvar ayından etibarən, SSRİ-nin ali rəhbərliyinin dəstəyinə arxalanan ermənilər Ermənistan SSR-də yaşayan azərbaycanlıların tarixi torpaqlarından kütləvi deportasiyalarına başladılar. Bu proses 1989-cu ildə başa çatdırıldı, həmin illər ərzində 220,000-dən çox azərbaycanlı deportasiyaya məruz qaldı.

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında Kərki ərazisi, Qazağın Bağanis Ayrım kəndi, 1990-cı ildən etibarən ermənilərin hücumlarına məruz qalırdılar [49].

1990-cı il martın 26-da erməni ordusu tərəfindən Bağanis Ayrım kəndində 20 ev, 11 nəfər sakin yandırılmışdı.

1989-cu ildən 1991-ci ilədək Xanlar, indiki Göygöl rayonunun Çaykənd kəndində 54 nəfər yerli sakin öldürülmüşdü.

26 noyabr 1991-ci ildə AR Ali Soveti Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv edilməsi haqqında Qanun qəbul etdi. 1991-ci ilin sonu – 1992-ci ilin əvvəllərində müharibənin hərbi mərhələsi başlandı.

1992-ci il yanvarın 26-da yeni təşkil olunmuş Azərbaycan Ordusu Şuşa yaxınlığında Daşaltı əməliyyatını keçirdi və məğlub oldu.

Fevral ayında ermənilər rus qoşunları ilə bərabər Qarabağda hücuma keçərək bir neçə kəndi tutdular.

Məlumdur ki, hələ 1991-ci il iyulun 31-də erməni terrorçuları tərəfindən Moskva-Bakı sərnişin qatarı partladıldı, 16 nəfər öldü, 20 nəfər yaralandı.

1991-ci il avqustun 2-də Dağlıq Qarabağın Hadrut rayonunun Dolanlar kəndində ermənilər tərəfindən avtomaşın partladıldı, 4 nəfər həlak oldu, 8 nəfər yaralandı. Avqustun 8-də Ermənistan hakimiyyəti tərəfindən orada azərbaycanlıların yaşadıqları sonuncu Nüvədi kəndi boşaldıldı, əhalisi döyülərək Ermənistandan qovuldu. Avqustun 21-də Dağlıq Qarabağın Hadrut rayonunun Şadaxt kəndi yaxınlığında avtobus partladıldı, 2 nəfər həlak oldu, 10 nəfər yaralandı. Avqustun 23-də Şuşa-Cəmilli yolunda avtobus erməni terrorçuları tərəfindən atəşə tutuldu, 4 nəfər həlak oldu, 13 nəfər yaralandı. Avqustun 30-da Azərbaycan müstəqilliyinin bərpa olunması haqda Bəyannamə ilə çıxış etdi [49].

1991-ci il sentyabrın 2-də ermənilər "Dağlıq Qarabağ Respublikası" adında qondarma qurumun yarandığını elan etdilər. Sentyabrın 5-də Azərbaycan Respublikasının Müdafiə Nazirliyi yaradıldı, general Valeh Bərşadlı nazir təyin edildi. Sentyabrın 8-

də erməni terrorçuları tərəfindən Ağdam-Xocavənd avtobusu atəşə tutuldu, 5 nəfər həlak oldu, 34 nəfər yaralandı. Həmin gün erməni terrorçuları tərəfindən Ağdam-Qaradağlı avtobusu atəşə tutuldu. 8 nəfər həlak oldu, 42 nəfər yaralandı. Sentyabrın 23-də Şimali Qafqazda Jeleznovodsk şəhərində Azərbaycan, Ermənistan, Rusiya və Qazaxıstan prezidentləri görüşdülər, vəziyyəti nizama salmaq məqsədi ilə "müvəqqəti işçi qrupu yaradıldı". Sentyabrın 26-da erməni terrorçuları tərəfindən Yevlax-Laçın yolunda avtomaşın partladıldı, 2 nəfər həlak oldu, 14 nəfər yaralandı.

1991-ci il oktyabrın 18-də Azərbaycan "Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı"nı qəbul etdi. Oktyabrın 19-da Dağlıq Qarabağın Ağdərə rayonu Sırxavənd kəndi yaxınlığında ermənilər tərəfindən avtomaşın partladıldı, 3 nəfər həlak oldu, 2 nəfər yaralandı.

1991-ci il noyabrın 20-də erməni terrorçuları tərəfindən Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında "Mİ-8" vertolyotu vuruldu. Erməni terrorçuları Azərbaycan, Rusiya və Qazaxıstanı təmsil edən bir qrup – 22 nəfər dövlət, ictimai və hərbçi xadimi qətlə yetirildilər Noyabrın 26-da Azərbaycan parlamenti Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv olunması haqda qanun qəbul etdi. Noyabrın 27-də SSRİ Dövlət Şurası DQMV-nin ləğvi ilə bağlı qərarın dəyişdirilməsini Azərbaycan rəhbərliyindən tələb etdi.

1991-ci il dekabrın 10-da Dağlıq Qarabağ erməniləri referendum keçirdi, "müstəqilliyə" səs verdilər. Dekabrın 23-də ermənilərin "Qarabağ" adlı terror təşkilatı Dağlıq Qarabağın Əsgəran rayonunun Meşəli kəndinə hücum edib, 6 nəfəri öldürdülər, 15 nəfəri yaraladılar. Dekabrın 26-da Şuşa şəhər sakini Süleyman Abbasov, onun hamilə həyat yoldaşı, yaşyarımında olan oğlu, qaynanası və onların getdikləri maşının sürücüsü Ağdam-Şuşa yolunda erməni terrorçuları tərəfindən qətlə yetirildilər. Dekabrın 27-də ermənilər ağır texnikanın müşayiəti ilə Xankəndi yaxınlığındakı Kərkicahan qəsəbəsinə hücum etdilər. Mehman Hüseynovun başçılığı altında kəndin 22 nəfərdən ibarət müdafiə dəstəsi

qeyri-bərabər döyüşə girdilər. Səkkiz saat davam edən döyüşdə 70-dən çox erməni quldurumu məhv edildi.

1992-ci il yanvarın 8-də erməni terrorçuları Krasnovodskdan Bakıya üzən sərnişin bərəsini partladırlar. 25 nəfər öldü, 88 nəfər yaralandı. Yanvarın 10-da Respublika Təşkilat komitəsi Xankəndini tərk etdi. Yanvarın 15-də Kərkicahan qəsəbəsi işğal edildi. Yanvarın 26-da Şuşa yaxınlığındakı Daşaltı kəndində Azərbaycan əsgərləri ermənilərin pusqusuna düşdülər, qeyri-bərabər döyüşdə 33 nəfər həlak oldu, 36 nəfər yaralandı, 34 nəfər itkin düşdü. Yanvarın 28-də Ağdam-Şuşa marşrutu ilə uçan mülki vertolyot erməni terrorçuları tərəfindən vuruldu. Əsasən qadın və uşaqlardan ibarət olan 41 nəfər sərnişin və 3 nəfər ekipaj üzvü həlak oldu. Yanvarın 30-da Azərbaycan və Ermənistan eyni vaxtda ATƏM (ATƏT) üzvlüyünə qəbul edildilər [49].

Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl, Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis Ayrım kəndinin, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirildi. Yalnız bunu qeyd etmək kifayətdir ki, Xocalı soyqırımından bir neçə gün əvvəl – 1992-ci il fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalmışdı.

Xankəndidən 10 kilometr cənub-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında strateji məntəqədə yerləşən Dağlıq Qarabağın yeganə hava limanının yerləşdiyi Xocalı fevralın ikinci yarısından başlayaraq, Ermənistan hərbi birləşmələri tərəfindən tam mühasirəyə götürülmüşdü. Dinc sakinlərin dəstə halında və ya təklikdə mühasirədən çıxmaq üçün göstərdiyi bütün cəhdlərin qarşısı alınmışdı.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq, mühasirədəki Xocalı şəhərinin dinc əhalisinin üzərinə ağır hərbi texnika yeridib, onlara misli görünməmiş qəddarlıqla divan tutub, şəhər barbarcasına yerlə-yeksan edilib. Yalnız Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş dəhşətli cinayət əməli nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Nəticədə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Bundan başqa, 487 dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi naməlumdur.

Xocalı faciəsi dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda və Serebrenitsa kimi soyqırımları ilə bir sırada dayanır [37].

Milli Məclisin 1994-cü il 24 fevral tarixli qərarına əsasən 26 fevral Xocalı Soyqırımı Günü elan edilib.

Azərbaycan parlamenti 2017-ci il fevralın 24-də 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Respublikasının hərbi birləşmələri, Dağlıq Qarabağdakı erməni silahlı dəstələri və keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı tərəfindən Xocalı şəhərində azərbaycanlıların kütləvi qırğınının Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 24 fevral, 1995-ci il 24 fevral, 2007-ci il 27 fevral və 2012-ci il 24 fevral tarixli qərarları ilə soyqırımı (genosid) cinayəti kimi qiymətləndirilməsini bir daha təsdiq edib.

Azərbaycan Respublikasının hüquq mühafizə orqanları Xocalı şəhərində soyqırımı aktının törədilməsində iştirak etmiş şəxslərin müəyyən edilməsi və cinayət məsuliyyətinə cəlb olunması üçün Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Xocalıya ədalət” kampaniyası çərçivəsində görülən işlər ildən-ilə daha da genişlənirdi [107].

1992-ci il aprel ayının 8-də Erməni işğalçıları Kəlbəcərin Ağdaban kəndinə hücum edərək 67 nəfəri qətlə yetirmiş, 17 kənd sakinini diri-diri yandırmışdır [89].

Ballıqaya qətliamı – Ermənistan Silahlı Qüvvələrinin yaratdığı diversiya qrupunun 28 avqust 1992-ci il tarixdə dinc əhaliyə qarşı soyqırımıdır.

Belə ki, 1992-ci il may ayının 18-dən sonra Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən ərazisi işğal edilmiş Laçın rayonundan olan məcburi köçkünlər Abdullayev Abdulla, Hümbətov Vəzir, Məhərrəmov Kamil, Məhərrəmov Cəmil, Mehdiyev Binnət, Mehdiyev Hümbət, Mehdiyev Məhəmməd, Mehdiyev Rəhbərin ailələri Laçın rayonunun işğalından sonra Xanlar rayonunun (Göygöl rayonu) ərazisində, Murovdağın ətəklərində, Sarıqaya deyilən ərazidə doğma yurda – Laçına dönmək ümidi ilə müvəqqəti məskunlaşdılar [90].

Alməmmədov Şəmilin və Alməmmədov Səxavətin ailələri isə Xızı rayonunun Fındığan kəndində məcburi köçkün kimi məskunlaşdı.

1992-ci il avqust ayının son günlərində məcburi köçkünlük həyatı yaşayan, Azərbaycanın fərqli bölgələrində məskunlaşan, yaxın qohumluq münasibətləri olan bu ailələr məskunlaşdıqları ərazilərin heyvandarlıq üçün əlverişsiz olduğundan məsləhətləşmələr apardıqdan sonra heyvandarlıq üçün daha əlverişli şərait yaratmaq məqsədi ilə Goranboy rayonunun Ballıqaya kəndinin ərazisində yerləşən Gülüstan meşəsi adlanan ərazisində alaçıqda (çadırda) məskunlaşdılar.

28 avqust 1992-ci il tarixində səhər saat 5 radələrində Ermənistan Silahlı Qüvvələrinin yaratdığı diversiya qrupunun 10-12 nəfər üzvü tərəfindən alaçıqlar xüsusi amansızlıqla, iri çaplı silahlardan və qumbaraatanlardan atəşə tutuldu. Atəş nəticəsində, dinc sakinlərdən 24 nəfər şəhid oldu. 5 nəfər yaralandı, 4 nəfər yüngül xəsarət aldı, 3 nəfər xəsarət almış azyaşlı isə hər iki valideynini itirmişdi [90].

Qeyd etmək olar ki, 1992-ci il iyunda Əbülfəz Elçibəy Azərbaycan prezidenti seçildi. İyunun 12-də Azərbaycan ordusu

cəbhədə hücuma keçdi. Hücum nəticəsində azərbaycanlılar tezliklə Şaumyan rayonunu, iyulun 4-də isə Ağdərəni ələ keçirdilər. Sentyabr ayının 1-də Azərbaycan ordusu Sırxavənd kəndini işğaldan azad etdi, bu zaman artıq Dağlıq Qarabağın ərazisinin yarısı Azərbaycan ordusunun nəzarəti altında idi. Bundan sonra Rusiya ermənilərə etdiyi yardımların həcmini artırmağa başladı, oktyabrın 24-də isə ABŞ Konqresi Azərbaycana dövlət yardımını qadağan edən 907-ci düzəlişi qəbul etdi. Böyük dövlətlərin Ermənistana verdiyi dəstək tezliklə öz bəhrəsini verdi [89].

Birinci Qarabağ müharibəsi dövründə ermənilər Goranboy rayonunun həm Tapqaraqoyunlu kəndi, həm də Ağcakənd istiqamətindən tez-tez sərhədi pozurdular. Rayon sakinləri, xüsusilə də ermənilərə yaxın ərazilərdə yaşayan kəndlərin sakinləri mübarizəyə başlamışdılar. Kəndlərin gəncləri könüllü dəstələr yaradır, pul, əhali toplayır, silah-sursat alır, top alır, köhnə istifadəsiz tankları yararlı hala gətirir, döyüşlərdə istifadə edirdilər.

## SƏLAHƏDDİN MƏLİK OĞLU QULİYEV



Birinci Qarabağ müharibəsi illərində əslən Səfikürd kənd sakini, Bakı qəzetində müxbir işləyən Səlahəddin Quliyev də qələmini süngüyə çevirmişdi. O müxtəlif döyüş bölgələrinə gedir, döyüşən əsgərlər barədə, cəbhədəki vəziyyətlə əlaqədar yazılar hazırlayır, könüllü döyüşçülərin qəhrəmanlığını vəsf edirdi. Səlahəddin Quliyev fotoreportyor və nümayəndələrlə at belində ön cəbhələrdə olurdu. 1992-ci ildə tez-tez Tərtərdə, Mərguşavanda (Ağdərə), Suqovuşanda (Madagiz), Dranbonda, Vadavazda, Ağdamda, Lüləsaz kəndində, Murovdağda ön cəbhədə döyüşən ordu ilə bərabər olurdu.

Quliyev Səlahəddin Məlik oğlu Goranboy rayonunun Səfikürd kəndində 13 iyun 1958-ci ildə ziyalı ailəsində anadan olmuşdur. 1965-1966-cı tədris ilində Tatarlı kənd səkkizillik məktəbində 1-ci sinfə daxil olmuş, 1975-ci ildə Goranboy rayonu 2 №-li şəhər orta məktəbini, 1969-1974-cü illərdə Goranboy şəhərində 1 №-li musiqi məktəbinin tar şöbəsini bitirmişdir. 1975-1976-cı illərdə kolxozda işləmiş, 1976-cı ildə ordu sıralarında qulluq etmişdir. 1978-1980-ci illərdə Səfikürd kəndində kolxozda işləmişdir. 1980-1985-ci illərdə Bakı Slavyan Universitetində və M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda təhsil almışdır. Təhsil illə-

rində Bakı və Baku axşam qəzetlərində ədəbi işçi, institutu bitirdikdən sonra təyinatla həmin qəzetdə müxbir işləmişdir. 1989-1991-ci illərdə Respublika Teatr Cəmiyyətində, 1991-1993-cü illərdə Azərittifaqda işləmişdir. 1993-2004-cü illərdə Azərbaycan Respublikası Prezidentinin Mətbuat xidmətinə rəhbərlik etmişdir [5, s.16].

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 2017-ci ildə "Azərbaycanın Əməkdar jurnalisti" fəxri adına layiq görülmüşdür.

2004-cü il sentyabrın 09-dan – 2022-ci ilədək "Respublika" qəzetində redaktor müavini işləmişdir.

Səlahəddin Quliyev "Məni sənsizliyə öyrətmə gülüm", Bakı, Maarif nəşriyyatı, 2009; "Qədr gecəsinin mələyi", Bakı, Elgün-no mətbəəsi, 2018 adlı şeir kitablarının, çoxlu sayda hekayə, məqalələrin müəllifidir. Şeirlərinə mahnılar yazılmışdır.

Səlahəddin Quliyev XII əsrdə yaşamış Yunis İmrənin sözlərini tez-tez xatırlayırdı:

*Biz dünyadan gedər olduq,*
*Qalanlara salam olsun,*
*Bizim üçün xeyir-dua*
*Qalanlara salam olsun!*

Birinci Qarabağ müharibəsində jurnalist Səlahəddin Quliyevin müharibədə iştirak edən könüllülər və şəhidləri vəsf edən yazıları çoxdur. Onlardan "Ana" müstəqil qadın qəzetində 1993-cü ilin 21 aprelində çap olunmuş "Yaddaşlara köçdü vəzir" adlı məqaləsini təqdim edirik.

# VƏZİR SURXAY OĞLU ORUCOV



Bir ana naləsi ərşə bülənd olmuşdu. Bacı fəryadları aləmə ün salmışdı. Qulağım eşitdiyinə, gözlərim gördüyünə inanmırdı. Elə indi də inanmıram. O, ölümdən çox güclüdür. Yenə adı yağıları lərzəyə salır. Onu düşmən vura bilməzdi... Vəziri tanıyıb-bilənlərin hamısı bu fikirdədir.

Mart ayının 20-də yazıçı Xalidə Hasilova, Tənzilə xanım Cabbarova, Əntiqə xanım, Cəmil və Mahirlə Tərtərə getmişdik. Əsgərlərə qəlbimizdən geçən Novruz sovqatı da aparmışdıq. Tərtərdə qanqaraçılıq idi. Kasapeddən atılan mərmilər Nəcməddinbəyli kəndinin yaxınlığında partlayır, Ağdərə ətrafında Qlobus deyilən strateji cəhətdən ən mühüm əhəmiyyətə malik yüksəklik uğurunda ölüm-dirim mübarizəsi gedirdi. Düşmən mövqelərimizin zəif həlqələrindən yarıb irəli keçməyə cəhd göstərirdi. Təzyiqin qarşısının alınması mümkün olmayan bölgələrə Vəzirin dəstəsi göndərilirdi. Cəbhə xəttinə gedib-gələnlərdən Vəziri soraqlayırdım. Kimi onu Canyataqda, kimi Papravənd ətrafında, kimi Ağdərədə gördüyünü söyləyirdi. Nəhayət, axşam saat 10-da döyüş yoldaşı Ətraf Əliyev Vəzirin Tərtərdə olduğunu bildirdi. Onu da dedi ki, oğlu Camalın bu gün, yəni mart ayının 20-də yeddi yaşı tamam olur. İmkanı əldən verməyib tərtərli dostum Yaşar İbrahimovla Vəzirin valideynləri yaşayan Xoruzlu kəndinə yollandıq. Hal-əhval tutduq. O, illərin yorğunu kimi görünürdü. Üzə

vurmasa da yaralarının incitdiyi də açıq-aydın hiss olunurdu. Ötüb-keçənlərdən, cəbhədəki vəziyyətdən xeyli danışdıq. Gecə saat 4-də əməliyyata yollanacağını söylədi. Yazı-pozu ilə bağlı oturub ətraflı, arxayın söhbət etmək istədiyimi bildirdim. Ayrılanda səhər döyüşdən qayıdandan sonra hökmən yanıma gələcəyini vəd etdi. Səhərisi çox gözlədim. Ondan səs-soraq çıxmadı. Döyüş dostlarından dönə-dönə soruşdum. Hələ mövqedən qayıtmayıb dedilər. Naəlac Bakıya yollandıq.

Ertəsi gün qara xəbər qara külək kimi bizi haqladı. Vəzirlə təkrar görüşmək qismətim olmadı. Şəhidlər Xiyabanında üzərinə Orucov Vəzir Surxay oğlu yazılmış bir lövhə də dikəldi. Ömrünün davamı yaddaşlara köçdü onun. Vəziri son mənzilə yola salanda dinməz söyləməz atası Surxay kişi, anası Mahı xala ilə gedirdik. Fikrimdə Vəzirlə son görüşüm, bir də Mahı ananın qışda dediyi sözlər dolanırdı: "Bala, qadan alım, Vəzir də, kiçik oğlum Əlyar da yaralıdır. Neynəmək olar. Oğlanlarımı xalq, torpaq təəssübü çəkmək, qorumaq üçün böyütmüşəm. Vuruşanlardan əskik deyil ki, balalarım. Onlara nə şöhrət, nə də ad-san lazımdır. Amma istəyirəm oğluma layiq olduğu adı versinlər".

Bir də beynimdə qeyri-iradi bir fikir dolandı ki, taleyə, qismətə bir bax: Vəzir hərbi xidməti, təhsilini başa vurduqdan sonra uzaq Arxangelsk vilayətində yaşayıb-işləyirdi. İndi haqq dünyasında məkanı da doğma el-obasından uzaqda – Bakıda qərarlaşdı.

V.Orucovun keçdiyi döyüş yolu, rəşadət və qəhrəmanlığı barədə geniş yazı üzərində işləyirəm. O, döyüş meydanına ilk dəfə 1992-ci il aprelin 19-da atılmışdı. Bu gün onun döyüş salnaməsinin bir ili tamam olacaqdı!

Vəzirə ölümündən sonra Milli Qəhrəman adı verildi. O, bu ada layiq olduğunu dəfələrlə təsdiq etmişdi. Tərtər rayon rəhbərliyi Vəzirin ailəsinə, valideynlərinə layiqincə himayədarlıq edir. Sağ olsunlar. Ümidvar olduğumuzu bildirmək istərdik ki, Vəzirin anadan olduğu kəndə tezliklə onun adı veriləcəkdir.

Qısa ömrü, döyüş yolu örnək oldu nəsillərə... Qorxmazlığı, qoçaqlığı dastan olub yaşayacaq. Şəhid ruhu parçalayıb-dağıdacaq zülmətləri. Hifz edəcək qadalardan, bəlalardan gələcəyi. Yazda laləlnəcək payızda ruhu Vəzirin.

Həmin illərdə Azərittifaqın Eksperimental İstehsal Sənaye Müəssisələri Birliyinin baş direktoru Mahir Cabbarov igid döyüşçü Vəzir Orucovun oğlu Camalı himayəyə götürmüş, həddi-buluğa çatanadək onun adına açdığı əmanət kitabçasına hər ay minimum əmək haqqı məbləğində vəsait köçürməyi qərara almışdır [6].

Güllər gözəl açır, amma çox yaşamır. Həyat, səhər dumanı kimidir, bir müddət görünür, sonra yox olur. Amma gül yenidən çiçək açır, insan ömrü isə bir gün həmişəlik solur.

Ölüm – bu acı həqiqətdir, bəs sonra nə olur? Amal uğrunda ölənlər isə güllərdən fərqli olaraq vətən övladlarının qəlbində yaşamağa davam edir.

## NİYAZİ ŞƏRƏFXAN OĞLU ASLANOV



Azərbaycanın Milli Qəhrəmanı Aslanov Niyazi Şərəfxan oğlu 1961-ci ildə anadan olmuşdur. Tapqaraqoyunlu kənd orta məktəbini bitirib. Ağdam Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş, hərbi xidməti keçmiş SSRİ-nin Altay bölgəsində keçirmişdi. Niyazi hərbi xidməti başa vurduqdan sonra təhsilini davam

etdirərək aqronomluq sənətinə yiyələnmişdir. O, Tapqaraqoyunluda aqronom, baş aqronom vəzifəsində çalışmışdır.

Evli idi, iki oğlu yadigar qalıb. Ona ölümündən sonra 1993-cü il fevralın 5-də Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir. Tapqaraqoyunlu kənd orta məktəbi Niyazi Aslanovun adını daşıyır. Naftalan şəhərində küçələrdən birinə onun adı verilmişdir.

Rüstəmov Zaməddin İdris oğlu 1955-ci ildə anadan muşdur. Tapqaraqoyunlu kənd orta məktəbini bitirib. Dəliməmmədli texniki peşə məktəbinə daxil olmuş, çilingərlik peşəsinə yiyələnmişdir. O, hərbi xidmətə getmiş, qayıtdıqdan sonra sovxozda sürücü vəzifəsində çalışmışdır.

Evli idi. Bir uşağı yadigar qalıb. Qaşaltı kənd orta məktəbi Rüstəmov Zaməddinin adını daşıyır.

Rüstəmov Fəxrəddin İdris oğlu 1958-ci ildə anadan olmuşdur. Əsgəri xidməti başa vurduqdan sonra Tapqaraqoyunlu kənd orta məktəbində mexanizatorluq üzrə təlimatçı müəllim işləyirdi.

Evli idi. Övladı yoxdur. Tap-rus kənd orta məktəbinə onun adı verilmişdir [21, s.40].

## RAQİF NAZAR OĞLU HƏSƏNOV



Goranboy rayonunun Səfikürd kəndində vətənin qeyrəti naminə şəhidlik zirvəsini fəth edənlər ölümü Azərbaycanın dilbər

guşəsi olan Qarabağın düşmən tapdağına çevrilməsindən üstün tutmuşdular.

**Vətənin yolunda keçdim canımdan,**
**Qarabağda gül bitəcək qanımdan.**

Bu misralar isə 1971-ci ildə sadə kəndli ailəsində dünyaya göz açan Raqif Həsənovundur. Riyaziyyatı, kimyanı çox sevirdi. Raqif ara-bir şeir də yazırdı Azərbaycan milli ordusu sıralarına getməzdən əvvəl orta məktəb yoldaşları ilə birlikdə qədim tarixi keçmişdən xəbər gətirən çinar ağaclarına doyunca baxmış, sərin kəhriz suyundan içmişdi. Bu kəhriz suyu tək saf olan Raqif neçə-neçə döyüşdə iştirak etdi. 29 oktyabr 1992-ci il. Bu gün Raqif Həsənovun ömrünün son günü oldu. Füzuli rayonunun Qacar kəndi uğrunda gedən döyüşlərdə əbədiyyətə qovuşdu.

Onun son sözü bu oldu:

**Döyüşdə düşmənlə üz-üzə durdum,**
**Ölüm qoxuyurdu hər bir anımdan,**
**Qarabağda gül bitəcək qanımdan.**

Atası Nazar Həsənov onun yoxluğuna dözmədi. Anası Nuhanə Həsənovanın hər gün, hər an bircə arzusu var idi. Müharibə qurtarsın. Onlar Raqifin vəsiyyətini yerinə yetirsinlər. Onun şəhid qanı ilə suvarılan vətən torpağından bir dəstə təzə-tər çiçək dərib, qəbrinin üstünə qoysunlar və desinlər ki, rahat yat, can bala [21, s.44].

## RƏFAİL ƏVƏZ OĞLU ƏSƏDOV



İgid o şəxsdir ki, el-obası çətinə düşəndə sinəsini qabağa verə, “Doğma Vətən, mənim kimi övladların var, nigaran olma” – deyə. Bəli, polkovnik-leytenant Rəfail Əvəz oğlu Əsədov da anası Azərbaycana sinəsini sipər edən ölməz oğullarımızdan idi. Şəhidlər Xiyabanında onun vüqarlı baxışları ilə rastlaşan hər kəsin qulaqlarında narahat ananın həzin zümzüməsi kimi bir el bayatısı səslənir:

**Yel əsdi yurdun üstə,**
**Yad gəldi dəstə-dəstə**
**Toz düşdü qurdun üstə**
**Yurd üçün boş qayanı**
**Sən bizim eldən istə.**

Yadımdadır mərhum atası Əvəz kişi Rəfailin həyat yolu haqqında danışır, danışdıqca kövrəlirdi. Onun diplomlarını, mükafatlarını, şəkillərini, fəxri fərmanlarını birər-birər göstərdi. İki qız balası, Leyla və Anna ilə bizi tanış etdi. Onun yadigarlarıdır, – dedi. Rəfailin uşaqlıq illərini xatırladı. Bildirdi ki, 1952-ci il oktyabrın 27-də Gəncə şəhərində anadan olmuşdu.

Uşaqlıqdan çox istiqanlı idi. Hərbiçi olmaq arzusu ilə yaşayırdı. Tbilisi Ali Artilleriya məktəbini, M.Kalinin adına Leninqrad Hərbi Artilleriya Akademiyasını bitirmişdi. Ali təhsilli zabit

kimi Macarıstanda, Vyetnamda, Əfqanıstanda, Uzaq Şərqdə qulluq etmişdi. 34 yaşında polkovnik rütbəsinə yüksəlmişdi. Son vaxtlar Vladivostokda MDB qoşunları tərkibində qulluq edirdi. Lakin torpaqlarımız düşmən tapdağına çevrildikdə dözə bilmədi. Qarabağa gəldi. Bu hərəkətinə cavab olaraq rütbəsini bir pillə aşağı saldılar. R.Əsədovu korpus komandirinin artilleriya üzrə müavini təyin etdilər. O, korpusda çox iş gördü. Yeni divizionlar, topçu bölmələri yaratdı.

Əvvəllər Qazaxda diviziya komandiri işləmiş Muradov Rasim polkovnik Rəfail Əsədov haqqında xatirələrində qeyd edir ki, mən Rəfailin yanında işləyirdim. Minskdə siyasi-hərbi təhsil almışdım. Amma artilleriya həvəsini məndə Rəfail yaratmışdı. O mənə "kiçik qardaşım" deyərdi. Həmişə deyərdi ki, hazırkı şəraitdə adam o yolu seçməlidir ki, orada lazımdır. Rəfail Əsədov olan nə varsa onunla kifayətlənmirdi. Yenilik onun ən sevimli məşğuliyyəti idi. Hər hansı kənddə bir iş görmək istəyərkən, həmin kəndin yaşlı sakinləri ilə görüşər, onlarla bərabər kənddə mövqeləri, sahələri gəzər, hər şeyi ölçüb-biçəndən sonra, müəyyən sahədə mövqe seçərdi.

Rəfail hərb işi ilə ürəkdən maraqlananları seçər, onlarla bütün gecəni işləyər artilleriyanı, topçuluq sənətini öyrədərdi. Rəfail toplarda yenilik etməyi, sərrast atmağı döyüşçülərə öyrədərdi. Gecələr əsgərlərlə bərabər topların yanında keşik çəkərdi. Deyərdi ki, komandir həmişə sayıq olmalıdır ki, döyüşdə qalib gəlsin. O hər kəsdən özünəməxsus iş tələb edərdi. Həmişə fikirli olardı. Hücumdan əvvəl döyüşün sxemini çəkərdi. Özü də mərhələlərlə. Artilleriya ilə dəf etmək lazımdır, piyada ilə və s. Döyüşün qızğın çağında özü döyüş meydanında, topun arxasında olardı. Artilleriya döyüşünü ancaq Rəfail aparardı. Polk komandirlərinə tapşırıqlar verirdi, sonra yoxlayırdı. O, həmişə təlim keçirdi. Bilirdi ki, döyüşdə özü ancaq bir mövqedə duracaq, ona görə də öyrədirdi. Döyüşdən əvvəl cavabdeh adamların hamısını yığar, məsləhətlər verərdi. Ştabı yerləşdirəndə həmişə mövqelərə fikir verərdi. Bir tərəf meşə, bir tərəf çay və s.

Gecələr bölgələrə gedər, kömək edərdi. Milli orduda xidmət edən könüllülərə düzgün atmağı öyrədirdi.

1991-ci ilin aprel-may aylarında Ağdamda gedən döyüşlərdə fəal iştirak etdi. Ağdamın Şelli, Əhmədabad, Xıdırlı və s. kəndlərində artilleriya döyüşlərini idarə etdi. Əsgəranla üzbəüz 17-ci postda şəxsən təlim keçdiyi topçularla bərabər özünün təkmilləşdirdiyi toplarla əsas hədəfləri müəyyən etdi. Onun hər döyüşdə yeni bir döyüş təcrübəsi üzə çıxırdı. Biz isə öyrənirdik. Goranboy rayonunda ermənilərə qarşı şiddətli döyüşlərdə Rəfail iştirak etdi. Rəfail artilleriya qrupu ilə Erkəc, Todan, Buzluq, Mənəşid kəndlərinin düşməndən təmizlənməsini təşkil etdi. Qolan dağı ətəyindəki döyüşlərdə Rəfail komandirə tapşırıqlar verdi. Artilleriya qurğusunu Mənəşid kəndi üzərində qurdu. Rabitə ilə o biri qruplarla əlaqə yaradırdı. Erkəc kəndinin qabağında müşahidə məntəqəsi qurmuşdu. Ümumiyyətlə, Ağcakəndin və digər yaşayış məntəqələrinin ermənilərdən təmizlənməsində onun böyük xidməti olmuşdu. Gədəbəy rayonunda, Başkənd əməliyyatında artilleriya döyüşünü ancaq Rəfail aparırdı. 3 topla 2 gün ərzində 300-dən artıq snaryad atdı. Əmr etdi ki, ordu Başkəndə girsin, mən onları müdafiə edəcəyəm. O özü sərrast atırdı. Sübut etdi ki, tək adam çox iş görə bilər. Onu yaxından tanıyanlardan biri, mayor Akif Sadıqov deyir:

Hərbiçilər arasında yaşca cavan, amma zahirən yaşlı görünən Rəfail əsl mütəxəssis idi... 1992-ci il avqustun əvvəllərində Gədəbəy bölgəsində vəziyyət gərginləşmişdi. Ayın 6-da Ermənistan silahlı qüvvələri Gədəbəy istiqamətində güclü hücuma keçdilər. Mutudərə kəndini toplardan, tanklardan atəşə tutdular. Yaşayış binaları işğalçılar tərəfindən dağıdıldı. R.Əsədov da daxil olmaqla bir neçə yüksək rütbəli zabitin iştirakı ilə döyüş planı hazırlandı. Məhz onun təklif etdiyi plan əsasında ordumuz avqustun 8-də sübh-çağı əks-hücuma keçdi. Polkovnik-leytenant R.Əsədov, kapitan M.Aşurov və kapitan Ə.Hacıbəyovun rəhbərliyi ilə gərgin döyüş bir neçə saat davam etdi. Sonra döyüş yenidən şiddətləndi. Bir neçə gün davam edən vuruşda yenə də R.Əsədovun

yüksək təcrübəsi və seçdiyi döyüş taktikası uğur qazandırdı. Məhz bu uğurlar əsgərlərimizin özlərinə olan inamını bir daha artırdı. Komandirlərin cəsarətli və düşünülmüş hərəkəti nəticəsində strateji əhəmiyyətli bir neçə yüksəklik geri alındı. O vaxt Başkənd də xilas edildi; Orconikidze və Krasnoselski istiqamətində düşmənin atəş nöqtələri susduruldu.

Polkovnik leytenant R.Əsədov həmişə deyərdi ki, Gədəbəy çox rayonumuzun qapısıdır, onu canımızın bahasına olsa belə qorumalıyıq...

Respublikamızın böyük bir sərhəd rayonunda artilleriya rəisi kimi bu igid zabitin xidmətləri çox olmuşdur. 1992-ci ilin iyul ayında Qızılhacılı istiqamətində hücuma keçən quldurlar artilleriya qurğularından açılan sərrast atəşlə məhv edildilər. Tovuz rayonunun Ağdam, Əlibəyli, Əsrik-Çırdaxan və s. kəndlərinin müdafiəsində də onun böyük əməyi olmuşdur. Rəfail Əsədov döyüş mövqeləri ilə daim əlaqə saxlayır, konkret şəraitə uyğun qərarlar qəbul edirdi. Torpaqlarımızın geri qaytarılması uğrunda döyüşlərdə yorğunluq nə olduğunu bilmirdi. Göstərdiyi qəhrəmanlıqlara görə fəxri fərmana və Əliağa Şıxlinski adına mükafata layiq görülmüşdü. Öz döyüşçülərini daim ruhlandırmağı bacaran komandir mükafatı onlar arasında bölmüşdü.

Doğma diyarını canından çox sevən Rəfail Əsədov elə həmin il sentyabrın 25-də faciəli surətdə həlak oldu. Vətən torpağı onun əbədi beşiyinə çevrildi.

Azərbaycan Respublikası prezidentinin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında Bakı şəhəri 1994-cü il 16 sentyabr fərmanı ilə Əsədov Rəfail “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görüldü.

R.Əsədov həm də gözəl insan, qayğıkeş ata idi. Onun uşaqlıq illərini göz önündə canlandıran, qayğısız uşaqlığını yenidən yaşayan Qarabağ müharibəsi veteranı Salman Quliyev uşaqlıq dostu olan Rəfaili (ona Rafiq də deyirdilər) döyüşçü Rafiq kimi tərənnüm edir:

**Açılıb solmağın, bir anlıq oldu,**
**Neçə min ürəyə həkk oldun, Rafiq**
**Düşmənin oymağı bir anlıq oldu,**
**Döyüş mövqeyində dik oldun, Rafiq.**

**Əzablı yolların səyyahı idin,**
**Sərhəd bölgəsinin sabahı idin,**
**Azəri topunun sən, şahı idin**
**Şınıx dağlarında pik oldun, Rafiq.**

**Ölüm səni tez tələsik apardı,**
**Qönçə kimi əcəl üzüb, qopardı**
**Mərmilərin yağını tez tapardı,**
**Elinə, xalqına pak oldun Rafiq.**

**İndi sənə bütün ellər ağlayır,**
**Axan sellər, əsən yellər ağlayır,**
**Ayrılığın sinəmizi dağlayıb.**
**Qəlbi gözəllikdə tək oldun, Rafiq.**

**Ölümün od vurub dostun Zahirə,**
**Sən tamah salmadın ləl-cəvahirə**
**Qoymadın yağılar torpağa girə,**
**Hiddətdə qəzəbdə bərk oldun, Rafiq**

[21, s. 41-48].

# ASƏF NURƏDDİN OĞLU ŞİRİNOV



Mənalı ömür insanı əbədi yaşadır. Qısa olsa belə, Asəf də çox az yaşadı. Dəyərli, şərəfli ömür yolu keçdi. Keşməkeşli həyat yolunda yeridi də, təntidi də, amma yıxılmadı. Başını dik tutdu, addımladı. Doğma Azərbaycanı, sevimli anasını, dünya işığına sevinclə baxan körpələri həyatından qat-qat üstün tutdu. Bu yolda ölümün gözünə dik baxdı, ölməzliyini hiss etdi...

... Asəf Şirinov 1970-ci ildə Goranboy rayonunun Səfikürd kəndində doğulub boya-başa çatmış, orada təhsil almışdı.

Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının kənd təsərrüfatının elektrikləşdirilməsi və avtomatlaşdırılması, fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdu. 1989-cu ildə hərbi qulluğa çağırılmış, iki il Almaniyada ordu sıralarında qulluq etmişdi. 1991-ci ildə qulluğunu başa vurmuş və rayonda həm montyor işləyir, həm də təhsilini davam etdirirdi. 1992-ci ilin 14 sentyabrında bir qrup gənclə Asəf hərbi qulluğa çağırıldı. Onun Ağdərədən başlanan qəhrəmanlıqlarla dolu döyüş yolu 1994-cü il aprelin 23-də faciəli surətdə qırıldı...

Goranboy rayonunun Tapqaraqoyunlu kəndi uğrunda gedən döyüşlərin birində atılan pulemyot mərmisi Asəfin təzə-təzə pöhrələnən cavan ömrünə, təzə-təzə pərvazlanan gözəl arzularına nöqtə qoydu.

İlk günlərdən “N” taborunun tərkibində Ağdərədə döyüşürdü. Bir neçə aydan sonra Asəfdən heç bir xəbər gəlmədi. Nəhayət, mart ayının axırlarında Asəfdən balaca bir kağız gəlir: “Sağ-salamatam. Laçında döyüşürəm”.

Onun sakitliyi, sadəliyi, bir də hədsiz sərtliyi vardı, – deyə döyüşçü dostu Feyruz İbrahimov xatırlayır, “Bir dəfə Goranboyun dağ kəndlərində gərgin döyüşlər gedirdi. Ağır savaşdan sonra əsgərlərimiz müvəqqəti geri çəkildilər. Düşmən qat-qat bizdən üstün idi. Buna baxmayaraq, ermənilərin arxasına keçib qüvvələrin hansı nöqtələrdə yerləşməsi haqqında məlumat toplamaq lazım idi. Asəf hava qaralanda düşmənin mövqeyinə getdi və bu sınaqdan üzüağ qayıtdı”.

Komandiri Samadil Bədəlovun yaddaşında başqa bir döyüş epizodu canlanır. 1993-cü ilin sonları idi. “Qaranlıq meşə” deyilən yerdə ermənilərin hərbi sursat anbarı yerləşirdi. Həmin yeri ələ keçirmək üçün plan hazırlandı. Tapşırıq olduqca çətin gedirdi. Bizi güclü atəşə tuturdular. Bu zaman zabitlərdən biri hamıya üz tutub dedi: – Düşmənin arxasına keçib həmlə etməliyik. Kim mənimlə gedir?

Asəf birinci dilləndi: – Mən!

Bir dəstə döyüşçümüz tapşırıq dalınca yollandı. Asəf orada da öz bacarığını göstərdi. Düşmənin xeyli hərbi sursatı ələ keçirildi... Zabit Alim Məmmədovun dedikləri:

– Asəf aprelin 23-də ön mövqeyə qayıtdı. Yoldaşları onun gəlişinə çox sevindilər. Qısa məsləhətləşmədən sonra qərar qəbul olundu. “Qaranlıq düşən kimi çayın kənarına yaxınlaşmaq, fermanın ətrafında mövqe tutmaq”. Elə də oldu. Asəfin başçılıq etdiyi dəstə gecə yola düşdü. Səhər tezdən düşmənin hücumu başlandı. Ermənilər atəş aça-aça irəliləyirdilər. Asəf bir qədər gözləməyi lazım bildi. Nəhayət, düşmən çaya çatan kimi Asəfin pulemyotu “dilləndi” – neçə-neçə erməni məhv edildi.

Axşamüstü ermənilər yenidən hücuma keçdilər. Bu dəfə erməni tankı Asəf olan mövqeni nişan aldı. Mərmi Asəf və Müşfiqin yanında partladı. Biz oraya çatanda artıq gec idi…

İndi Səfikürd kəndindəki Şəhidlər xiyabanında Asəflə Müşfiqin qəbirləri qoşa dayanıb. Allah onlara rəhmət eləsin. Vətən, torpaq yolunda həlak olan bu igidlərin döyüş yolu bütün gənclərimizə örnək olmalıdır.

Asəfin həmkəndlisi Salman Quliyev özü də müharibə başlayandan Azərbaycanın müxtəlif bölgələrində erməni daşnaklarına qarşı döyüşmüşdü. Sevimli müəllimləri Nurəddin müəllim və Pəri müəlliməyə Asəfin ölümü münasibəti ilə baş-sağlığı verməyə gələnlərdən biri də o idi. Lakin, Salman nə qədər cəhd göstərdisə danışsın, yenə də yaş onu boğdu. O, qorxmaz Asəfi belə yad edirdi:

**Düşmən Goranboya hücum edəndə**
**Hamıdan irəli atıldı Asəf**
**Analar, qocalar sinə didəndə**
**Tapda silahına çatıldı Asəf.**

**Döyüşdü yağıyla mərdi-mərdanə**
**Saldı arzusunu qarlı tufana**
**Çəkdi neçəsini qanlı divanə**
**Coşqun qəzəbiylə od oldu Asəf.**

**Alovlar selində şam tək yandı da**
**Durmadı geriyə bircə santı da**
**Ona namus oldu əhdi, andı da**
**Bütün qorxulara yad oldu Asəf.**

**Yağıya şaxıyan bir əfi oldu**
**Meydanda nə qorxaq, nə fəfi oldu**
**Səfikürd kəndinin şərəfi oldu**
**Tarixə əbədi ad oldu Asəf.**

**Susdurdu düşməni təmkin ağılla**
**Yaşayacaq ədəbi dastan, nağılla**
**Salman fəxr eləyir belə oğulla**
**Yurduma canıyla sədd oldu Asəf.**

[21, s. 48-50].

## SƏRXAN SURXAY OĞLU OCAQVERDİYEV



Hələ uşaqlıqdan nənəsi Tovuzdan eşitdiyi bir el bayatısını Sərxan çox sevirdi. Hərdən zümzümə ilə oxuyurdu da.

**Aşıq vətən yaxşıdır,**
**Köynək kətan yaxşıdır**
**Qürbət cənnət olsa da**
**Yenə vətən yaxşıdır**.

1967-ci ildə Goranboy rayonunun Səfikürd kəndində doğulub boya-başa çatmışdı. Atası Surxayın, anası Gülzarın bircə arzuları vardı: Oğullarının toyunda doyunca oynamaq. Müəllimlərinin sevimlisi idi. Xüsusən də tarixdən dərs deyən Məlik Quliyevin. Bəlkə ona görə ki, tarix dərslərində Sərxan Məlik müəllimin söylədiklərini, əsrlər boyu yadellilərə qarşı aparılan mübarizələrdə Azərbaycanın oğul və qızlarının qəhrəmanlıqlarından bəhs edən epizodları diqqətlə dinlərdi. “Ayaq üstə ölmək, dizi üstə yaşamaqdan yaxşıdır” – atalar sözünü xalqımızın qəhrəmanlıq salnamələrini Məlik müəllim şagirdlərə xatırlatdıqca Sərxan ayrı bir aləm dəymiş kimi xəyala dalardı. Sərxanın həyat yolu bir bənövşə tək qısa, amma yaşantılı oldu. Orta məktəbi bitirdi. Hərbi qulluğu

başa vurdu. 1990-cı ildə Gəncə maşınqayırma texnikumunu bitirib əmək fəaliyyətinə başladı. Erməni millətçilərinin doğma torpaqlarımızda törətdikləri vəhşiliklərə, Vətənin bütövlüyünün qorunması naminə qeyrətli oğullarımızın apardıqları ədalətli mübarizəyə qoşuldu. Goranboy rayonu könüllülərindən təşkil olunmuş tabora Səfikürd kəndinin digər gəncləri kimi o da tərəddüd etmədən üzv yazıldı. Dəfələrlə ən ağır döyüşlərdən uğurla çıxdı. Gülzar ana söhbətarası qeyd etdi ki, Xocalı soyqırımı hamı kimi onu da bərk sarsıtmışdı. Evdə olanda bütün gecəni yatmırdı, hey özözünə deyirdi: – "Yox, necə olursa-olsun qisas almaq lazımdır. Bu namussuzluq yerdə qalsa gərək başımıza ləçək bağlayaq".

5 may 1992-ci ildə isə... Talış kəndinin azad edilməsi uğrunda ağır döyüşlər gedirdi. İgidlərimiz düşmənlə mərdliklə vuruşur, eyni zamanda yaralıları, həlak olanları düşmən əlinə keçməsin deyə döyüş sahəsindən çıxarırdılar. Sərxan yaralı əsgərlərdən birinə kömək məqsədi ilə tutduğu mövqedən güllə yağışının altına atıldı yaralını qucaqladı və...

Cəbhə dostları Namiq Məmmədov, Dilman Ağakişiyev, Fazil Məmmədov, İsrail Şirinov, Vəlyəddin Məmmədov, Habil Məmmədov, Natiq Musayev, Hüseyn Həsənov, Nazim Rzayev Sərxanı çiyinləri üstə Səfikürdə – evlərinə gətirdilər. Bəli, Sərxan Vətən üçün yaşadı, müqəddəs məslək uğrunda həlak oldu. Son nəfəsinədək ürəyi yoldaşları ilə birgə döyündü, xalqı ilə birgə yaşadı. Həmişə narahat Sərxan yalnız müqəddəs ana torpağın qoynunda rahat ola bildi. Azərbaycan prezidentinin fərmanı ilə Sərxan Ocaqverdiyevə Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Təhsil aldığı Tatarlı orta məktəbi indi fəxrlə onun adını daşıyır [21, s.50-52].

# YUNİS ƏSGƏR OĞLU ƏLİYEV



Azərbaycanın Milli Qəhrəmanı Yunis Əsgər oğlu Əliyev 1958-ci il oktyabrın 09-da Goranboy rayonunun Qızılhacılı kəndində anadan olmuşdur. Dəliməmmədli 102 saylı orta texniki peşə məktəbini bitirdikdən sonra hərbi xidməti Tacikistanda başa vurmuşdur. Qızılhacılı kəndində, Tacikistanda, Goranboy kərpic zavodunda işləmişdir. Erməni fitnəkarlarının törətdikləri vəhşiliklərə dözməyən Yunis Əliyev Vətənin müdafiəsinə qoşulmuş (1992), torpaqlarımızın azad olunmasında mərdliklə vuruşmuşdur. Goranboy rayonu Tap Qaraqoyunlu kəndində "Yaltaxıl" adlanan əməliyyatda düşmənlə qeyri-bərabər döyüşdə 4 nəfər igid döyüş yoldaşı ilə birlikdə qəhrəmancasına həlak olmuşdur (05.05.1992). 43 gündən sonra, Talış kəndi ermənilərdən azad edildikdə onların cəsədləri tapılmış, doğma kəndlərində dəfn olunmuşdur (16.06.1992). İki övladı yadigar qalmışdır. Y.Ə.Əliyev 7 iyun 1992-ci ildə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Qızılhacılı kənd 3 saylı uşaq bağçasına onun adı verilmişdir [33, s.265].

# KAZIMAĞA MÖVSÜM OĞLU KƏRİMOV



Azərbaycanın Milli Qəhrəmanı, baş leytenant Kazımağa Mövsüm oğlu Kərimov 1950-ci il sentyabrın 01-də Qubadlı rayonunun Sarıyataq kəndində anadan olmuşdur. Qara İlyasov adına Qubadlı rayon orta məktəbini bitirdikdən sonra həmin rayonun "Avanqard" qəzetinin mətbəəsində yığıcı işləmişdir. 1970-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki – M.Ə.Rəsulzadə adına BDU) jurnalistika fakültəsinə daxil olmuş, oxuduğu vaxtda həm respublika, həm də rayon mətbuatında maraqlı yazılarla çıxış etmişdir. Universiteti bitirdikdən sonra "Azərbaycan məktəbi" jurnalında işləmiş, bir müddət keçdikdən sonra sevimli peşəsindən ayrılaraq Goranboy rayonunun Qızılhacılı kəndinə köçmüşdür. Goranboy Rayon Aqrar-Sənaye Birliyində hüquq məsləhətçisi işləmiş, Goranboy özünümüdafiə batalyonu yaranarkən ona ilk yazılanlardan olmuşdur (01.01.1991). I Goranboy özünümüdafiə batalyonunun yaranmasında, təşkilində xüsusi fəallıq göstərmiş, sonralar II Goranboy özünümüdafiə batalyonu yaranarkən batalyon komandirinin müavini təyin edilmişdir. Komandir müavini kimi Erkəc (19.02.1992), Mənəşli, Qaraçinar, Meşəli və rayon ərazisində keçirilən bir sıra əməliyyatların iştirakçısı olmuşdur. Axırıncı döyüşü Meşəli ərazisində olmuş, düşmən gülləsinə tuş gələrək ayağından yaralanmış (15.06.1992),

Bakıda hospitalda dünyasını dəyişmişdir (15.06.1992). Bakıda Şəhidlər Xiyabanında dəfn edilmişdir. Düşmən həmlələrini qəhrəmancasına dəf etdiyinə, döyüş zamanı mərdlik nümunəsi göstərərək yoldaşlarının həyatını xilas etdiyinə görə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir (23.06.1992). Qızılhacılı kənd mədəniyyət evi onun adını daşıyır (21.09.1993). Bir oğul övladı yadigar qalıb [33, s.266; 29, s.83-89; 2, s.45-69].

## YUNİS İSA OĞLU NƏCƏFOV



Azərbaycanın Milli Qəhrəmanı, baş leytenant Yunis İsa oğlu Nəcəfov 1967-ci il avqustun 31-də Kəlbəcər rayonunda anadan olmuşdur. Bakı Ali Komandirlər Məktəbini bitirdikdən sonra Ukraynada xidmət etmiş, Bakıya gəlmiş (1991), bölük komandiri təyin edilmişdir (1992). Ağdərə rayonundan başlayaraq Laçın dəhlizinə kimi döyüş yolu keçmiş, erməni qəsbkarlarına qarşı gedən döyüşlərin birində 1992-ci il avqustun 24-də şəhid olmuşdur. Goranboy rayon Qarqucaq kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik göstərdiyinə görə bölük komandiri, baş leytenant Y.İ.Nəcəfova 1992-ci il dekabrın 7-də "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Qarqucaq kənd orta məktəbi onun adını daşıyır (20.08.1995) [33, s.270].

# ƏNVƏR SƏYYAD OĞLU FƏRƏCOV



Azərbaycanın Milli Qəhrəmanı, polis mayoru Ənvər Səyyad oğlu Fərəcov 1952-ci il iyunun 28-də Goranboy rayonunun Sarov kəndində anadan olmuşdur. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki AKTA) mexanizasiya fakültəsini bitirmiş (1974), rayonun "Azərbaycan" kolxozunda baş mühəndis, Türkmənistan Respublikası Daxili İşlər orqanlarında sahə müvəkkili işləmişdir. Özbəkistan Milis Akademiyasını bitirdikdən sonra (1990) Azərbaycan DİN-nin sərəncamına göndərilmiş, Gəncə DİŞ rəisinin köməkçisi (1990-1991), Goranboy Rayon DİŞ-də Milis Bölməsinin rəisi işləmişdir. Goranboy Polis Şöbəsinin Todan Polis Bölməsinin rəisi kimi dəfələrlə döyüşlərdə iştirak etmiş, 18 avqust 1991-ci ildə yoldaşlarını mühasirədən çıxarmaq üçün qeyri-bərabər döyüşə girmiş və itkisiz mühasirəni yarmışdır (18.08.1991). Bu əməliyyata görə DİN tərəfindən mükafatlandırılmışdır. Goranboy rayonunun Erkəc, Mənəşli, Buzluq kəndlərinin müdafiəsi zamanı qeyri-bərabər döyüşdə həlak olmuşdur (11.09. 1991).

Polis mayoru (1991) Ə.S.Fərəcov ölümündən sonra 1992-ci il oktyabrın 8-də "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür [33, s.171-272].

# FİKRƏT ƏLİ OĞLU HACIYEV



Azərbaycanın Milli Qəhrəmanı Fikrət Əli oğlu Hacıyev 1964-cü il mayın 19-da Goranboy rayonunun Qızılhacılı kəndində anadan olmuşdur. Ufa şəhərində hərbi xidməti başa vurduqdan sonra Bakı Kooperativ Texnikumunu bitirmiş, Qızılhacılı kəndində işləmişdir. Xocalı soyqırımından sonra Goranboy özünümüdafiə batalyonuna yazılmış (01.12.1991), Şəfəq, Zeyvə, Qaraçinar və digər məntəqələrin erməni quldurlarından müdafiəsində iştirak etmişdir. Goranboy rayonu Tapqaraqoyunlu kəndində "Yaltaxıl" əməliyyatı zamanı şəhid olmuşdur (05.05.1992). Subay idi. Ölümündən sonra 1992-ci il iyunun 07-də "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Ballıqaya kənd orta məktəbi onun adını daşıyır [33, s.272-273].

## MƏHƏMMƏD ƏLƏSGƏR OĞLU HƏSƏNOV



Azərbaycanın Milli Qəhrəmanı, polkovnik-leytenant Məhəmməd Ələsgər oğlu Həsənov 1959-cu il avqustun 09-da Goranboy şəhərində anadan olmuşdur. Kiyev Radioelektronika Texnikumunu, M.F.Axundov adına Rus dili və Ədəbiyyatı Universitetini bitirmişdir. Kiyev şəhərində zavodda çalışmış, rayona döndükdən sonra isə Goranboy şəhər 3 saylı orta məktəbdə hərbi müəllim işləmişdir. Goranboy özünümüdafiə dəstələri yaranarkən ilk üzvlərdən olmuş, Goranboy özünümüdafiə batalyonunda rota komandiri, batalyon komandirinin müavini, I Goranboy özünümüdafiə batalyonunun komandiri işləmişdir. Sonra S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının hərbi kafedrasında müəllim işləmiş, Buzluq, Erməni Borisi, Yuxarı Ağcakənd, Aşağı Ağcakənd, Qaraçinar, Yenikənd, Qaxtut, Meşəli və s. kəndlərin ermənilərdən təmizlənməsində, "Goranboy" və "Ağdərə" əməliyyatlarının keçirilməsində iştirak etmiş, Todan, Mənəşli kəndi uğrunda gedən döyüşdə fəallıq göstərmişdir. Tarixdə "Goranboy əməliyyatı" adı ilə qalan əməliyyatın təşkilatçılarından olmuş, I Goranboy ərazi özünümüdafiə batalyonuna rəhbərlik etmişdir. Respublika Prezidentinin Fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir (23.06.1992) [33, s.272-273].

## MAŞALLAH BABAKİŞİ OĞLU ABDULLAYEV



Azərbaycanın Milli Qəhrəmanı, mayor Maşallah Abdullayev Babakişi oğlu 1950-ci il mayın 27-də Goranboy rayonunun Kəpənəkçi kəndində anadan olmuşdur. Bədən Tərbiyəsi Texnikumunu bitirmiş, Goranboy şəhər 1 saylı orta məktəbində müəllim işləmişdir (1975-1990). Goranboy torpağı ermənilərin təcavüzünə məruz qaldığı dövrdə, rayonun Zeyvə, Todan, Tapqaraqoyunlu kəndləri güclü atəşə tutulduğu zaman rayonun müdafiəsi üçün postlar və özünümüdafiə dəstələrinin yaradılmasının təməlini qoyanlardan biri olmuşdur.

Özünümüdafiə dəstələri birləşərək batalyon təşkil olunmuş, M.B.Abdullayev batalyona komandir (1989-1991), sonralar isə Müdafiə Nazirliyinin nəzdində briqada (Tərtər, Goranboy və Yevlax rayonlarını əhatə edən) komandirinin müavini vəzifəsinə təyin edilmişdir (1991 – avqust 1992). Goranboy əməliyyatının hazırlanıb həyata keçirilməsində xüsusi xidməti olmuş, Aşağı Ağcakənd, Yuxarı Ağcakənd, Manas, Qaraçinar, Meşəli və digər kəndlərin ermənilərdən təmizlənməsində, Ağdərə istiqamətində keçirilən əməliyyatlarda fəal iştirak etmişdir.

Respublika Ali Sovetinin deputatı olmuş, Goranboy RİH-nin başçısı işləmişdir (07.08.1992 -23.06.1993).

1992-ci il iyunun 23-də ona "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir [33, s.274].

# SALMAN MƏLİK OĞLU QULİYEV



Salman Məlik oğlu Quliyev 1951-ci il dekabrın 22-də Goranboy rayonunun Səfikürd kəndində anadan olmuşdu. Orta məktəbi bitirdikdən sonra D.Bünyadzadə adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu (indiki – AİU) (1972), Zaqafqaziya Komsomol Məktəbini (1981), M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin hüquq fakültəsini (1994) bitirmişdir. Goranboy rayon Dövlət Statistika Hesablama İdarəsində iqtisadçı (1972), baş iqtisadçı (1973-1976), Mingəçevir şəhər DİŞ-də xidmət üzrə baş inspektor (1976-1981), Gəncə DİŞ-də xidmət üzrə rəis müavini (1981-1984), Gəncə şəhərində baş sahə inspektoru (1984-1990), Gəncə DİŞ cinayət axtarış şöbəsində bölmə rəisi (1990-1992) işləmişdir [33, s.358].

Birinci Qarabağ müharibəsi dövründə əvvəl-əvvəl hücumların qarşısını almaq məqsədi ilə polis işçiləri təcavüzkar ermənilərə qarşı ön cəbhəyə göndərilirdi.

Qazax rayonunda davam edən erməni hücumları nəticəsində dinc əhali təcavüzə məruz qalırdı. Yuxarı Əskipara, Barxudarlı və Sofulu kəndlərində ermənilərə qarşı Azərbaycan polisləri vuruşurdu. Gəncə şəhər polis idarəsinin mayoru Salman Quliyev bu kəndlərin müdafiəsi zamanı döyüşlərdə iştirak edirdi. Barxudarlı

kəndi uğurundakı döyüşlərdə başından və ayağından yaralanmış, lakin o vuruşmağa davam etmişdi.

1991-ci il aprelin 30-da başlamış və mayın 4-də tamamlanmış Xanlar rayonunun indiki Göygöl rayonunun Çaykənd əməliyyatının gedişində də iştirak etmiş mayor Salman Quliyev düşmənə qarşı mərdliklə vuruşan polis işçilərini həmişə xatırlayardı.

Qeyd edirdi ki, Çaykənd kəndi erməni silahlı qüvvələri tərəfindən cinayətkar mərkəzə çevrilmişdi.

Salman Quliyev Ağdam rayonu ərazisində, Qarabağ bölgəsinin müxtəlif ərazilərində, Goranboyda gedən döyüşlərin iştirakçısı olmuşdur.

O, yaxın dostlarının, əməkdaşların köməklərindən də istifadə edərək öz vəsaiti hesabına silah, hərbi geyimlər, kaska, bronjilet, patron, güllə və s. rusların hərbi bazasından və gürcü dostlarından alıb, könüllü vuruşan Goranboy batalyonuna verirdi. Salman Birinci Qarabağ müharibəsinin iştirakçısı kimi, həm də Bakıda yaradılan Goranboy ziyalılarının Gəncə filialı ilə əlaqə saxlayırdı. O, Birinci Qarabağ müharibəsi dövründə əvvəldən axıradək iştirak etmiş, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçməyə hazır olmuşdu.

1994-cü ildən Tərtər rayonunda prokuror köməkçisi, 1997-ci ildən Bakı şəhəri istintaq idarəsində ağır cinayətlər üzrə müstəntiq, 1999-cu ildən Şəmkir rayonunda prokuror köməkçisi, 2000-ci ildən Şəmkir-Gədəbəy rayonlarında Dövlət İttihamı üzrə prokuror, 2007-ci ildən Gədəbəy rayonunda prokuror, 2010-cu ildən Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm və Tədris Mərkəzinin böyük prokuroru işləmiş, sonra təqaüdə çıxmışdı. 2023-cü il martın 19-da vəfat etmişdir [186].

# RASİM AĞA OĞLU ƏKBƏROV



Rasim Ağa oğlu Əkbərov 1957-ci ildə Goranboy (keçmiş Qasım İsmayılov) rayonunda anadan olmuşdur.

1990-cı ildə könüllü əsgər kimi Goranboy rayonunu erməni işğalçılarından qorumaq məqsədilə döyüşə yollanmış və 1992-ci ildə 157 saylı briqadanın komandiri vəzifəsinə qədər yüksəlmişdir. Rasim Əkbərov 1993-2000-ci illərdə Goranboy Rayonu İcra Hakimiyyətinin başçısı olan "Ağa dayı" kimi tanınan Ağa Əkbərovun oğludur.

1992-ci ilin iyul ayında Madagiz (Suqovuşan) uğrunda gedən döyüşlər R.Əkbərovun döyüşçüləri üçün ən ağır olmuşdu. Bu döyüşlərdə Əsgər Rzayev, Akif Əhmədov, Afiq Kərimov, Qənbər Məmmədov, Vaqif Əhmədov kimi igidlər düşmən gülləsinə tuş gəliblər. Hidayət Mirzəyev isə Goranboyda "didərgin Şəhid" kimi tanınır. Əslən Ermənistanın Vedi rayonunun Şidli kəndindən olan 50 yaşlı igid Sərsəng su anbarı uğrunda gedən döyüşlərdə 15 erməni yaraqlısını məhv edib, özü isə şəhid oldu. Təşnəsini şəhid qanı ilə söndürən lalə və qərənfillər də döyüşçü dostları kimi şəhidləri ağlayırdılar. Gülüstan torpağında şəhidlərin qanından güllər bitib [98].

## CEYHUN PAŞA OĞLU PAŞAYEV



Ceyhun Paşa oğlu Paşayev 1972-ci il mart ayının 12-də Goranboy şəhərində ziyalı ailəsində doğulub. Goranboy şəhər 1 №-li orta məktəbi bitirmişdir. 1989-cu ildə iki illik hərbi xidmətə getmişdi. Xidmətini başa vurduqdan sonra Gəncə şəhərindəki elektron sənayesi texnikumuna daxil olmuşdu. İkinci kursda oxuyurdu. 1993-cü il aprelin axırlarında könüllü olaraq cəbhəyə getmişdi. Doğma torpaqlarımızın müdafiəsində həvəslə dayanırdı. May ayının 11-də Gülüstanda tankın aşması nəticəsində Ceyhun həlak oldu. El yolunda canından keçmiş igid əsgəri Səfikürd kənd qəbiristanlığının Şəhidlər xiyabanında dəfn etdilər. Ceyhun Vətəni sevən, uğrunda canını qurban verməyə hazır olan gənc idi. Ceyhun Paşayev şəhidlik zirvəsinə yüksələndə ömrünün 21-ci baharını yaşayırdı. Gülüstanın azad edildiyi gün yarımçıq ömrünə nöqtə qoyuldu.

Anası Gülarə xanım tarix müəllimi idi. Hələ körpəlikdən Vətəni sevməyi, torpaq uğrunda ölməyi öyrətmişdi Ceyhuna. Bu dəhşətli hadisədən ana haray çəkib deyirdi:

**Əzizim, bala dərdi,**
**Dağdan ağır bala dərdi.**
**Kaş mənə dəyəydi,**

**O gülləni ki,**
**Sənin bağrını dəldi.**
**Dur bala məni qarşıla,**
**Partlayır ana ürəyim.** [19]

Goranboyun Gülüstan kəndinin azad olunması uğrunda şəhid olmuş Ceyhun və dostlarının qanları ilə bu torpaqlar gülüstana çevrildi [33, s.429].

Qarabağ müharibəsi dövründə qızğın döyüşlərin getdiyi ərazilərdən olan Goranboy rayonu xüsusilə fərqlənirdi. Bütün Goranboy əhalisi uşaqdan böyüyə ayağa qalxmışdı.

Könüllülər Rasim Əkbərovun, Məhəmməd Həsənovun, Maşallah Abdullayevin rəhbərlik etdikləri Goranboy özünümüdafiə batalyonunda cəmləşmişdilər.

Goranboy ziyalıları Bakıda tarix elmləri doktoru Vahid Çıraqzadənin rəhbərliyi ilə cəmiyyət yaratdılar. Həm döyüşçülərə, həm də yaralılara kömək etmək, lazımi əşyalar, dərmanlar çatdırmaq diqqət mərkəzində idi.

Birinci Qarabağ müharibəsində goranboylular 278 nəfər şəhid verdi. Onların 42 nəfəri itkin düşmüşdü. Birinci Qarabağ müharibəsində Goranboy rayonu Səfikürd kəndinin 3 nəfər könüllü döyüşçüsü – Böykkişiyev Kazım və Səfərov Habil Ağdərə, Məhərrəmov İlqar isə Kəlbəcər uğrunda gedən döyüşlərdə itkin düşüblər.

1 nəfər Aprel döyüşlərinin şəhidi idi. Vətən müharibəsində goranboylular 56 nəfər şəhid verdi. Onlardan 53 nəfəri hərbçi, 3 nəfəri mülki şəxs idi. Müharibədən sonra daha 2 nəfər şəhid oldu. Goranboy Qarabağ müharibəsində 337 nəfər şəhid verdi.

Şəhid olan mülki şəxslər: Abbasova Raziyə Qızılhacılı qəsəbə sakini; Quliyeva Tülyan Şahməmmədli kənd sakini, Ziyadova Flora – Tap kən sakini idi [Goranboy rayon İcra Hakimiyyətinin materialları].

## VÜQAR BİLMAN OĞLU SƏFƏROV



Vüqar Bilman oğlu Səfərov 1972-ci il fevral ayının 04-də Əli Bayramlı (indiki Şirvan) şəhərində anadan omuşdur. 9 saylı məktəbin 6-ci sinfini bitirdikdən sonra Bakı şəhəri Bakıxanov qəsəbəsində yerləşən idman təmayüllü orta məktəbə qəbul olunmuşdur. Vüqar Səfərov 1984-cü ildə Əli Bayramlı şəhərində "Spartak" Könüllü İdman Cəmiyyətində Azərbaycan Respublikasının əməkdar məşqçisi Araz Qurbanovun başçılığı altında sərbəst güləş bölməsində məşğul olmağa başlamışdır.

O, 1987-ci ildə Bakıda "Olimpiya Ehtiyat Məktəb"ində oxuyarkən, Azərbaycan Respublikasının əməkdar məşqçisi Oqtay Hüseynovun rəhbərliyi altında Respublika birinciliklərində və başqa yarışlarda uğurla çıxış etmiş, bir çox mükafatlar qazanmışdır. Olimpiya məktəbini bitirdikdən sonra Gürcüstan Respublikasında keçmiş SSRİ-nin ordu sıralarında xidmət etmişdir. Sovet İttifaqı dağıldıqdan sonra hərbi xidmətini başa vurmuşdur.

O, Qarabağda baş verən hadisələrə biganə qalmamış, xüsusilə Xocalı hadisəsi hər bir azərbaycanlı kimi onu da dərindən sarsıtmışdı. Elə həmin hadisədən sonra evdən xəbərsiz könüllü olaraq o vaxt yenicə yaranmaqda olan milli ordu sıralarına yazılmış, "N" saylı hərbi hissənin heyətində doyüşlərə qatılmışdır.

Cəhbə yoldaşları Vüqardan qorxmaz və cəsarətli döyüşçü kimi bəhs edirdilər. Cəbhə dostları bildirirdilər ki, o, verilən döyüş tapşırıqlarını peşəkarlıqla yerinə yetirir, dəfələrlə döyüş şəraitində mühasirəyə düşmüş və Vüqarın cəsarəti sayəsində mühasirə yarılmış, düşmənə sarsıdıcı zərbə vurulmuşdur.

Vüqar Səfərov 01 iyul 1993-cü ildə Laçın şəhərinin azadlığı uğrunda döyüş tapşırığını yerinə yetirərkən düşmənin açdığı snayper atəşi nəticəsində ağır yaralanmış və şəhid olmuşdur.

Şəhid olmasından bir ay sonra komadiri və döyüş yoldaşları Vüqarın qəbrini ziyarətə gəlmiş, Vətən torpağının azad olunması və Vüqarın qisasının alınması üçün and içmişdilər.

Vüqar Səfərov qısa və şərəfli ömür yolu keçmiş, şəhidlik zirvəsində əbədiyyətə qovuşmuşdur.

## NİZAMİ CAHANGİR OĞLU MEHDİYEV



Nizami Cahangir oğlu Mehdiyev 2 oktyabr 1958-ci ildə Daşkəsən rayonunda anadan olmuşdur. Gəncə şəhər 16 №-li məktəbdə orta məktəbi bitirmişdir.

1976-1978-ci illərdə ordu sıralarında qulluq etmişdir. 1980-ci ildə Gəncə şəhər Daxili İşlər orqanına işə qəbul olunmuşdur. 1985-ci ildə Mərdəkan Milis Məktəbini bitirmişdir.

Birinci Qarabağ müharibəsi veteranıdır. Polis işçisi kimi Qazax, Goranboy, Ağdam, Ağdərə və Kəlbəcər rayonları uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Son 10 ili Gəncə şəhər BPİ-nin Müvəqqəti Saxlama yerinin (MSY) rəisi vəzifəsində işləmiş, 02 oktyabr 2018-ci ildə yaş həddi ilə əlaqədar təqaüdə çıxmışdır [209].

## ÇİNGİZ FUAD OĞLU MUSTAFAYEV



Çingiz Fuad oğlu Mustafayev 1960-cı il avqustun 29-da Həştərxan vilayətinin Vladimirovski rayonunun Kapustin Yar kəndində Fuad Mustafayev və Naxış Mustafayevanın ailəsində anadan olub. 1964-cü ildə ailəsi ilə Bakı şəhərinə köçmüşdür. Atası onu hərbçi görmək istədiyindən Çingiz Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul olunmuşdu. O, burada 3-cü sinifdən 10-cu sinfə qədər təhsil aldı. Hərbi məktəbi tərk edib, müntəzəm orta məktəbə daxil olmuşdur. 1977-ci ildə Yasamal rayonunda 167 saylı məktəbi bitirmişdir. Özünü islahatçı-novator görən Ç.Mustafayev 1970-ci illərdə SSRİ-də və Azərbaycanda ilk disko-klubun yaradıcısı olmuşdur. O, Azərbaycanın ilk DJ-i kimi tanınır. 1981-ci ilin sentyabr ayında Mustafayevin başçılığı altında, 12 nəfərdən "light DJ" və "texnik"lərdən ibarət olan "3M" adlı

qrup yaratmışdır. Anası onu həkim görmək istədiyindən, Çingiz Mustafayev 1977-ci ildə Azərbaycan Tibb İnstitutuna daxil olmuş, 1983-cü ildə institutu müvəffəqiyyətlə bitirmişdi. Təhsilini başa vuran Ç.Mustafayev təyinatla Şabran rayonunda üç il həkim işləmişdir. Tibb İnstitutunu bitirdikdən sonra, o, İnşaat Mühəndisləri İnstitutunun yataqxanasına baş həkim təyin edilmişdi.

1983-cü ildə dünyada ilk dəfə olaraq Azərbaycan dilində "Dünənki keçdi" rep janrlı mahnını səsləndirib.

1990-cı illərdə Azərbaycan televiziyasında "Ekspromt", "Cümə axşamı" verilişlərinin, "Gənclik" estrada tamaşasının və "Ozan" rok qrupunun yaradıcısı olmuşdur.

1990-cı il 20 Yanvar hadisələri zamanı Çingiz Mustafayev klinikanı terapevt mərkəzi kimi istifadə edirdi. 1991-ci ilin noyabr ayından jurnalist və Azərbaycan Dövlət Televiziyasında reportyor kimi fəaliyyət göstərmişdir. Ancaq Azərbaycan miqyasında fəaliyyət göstərməklə kifayətlənmədi. Onun reportajları informasiya blokadasında olan Azərbaycan haqqında gerçəkliklərin Amerika və Avropanın aparıcı teleagentlikləri və televiziyalarına yol tapdı.

Ölkənin döyüş gedən bütün bölgələrindən operativ xəbərlər, ayrı-ayrı əsgərlər haqqında xüsusi reportajlar və bütün bunlarla yanaşı Azərbaycanda gedən siyasi proseslər barədə ətraflı informasiyalar onun müəllif yaradıcılığı idi.

Çingiz Mustafayev səkkiz ay ərzində Qarabağ müharibəsi haqqında 18 sənədli film çəkmişdir. Mustafayev döyüş zonalarına yalnız reportyor kimi yollanmırdı. O, cəbhədə bir əsgər, zabit və hətta komandan kimi çox vəzifəni öz üzərinə götürürdü. Laçından çıxan əsgərlərlə onun geri qayıtmaq bərədə verdiyi kəskin və qısa göstərişlər, bu əmrlərin yerinə yetirilmədiyi təqdirdə Çingizin emosional davranışı teletarixin dramatik səhifələri kimi yadda qalmışdır. Teletənqidçi Elşad Quliyev Çingiz Mustafayev haqqında demişdi:

Allahverdi Bağırovun Vitali Balasanyanla apardığı danışıqlar nəticəsində hərbi operator Seyidağa Mövsümlü və Çingiz Mustafayevin Xocalı hadisələrinin görüntülərini lentə alması mümkün olmuşdu.

Çingiz Mustafayev Azərbaycan tamaşaçısına hər bir reportajı ilə tanış olsa da, dünya onu daha çox Xocalıda çəkdiyi filmlə tanıdı. Çingiz Mustafayevin məhz bu filmi ilə Ermənistanın reputasiyası bütün dünyada ciddi sarsıntıya məruz qaldı. Çingiz Mustafayev isə həmin hadisəni Seyidağa Mövsümlüdən iki gün sonra fevralın 28-də lentə ala bilmişdi.

Çingiz Mustafayev 1992-ci il iyun ayının 15-də Əsgəran rayonunun Naxçıvanik kəndində çəkiliş zamanı aldığı mərmi qəlpəsindən həyatını itirmişdir. Qardaşı Vahid Mustafayevin sözlərinə görə, Çingiz "ABC News" üçün material hazırlayırdı və yaranan çətin vəziyyətə baxmayaraq həmin hücumu çəkdi. Minaatandan atəş zamanı Çingiz qəlpələrdən ağır yaralandı, onun sağ ayağının bud sümüyündən arterial damarı zədələndi və o, sürətli qan axmasından döyüş meydanında dünyasını dəyişdi. Lakin Çingiz Mustafayevin kamerası çəkməkdə davam edirdi.

Azərbaycanın Milli Qəhrəmanı azərbaycanlı jurnalist, dicey Çingiz Mustafayev 1992-ci ildə Bakıda Şəhidlər xiyabanında dəfn edilib.

1979-cu ildən 1983-cü ilə kimi aktyor Lütfəli Abdullayevin qızı Gülnarə Abdullayeva ilə nişanlı olub. Evli idi, Fuad adlı oğlu var.

ANS Şirkətlər Qrupunun prezidenti Vahid Mustafayev və televiziya prodüseri Seyfulla Mustafayevin qardaşıdır.

Bakıda yaşadığı binanın önündə barelyefi vurulub. Cəmşid Naxçıvanski adına hərbi liseydə büstü qoyulub. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Şüvəlandakı istirahət guşəsi, Bakı küçələrindən biri, ANS ÇM radiostansiyası, "Palmali" şirkətlər qrupuna məxsus tanker onun adını daşıyır.

2010-cu il avqustun 28-də ABŞ-nin CNN telekanalı Mustafayevin həyat və yaradıcılığına, onun lentə aldığı Xocalı faciəsinə dair reportajı yayımlayıb.

2011-ci il avqustun 31-də Almaniyada 3 min nüsxə ilə Mustafayevin təsviri olan poçt markası buraxılıb. 2013-cü ildə Şabranda onun vaxtilə işlədiyi və adını daşıyan parkın açılışı olmuşdur.

“Çingiz zirvəsi” kimi tanınan Şahdağda 4062 metr hündürlükdə yerləşən zirvə onun adını daşıyır və ilk dəfə 2000-ci ildə fəth olunub. Zirvədə onun adını daşıyan lövhə var.

1999-cu ildən Çingiz Mustafayev adına Fond fəaliyyət göstərir. Atası Fuad Mustafayev fondun prezidentidir. Fond “İlin adamı”, “Ən yaxşı jurnalist” mükafatları və “Vətənpərvər və hərbi mahnı müsabiqəsi”ni həyata keçirib. Fondun təşəbbüsü ilə Şəkidə “Çingiz Klubu” yaradılıb. Fond KİV işçilərinin təhsil almasına və “Çingiz Mustafayev” adına düşərgəyə yardım edib.

1996-cı ildə Dəyirmanın sayca 2-ci olan “Qurd” albomundan olan “Ya Qarabağ, Ya Ölüm” mahnısı Çingiz Mustafayevin Xocalı soyqırımı haqqında çəkdiyi filmlə remiks olunub.

2004-cü ildə repçi Hüseyn Dərya “Oyan bəxtim” albomundan olan “Çingiz Mustafayev” mahnısını jurnalistə həsr edib.

Azərbaycan Respublikası prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı fərmanı ilə Mustafayev Çingiz Fuad oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür [99].

## ALBERT AQARUNOVİÇ AQARUNOV



25 aprel 1969-cu ildə Bakı şəhərinin Əmircan qəsəbəsində anadan olmuşdur. Əslən dağ yəhudisi olan Aqarunov Albert Aqarunoviçin ailəsində doqquz qardaş, iki bacı olublar. Onlar Quba

rayonunun Qırmızı qəsəbəsindən idilər və Əmircana köçmüşdülər. Atası Aqarun neftçi, anası Lio "Qəhrəman ana" idi.

Albert uşaq yaşlarından musiqi ilə maraqlanmış, musiqi məktəbində nəfəs aləti turba sinfini bitirmişdi. Aqarunov Suraxanı rayonundakı 154 saylı orta məktəbin səkkizinci sinfini bitirmiş, 101 saylı texniki-peşə məktəbində sürücü-mexanik peşəsinə yiyələnmişdir. O, 1987-ci ildə SSRİ Ordu sıralarına çağırılmışdı. Gürcüstanın Axalkalaki rayonunda xidmətə başlayan Aqarunov starşina rütbəsi alaraq tank komandiri olmuşdur. 1989-cu ildə ordudan tərxis olunmuş, bir müddət Suraxanı Maşınqayırma zavodunda işləmişdir.

1992-ci ilin may ayında mühüm əhəmiyyəti olan Şuşa şəhəri ermənilərin əsas hədəfi idi. Artıq 7 mayda azərbaycanlı hərbçilərin çoxu Şuşanı tərk etmişdi. Erməni birləşmələri gecə Şuşaya hücum etməyə başladı. Aqarunov Şuşada qalan son azərbaycanlı hərbçilərdən idi. Şuşanın Şimal girəcəyinə gedən yolda Aqarunov erməni tank komandiri Qaik Avşaryanın tankını vurdu. O, qaça bildi, lakin sürücüsü və atıcısı həlak oldu.

Aqarunov daha sonra Şuşa-Laçın yoluna doğru irəliləmişdi. O, burada tankının sürücüsünə həlak olmuş azərbaycanlı əsgərlərin və mülki vətəndaşların cəsədlərinin üstündən keçməməyi tapşırmış və ona yol göstərmək üçün tankdan enmişdir. Bu zaman o erməni snayperinin atdığı atəş nəticəsində şəhid olmuşdur. Mayın 9-da səhər saatlarında boş qalan Şuşanı ermənilər işğal etmişdilər.

Kapitan Albert Aqarunov Bakıya gətirilmiş Şəhidlər xiyabanında dəfn olunmuşdur. Onun dəfnində molla və ravvin iştirak etmişdir.

Azərbaycanda Aqarunovun irsinə böyük hörmət və ehtiram göstərilir. Albertin döyüş meydanındakı tankı Azərbaycan Hərbi Tarixi Muzeyində yerləşir. Təhsil aldığı 154 saylı məktəb onun adını daşıyır. Məktəbin önündə onun büstü qoyulmuşdur.

2019-cu ildə Bakıda küçələrin birinə Albert Aqarunovun adı verilmiş, həmin küçədə onun heykəli qoyulmuşdur.

2010-cu ildə onun şərəfinə "Dostuma məktub" filmi çəkilmiş, 2017-ci ildə Səadət Şükürova Albert Aqarunov haqqında "Yaşadığım torpaq" sənədli filmini çəkmişdir.

Azərbaycan Prezidentinin 7 iyun 1992-ci il 833 saylı fərmanı ilə Albert Aqarunov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. O, 2014-cü ildə "Vətən övladı" ordeni, 2016-cı ildə isə "Həzi Aslanov" ordeni ilə təltif edilmişdir [95].

## ƏLİMƏRDAN ƏDALƏT OĞLU ƏLİYEV



Əlimərdan Ədalət oğlu Əliyev 1969-cu il fevralın 21-də Salyan rayonunun Pirataman Gəncəli kəndində anadan olmuşdu.

Əlimərdan səkkizillik məktəbi bitirib Əlibayramlı şəhər Yüngül Sənaye Texnikumuna daxil oldu. Sonra hərbi xidmətə yollandı. SSRİ Silahlı Qüvvələrində üç il gəmidə xidmət edib.

Əlimərdan ordudan qayıtdı. 1992-ci ildə hərbi polisə işə düzəldi. 1992-1993-cü illərdə hərbi polisdə işlədi. Azərbaycanın odalov içində alışıb yanmağı ona rahatlıq vermirdi. Bu elə bir dövr idi ki, əli silah tutan qeyrətli oğullar cəbhəyə gedirdilər.

Əlimərdanın Qoçu Əlif adı ilə məşhur olan ana babası 1918-ci ildə erməni-müsəlman davasında qəhrəmancasına həlak olmuşdu.

XX əsrin qırğınları isə Vətən torpağının bütövlüyü, bölünməzliyi uğrunda gedirdi.

Atası Ədalət kişi, anası Afər xala Əlimərdanı bu ruhda böyütmüşdülər. Ata babası Süleyman kişi də Böyük Vətən müharibəsi iştirakçısı olmuşdu.

Əlimərdan hərbi polis kimi könüllü olaraq Biləcəri Toplanış məntəqəsindən cəbhəyə yollandı. O, burada Fazil adlı oğlanla tanış olmuşdu. Gəncə şəhərində hərbi təlimlər keçdilər. Sonra Ağdam rayonunun Güllücə kəndinə gəldilər. Bakının Sabunçu rayonundan təşkil olunmuş könüllü müdafiə taboruna qatıldılar. Artıq Güllücə kəndi uğrunda qanlı döyüşlər gedirdi. Bir neçə gündən sonra Əlimərdan 25 nəfərlik dəstə ilə Ağdərənin Mehmanə kəndinə getdilər.

Əlimərdan hələ hərbidə olarkən serjant rütbəsi almışdı. Komadirlik qabiliyyəti də vardı. Nəhayət onları da kiçik qruplara bölüb səngərlərə yerləşdirdilər. Əlimərdan, Neftçaladan Fazil, Mahir, Xilqət, Mingəçevirdən Çingiz, Qusardan İdris, Balakəndən Fərmail, Kamil bir bölgüyə düşdülər. 1992-ci ilin axırları idi. Azərbaycan ordusu erməni qəsbkarları ilə inadlı müdafiə döyüşləri aparırdı. Əlimərdanın daxil olduğu bölüyə düşmənin sığındığı kiçik təpəliyə həmlə etmək tapşırılmışdı. Tağım komandiri baş leytenant İlqar Məmmədov Əlimərdanı yanına çağırdı, bildirdi ki, düşmən hücuma hazırlaşır. Onların planını pozmaq üçün, uşaqlardan dörd nəfəri götürüb kəşfiyyata gedin.

Artıq Əlimərdan Mingəçevirli qumbaraatan Rövşən, döyüşçü Rizvan, Həmid, İdris həmləyə hazırlaşırdılar. Onlar səhərə qədər düşmənlə vuruşurdular, hücum əməliyyatlarını pozdular. Ermənilər xeyli itki verdilər. Ölənlər və yaralananlar var idi. Həmçinin ermənilərin səhərki hücum planı pozuldu.

Kəşfiyyat tağımının komandiri, baş leytenant İlqar Məmmədov, Əlimərdan da daxil olmaqla 5 nəfəri özü ilə kəşfiyyata aparmalı idi. Belə də oldu.

Onlar gecənin yarısında düşmənin səngərinə yaxınlaşırdılar. Gördülər ki, ermənilər hücuma hazırlaşırlar. Səhərə yaxın tam

hazırlıq gedirdi. Əlimərdan pulemyotla ermənilərə itki verdi. Ermənilər sağdan da, qarşı tərəfdən də ona yaxınlaşdılar. O, isə düşmənləri məhv edərək xilas ola bildi.

1993-cü ilin qışı idi. Əlimərdan, yoldaşları ilə yenidən kəşfiyyata göndərildilər. 2 gündən sonra kəşfiyyatdan qayıtdılar. Düşmən haqqında lazımi tədbirləri təqdim etdilər.

Bir neçə saat sonra döyüş başladı. Düşmən tankları göründü. Əlimərdan səngərdən çıxıb qumbaranı tankın üstünə atdı. Tank alışdı. Ermənilər tankdan düşdülər. O biri tankı Xilqət vurdu. Rövşən isə ürəyinə dəyən güllə yarasından çökdü. Qızğın döyüş gedirdi. Onlar ermənilərin qarşısını aldılar.

Kəşfiyyatçı kimi fəaliyyət göstərən Əlimərdan Əliyev dəfələrlə əsgər yoldaşları ilə kəşfiyyatda olmuş, vacib xəbərləri gətirmişdilər. Əlimərdan Qarabağ uğrunda canından keçməyə hazır idi. Radiodan eşitdiyi misralar yadından çıxmırdı...

**Qırılan qolları, donan qıçları,**
**Kəsilən başları kim qaytaracaq?**
**Ana gözlərindən bala köksünə,**
**Tökülən yaşları kim qaytaracaq?** [3]

1993-cü ilin fevral ayı idi. Ermənilərin Ağdərə ətrafında daha sıx birləşməsi, bu istiqamətdə qızğın döyüşlərdən xəbər verirdi.

Ermənilərin arasında muzdurlar, bir də xarici dövlətlərin snayper qızları var idi. Onlarda snayperçilər daha çox idi. Əməliyyat başladı. Əlimərdan öndə vuruşurdu, onlarla ermənini məhv etmişdi. Bu döyüş onun həyatı bahasına başa gəldi.

Əlimərdanın qardaşı Süleyman Əliyev bildirdi ki, döyüş yoldaşlarının dediklərinə görə Əlimərdan Əliyev Ağdam, Füzuli, Cəbrayıl, Ağdərə də qulluq etmişdi. O, torpağını, elini-obasını, xalqını, dostluğu yüksək qiymətləndirirdi. 1993-cü il fevralın 7-8-9-10-11-12 və 13-də Mehmanə uğrunda gərgin döyüşlər gedirdi. Əlimərdan inadla döyüşürdü. Döyüşdə dostu Xilqət yarala-

nır. Əlimərdan mövqeyini dəyişməli idi. Lakin Xilqəti tək qoymur. Şəxsi silahı ilə 10 nəfər ermənini məhv edir, sonra pulemyotla atmağa başlayır. İki saat sonra o əbədi susur...

Əlimərdan Əliyev Ağdərənin Mehmanə yüksəkliyi uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə adı ilə bağlı "Əlimərdan döyüşü"ndə həlak oldu.

Ümummilli lider Heydər Əliyev cənabları Əlimərdan Əliyevi ölümündən sonra "Hərbi xidmətə görə" medalı ilə təltif etdi. Pirataman kənd orta məktəbi Əlimərdan Əliyevin adını daşıyır.

Şairə Arzu xanım Hacızadə "Bir cüt yarpaq" sənədli povestində real həyata söykənir və unudulmaz Vətən oğlu Əlimərdan Əliyevin uca şəxsiyyətindən bəhs edir.

Yazıçı Arzu Hacızadə "Bir cüt yarpaq" sənədli povestində onun ömür yolundan, döyüş yolundan bəhs edir.

Müəllif yazır:

*Kim deyir ki, taleyi*
*Qara gəldi pozuldu.*
*Bu da bir tarix idi*
*"Əlimərdan döyüşü"*
*Tarixlərə yazıldı.* [3]

Təxribatların nəticəsi olaraq əsgərlər və dinc əhali arasında tez-tez itkilər olurdu. Ermənilərin özbaşınalığı Azərbaycan əsgərlərinin qanını coşdururdu.

Məlum olduğu kimi, 1988-1993-cü illərdə Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisi (Şuşa rayonu, Xankəndi şəhəri Əsgəran rayonu, Martuni rayonunun çox hissəsi, Mardakert rayonunun çox hissəsi, Hadrut rayonu ərazisi) həmçinin 18 may 1992-ci ildə Laçın rayonu ərazisi, 2 aprel 1993-cü il Kəlbəcər rayonu ərazisi, 23 iyul 1999-cu il Ağdam rayonunun çox hissəsi, 23 avqust 1993-cü il Cəbrayıl rayonu ərazisini, 23 avqust 1993-cü il Füzuli rayonunun xeyli hissəsini, 31 avqust

1993-cü ildə Qubadlı ərazisini, 30 oktyabr 1993-cü ildə Zəngilan rayonu ərazilərini ermənilər işğal etmişdilər. Beləliklə, DQMV və ətraf 7 inzibati rayon işğal olundu [89].

Bu hərbi təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal edilmişdi.

1994-cü ilin mayında tərəflər arasında atəşkəs imzalandı. Rusiya, Fransa və ABŞ dövlətlərinin həmsədrliyi ilə ATƏT-in Minsk qrupunun vasitəçiliyi altında sülh danışıqlarına başlanıldı. Uzun illər nəticəsiz qalan danışıqlar ermənilərin növbəti təxribatları ilə davam edirdi.

## NAZİM ABIŞ OĞLU QƏMBƏROV



Nazim Abış oğlu Qəmbərov 1968-ci il yanvarın 1-də Ağdam rayonunun Ətyeməzli kəndində anadan olub. Sovet dönəmində hərbi xidmətini Almaniyada keçib. Vətənə dönəndə isə artıq Qarabağda müharibə başlamışdı. Təbii ki, bütün qeyrətli oğullar kimi, o da kənardan seyrçi qalmadı, silaha sarıldı. 4 iyun 1992-ci ildə könüllü olaraq Ermənistan Silahlı Qüvvələrinin işğalına qarşı çıxdı, döyüşə atıldı.

Nazim Milli Qəhrəman Şirin Mirzəyevin batalyonunda, “N” saylı hərbi hissədə döyüşlərə atıldı. Torpaq üçün ilk savaşı

isə Ağdərədə oldu. O Canyataq, Gülyataq, Başgüneypəyə, Ortagüneypəyə, Sirxavənd, Mehmanə və digər kəndlər uğrunda gedən döyüşlərdə əsl qəhrəmanlıqlar gostərib. Bu döyüşlərin birində Nazim 20 nəfər əsgərlə mühasirəyə düşür. Onun başçılığı və fədakarlığı sayəsində silahdaşları ilə bərabər itki vermədən mühasirəni yarıb cıxırlar. Qardaşı Şahin Qənbərov bildirdi ki, Nazim Mehmanə kəndi uğrunda döyüşlərdə ayağından yaralanmışdı. Həmin vaxt komandanlıqdan öyrəndik ki, qardaşım 10 erməni əsgərini öldürən zaman yaralanıb. Onu təcili hospitala gətirdilər. Müalicə olunduqdan sona yenidən döyüşə atıldı. Bu dəfə Ağdam cəbhəsinə yollandı. “N” saylı briqadanın, 5-ci batalyonunda döyüşürdü. Burda da cəsarətinə, şücayətinə görə həm əsgər yoldaşlarının, həm komandanlığın rəğbətini qazandı. Rota komandiri seçiləndən sonra isə fəaliyyəti daha geniş müstəviyə keçdi. Bu səbəbdən ermənilər arasında “qara bəla” kimi tanınıb. Dostları isə onu “Qarabala” deyə çağırırdılar. Kiçik leytenant az bir zaman içərisində ermənilərdən döyüş məlumatlı zabit, qənimət kimi müxtəlif çaplı silahlar gətirməyə başladı. Gətirə bilməyəndə isə onları sıradan çıxarırdı, partladırdı. Buna görə də ermənilər “Qarabala”nın öldürülməsi üçün başına külli miqdarda pul qoymuşdular.

1993-cü ilin 4 iyununda Ermənistan Silahlı Qüvvələri geniş tərkibdə Ağdamın kəndlərinə güclü hücuma keçirlər. Qeyri-bərabər döyüşdə Muğanlıda yerləşən batalyon geri çəkilmək əmri alır. Amma Nazimin rotası döyüş mövqeyini tərk etmir. Güclü döyüş başlayır və düşmən geri oturdulur.

Qarabağ qazisi Rizvan Əliyev həmin döyüşü xatırlayaraq qeyd etdi ki, biz o vaxt Muğanlı kəndində postda dayanmışdıq. Həmin vaxt düşmən bizim qarşımızda və sağ cinahımızda qərarlaşmışdı. Biz onların Muğanlı kəndinə hücum edəcəklərini gözləyirdik. Lakin onlar bizim solumuzdan hücum edərək, Bağbanlar, Novruzlu və Saybalı kəndini işğal etdilər. Bundan sonra bəzi qüvvələrimiz geri çəkilməyə məcbur oldu. Amma biz cəmi 8 nəfərlə yarımmühasirə şəraitində Muğanlı kəndinin müdafiəsində dayandıq. “Qarabala” - Nazim, Sulduz, Gəray, Telman Cəfərov, Akif,

Mobil, Əsgər və bir necə nəfər qalmışdıq kənddə.Gecədən ermənilərin hərəkətliyini müşahidə edib müəyyənləşdirdik ki, onlar Muğanlıya hücuma hazırlaşırlar. Onların hücum edəcəyi əraziləri minaladıq və öz döyüş mövqelərimizi möhkəmləndirdik. Səhərə yaxın onlar təxmin etdiyimiz ərazidən tanklar və digər hərbi texnikaların dəstəyi ilə hücuma keçdilər.Atışma başlayandan bir neçə dəqiqə sonra onların tankı bizim basdırdığımız minaya düşüb partladı. Bundan sonra Nazim onların ən axırıncı tankını qumbaraatanla vurdu. Qızğın döyüşdə xeyli sayda canlı qüvvəsini, həm də hərbi texnikasını itirən düşmən geri çəkilməyə məcbur oldu. Bundan sonra Muğanlı kəndi xeyli müddət bizim əlimizdə qaldı. Orada minaya düşən erməni tankını qənimət kimi ələ keçirdik. Sonra həmin tank təmir edilərək ordumuzda istifadə olundu.

Döyüşün gərgin anında Nazim 1 tankın, 1 PDM-in qarşısında qaçmağa başladı, onları bu fəndlə gətirib basdırdığı minaya saldı. Qumbaraatanla vurduğu 1 tankı isə qənimət kimi ələ keçirdi, təmir etdirdi, sonra isə onu batalyona təhvil verdi.

Həmin hadisə ilə bağlı telejurnalist Allahverdi Əsədov Ağdamda çəkiliş aparır, "Qarabala"nın silahdaşları hadisəni olduğu kimi, bütün xırda detallarına qədər qeyd edirlər və sonda jurnalist "Qarabala"dan da müsahibə götürür. 2 gün sona "Qarabala"nın göstərdiyi bu qəhrəmanlıq televiziyada nümayiş edilir. Onun çıxışını dinləyən Ali Sovetin bir qrup nümayəndəsi onunla görüşmək üçün Ağdama gəlir. Amma nümayəndə heyəti burda onun yas mərasimi ilə üzləşir.

Qarabağ müharibəsi veteranı İsmixan İsmayılov Nazim Qənbərovu belə xatırlayır: "Onunla bir batalyonda, bir rotada, bir bölükdə olmuşam. Mənim bölük komandrim olub. Olduqca ürəkli, mehriban, döyüşkən oğlan idi. Nazim gözə görünməyəndə hamı bilirdi ki, yenə "ov"a gedib və əliboş geri dönməyəcək. Ağdamda hamı onun cəsarətindən, vətənpərvərliyindən danışırdı, onu örnək göstərirdilər. Şəhid olmamışdan bir neçə gün əvvəl AzTV-nin Ağdamdakı bölgə müxbiri Allahverdi Əsədova sevinə-sevinə son müsahibəsini vermişdi.

"Qarabala" müəmmalı şəkildə şəhid oldu. Onun silahını (mən batalyonun silah - sursatlarına baxırdım) təhvil üçün gətirmişdilər.

Təəssüf ki, "Qarabala" - Nazim iyulun 10-da şəhid olur. İyulun 11-də isə öz doğma kəndində torpağa tapşırılır. Kəşfiyyat rotasının komandiri N.Qənbərov göstərdiyi şücaətlərə görə, ölümündən sonra ona "Azərbaycan bayrağı" ordeni təqdim etdilər.

Anası Rəfiqə xanım Ağdam rayonunun Baharlı köçkün qəsəbəsində, övladını oxşayır, sevinir ki, balasının can verdiyi doğma torpağı indi azaddır.

## MÜBARİZ AĞAKƏRİM OĞLU İBRAHİMOV



Mübariz Ağakərim oğlu İbrahimov 1988-ci il fevralın 7-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olub. M.Piriyev adına Əliabad kənd orta məktəbinə daxil olmuş, 2005-ci ildə orta təhsilini başa vurub, hərbi xidmətə çağırılmışdır.

Hərbi xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə keçirib. Hərbi xidmətini 2007-ci ildə çavuş rütbəsində başa vurub. Bir müddət "İnter Sekyuriti" MMC-də mülki işlərdə işlədikdən sonra, 2009-cu ilin avqust

ayında yenidən gizir rütbəsində hərbi xidmətdə çalışıb. Bir müddət sonra öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birində xidmət etməyə başlayıb. 18 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində gizir Mübariz İbrahimov təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçir. Ermənistan Silahlı Qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilmədən birinci həmlədə məhv edir. Sonra isə düşmənin öz silahlarını özünə qarşı istifadə edərək 5 saat onlarla təkbətək döyüşür. Düşməni ağır itkilərə məruz qoyur, onların zəif cinahlarını üzə çıxarır. Azərbaycan döyüşçüsü səhər saatlarında qeyri-bərabər döyüşdə şəhid olur.

Atası Ağakərim İbrahimovun dediklərindən:

Hadisənin səhəri günü tezdən saat 5-6 arasında mənə zəng gəldi. Soruşdular ki, oğlunuz evə gəlməyib ki? Hətta bildirdilər ki, çoxlu silah götürüb və ərazidən uzaqlaşıb. Dedim, mən oğlumu tanıyıram, sərhədə tərəf gedin. Sonra da məktubunu tapmışdılar.

2010-cu ildə Mübariz İbrahimovun valideynlərinə yazdığı son məktubunun əlyazması:

Canım, atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xətir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam – ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin.

Həmin il Mübariz İbrahimova “Azərbaycanın Milli Qəhrəmanı” adı (ölümündən sonra) verildi.

Mübariz İbrahimovun ölməsinə baxmayaraq, Ermənistan Respublikası onun cəsədini 141 gün saxlamışdır. Ermənilər İbrahimovun cəsədinin şəkillərini internet saytlarında yayımlamışdılar. Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair 27 oktyabr 2010-

cu il tarixli birgə bəyanatına uyğun olaraq, eyni zamanda, əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının beynəlxalq təşkilatlarla apardığı müntəzəm danışıqların nəticəsində, İbrahimovun meyidi 6 noyabr 2010-cu il tarixdə Ağdam-Bərdə yolunun üzərində, işğal altındakı Baş Qərvənd kəndi yaxınlığında Azərbaycan tərəfinə verilmişdir. Proses Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Azərbaycan Respublikası Müdafiə Nazirliyi əməkdaşlarının iştirakı, Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə həyata keçirilmişdir.

2010-cu il noyabrın 7-də Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində keçirilən vida mərasiminə Azərbaycan Prezidenti İlham Əliyev də qatılıb və nitq söyləmişdir. Sonra şəhid, qəhrəman İkinci Fəxri xiyabanda dəfn olunmuşdur. 2010-cu il noyabrın 11-də Təzəpir məscidində prezidentin adından şəhid hərbçilər M.İbrahimov və "İgidliyə görə" medalıyla təltif olunmuş baş leytenant Fərid Əhmədovun xatirəsinə ehsan mərasimi keçirilmişdir. Mübariz boksla məşğul olmağı sevirdi. Mübarizin cəbhə yoldaşı Rəşad Həsənlinin sözlərinə görə, M.İbrahimov namaz qılan idi.

Biləsuvar şəhərində lisey-məktəb kompleksi və küçə onun adını daşıyır. 2008-ci ildə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi "İstiqlal" snayper tüfəngləri ailəsindən 12.7 mm çaplı ikinci tüfəng onun şərəfinə "Mübariz" adlandırılıb. 2011-ci ildə Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupu tərəfindən İbrahimova "İlin adamı" mükafatı təqdim olunmuşdur. 2011-ci il 15 iyunda Biləsuvar şəhərində Mübariz İbrahimovun heykəlinin və Əliabad kəndi ərazisində ailəsi üçün tikilmiş yaşayış evinin açılışı olub.

Həmin ildə "Palmali" şirkətinin Türkiyədə hazırladığı yük gəmisi onun şərəfinə "Mübariz İbrahimov" adlandırılıb.

2014-cü ildə Kanadanın Ottava şəhərində yerləşən Minto Parkında Azərbaycan icmasının təşəbbüsü ilə Mübariz İbrahimov adına xatirə lövhəsi vurulub. 2016-cı ildə Sumqayıtda küçələrdən birinə Milli Qəhrəman Mübariz İbrahimovun adı verilib. 2016-cı

ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində heykəli ucaldılmışdır [101].

2010-cu ildə rejissor Etibar Məmmədov Mübariz İbrahimova həsr edilən “Müqəddəs zirvə” adlı film çəkmişdir. 2013-cü ildə Mübariz İbrahimovun qəhrəmanlığı TRT 1 kanalında nümayiş olunan “Sakarya Fırat” serialında geniş yer alıb. 2014-cü ildə onun qəhrəmanlığı TRT 1 kanalında nümayiş olunan “Qızıl Alma” serialında geniş yer alıb.

Mübariz İbrahimov. (22.07.2010) – “Qızıl Ulduz” medalı (ölümündən sonra);

2010 – Azərbaycanda ilin adamı mükafatı, (16.04.2016) “Vətən övladı” qızıl ordeni ilə təltif olunmuşdur.

Mübariz İbrahimov haqqında kitablar yazılmışdır:

Fəxrəddin Mustafayev, “Mübarizlər yolu”. Bakı, “Hərbi Nəşriyyat”, 2011;

Maarif Köçkün, “Mübariz cəsarəti”. Bakı, “Bəxtiyar-4” nəşriyyatı, 2011;

Zaur Ustac, “Oriyentir ulduzu” Bakı, “MTR group” nəşriyyatı, 2011; Elxan Elatlı, “Qisas gecəsi” roman. Bakı, 2011; Balayar Sadiq, “Hünər simfoniyası” romanı. Bakı, “MHS-poliqraf” nəşriyyatı, 2011; Asif Rüstəmli, “Turan Mübarizi”. 2011; Baxşeyiş Abbasoğlu, “Ölüm son deyil... və yaxud əbədiyyat nəğməsi” romanı. Mingəçevir; “Mingəçevir Poliqrafiya Müəssisəsi” nəşriyyatı, 2011; Mustafa Çəmənli, “Mübariz” romanı. Bakı, “Təhsil” nəşriyyatı, 2010; Çingiz Qacar, “Turan Bahaduru”, Rauf İlyasoğlu. Vətən sağ olsun (poema). Bütöv Azərbaycan qəzeti. 6 oktyabr 2010-cu il. №38.

Azərbaycan Respublikası Xatirə Kitabı. X cild, s.485. [101].

# ETİBAR XUDAVİ OĞLU KAZIMOV



Etibar Xudavi oğlu Kazımov 1985-ci il sentyabrın 13-də Goranboy rayonunun Səfikürd kəndində sadə kəndli ailəsində anadan olmuşdur. 1991-2001-ci illərdə Səfikürd kənd orta məktəbini bitirmişdir. 3 dekabr 2003-cü il tarixində Azərbaycan Silahlı Qüvvələrində xidmətə başlamış, 6 aprel 2005-ci ildə xidmətini müvəffəqiyyətlə başa vurmuşdur.

Mənfur ermənilərin vəhşilikləri Etibarı çox narahat edirdi. Qəlbi Vətənlə döyünən Etibar Kazımov 5 noyabr 2009-cu ildə MAXE-də xidmət etməyə başlayır.

O Silahlı Qüvvələrin Təlim və Tədris məktəbində MAHHXHQ kursuna başlayır və 9 yanvar 2011-ci il tarixində T-72 tankının mexanik-sürücüsü ixtisasını bitirir. Sonra 007 saylı hissədə buldozerçi kimi nümunəvi xidmətinə davam edir, ermənilərin öz alçaq məqsədlərinə çatması üçün günahsız insanlara qarşı dəhşətli terror aktları törətdikləri hamıya bəllidir.

Tərtər rayonunun Qapanlı kəndi ətrafında sakinləri və onların evlərini erməni bölmələrinin atdığı güllə və mərmilərdən qorunmaq üçün sədd çəkilməli idi.

Etibar Kazımova torpaq səddin çəkilməsi ilə bağlı tapşırıq verilir. Bu vacib işi cəsur buldozerçiyə həvalə edirlər. Etibar çox intizamlı, verilən tapşırıqları dəqiq yerinə yetirən bir döyüşçü idi.

Mənfur düşmənlə Qapanlı kəndi arasında böyük torpaq sədd çəkir.

Kəndin sakinləri dinc yaşamaqla bərabər, təsərrüfat işləri ilə də məşğul olurdular. Etibar deyirdi ki, buldozerin qabaq bıçağı ilə erməni güllələrindən özümü qoruyuram. Buna görə də növbəti dəfə düşmənlər yan tərəfdən buldozeri güllə yağışına tuturlar. 26 mart 2015-ci il tarixində Etibarın buldozeri səddin yüksəkliyinə torpaq qaldırdığı vaxt snayperlə yan hədəfdən atılan güllə onun başına dəyir. Etibar başından qan axa-axa buldozerin əyləcini basaraq onu düşmən tərəfə keçməyə qoymur, geri qaytararaq qəhrəmancasına orada şəhid olur.

Etibar Kazımov düşmən tərəfindən atılmış güllənin qurbanı oldu. Cəsur Vətən oğlunu doğulduğu Goranboy rayonunun Səfikürd kəndində ehtiramla torpağa tapşırdılar. Dəfn mərasimində Etibarın xidmət etdiyi hərbi hissənin zabit və əsgərləri yaxınları, rayon ictimaiyyəti, keçmiş döyüşçülər də iştirak etmişdilər.

Xain düşmənin açdığı atəş yenicə ailə qurmuş bir gəncin həyatını yarımçıq qoydu.

İstiqanlı, mehriban, ürəkli, cəsur bir döyüşçü olan Etibar komandir və silahdaşları arasında qısa zamanda hörmət qazanmağı bacarmışdı. Onun itkisi zabit və əsgərləri dərindən kədərləndirmişdi.

Etibar Kazımov öz davranışı, mədəniyyəti, intizamı və bacarığı ilə seçilən bir hərbçi idi – zabit Vüqar Şıxlinski deyir. – Belə bir Vətən oğlunu itirmək təkcə onun valideynləri, qohumları üçün deyil, hərbi hissəmiz üçün, dost və silahdaşları üçün də ağırdır. Allah ona rəhmət eləsin, əziz xatirəsi həmişə qəlbimizdə yaşayacaq.

Etibar anası Kazımova Elmira və dayısı Allahverdiyev Mikayılın himayədarlığı altında tərbiyə almışdı.

Atası Kazımov Xudavi xəstə olduğu üçün Etibar həmişə onun qayğısına qalırdı.

Vətən oğullarının intiqamı təbii ki, yerdə qalmadı.

# II FƏSİL

# İKİNCİ QARABAĞ – VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ AZƏRBAYCAN AİLƏLƏRİNİN MADDİ-MƏNƏVİ HƏYATINDA ERMƏNİ TƏCAVÜZÜNÜN İZLƏRİ

## 2.1. Aprel və Tovuz döyüşləri barədə

Azərbaycan xalqının taleyində tarixə Birinci və İkinci Qarabağ müharibəsi kimi daxil olmuş Azərbaycan-Ermənistan münaqişəsinin nəticələri xalqımız üçün müsibətlər gətirmişdir.

Aprel döyüşləri, Aprel müharibəsi və ya Dördgünlük müharibə 2016-cı il aprelin 1-dən – 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin Qondarma Dağlıq Qarabağ Respublikasının hərbi birləşmələri arasında baş vermiş hərbi münaqişədir. Aprel döyüşləri Dağlıq Qarabağda 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan sonra ən şiddətli döyüşlər idi. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan (Madagiz) kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur. Aprelin 4-də ermənilər Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətində mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutdular.

5 apreldə hər iki tərəfin razılığı və beynəlxalq qurumların müşahidəsi ilə yenidən atəşkəs müqaviləsi imzalanmışdır. Buna baxmayaraq, Ermənistan tərəfindən dəstəklənən separatçı qüvvələr atəşkəs imzalanmazdan bir neçə saat sonra onu dəfələrlə pozmuşdur. Azərbaycan Respublikasının verdiyi rəsmi məlumata görə Azərbaycan Silahlı Qüvvələri 2.000 hektarlıq ərazini azad etmişdir.

Aprel döyüşləri özünün həcminə görə 12 may 1994-cü ildə razılaşdırılmış atəşkəs rejimindən sonra Azərbaycan ordularının təmas xəttində baş vermiş ən böyük hərbi qarşıdurma idi.

Döyüşlər əsasən 257 km uzunluğunda olan təmas xətti üzərində yönəldilmişdir. Ermənistanın İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndi atəşə tutulub. Habelə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndi, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən isə Gədəbəy rayonu ərazisindəki yüksəkliklər vurulmuşdur. Azərbaycanın müdafiə naziri Zakir Həsənov 2019-cu ildə verdiyi açıqlamada Azərbaycan ordusunun ermənilərin qurduğu Ohanyan səddini 18 dəqiqəyə yardığını bildirmişdi.

Aprel döyüşlərində Azərbaycan Ordusunun 92 nəfər hərbçisi həlak oldu, 2 nəfər itkin düşdü, 39 hərbçi yaralandı, 6 mülki şəxs öldürüldü, 26 nəfər yaralandı, 1 Mİ-24 helikopter, 1 PUA, 1 tank vuruldu.

2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycan Silahlı Qüvvələrinin 3 üzvü "Azərbaycanın Milli Qəhrəmanı", 7 üzvü "Azərbaycan Bayrağı" ordeni, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 19 üzvü "Vətən uğurunda" medalı, 43 üzvü "İgidliyə görə" medalı, 45 üzvü "Hərbi xidmətlərə görə" medalı, 2 üzvü "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırıldı.

Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Vaqif Dərgahlının verdiyi məlumata görə, Aprel döyüşlərində Ermənistana məxsus 30-dək tank, 320 döyüşçü məhv edilmiş və 500-dən artıq döyüşçüsü yaralanmışdır [102].

2020-ci ilin 13 iyul tarixindən etibarən Ermənistan dövlət sərhədinin Tavuş mərzi və Tovuz rayonu əraziləri boyunca döyüşlərə başladı.

Ermənistan Silahlı Qüvvələri Azərbaycanın Tovuz, Qazax, Gədəbəy, Naxçıvan MR ərazilərini atəşə tutdular. Azərbaycana qarşı yeni ərazi iddialarına başladılar. Döyüşlər 12 iyul – 23 iyulu

əhatə edirdi. Belə ki, iyulun 12-i günorta saatlarından başlayaraq Ermənistan Silahlı Qüvvələri Azərbaycan Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən mövqelərini artilleriya qurğularından atəşə tutdular [103].

Ermənistanın artilleriya atəşləri nəticəsində Ağdam kəndinin 76 yaşlı sakini həlak oldu. Azərbaycan tərəfi isə gəzən sursat vasitəsilə Ermənistanın komanda məntəqəsinə hücum həyata keçirdi. Həmçinin Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə Ermənistan Silahlı Qüvvələrinə məxsus müxtəlif təyinatlı hərbi texnika, döyüş vasitələri, komanda məntəqəsi, müdafiəsinin dərinliyindəki ehtiyatlar və canlı qüvvə məhv edildi.

Azərbaycan Silahlı Qüvvələrinin cavab atəşi və əks-həmlə tədbirləri nəticəsində Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdinin qarşısı alındı. Döyüşün ilk saatlarında Azərbaycan Silahlı Qüvvələrinin 2 hərbi qulluqçusu şəhid oldu, 5 nəfər yaralandı. Azərbaycan Ordusunun yaralı əsgərlərindən biri daha sonra aldığı yaralardan dünyasını dəyişdi.

Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində iyulun 13-nə keçən gecə ərzində də gərginlik davam etdi. Azərbaycan tərəfinin məlumatına görə, artilleriya, minaatan və tankların tətbiqi ilə gedən gecə döyüşlərində Azərbaycan Ordusunun dəqiq atəşi ilə qarşı tərəfin dayaq məntəqəsi, artilleriya qurğuları, hərbi hissəsi ərazisində avtomobil texnikası və canlı qüvvəsi məhv edildi.

İyulun 13-də Tovuz istiqamətində Ermənistan və Azərbaycan Silahlı Qüvvələri arasında artilleriya qurğuları yenidən işə düşüb, tərəflər bir-birinə qarşılıqlı zərbələr endirdilər.

Döyüş zamanı Ermənistan artilleriyası toplarla Tovuzun Dondar Quşçu və Ağdam kəndlərini də atəşə tutmağa başladılar.

Ermənistan Silahlı Qüvvələrinin bölmələri iyulun 4-ü səhər saatlarından başlayaraq Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutdu. Erməni Ordusunun hücumu nəticəsində Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev və həmçinin hücumun qarşısını alarkən 5 hərbi qulluqçu da həlak oldu.

İyulun 16-dan başlayaraq Ermənistan Silahlı Qüvvələri Tovuz rayonunun Ağdam, Dondar Quşçu, Əlibəyli və Hacallı kəndlərini ağır artilleriya silahlarından atəşə tutmağa başladılar. İyulun 22-də Tovuz rayonunun Ağdam kəndi istiqamətində, Gədəbəy rayonu istiqamətində dəfələrlə hücumlar oldu.

Atəşkəs bərpa olundu, mövqelərdə əhəmiyyətli dəyişiklik olmadı.

Ümumiyyətlə, Tavuş (erməni mənbələrinə görə), yerli mənbələrdə iyul döyüşləri, xarici mənbələrdə isə 2020 Azərbaycan-Ermənistan toqquşması adlanır [103].

## POLAD İSRAYİL OĞLU HƏŞİMOV



Polad İsrayil oğlu Həşimov 1975-ci il yanvar ayının 2-də Qəbələ rayonunun Vəndam kəndində anadan olub. Orta təhsilini Sumqayıt şəhərində alıb.

1992-ci ildə Bakı Ali Ümumqoşun Komandanlıq məktəbinə daxil olub və 1995-ci ildə həmin məktəbi motoatıcı ixtisası üzrə bitirib.

Polad Həşımov 1992-ci ilin noyabr ayında Birinci Qarabağ müharibəsi zamanı Ağdam rayonunun Mərzili və Novruzlu kəndlərinin müdafiəsi uğrunda gedən döyüşlərə qatılmışdır. 702-ci

motoatıcı briqadanın heyətində təlimlərdə olan Polad Həşimov 1994-cü ilin fevral ayında Murovdağ əməliyyatı zamanı Murov dağ silsiləsində "Güzgü", "Koroğlu" və "Ömər" postları uğrunda gedən döyüşlərdə savaşmışdır. Həmin ildə o, Müdafiə Nazirliyi tərəfindən İstanbulun Tuzla ilçəsində yerləşən Piyada Məktəbində üç aylıq təlimlərə göndərilmişdir.

1995-2017-ci illər ərzində motoatıcı taqım komandiri vəzifəsindən hərbi hissənin komandiri vəzifəsinədək yüksəlib.

2014-cü ilin iyul ayında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasına daxil olub [105].

Həşimov Polad 1-5 aprel 2016-cı il tarixlərdə Talış istiqamətində gedən döyüş əməliyyatlarında tabeliyinə verilmiş bölmələrin yüksək hərbi peşəkarlıqla idarə olunmasını təşkil edərək, düşmənin mövqelərinə sarsıdıcı zərbə vurmuş, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi üçün fədakarlıq və igidlik göstərmiş və nəticədə düşmənin əsas müdafiə mövqelərinin ələ keçirilməsinə nail olmuşdur. Bununla da o, vəzifə borcunu ləyaqətlə yerinə yetirmişdir [8].

2017-ci ilin aprel ayından Şəhid olduğu günədək hərbi birlik komandirinin birinci müavini – qərargah rəisi vəzifəsində xidmət edib.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının qiyabi dinləyicisi olub, Hərbi idarəetmə ixtisaslaşması üzrə magistr elmi-ixtisas dərəcəsi alıb.

Xidmət etdiyi dövrdə bir çox mükafatlara və təltiflərə layiq görülüb. Xidməti vəzifələrini layiqincə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin 24.06.2003-cü il tarixli əmri ilə "Hərbi xidmətlərə görə", 25.06.2009-cu il tarixli əmri ilə "Vətən uğrunda" medalları, 24.06.2014-cü il tarixli əmri ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə", 19.04.2016-cı il tarixli əmri ilə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif olunub.

Polad Həşimov həmçinin, Azərbaycan Respublikası Müdafiə Nazirinin müvafiq əmrləri ilə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medal, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi" (1991-2001) yubiley medalı, "Qüsursuz xidmətə görə"

2-ci dərəcəli medal, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi" (1918-2008) yubiley medalı, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" (1918-2013) yubiley medalı, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medal, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı, "Azərbaycan Ordusunun 100 illiyi" (1918-2018) Azərbaycan Respublikasının yubiley medalı, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal ilə təltif edilib.

2019-cu il iyulun 25-də Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Həşimov Polad İsmayıl oğluna "general-mayor" hərbi rütbəsi verilib.

Tabeliyində olanlara qarşı tələbkar, eyni zamanda qayğıkeş olub. Anası Səmayə xanımın hüquqşünas görmək istədiyi qəhrəman oğlu general oldu.

Həşimov daha sonra Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun Qərargah rəisi təyin olunub. General-mayor 2020-ci il iyulun 14-də Tovuz istiqamətində baş verən şiddətli döyüşlər zamanı Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdinin qarşısını alarkən qəhrəmancasına şəhid olub. Bununla da, Polad Həşimov İsmət Qayıbov və Məhəmməd Əsədovdan sonra, 1988-ci ildən etibarən başlayan Qarabağ müharibəsində şəhid olan üçüncü Azərbaycan generalı oldu.

İyulun 14-də general-mayor Polad Həşimovun nəşi əvvəlcə doğulduğu Qəbələ rayonunun Vəndam qəsəbəsinə, sonra isə yaşadığı Sumqayıt şəhərinə gətirildi. General iyulun 15-də II Fəxri Xiyabanda polkovnik İlqar Mirzəyev ilə yanaşı dəfn olundu. 09.12.2020-ci ildə "Milli Qəhrəman" adına layiq görüldü.

Polad Həşimov ailəli idi. Onun 3 övladı var. Polad Həşimovun şəhid olması İkinci Qarabağ müharibəsində döyüşən əsgərlərimizi daha da mətinləşdirdi.

Azərbaycan xalqı daima sevimli generalını, Vətən oğlunu vəsf edir, xatırlayır.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının 4-cü kurs tələbəsi Təbriz Soltanlı tərəfindən büstü hazırlanıb. Rəssam Ülkər Əbülfət tərəfindən zərlə çəkilmiş və rəssam Məcnun Rəfiyev tərəfindən çay daşları ilə işlənmiş portreti hazırlanıb. 2020-ci ilin

avqustunda Qanun Nəşriyyatı tərəfindən general haqqında "Polad generalımız" adlı kitab nəşr edilib. "Hədəf" nəşriyyatı tərəfindən "Polad Həşimov xatirələrdə" adlı kitab nəşr olunub. 2020-ci ildə Qəbələ şəhərində Şəhidlər xiyabanının yerləşdiyi küçəyə Polad Həşimovun adı verilib.

2020-ci ildə Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzi general Polad Həşimovun xatirəsinə "Paşam, hey" adlı mahnı və klip hazırlayıb.

Bakı, Qəbələ və Quba şəhərlərində küçələrdən birinə Polad Həşimovun adı verilib. Türkiyədə də onun adına küçə və park vardır [8; 105].

## İLQAR ANZOR OĞLU MİRZƏYEV



İlqar Anzor oğlu Mirzəyev 1973-cü il mayın 8-də Gürcüstan Respublikasının Qardabani şəhərində anadan olmuşdur. 1980-ci ildə Qardabani şəhərində tam orta məktəbin birinci sinfinə qəbul olmuş, 1990-cı ildə məktəbi bitirmişdir.

1991-ci il avqustun 1-də Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə (BABKM)nə qəbul olan İlqar Mirzəyev 1995-ci ildə oranı "Artilleriya" ixtisası üzrə bitirmişdir.

1995-ci ildən tağım komandiri, artilleriya batareyasının komandiri vəzifəsində olmuş, 27 dekabr 2000-ci ildə “kapitan” hərbi rütbəsi almışdır.

14 iyun 2001 – 31 iyun 2002-ci ilədək “N” saylı hərbi hissənin Qərargah rəisi, 13 dekabr 2002-ci il tarixli əmrinə əsasən “mayor” hərbi rütbəsi almışdır.

2003-cü ilin avqust – 2005-ci ilin 2 iyulunadək Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyasında ixtisasını artırmışdır. 2007-ci ildən komandir müavini, 2007-ci il yanvarın 7-dən – 2011-ci il iyulun 29-na qədər Qərargah rəisinin əməliyyatlar üzrə müavini olmuşdur.

2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Tərtər və Cəbrayıl-Füzuli istiqamətlərində şiddətli döyüşlər başlamışdır. Tarixə Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı İlqar Mirzəyev “N” saylı hərbi hissənin Komandiri idi. Gecə döyüşləri zamanı Tərtər rayonunun Talış istiqamətində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Talış yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunmuşdur. Aprel döyüşlərində göstərdiyi şücaətə və öz ixtisasını mükəmməl şəkildə bildiyinə görə, İlqar Mirzəyev “Artilleriya atası” ləqəbi ilə tanınmışdır [104].

İlqar Mirzəyev fərqli-fərqli illərdə Bakı, Gəncə, Naxçıvan, Beyləqan, Goranboy və Şəmkirdə hərbi xidmətdə olmuşdur. 2018-ci ildə Polkovnik-leytenant rütbəsindən Polkovnik rütbəsinə yüksəlmişdir. 2019-cu il 23 fevral tarixində 3-cü Ordu korpusunun Artilleriya rəisi təyin olunmuşdur.

2020-ci il iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan Silahlı Qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində Dövlət Sərhəd Xidmətinin mövqelərini artilleriya qurğularından atəşə tutub. Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin cavab tədbirləri görməsi nəticəsində Ermənistan Ordusunun hücum cəhdinin qarşısı alındı

və Ermənistan Ordusu geri oturduldu. Döyüşlərin birinci saatlarında Azərbaycan Ordusunun hərbi qulluqçularından 3 nəfər şəhid oldu, 4 nəfər isə yaralandı.

İyulun 12-dən 13-nə ötən gecədə Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində gərgin anlar davam edib. 3-cü Ordu Korpusunun Qərargah rəisi Polad Həşimov və Artilleriya rəisi İlqar Mirzəyevin də qatıldığı hərbi toqquşmalarda, İlqar Mirzəyevin başçılıq etdiyi, artilleriya və minaatanların tətbiqi ilə gedən gecə döyüşlərində Azərbaycan Silahlı Qüvvələri bölmələrinin atəşi ilə Ermənistan Ordusunun dayaq məntəqəsi, artilleriya qurğuları və canlı qüvvəsi məhv edilib. İyulun 13-də günorta saatlarında Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən cəza tədbirləri davam edib. Cəza tədbirləri nəticəsində Ermənistan Silahlı Qüvvələrinin atəş mövqeləri, 20 nəfərdən çox şəxsi heyət, tabor qərargahı və digər hərbi hədəflər Azərbaycan Ordusunun dəqiq atəşi ilə darmadağın edilib.

İyulun 13-dən – 14-nə ötən gecə və səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində şiddətli döyüşlər davam edib. Gecə döyüşləri zamanı Ermənistan Silahlı Qüvvələrinin fəaliyyətinin qarşısının alınması məqsədilə görülən cəza tədbirləri nəticəsində Ermənistan Ordusuna məxsus müxtəlif təyinatlı hərbi nəqliyyat vasitəsi, döyüş vasitələri, müdafiənin dərinliyində yerləşən ehtiyatlar və canlı qüvvə məhv edilib.

İyulun 14-də səhər saatlarında Tovuz rayonu istiqamətində baş verən döyüşlər zamanı Azərbaycan Silahlı Qüvvələrinin 6-sı zabit olmaqla 7 hərbi qulluqçusu şəhid oldu.

Polkovnik İlqar Mirzəyev 2020-ci il iyulun 14-də səhər radələrində Tovuz rayonu istiqamətində döyüş zamanı ön xətdə şəhid olmuşdur. Həmin an onunla birgə olan 3-cü Ordu Korpusunun Komandir müavini olan general-mayor Polad İsrayıl oğlu Həşimov, mayor Anar Gülverdi oğlu Novruzov, mayor Namiq Hajan oğlu Əhmədov, gizir İlqar Ayaz oğlu Zeynallı, gizir Yaşar Vasif oğlu Babayev və əsgər Elçin Arif oğlu Mustafazadə də şəhid olmuşdur [104].

İlqar Anzor oğlu Mirzəyev Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycan Silahlı Qüvvələrinin polkovniki, 3-cü Ordu Korpusunun Artilleriya rəisi, (2019-2020-ci illər) təltifləri:

25.06.2004 – "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı;

26.06.2005 – "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı;

25.06.2007 – "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı;

07.03.3013 – "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı;

26.06.2013 – "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalı;

15.07.2014 – "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı;

26.06.2017 – "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı;

03.10.2017 – "Azərbaycan Silahlı Qüvvələri Veteranı" medalı;

26.06.2018 – "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı;

26.06.2006 – "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli medalı;

09.12.2020 – "Qızıl Ulduz" medalı (ölümündən sonra).

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirən zaman göstərdiyi igidliyə görə 9 dekabr 2020-ci il tarixində İlqar Anzor oğlu Mirzəyevə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verildi. 2020-ci ildə "Qanun" nəşriyyatı tərəfindən İlqar Mirzəyevin kitabı hazırlanmışdır. Kitabda onun hərb yolu təsvir olunmuşdur. Bundan əlavə hərbçi yoldaşları, ailə üzvləri və yaxınları İlqar Mirzəyevlə olan xatirələrini bölüşüblər. 2020-ci ilin oktyabr ayında, İlqar Mirzəyevin hərbi forması və bəzi əşyaları Milli Azərbaycan Tarixi Muzeyinə verilmişdir. Ailəli idi, iki övladı var [104].

## 2.2. İkinci Qarabağ – 44 günlük Vətən müharibəsinin başlanması

İkinci Qarabağ müharibəsi, 44 günlük Vətən müharibəsi və ya "Dəmir Yumruq" əməliyyatı – Azərbaycan Silahlı Qüvvələri və Ermənistan Silahlı Qüvvələri arasında Dağlıq Qarabağda davam edən silahlı qarşıdurmanın davamı idi.

Birinci Qarabağ müharibəsi nəticəsində öz torpaqlarının 20 faizini itirən Azərbaycan Rusiya ilə əsasən 1994-cü ildə imzalanmış Bişkek protokolundan sonra Ermənistan Respublikası ilə BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxarılmasını nəzərdə tutan qərarlarının icra olunması üçün müxtəlif beynəlxalq qurumlar çərçivəsində uzunmüddətli diplomatik danışıqlar apardı. Sülh danışıqları prosesi 2018-ci ildə Ermənistan inqilabı nəticəsində hakimiyyətə gəlmiş Nikol Paşinyanın "Qarabağ Ermənistandır və "nöqtə" kimi populist bəyanatları və Azərbaycanın işğal olunmuş ərazilərinə ardıcıl qanunsuz səfərləri kimi təxribatçı xarakter daşıyan hərəkətləri ilə ciddi ölçüdə sarsıldı. 1920-ci il 27 sentyabr – 10 noyabr tarixləri arasında baş vermiş ikinci Qarabağ müharibəsinə ölkədaxili və beynəlxalq reaksiyaları müxtəlif istiqamətlidir [42].

27 sentyabrda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasındakı çıxışında qeyd etdi ki, bildiyimiz kimi bu gün səhər tezdən Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təxribat törətmişdir. Bu təxribat nəticəsində həm mülki əhali, həm də hərbçilər arasında itkilərimiz var. Mən Ermənistana xəbərdarlıq etmişdim. Tovuz hadisələrindən sonra bir neçə dəfə xəbərdarlıq etmişdim ki, əgər onlar öz çirkin əməllərindən əl çəkməsələr peşman olacaqlar. Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücum əməliyyatı keçirir. Deyə bilərəm ki, əməliyyat uğurla keçirilir. Eyni zamanda,

ordumuza könüllü yazılanların sayı on minlərlə insanı əhatə edir. Bu, xalqımızın öz dövlətinə sadiqliyini göstərir [42; 43].

Aparılan hərbi əməliyyatlar zamanı Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Horadiz, Yuxarı Əbdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan azad edilmiş, Murovdağ silsiləsindəki Murov zirvəsi işğaldan azad edilmişdi.

Ermənistan silahlı birləşmələrinin dinc Azərbaycan əhalisini hədəfə alması səbəbindən növbəti dəfə toplardan açılmış atəş nəticəsində Naftalan rayonu, Qaşaltı kənd sakini Qurbanov Elbrus İsa oğlu və onun 4 ailə üzvü həlak olmuşdur.

Təcavüz nəticəsində həlak olanların ikisi məktəbli idi.

2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və onun əmisi qızı, 2006-cı il təvəllüdlü Fidan Qurbanova Z.Rüstəmov adına Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəbin şagirdi idi. Təcavüzkar ermənilər beynəlxalq hüququn norma və prinsiplərini 1949-cu il Cenevrə sazişini kobudcasına yenə də pozdular [42].

Sentyabrın 28-də Müdafiə Nazirliyi Tərtərin Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəkliyin azad edildiyini bildirmişdi.

Müdafiə Nazirliyinin Mətbuat Xidməti rəisi polkovnik Vaqif Dərgahlı Ermənistan tərəfin itkiləri arasında Suriya və Yaxın Şərqin müxtəlif ölkələrindən olan erməni əsilli muzdurların da olduğunu açıqlamışdı [44].

Ermənistan silahlı birləşmələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri ağır artilleriya qurğularından atəşə tutması nəticəsində Ağdam rayonu, Evoğlu kənd sakini Paşayev Coşqun həlak olmuşdu. Cəbhədə intensiv olaraq hərbi təcavüz davam edirdi.

### 2.2.1. Müxtəlif dövlətlərin Azərbaycan-Ermənistan müharibəsinə münasibəti

İkinci Qarabağ – Vətən müharibəsinin başlanmasına digər dövlətlər də münasibət bildirdilər. Belə ki, Türkiyənin Milli Müdafiə naziri Hulisi Akar Azərbaycanın tərəfində olduğunu bildirib

və Ermənistanın mövqeyinin Qafqazda sülh və sabitliyin ən böyük əngəli olduğunu vurğulayıb. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan bu məsələ ilə bağlı çıxışında bildirib ki, erməni xalqını onları fəlakətə aparan hökumətlərinə və onları bir kukla kimi oynadanlara qarşı çıxmağa, gələcəklərinə sahib çıxmağa dəvət edirəm. Bütün dünyaya işğala və zülmə qarşı verdikləri mübarizədə Azərbaycanın yanında olmağa çağırıram. 30 ilə yaxındır məsələyə etinasız yanaşan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri həll üçün fəaliyyətdən, təəssüf ki, çox uzaqdırlar. Ermənistan bölgədə sülh və sabitliyin önündəki ən böyük təhdid olduğunu növbəti dəfə göstərib. Türk milləti hər zaman olduğu kimi bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarımızın yanındadır.

ABŞ-ın Dövlət katibinin birinci müavini Stiven Bigan Azərbaycan Xarici İşlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyanla əlaqə saxlayaraq hər iki tərəfi dərhal hərbi əməliyyatları dayandırmağa çağırıb.

Rusiya Xarici İşlər Nazirliyi Dağlıq Qarabağ münaqişəsinin tərəflərini dərhal atəşi dayandırmağa çağırıb.

Fransa İrəvan və Bakını hərbi əməliyyatları dərhal dayandırmağa və danışıqları yenidən başlamağa çağırıb.

Gürcüstan Prezidenti Salome Zurabişvili tərəfləri barışığa çağırmış, bölgədə sülh və əmin-amanlığın qorunmasını dəstəklədiyini bildirmişdi.

Almaniya Xarici İşlər naziri Hayko Maas Ermənistan və Azərbaycanı detallı danışıqların lehinə güc tətbiqindən dərhal imtina etməli və münaqişənin hər iki tərəfini dərhal bütün hərbi əməliyyatların dayandırılmasına çağırmışdır. Həmçinin kənd və qəsəbələrin atəşə tutulmasından da olduqca narahat olduğunu bildirmişdir.

İran Xarici işlər nazirinin sözçüsü Səid Xətibzadə, İranın hərbi toqquşmaları diqqətlə izlədiyini, Tehranın Azərbaycan və Ermənistan arasında atəşkəs əldə olunması üçün vasitəçilik etməyə hazır olduğunu bildirmişdi.

Pakistan Xarici İşlər Nazirliyi bildirmişdi ki, Ermənistan vəziyyətin daha da gərginləşməməsi üçün hərbi əməliyyatını dayandırmalıdır. Azərbaycanın Dağlıq Qarabağla bağlı mövqeyini dəstəkləyirik və bu yekdilliklə qəbul olunmuş BMT Təhlükəsizlik Şurasının qərarına uyğundur.

Qazaxıstan – Dağlıq Qarabağ bölgəsindəki münaqişənin beynəlxalq təşkilatlar platformasında sülh yolu ilə həll olunmasına köməyini təklif etdiyini bildirmişdi.

Əfqanıstanın Xarici İşlər Nazirliyi Dağlıq Qarabağ bölgəsindəki gərginliklə bağlı bəyanat yaydı. “Dağlıq Qarabağ bölgəsi beynəlxalq səviyyədə Azərbaycanın bir hissəsi kimi tanınıb. Əfqanıstan, Dağlıq Qarabağdakı işğala son qoyulmasını tələb edir və bu baxımdan Azərbaycan xalqı və hökuməti, dünyanın digər dövlətləri tərəfindən göstərilən səyləri dəstəkləyir” – deyə Xarici İşlər Nazirliyinin bəyanatında vurğulanmışdı.

Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliyev bildirdi ki, mən Ermənistanın Azərbaycana hücumunu pisləyirəm, bu təxribatdır. Mən tərəfləri Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun ərazi bütövlüyünü və dövlət sərhədlərinin toxunulmazlığı əsasında tənzimlənməsinə qayıtmağa çağırıram.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Djaferoviç və Demokratik Fəaliyyət Partiyasının lideri Bakir İzetbegoviç, Azərbaycana dəstək verdiklərini, Ermənistanı qınadıqlarını bildirdilər.

İsrail – Yisrael Beiteinu partiyasının lideri, ölkənin keçmiş xarici işlər və müdafiə naziri Avigdor Liberman yerli “vesti” nəşrinə açıqlamasında bildirmişdi ki, tarixən “Dağlıq Qarabağ Azərbaycanın tərkibində olub. Ermənistanın baş naziri vəzifəsində Dağlıq Qarabağdakı klanlarla bağlı olmayan ilk şəxs olan Nikol Paşinyanın seçilməsindən sonra müsbət dəyişiklik olacağına bəslənən ümidlər özünü doğrultmadı. İrəliləyiş əldə etmək bir kənara, Paşinyan daha da sərt mövqe tutaraq “Dağlıq Qarabağ Ermənistandır və nöqtə – deyə məlum bəyanat verdi”, –deyən partiya lideri beynəlxalq hüquq nöqteyi-nəzərindən Dağlıq Qarabağın

Azərbaycan torpağı olduğunu xatırladıb. Elə buna görə də BMT üzvü olan heç bir dövlət, o cümlədən Ermənistanın özü də Dağlıq Qarabağı suveren qurum kimi tanımayıb. Tarixi gerçəklik, beynəlxalq hüquq, İsrail dövlətinin mənafeyi baxımından bizim mövqeyimiz tamamilə birmənalıdır. Biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bu ərazi bütövlüyü bərpa olunmadan regionda məsələnin həllinin mümkün olmadığını düşünürük. Azərbaycanın ərazi bütövlüyü tarixi, beynəlxalq milli mənafe baxımından rəsmi mövqedir.

Malayziya tərəfləri dialoq və diplomatiya yolu ilə münaqişənin sülh yolu ilə həllinə üstünlük verməyə davam etməyə çağırır deyə Malayziya Xarici İşlər Nazirliyinin bəyanatında bildirilmişdi.

Macarıstan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ətrafında eskalasiyanın azaldılması və münaqişənin ATƏT Minsk qrupu həmsədrlərinin məşvərətləri çərçivəsində danışıqlar yolu ilə həllinə çağırışları dəstəklədiyini bildirmişdi.

Yaponiya Xarici İşlər Nazirliyi verdiyi bəyanatda münaqişədən narahat olduğunu bildirmiş və tərəfləri dialoqa daxil olaraq məsələni sülh yolu ilə həll etməyə çağırmışdı [42].

### 2.2.2. Vətən müharibəsinin gedişi

Sentyabrın 28-dən 29-a keçən gecə intensiv toqquşmalar bütün cəbhə boyu davam etmişdi. Tərtər istiqamətində Əsədov Sabit, Ağdamda Sarıyev Elməddin erməni təcavüzü nəticəsində həlak olmuşdu.

Oktyabrın 1-də Tərtər şəhəri toplardan atılan artilleriya atəşinə məruz qaldığına görə Həsənov Zabil, İbrahimov Şahin, Əliyev Müzəffər həlak olmuşdular.

Oktyabrın 1-də Cəbrayıl, Füzuli, Goranboy, Tərtər, Ağdam erməni silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulmuşdu.

Oktyabrın 2-də Ağdərə istiqamətində Madagiz ətrafındakı yüksəkliklər Azərbaycan Ordusunun nəzarəti altına keçmişdi.

Ermənistan ordusu Ermənistan ərazisindən Şəmkir rayonunun Sabirkənd, Ağdam rayonunun işğal olunmuş ərazilərindən Quzanlı kəndini artilleriya atəşinə tuturdular. Həmçinin Tərtər şəhərini, rayonun Şıxarx qəsəbəsini və Bərdə rayonunun Soğanverdilər kəndini intensiv artilleriya atəşinə tutmuşdular.

Ermənistan Silahlı Qüvvələri Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Mirzənağılı, Qazaxlar, Əhmədalılar, Alxanlı, Şükürbəyli və Horadiz şəhəri, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndləri 27 sentyabr 2020-ci il saat 6 radələrində müxtəlif növ silahlardan atəşə məruz qalmışdı. Nəticədə Azərbaycanın mülki əhalisi arasında həlak olan və yaralananlar olmuş və mülki infrastruktur obyektlərinə ciddi ziyan dəymişdi [74].

Sentyabrın 28-də Bakı vaxtı ilə saat 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən Azərbaycan Respublikasında qismən səfərbərlik elan edildi [94].

Oktyabrın 3-də qondarma Dağlıq Qarabağ Respublikasının Prezidenti Arayik Harutyunyan Dağlıq Qarabağın Şimal və Cənub istiqamətinə baş çəkmişdi. Ətraf rayonların kəndləri erməni silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulurdular. Mülki əhali arasında ölənlərin sayı artırdı.

Madagiz azad edildi. Tarixi adı Suqovuşan bərpa edildi. Tərtər rayonunu Talış, Cəbrayılın Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri, Füzulinin isə Aşağı Əbdürrəhmanlı kəndi tamamilə işğaldan azad edildi.

Oktyabrın 4-də Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonun bir neçə kəndini işğaldan azad etdi.

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan bayrağı sancılmışdı.

Cəbrayıl rayonunun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Decal, Mahmudlu, Cəfərabad və Horovlu kəndləri də işğaldan azad edildi [50].

Oktyabrın 4-də Ermənistan Silahlı qüvvələri tərəfindən Mingəçevir şəhəri raket zərbələrinə məruz qalmışdı. Tərtər şəhərinə isə artilleriya zərbələri endirilmişdi. Mingəçevir su anbarı əsas hədəf idi.

Ümumiyyətlə, 2020-ci il sentyabrın 27-dən başlayaraq davam edən Vətən müharibəsində erməni silahlı qüvvələri döyüş bölgələrindən uzaq məsafədə yerləşən Tərtər, Naftalan, Gəncə, Bərdə, Beyləqan və digər ərazilərdə yaşayan mülki əhalini raket və ağır artilleriya hücumlarına məruz qoydu, Azərbaycanın dinc, günahsız vətəndaşları evlərində qətlə yetirildi. Həlak olanlar arasında 10 aylıq Narın adlı qız da vardı [78; 80; 54; 72].

Gəncə şəhəri 4 oktyabr 2020-ci il tarixindən başlayaraq Ermənistan Silahlı Qüvvələri tərəfindən davamlı raket atəşinə tutuldu. Əliyev Tunar adlı mülki şəxs həlak oldu. 11 oktyabr 2020-ci il tarixində saat 2 radələrində Ermənistan Silahlı Qüvvələri daha bir terror törətdilər. Belə ki, hərbi əməliyyatlar zonasından xeyli kənarda yerləşən Gəncə, Ermənistan ərazisindən "Skad-B" Taktiki əməliyyat Raket Kompleksindən atılan taktiki ballistik raketlərlə yenidən atəşə tutulmuşdur. Nəticədə "Qələbə parkı"nın ətrafında yerləşən yaşayış binaları dağıldı.

Hikmət Hacıyev Gəncə şəhərində 3 yaşayış binasının dağıldığını, 7 nəfərdən çox mülki şəxsin həlak olduğunu, uşaqlar da daxil olmaqla 33 nəfərin yaralandığını bildirdi. Azərbaycan Respublikası Baş Prokurorunun məlumatına görə artıq saat 13 radələrində 9 nəfər həlak olmuşdu. Onlardan 4 nəfəri qadın idi.

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində bildirirdi ki, Gəncə şəhərinə raket hücumları Ermənistanın Vardenis rayonundan həyata keçirilirdi.

11 və 17 oktyabr tarixlərində Gəncəyə raket zərbəsi nəticəsində evlər dağıdılmış, bir ailədə ana, ata, nənə, 8 yaşlı Hüseyn, 16 yaşlı Sevil həlak olmuş, balaca Nilay yetim qalmışdı. 3 yaşlı Xədicə Şahnəzərovanın anası, atası, 2 yaşlı bacısı Məryəm daşlar altında qalaraq həlak olmuşdular.

Ermənistanın Gəncəyə terror aktı nəticəsində 3 uşaq hər iki valideynini itirmişdi. Gəncədə olan ölkə və yerli əhəmiyyətli tarixi abidələrə, dini məbədlərə, mədəniyyət obyektlərinə, habelə təhsil müəssisələrinə ciddi ziyan dəymişdir [52].

Məlum olduğu kimi 2020-ci ilin oktyabr ayında Azərbaycanın Gəncə şəhəri Ermənistan Silahlı Qüvvələri tərəfindən 5 dəfə ayrı-ayrı zamanlarda bombalanmışdı: 4 oktyabr, 5 oktyabr, 8 oktyabr, 11 oktyabr, 17 oktyabr. Beləliklə, Gəncədə 27 nəfər ölmüş, 125 nəfər yaralanmışdı. Raket hücumları BMT, Avropa İttifaqı və Türkiyə tərəfindən qınanılmışdı [51; 54].

7 yaşayış binası tamamilə dağılıb, Qrand Qafqaz Ticarət Kompleksinə və yüzlərlə obyektə ciddi ziyan dəymişdi [116].

Göründüyü kimi, Ermənistan Ordusu tərəfindən Beyləqan, Bərdə, Tərtər, Goranboy, Göygöl, Ağcabədi rayonunun kəndləri, Füzuli rayonunun Horadiz qəsəbəsi, Ağdam rayonunun kəndləri, Gəncə şəhəri raket və artilleriya hücumlarına məruz qalmışdılar. Mülki əhali arasında ölənlər və yaralananlar var idi. Goranboy rayonu Qızılhacılı kənd sakini Abbasova Raziyə yaşayış evində top mərmisindən həlak olmuşdu. Oktyabrın 5-də Cəbrayıl rayonunun Şıxalıağalı, Sarıcallı, Mərzə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliklər işğaldan azad edilmişdi [71].

Oktyabrın 6-da Azərbaycan Ordusunun dəqiq atəş zərbəsi nəticəsində Ballıca məntəqəsində yerləşən silah-sursat anbarı məhv edilmiş və gecə Cəbrayıl-Füzuli istiqaməti də daxil olmaqla, cəbhə boyu bütün istiqamətlərdə tam üstünlük nümayiş etdirərək, düşmənə ağır zərblər endirmişdilər [71].

Yevlax, Goranboy, Beyləqan ərazisi yenidən atəşə tutulmuşdu. Tərtər rayonunun Qaynaq kənd sakini, 1981-ci il təvəllüdlü Məmmədov Həsən həlak olmuşdu. Eyni zamanda Bakı-Tbilisi-Ceyhan neft kəmərini hədəfə almaqla kəmərin Yevlax rayon ərazisindən keçən hissəsinə raket zərbələri endirilsə də Azərbaycan Ordusunun qətiyyətli tədbirləri nəticəsində həmin terror cəhdinin qarşısı alınmışdır.

Azərbaycan Ordusu Cəbrayıl rayonu istiqamətində tam üstünlüyü ələ keçirtmişdir. Şükürbəyli kəndi azad edilmişdi. Azərbaycanın rayonları istiqamətində Ermənistan silahlı qüvvələri mülki əhalini hədəfə alırdılar. Ağdam rayonunun Xındırıstan kəndi ərazisində yaşadığı evə mərmi düşməsi nəticəsində kənd sakini Əliyeva Zərifə Qamboy qızı həlak olmuşdu.

Tərtər və Füzuli rayonlarının yaşayış məntəqələri atəşə tutulmaqda davam edirdi.

Oktyabrın 8-də Ermənistan Silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tutmuşdur. Goranboy rayonunun

Şahməmmədli (Şəmmədli – adlanırdı) kəndinin ağır artilleriyadan atəşə tutulması nəticəsində kənd sakini Quliyeva Türyan yaşadığı evdə həlak olmuş, evə isə maddi ziyan dəymişdi.

Goranboyun müxtəlif kəndlərinə, o cümlədən Aşağı Ağcakənd, Qaraçinar kəndlərində polis binası, orta məktəb binası və digər sahələrə zərər dəymişdi.

Oktyabrın 8-də Gəncə, Goranboy, Ağdam, Bərdə, Tərtər və digər şəhərlərə Smerc reaktiv yaylım atəş sistemi vasitəsilə raket zərbələri endirilmişdi.

Oktyabrın 9-da gərgin döyüşlər Azərbaycan Ordusunun üstünlüyü ilə davam etmişdi [53].

Düşmənin itkiləri getdikcə çoxalırdı. Azərbaycan Müdafiə Nazirliyi Cəbrayıl rayonuna Azərbaycan bayrağının sancıldığını elan etdi [71].

Ermənilərin hücumları davam edirdi. Oktyabr ayının 9-da Xocavənd rayonunun Şor kəndi və Hadrut qəsəbəsi, Tərtər rayonunun Çaylı kəndi, Cəbrayıl rayonunun Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı Füzuli rayonunun Yuxarı Güzlək, Gorazıllı kəndləri işğaldan azad edilmişdir.

Oktyabrın 10-da gecə saatlarında, Rusiya Xarici İşlər naziri Sergey Lavrov, Azərbaycan və Ermənistanın Moskvada baş tutan 10 saatlıq danışıqlarından sonra iki ölkənin Dağlıq Qarabağda atəşkəs barədə razılığa gəldiklərini və tərəflərin bundan sonra "maddi" danışıqlara başlayacaqlarını bildirdi. Həmçinin saat

08.00-da hərbi əməliyyatların dayandırılacağı, əsir və ölülərin mübadiləsinin təmin ediləcəyi bəyan edildi [71].

Düşmən atəşkəsi pozdu, cəbhə boyu döyüş davam edirdi. Düşmənin xeyli canlı qüvvəsi və texniki qurğuları məhv edilmişdi.

11 oktyabrda Müdafiə Nazirliyi Cəbrayıl rayonunun Daşkəsən kəndinin işğaldan azad olduğunu yaymışdı.

Oktyabrın 12-də növbəti düşmən hücumları davam edir, Azərbaycan Ordusu isə düşmənə zərbələr endirirdi. Cəbrayıl rayonunun Süleymanlı kəndi azad edildi.

Oktyabrın 13-də Hadrut qəsəbəsi azad olundu. Oktyabrın 14-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Füzuli rayonunun Qaradağlı, Xatınbulaq, Qarakollu və Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Qırmızıqaya, Təkə, Tağaser kəndlərinin Azərbaycan qoşunları tərəfindən azad olunduğu elan edildi.

Oktyabrın 15-də Ermənistan silahlı qüvvələrinin Tərtər şəhər qəbiristanlığına ağır artilleriyadan intensiv atəş açması nəticəsində 4 mülki şəxs həlak olmuş, 4 nəfər isə ağır yaralanmışdır.

Artıq Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Ciraquz kəndləri işğaldan azad edilmişdi.

Oktyabrın 16-da Azərbaycan Silahlı qüvvələri Xocavənd rayonunun Ağbulaq, Axullu və Xırmancıq kəndlərini işğaldan azad etmişdi.

Oktyabrın 18-də Füzuli rayonunun Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, İşıqlı, Cuvarlı kəndləri və Füzuli şəhəri işğaldan azad edildi.

Oktyabrın 18-də Azərbaycan Respublikası və Ermənistan Respublikası yerli vaxtla 00.00-dan etibarən müvəqqəti humanitar atəşkəsə razılıq verdilər.

Oktyabrın 18-də saat 7 radələrində Ermənistan silahlı qüvvələri növbəti dəfə humanitar atəşkəs rejimi kobud şəkildə pozaraq Cəbrayıl şəhərinin ətraf ərazilərini, eləcə də bu rayonun Araz çayı boyu yerləşən və işğaldan azad olunmuş kəndlərini gecə ərzində minaatan və artilleriya qurğularından atəşə tutmuşdular.

Ermənistanın Çəmbərək rayonu istiqamətindən Gədəbəy rayonu, Berd rayonu istiqamətindən isə Tovuz rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqelərini iriçaplı silahlardan atəşə tutmuşdular.

Cəbrayıl, Ağdam Horadiz istiqamətində ermənilərin hücumları dəf edildi. Cəbrayıl rayonunda yerləşən Xudafərin körpüsünə Azərbaycan bayrağı sancıldı. Düşmən əsaslı itkilər verdi [75].

Oktyabrın 19-da Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Hasanlı, Alıkeyxalı, Qumlaq, Hacılı, Göyərçin Veysəlli, Niyazqulular, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri işğaldan azad edildi.

Oktyabrın 20-də Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata görə Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətində Ermənistan silahlı birləşmələri Azərbaycan Ordusunun mövqelərini atıcı silahlar, minaatanlar və toplardan atəşə tutmuşdular. Azərbaycan Ordusunun fədakarlığı nəticəsində Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndlərini, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri, Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Çinarlı kəndləri, Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Birinci Muğanlı və Zəngilan şəhəri işğaldan azad edildi.

Oktyabrın 20-də saat 15 radələrində Ermənistan silahlı birləşmələrinin Tərtər rayonunu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutması nəticəsində rayonun Cəmilli kəndində fərdi yaşayış evinə top mərmisinin düşməsi nəticəsində kənd sakinləri – 1994-cü il təvəllüdlü İsaqlı Anar Rəsuloğlu və 1984-cü il təvəllüdlü Quliyev Anar Tofiq oğlu həlak olmuş, 1972-ci il təvəllüdlü Şabanov Murov Rəsul oğlu müxtəlif dərəcəli bədən xəsarətləri almış yaşayış evinə isə külli miqdarda ziyan dəymişdir. Saat 17 radələrində Ermənistan ordusu tərəfindən Goranboy və Tərtər rayonlarının ərazisi raket-artilleriya atəşinə tutulmuşdur.

20 oktyabr saat 16-da Zəngilan rayonunda Azərbaycan bayrağı sancıldı. Azərbaycan Ordusu müxtəlif istiqamətlərində ermənilərin genişmiqyaslı hücumlarına əks-hücumla cavab verirdilər. Nəticədə 21 oktyabrda Cəbrayıl rayonunun Çərəkən kəndi azad olundu.

Həmçinin Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri, Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qıraq Müşlan, Üdgün, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Turabad, Baharlı kəndləri işğaldan azad edildi [55].

Oktyabrın 22-də Ermənistan ərazisindən Siyəzən, Kürdəmir, Qəbələ, Oğuz-Qəbələ-Bakı Su Kəməri istiqamətində raketlər atılmışdı. Lakin Azərbaycan Ordusunun hava hücumundan müdafiə qüvvələrinin zərərsizləşdirilməsi nəticəsində raketin hissələri su kəmərinin yaxınlığına düşmüşdür.

Zəngilan rayonunun Ağbənd qəsəbəsi, Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri işğaldan azad edildi.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin verdiyi məlumata görə oktyabrın 23-nə keçən gecə cəbhənin Ağdərə, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam etmiş, Xocavənd rayonunun Dolanlar, Bünyadlı, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı Veysəlli, Zəngilan rayonunun Vənədli, Mirzəhəsənli və Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı, Alaqurşaq kəndləri işğaldan azad edilmişdir.

Oktyabrın 24 və 25-də ermənilər ancaq Dağlıq Qarabağ ərazisində deyil, Azərbaycanın müxtəlif istiqamətlərində hücum edir, döyüşlər davam edirdi. Azərbaycan Ordusu əks-hücumla oktyabrın 26-da yeni torpaqları düşməndən azad edirdilər. Azərbaycan Ordusu tərəfindən oktyabrın 25-də Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd; Cəbrayıl ra-

yonunun Qovşudlu, Sobulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər; Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və Qubadlı şəhəri azad olundu [77].

Oktyabrın 27-də müxtəlif istiqamətlərdən ermənilərin hücumları davam edirdi. Erməni silahlı qüvvələri tərəfindən saat 16-da Bərdə rayonunun Qarayusifli kəndinin müxtəlif istiqamətlərdən "Smerc" raketindən atəşə tutulması nəticəsində dinc sakinlər Cəfərova Ofeliya Məcid qızı, Əhmədova Aybəniz Əşrəf qızı, İsmayılov Ehtiram Xəlil oğlu və 2013-cü il təvəllüdlü İsgəndərova Aysu Rövşən qızı həlak olub, 14 nəfər isə xəsarət almışdı [72].

2020-ci il oktyabrın 28-də saat 13 radələrində Ermənistan tərəfdən Bərdənin dinc sakinlərinin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi ərazilər raket atəşlərinə məruz qaldı. Humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri şəhərə "Smerc" yaylım atəşli reaktiv sistemindən atəş açdı.

Düşmənin törətdiyi terror nəticəsində 21 nəfər həlak olmuş, 70 şəxs isə yaralanmışdı. Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdi [72].

Oktyabrın 28-də Azərbaycan Ordusu tərəfindən Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri, Füzuli rayonunun Mandılı kəndi, Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çüllü, Quşçular, Qaraağac kəndləri, Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qilican kəndləri işğaldan azad edildi.

Oktyabrın 29-da gecə ərzində döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam etmişdi. Qubadlı rayonunun Sarıyataq kəndi işğaldan azad olunmuşdu.

Oktyabrın 29-da Ermənistan Ordusunun Göygöl və Goranboy rayonları ərazisini müxtəlif istiqamətlərdən intensiv ağır artilleriyadan atəşə tutması nəticəsində Goranboy rayonunun Tap-

qaraqoyunlu kəndində fərdi yaşayış evinə mərmi düşməsi nəticəsində 1967-ci il təvəllüdlü Ziyadova Flora həlak olmuş, yaşayış evinə isə ciddi ziyan dəymişdi [49].

Oktyabrın 30-da Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri, Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri Azərbaycan Ordusu tərəfindən işğaldan azad edildi.

Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonu tərəfdən Qubadlı rayonunun ərazisini artilleriya atəşinə tutmuşdular. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi məlumata görə, Ermənistan silahlı qüvvələrinin Ağcabədi və Göygöl rayonlarını mütəmadi artilleriya atəşinə tutması nəticəsində Ağgöl və Göygöl milli parklarının ərazilərinə bir neçə dəfə raket mərmiləri düşmüşdür.

Oktyabrın 31-də döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam etmişdir. Tərtər şəhəri, rayonun Şıxarx qəsəbəsi, Əskipara kəndi, eləcə də Ağcabədi rayonunun Qiyaməddinli kəndi düşmən tərəfindən artilleriya atəşinə tutulmuşdur.

Noyabrın 1-də Zəngilan rayonunun sərhəd ərazisində və Xocavənddə Ermənistan Ordusuna məxsus xeyli silah-sursat məhv edilmişdir.

Noyabrın 2-də Zəngilan rayonunu Dərə Çilətağ, Böyük Gilətağ kəndləri Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri işğaldan tam azad edilmişdir.

Noyabrın 3-də Xankəndi yaxınlığında düşmənin iki sursat anbarı, Zəngilan istiqamətində isə kəşfiyyat-diversiya qrupu məhv edilmişdi. Ermənistan silahlı Qüvvələri Füzuli şəhərini və ətraf kəndlərini "Smerç" yaylım atəşli reaktiv sistemindən atəşə tutmuşdu.

Noyabrın 4-də Ağdam, Xocavənd, Zəngilan, Qubadlı, Şuşa və Laçın istiqamətində döyüşlər şiddətlənmişdi [49].

Noyabrın 4-də Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri, Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri işğaldan tam azad edildi.

Noyabrın 7-də Azərbaycan ordusunun keçirdiyi əməliyyatlar nəticəsində Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qacar, Divanlılar, Qorqan, Üçüncü Mahmudlu, Cəbrayıl rayonunun Yuxarı Məzrə, Yanarhac, Xocavənd rayonunu Ataqut, Tsakuri, Xocalı rayonunun Moşxmaat, Qarabulaq, Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilan rayonunun Beşdəli kəndi işğaldan azad edildi.

Noyabrın 8-də Azərbaycan Ordusunun keçirdiyi uğurlu əməliyyatlar nəticəsində Şuşa şəhəri işğaldan azad olundu.

Davam edən müharibə ərzində oktyabrın 4-də Cəbrayıl, oktyabrın 17-də Füzuli, oktyabrın 20-də Zəngilan, oktyabrın 25-də Qubadlı və noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edilmişdir.

Noyabrın 9-da Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu Ələsgərli, Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilan rayonunun Keçikli, Ördəkli kəndləri işğaldan tam azad edildi.

Həmçinin Xocavənd rayonunun Böyük Tağlar, Salakətin, Zoğalbulaq, Arakül, Tağaverd, Böyük Tağaverd, Zərdanaşen, Şexer, Xocalı rayonunun Şuşakənd, Muxtar, Daşaltı, Füzuli rayonunun Aşağı Güzdək, Govşatlı, Mirzəcamallı, Şəkərcik, Merdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilan rayonunun Sobu, Qaragöz, İsgəndərbəyli kəndləri, Bartaz qəsəbəsi, Bartaz strateji yüksəkliyi (2 300 metr), Sığırt yüksəkliyi (1 370 metr), Şükürataz yüksəkliyi (2 000 metr) və əlavə 5 adsız strateji yüksəklik, Cəbrayıl rayonunun Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlı rayonunun Qaramanlı, Xəndək, Həmzəli,

Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçın rayonunun Güləbird, Səfiyan, Türklər kəndlərini işğaldan tam azad etdilər.

10 noyabr 2020-ci il tarixində üç ölkənin Azərbaycan, Rusiya, Ermənistanın dövlət başçıları tərəfindən bəyanat imzalandı. Bəyanatda 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə 00:00-dan etibarən tam bir atəşkəs və Dağlıq Qarabağ münaqişəsi bölgəsindəki bütün hərbi əməliyyatların dayandırılması elan edildi. Bu bəyanatın müddəalarına əsasən Azərbaycan Ordusu bölgədə tam qalib elan edildi [91].

Bəyanatın müddəaları isə bunlardır:

1. Dağlıq Qarabağ münaqişəsi zonasında tam atəşkəsdən və bütün hərbi əməliyyatlar dayandırıldıqdan sonra, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə 00:00-dan etibarən Azərbaycan və Ermənistan öz mövqelərində dayanırlar.

2. Ağdam rayonu və Ermənistan tərəfinin Azərbaycanın Qazax rayonu istiqamətdə saxladığı ərazilər 20 noyabr 2020-ci il tarixinədək Azərbaycana qaytarılır.

3. Rusiya sülhməramlı kontingenti Dağlıq Qarabağdakı təmas xətti boyunca və Laçın dəhlizi boyunca yerləşdirilir.

Rusiya Federasiyasının sülhməramlı kontingenti Ermənistan silahlı qüvvələrinin geri çəkilməsinə paralel olaraq yerləşdirilir. Atəşkəsi izləmək üçün bir sülhməramlı mərkəz yerləşdirilir.

1. Ermənistan 15 noyabr 2020-ci ilədək Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci ilədək Laçın rayonunu Azərbaycana qaytaracaq. Dağlıq Qarabağın Ermənistanla əlaqəsini təmin edəcək Laçın dəhlizini (5 km enində) geridə qoyulacaq və eyni zamanda bu məsələ Şuşa şəhərinə təsir göstərməyəcək. Üç il ərzində Laçın dəhlizi boyunca Xankəndi ilə Ermənistan arasında rabitə təmin edən yeni bir nəqliyyat marşrutunun inşası üçün bir plan müəyyən ediləcək və bu marşrutu qorumaq üçün sonra burada Rusiya sülhməramlı kontingenti yenidən yerləşdiriləcək. Azərbaycan hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və malların Laçın dəhlizi boyunca hərəkətinin təhlükəsizliyinə zəmanət verir.

2. Məcburi köçkünlər və qaçqınlar Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı idarəsinin nəzarəti altında Dağlıq Qarabağ ərazisinə və bitişik ərazilərə qayıdırlar.

3. Hərbi əsirlərin və digər saxlanılan şəxslərin və ölülərin cəsədlərinin mübadiləsi aparılır.

4. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri blokdan çıxarılır. Ermənistan Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrini təmin edir. Nəqliyyat nəzarəti Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları tərəfindən həyata keçirilir.

İmzalanmış müqaviləyə əsasən 10 noyabr 2020-ci il tarixində atəşkəs və Dağlıq Qarabağ münaqişəsi bölgəsindəki bütün əməliyyatların dayandırılması elan edildi.

Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə imzalanan Bəyanata əsasən 2020-ci il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana qaytarılmalı idi. Bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verilib.

Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri azad olunub.

Üçtərəfli bəyanata əsasən noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verilib. Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsi işğaldan azad edildi [49; 91].

Sülh müqaviləsini Ermənistan Ordusu və Qarabağda yerləşən qeyri-qanuni birləşmələr tez-tez pozurdular. İşğaldan azad edilmiş ərazilərdə ermənilər tərəfindən çoxlu sayda minalar basdırılmışdı. Həmin əraziləri minalardan təmizləmək, viran edilmiş şəhər və kəndləri yenidən tikmək Azərbaycan dövlətinin qarşısında duran əsas işlərdəndir. Ara-sıra erməni təxribatları, həmçinin minaların partlaması nəticəsində tez-tez insan itkiləri olurdu.

1922-ci il 12-14 sentyabr tarixində Ermənistan-Azərbaycan sərhədində Ermənistan və Azərbaycan silahlı qüvvələri arasında Azərbaycan-Ermənistan sərhəd toqquşması baş verdi. Bu hadisə

erməni diversiya qrupu tərəfindən Azərbaycanın Gədəbəy rayonu bölgəsinə və digər Azərbaycan ərazilərinə qanunsuz mina yerləşdirilməsi ilə başlamışdır. Nəticə Azərbaycanın qələbəsi, Göyçə və Zəngəzur ətrafında bəzi ərazilərin işğaldan azad olunması oldu.

Toqquşma nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin 80 nəfər hərbi qulluqçusu həlak olmuş, 2 mülki şəxs yaralanmışdır [130].

Azərbaycanın Dağlıq Qarabağ və ətrafındakı rayonların işğal olunmuş əraziləri ermənilər tərəfindən minalandığından hər gün mina qurbanlarının sayı artır.

2020-ci ildə 44 günlük Vətən müharibəsindən indiyə qədər ümumilikdə mina qurbanlarının sayı 314 nəfərə çatıb, onlardan 61 nəfər həlak olub. Xocavənd rayonu ərazisində baş verən mina partlayışı bir daha göstərir ki, Azərbaycan ərazisindən erməni silahlı qüvvələrini hələ də çıxarmayan, hərbi fəaliyyəti və minaların yerləşdirilməsini davam etdirən Ermənistanın və onun yaratdığı qondarma rejimin əsas məqsədi bölgədə hərbi gərginliyi artırmaq, terrorçuluqla məşğul olmaqdır. Bununla yanaşı, bu təxribatların məqsədi postmünaqişə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, bu ərazilərdə fəaliyyət göstərən mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına maneçilik yaratmaqdır.

Azərbaycanın insan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Ermənistanın növbəti mina terrorunu pisləyib. Ombudsman Şəbinə Əliyeva deyib ki, Ermənistan tərəfindən işğaldan azad olunmuş torpaqlarımızda basdırılmış minalar hərbi qulluqçularımızın və mülki şəxslərin həyatına son qoymaqda davam edir: "Ermənistan silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən törədilən mina terroru azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri ilə məşğul olan mülki şəxslərin həyat və sağlamlıqlarına təsir edir, Nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsinə və keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı prosesinə ciddi maneə yaradır. Azərbaycan tərəfi işğaldan azad edilmiş ərazilərimizdə basdırılmış minaların düzgün xəritələrini dəfələrlə

tələb etməsinə baxmayaraq, Ermənistanın bu xəritələri təhvil verməkdən imtina etməsi bu ölkənin günahsız insanların qətlində maraqlı olduğunu, beynəlxalq humanitar hüquq normalarına etinasız münasibətini bir daha sübut edir”. Statistika göstərir ki, Ermənistan sərhədimizə texnika və canlı qüvvə yığır, artilleriya cəmləşdirir, paralel olaraq Qarabağdakı separatçılar Rusiya sülhməramlılarının gözü qarşısında “səngər” qazır fortifikasiya qurğuları inşa etməyə çalışırlar. Ən son statistikaya görə, Qarabağdakı qanunsuz silahlı dəstələrin bu ilin martında 499 mövqeyi var idisə, bu rəqəm avqustda 671, sentyabr ayında isə 737-yə yüksəlmişdi.

1923-cü ilin sentyabrında Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində mövcud olan erməni silahlı qüvvələrinin təxribat diversiya qrupu tərəfindən Xocavənd rayonu ərazisində basdırılmış tank əleyhinə mina partlayıb. Təxribat nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 2 nəfər əməkdaşı həlak olub. Vurğulanıb ki, eyni gündə, qeyd edilən terrorun baş verdiyi əraziyə yola düşən Daxili İşlər Nazirliyinin 4 əməkdaşı Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda minaya düşərək həlak olublar.

44 günlük müharibə bitəndən bu yana ABŞ-da, Avropada, Rusiyada keçirilən görüşlər, imzalanan sənədlər heç bir fayda verməyib. Ermənilər öz bildiklərini ediblər. Havadarları onları daim dəstəkləyir, silahlandırır, müxtəlif vədlər verməklə təxribatlara sövq edirlər. Azərbaycan müstəqil, suveren dövlət kimi öz qanunlarına və beynəlxalq prinsiplərə istinad edərək, antiterror tədbirləri həyata keçirir. Nəzərə alaq ki, ərazimizdə həm separatçı qurum mövcuddur, eyni zamanda Ermənistana məxsus silahlı birləşmələr var. Odur ki, təxribatlar terror aktları baş verəcək.

Əlbəttə, Azərbaycanın istəyi sülhdür, ancaq bizi anti-terror tədbirləri görməyə məcbur edirlər [10].

28 saatlıq lokal xüsusiyyətli anti-terror əməliyyatı Azərbaycan tarixində xüsusi yer tutur. Təəssüf ki, şəhidlər və yaralılar oldu.

Ordumuzun Dağlıq Qarabağdakı separatçı rejimə və oradakı qeyri-qanuni erməni silahlı qüvvələrə qarşı apardığı 24 saatlıq lokal xarakterli anti-terror əməliyyatı növbəti dəfə Azərbaycan dövlətinin möhtəşəm zəfəri ilə nəticələndi. 1 günlük lokal xarakterli anti-terror əməliyyatı Qarabağdakı qanunsuz erməni silahlı birləşmələrin təslim olmasına kifayət etdi. Sentyabrın 20-də saat 13:00-da lokal xarakterli anti-terror tədbirlərinin dayandırılması barədə razılıq əldə olundu. Razılığa əsasən, Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyub, döyüş mövqelərindən və hərbi postlardan çıxır, tam şəkildə tərksilah olundular. Ermənistanın silahlı qüvvələrinin birləşmələri Azərbaycanın ərazilərini tərk edir və qeyri-qanuni erməni silahlı dəstələri buraxıldı. Prezident Administrasiyasının təklifi ilə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında reinteqrasiya məsələlərinin müzakirə edilməsi üçün Qarabağın erməni sakinlərinin nümayəndələri ilə Yevlaxda görüşlər keçirildi [93].

Azərbaycanın Müzəffər Ordusunun 1 günlük lokal xarakterli anti-terror əməliyyatı separatçıları ağ bayraq qaldırmağa vadar etdi. Çünki bu hadisədən iki gün öncə ermənilərin mina terroru Azərbaycan xalqının səbir kasasını daşıran son damla oldu. 44 günlük Vətən müharibəsində olduğu kimi 24 saatlıq anti-terror əməliyyatı ermənilərin məğlubiyyəti ilə nəticələndi. Növbəti qazandığımız bu möhtəşəm zəfər idi.

1923-cü ilin 19-20 sentyabr tarixlərində keçirilən anti-terror tədbirlərindən sonra həmin ərazidə Azərbaycan bayrağı qaldırıldı.

Azərbaycan xalqı milli-mənəvi dəyərlər sisteminə malikdir. Bu milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir.

Müasir tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması, xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsidir.

Ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması, təbliği, dünyaya təqdimatı yönündə sistemli tədbirlər həyata keçirilir. Milli bayramların, tarixi günlərin yüksək səviyyədə qeyd olunması, mədəni irsimizin beynəlxalq təşkilatlarda tanıdılması, zəfər günün qeyd olunması da bu qəbildəndir.

8 noyabr 2023-cü il Azərbaycanın Xankəndi şəhərində Zəfər paradının qeyd olunması xalqımızın milli-mənəvi dəyərlərinin gələcək nəsillərə ötürülməsini təmin etmişdir.

2023-cü il noyabr ayının 8-də İkinci Qarabağ müharibəsində (Vətən müharibəsində) Azərbaycanın əldə etdiyi zəfərin üçüncü ildönümünə həsr olunan Zəfər Paradı və ya Qələbə Paradı, yəni tarixi hərbi parad Xankəndidə keçirildi.

Paradda Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olan hərbçilərin xatirəsi bir dəqiqə sükutla yad olunmuş, Azərbaycanın Dövlət Himni səsləndirilmişdi. Paradda Azərbaycan Prezidenti İlham Əliyev çıxış etmişdi. Parada Azərbaycan Ordusunun Baş Qərargah rəisi Kərim Vəliyev başçılıq etmişdir [132].

Azərbaycan Ordusunun igid oğullarının əldə etdiyi nailiyyətlər xalq şairi Məmməd Arazın aşağıdakı sözlərini xatırladır:

*Bu torpağın son qurbanı mən olsam,*
*Öz odumda yanıb güllərə tən olsam,*
*Eldən ötən güllələrə dən olsam,*
*Ata millət, "oğul" deyib ağlama,*
*Ağlamağın yeri deyil, ağlama.*

## 2.3. İkinci Qarabağ müharibəsinin bir qrup müharibə şəhidləri, qaziləri – qəhrəmanları haqqında

## ELVİN SƏXAVƏT OĞLU ABASOV




Elvin Səxavət oğlu Abasov 1993-cü il iyunun 17-də Şamaxı rayonunun Çarhan kəndində anadan olub. O, 2013-cü ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb.

2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Füzuli rayonunda yerləşən “N” saylı hərbi hissəsində xidmət edib.

Azərbaycan Ordusunun əsgəri olan Elvin Abasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsində savaşıb. Elvin Abasov noyabrın 8-də Şuşanın azad edilməsi zamanı ağır yaralanıb və 14 gün Ağcabədi Rayon xəstəxanasında müalicə aldıqdan sonra noyabrın 22-də şəhid olub, Şamaxı Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 15.12.2020-ci il tarixində Elvin Abbasov ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edildi. Azərbaycanın Xocavənd

rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə 25.12.2020-ci il tarixində "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunub [109; 220].

## SƏYYAD ƏLİYAR OĞLU AĞAHÜSEYNLİ



Səyyad Əliyar oğlu Ağahüseynli 2002-ci il yanvarın 30-da Cəlilabad rayonunun Ocaqlı kəndində anadan olmuşdur. Səyyad Ağahüseynli 2008-ci il 15 sentyabrda Cəlilabad rayonu Şamil Nəzərov adına 1 №-li tam orta məktəbə daxil olmuş, 14 iyun 2019-cu ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir. O təkcə məktəb həyatında deyil, ictimai həyatda da çox fəal bir insan idi. O nəinki ailənin, həmçinin də dostların, qonşuların və qohumlarının böyük hörmətini qazanmışdı. Məktəbi bitirdikdən sonra kənd təsərrüfatı ilə məşğul olmuşdur. O işlərin çətinliklərini öz çiyinlərinə götürərək atasına yaxından köməklik göstərmişdir.

Kənd camaatının böyük hörmətini qazanmışdı. 18 illik ömür səhifəsində öz yaşından dəfələrlə böyük şəxsiyyət kimi görülən Ağahüseynli Səyyad 30 yanvar 2020-ci ildə hərbi xidmətə yollanmışdır. O, Ağcabədi rayonunun "N" saylı hərbi hissəsində

hərbi xidmətdə olmuşdur. Xidmətinin 8-ci ayında Müdafiə Nazirliyinin hərbi təlimində göstərdiyi şücaətinə görə fəxri fərman ilə təltif edilmişdir.

Xidmətinin 10-cu ayında 44 günlük Vətən Müharibəsində topçu olaraq ön cəbhəyə yollanmışdır. Müharibə dövründə bir neçə dəfə evlə əlaqə saxlamış, xidməti vəzifələrini layiqincə və şərəflə yerinə yetirdiyini böyük sevinc hissi ilə bildirmişdir. Müharibə dövründə Ağdam, Füzuli, Hadrut, Cəbrayıl, Qubadlı, Xocavənd, Zəngilan rayonları istiqamətində gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərmişdir. Cəbrayıl istiqamətində döyüşlər zamanı dörd gün mühasirədə olmuşdur. Cəbrayıl rayonu işğaldan azad edildikdən sonra ailəsi ilə əlaqə saxlamış və bildirmişdir ki, Cəbrayıl rayonuna ilk daxil olan əsgərlərdən biri də mən olmuşam. Valideynləri ilə sonuncu dəfə əlaqə saxlamış və bildirmişdir ki, könüllü olaraq döyüş meydanından şəhid yoldaşlarını çıxarmışdır. Şəhid olmamışdan əvvəl qazi qardaşı ilə əlaqə saxlamış və döyüş meydanında olan şəhid yoldaşlarının mübarək nəşini təcili tibbi yardım maşınına daşıdığını söyləmişdir. Qardaşı ilə danışığında "kəndə ilk şəhid mən gələcəm" demişdi. Sanki şəhid olacağını hiss edirmiş kimi söyləmişdir.

Ağahüseynli Səyyad Qubadlı rayonunda düşmən tərəfinin "S4-25" qırıcı təyyarəsinin atdığı kasetli mərmi nəticəsində qəhrəmancasına şəhid olmuşdur. Şəhid olduğu zaman həm dostu, həm də əsgər yoldaşına dediyi son söz isə, daha gecdir, mənimki bura qədərdir. Hər şey yaxşıdır" – deyib baş barmağı ilə Əla işarəsi göstərib mübarək ruhunu Allaha təslim etdi. Həyatına düşmən tərəfindən atılan mərmi son qoymuşdur. Şəhadətindən sonra "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur [133].

## NAZİR VƏ TACİR XASAY OĞLU ALLAHVERDİYEVLƏR



Ağdam Qarabağ müharibəsində və dövlətçiliyimizin qorunmasında 6 min nəfərə yaxın şəhid verib. Bu torpaq şəhid qanı ilə suvarılıb, yüzlərlə insan əlil olub, dinc insanlar ev-eşiyindən didərgin düşüb. Neçə-neçə gəncin ömrü yarıda qırılıb. Gənclərimiz torpaqların işğalçılardan azad edilməsi üçün hazır dayanmışdılar. Belə bir gün gəldi.

Ermənistanın sentyabrın 27-də ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə Vətən müharibəsinə başlayıb. Vətən müharibəsində həmvətənlərimiz şəhid olub, itkin düşüb, yaralanaraq sağlamlığını itirib.

Otuz ilə yaxın həsrətində olduğumuz torpaqlarımız şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilib. Çox böyük tarixi bir qələbə qazanılıb.

Vətən müharibəsində Ağdam rayonundan 47 nəfər döyüşlərdə şəhid olub. Ali məqama yüksələn şəhidlərdən əkiz qardaşların taleyi hər kəsi ağrıtsa da, onların adı, qəhrəmanlığı tarixin səhifələrinə şərəflə həkk olunub.

Rayonun Çullu kəndində Allahverdiyevlər ailəsində eyni gündə dünyaya gələn Nazir və Tacir qardaşlarının taleləri, həyat yolları da qoşa və qısa oldu.

Hər iki qardaş iyirmi yaşında öz canlarını Vətənə, torpağa fəda etdi. Heç vaxt bir-birlərindən ayrılmayan bu əkiz qardaşlar bir yerdə böyüdülər, orta məktəbi bir oxudular, hərbi xidmətə də bir yollandılar, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda bir yerdə döyüşdülər. Bu müqəddəs yolda, torpaqlarımızın işğalçılardan azad edilməsi uğrunda eyni gündə şəhid oldular. Doğulduqları Çullu kəndində torpağa tapşırıldılar.

Çullu kəndinə gedərək Nazir və Tacir qardaşlarının məzarlarını ziyarət edib, evlərində ailəsi ilə həmsöhbət olduq.

Bir gündə iki övladını torpağa tapşıran Mailə Allahverdiyeva acısı nə qədər böyük olsa da məğrur dayanıb. Bir gözü ağlayıb, bir gözü sevinir. Şəhid anası deyir ki, əkiz övladlarım Vətən yolunda, torpaq yolunda şəhid oldular. Şükür Allaha ki, torpaqlarımız işğaldan azad olundu. Balalarımın qanı yerdə qalmadı.

Əkiz övlad acısı yaşayan, ancaq qürurla danışan Mailə ana oğlanlarının gələcəyi haqqında arzu, xəyal qurur, onları xoşbəxt görmək istəyirdi. Ana göz yaşlarını silərək deyir ki, əsgərlikdən gələndən sonra toylarını da bir yerdə etməyi düşünürdüm. Balalarım bir yatıb, bir dururdular. Nə vaxt axtarsam, bir yerdə tapırdım. Hərbi xidmətə də qoşa getdilər. Çox gözləyirdim ki, gəlsinlər evləndirim. Eyni gündə evləndirəcəkdim onları. İstədikləri qız da var idi. İki qardaş iki bacını istəyirdilər. Qismət olmadı. Bu sözlərdən sonra şəhid anası göz yaşlarını saxlaya bilmirdi.

Bacıları Sahilə xanım dedi ki, Nazir və Tacir ailənin sonbeşikləri idilər. Qardaşları evin nuru, işığı, hamının sevimlisi olmuşdular. Ailədə 10 uşaq olmuşdu. Anam işdə olduğu üçün qardaşlarımı mən böyütmüşəm. O ki, elə bilirəm təkcə qardaşlarım deyil, həm də övladlarım şəhid olub. Onlarla fəxr edirəm.

Qüdrət Allahverdiyev qardaşlarının vətənpərvər olduqlarını deyir: – Əsgər yoldaşlarının, komandirinin dediyinə görə Tacir və Nazir topçu kimi düşmən qüvvələrinin darmadağın edilməsində igidlik göstəriblər, neçə dəfə telefonla danışanda dedilər ki, Vətən

uğrunda döyüşmək böyük şərəfdir. Heç bir çətinlik bizi qorxutmur. Qələbə qazanacağımıza əmin idilər. Ailədə yaşca ən kiçik olsalar da, daha yüksək mərtəbəyə – şəhidlik zirvəsinə ucaldılar.

Nazir və Tacir qardaşlarının timsalında bütün şəhidlərimizə borcluyuq. Çünki ən yeni tariximizi, Qələbə tariximizi onlar yazdılar, öz qanları ilə. Şəhid ailəsi yerli icra hakimiyyətinin diqqət və qayğısı ilə əhatə olunur. İnsanlar əkiz qardaşların doğulduğu evi ziyarətə gəlirlər, şəhidlərin xatirəsini uca tuturlar.

Qarabağın xəritəsini alın yazısında, yarasını ürəyində, qisasını polad kimi əyilməz biləklərində, savaş gününü gözlərində yaşadan, doğulduğu torpağa bütün varlığı ilə səcdə edən Vətən müharibəsində şəhid olan əsgər və zabitlərimizin əziz xatirəsi heç zaman unudulmayacaq [24].

## ARİF FİRUZ OĞLU ABBASLI



Arif Firuz oğlu Abbaslı 1993-cü il dekabrın 15-də Şərur rayonunun Qıvraq qəsəbəsində anadan olub. 2000-2008-ci illərdə Qıvraq qəsəbə tam orta məktəbində, 2009-2012-ci illərdə isə Heydər Əliyev adına Hərbi Liseydə təhsil alıb. 2012-2016-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil alıb. Ailəli idi. Bir yaşlı Ləman adında qızı yadigar qaldı.

Azərbaycan Ordusunun baş leytenantı olan Arif Abbaslı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Arif Abbaslı oktyabrın 12-də Füzuli də gedən döyüşlər zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə 09.12.2020-ci il tarixində Arif Abbaslı ölümündən sonra "Qarabağ" ordeni ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 15.12.2020-ci il tarixində Arif Abbaslı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə 29.12.2020-ci il tarixində Arif Abbaslı ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi [110].

## DAVUD YALÇIN OĞLU ABASOV



Davud Yalçın oğlu Abasov 1999-cu il noyabrın 19-da Cəlilabad rayonunun Sabirabad kəndində Yalçın və Vəsilə Abassovların ailəsində anadan olub. 2007-2018-ci illərdə E.Yusubov adına Uzuntəpə kənd tam orta məktəbində təhsil alıb. Subay idi.

Davud Abasov 2018-2020-ci illərdə Dövlət Sərhəd Xidmətinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ildən isə “Kiçik gizir” hərbi rütbəsində xidmət edirdi. Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının kiçik giziri olan Davud Abasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Davud Abasov oktyabrın 16-da Cəbrayıl döyüşləri zamanı şəhid olub. Cəlilabad rayonunun Sabirabad kəndində dəfn olunub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 15.12.2020-ci il tarixində Davud Abasov ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edildi. Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət göstərdiyinə, habelə qətiyyətli addımlar nümayiş etdiyinə görə 8.12.2020-ci ildə Davud Abasov

ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edildi. Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Davud Abasov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi [126].

## HƏSƏN CƏLİL OĞLU AYVAZOV



Həsən Cəlil oğlu Ayvazov 2000-ci il avqustun 21-də Tovuz rayonunun Pələkli kəndində anadan olub. V.Rəhmanov adına Pələkli kənd ümumi orta məktəbində təhsil alıb. Subay idi.

Həsən Ayvazov 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

Həsən Ayvazov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərinin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 15-dən Həsən Ayvazov ilə əlaqə saxlamaq mümkün olmayıb. Noyabrın 21-də şəhid olduğu müəyyənləşib. Noyabrın 22-də Tovuz rayonunun Pələkli kəndində dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Həsən Ayvazov ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif olunub [96].

## HÜSEYN ADİL OĞLU ABBASƏLİYEV



Hüseyn Adil oğlu Abbasəliyev 2 oktyabr 2000-ci ildə Mingəçevirdə anadan olmuşdur. Hüseyn Abbasəliyev 23 oktyabr 2018-ci il – 29 mart 2020-ci il tarixində Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olan Hüseyn Abbasov 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlər də iştirak edərək, 2020-ci il sentyabrın 29-da qəhrəmancasına şəhid olmuşdur. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 15.12.2020-ci il tarixdə Hüseyn Ab-

basəliyev ölümündən sonra "Vətən uğrunda" medalı və "Suqovuşanın azad olunmasına görə" 26.09.2020-ci il tarixli medalı ilə təltif edilmişdir [97].

## XASMƏMMƏD MƏFTUN OĞLU ABBASOV



Baş leytenant Xasməmməd Məftun oğlu Abbasov 1994-cü il avqustun 29-da Füzuli rayonunun Babı kəndində anadan olmuşdur.

2001-ci ildə Füzuli rayonu Babı kəndində yerləşən orta məktəbə daxil olmuş, 2010-cu ildə isə Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul olub, 2013-cü ildə həmin liseyi bitirmişdir. 2013-cü ildə Heydər Əliyev adına hərbi məktəbə daxil olub, 2017-ci ildə leytenant rütbəsi ilə ordu sıralarında xidmətə başlamışdır. Ailəlidir. Bir qız övladı var.

2020-ci il 27 sentyabr tarixində başlayan Böyük Vətən müharibəsində Vətənə xidmətə görə 3-cü dərəcəli orden, Suqovuşanın işğaldan azad olunması medalı, İkinci Vətən müharibə iştirakçısı medalı ilə təltif olunmuşdur.

Xasməmməd Abbasov müharibəni belə xatırlayır: 27.09.2020-ci il tarixində verilən döyüş tapşırığına əsasən düşmən üzərinə hücuma keçdik, düşmənin mühəndis maneələrindən

keçən zaman mən zirehli texnika ilə minaya düşərək sol əl nahiyəsindən yaralandım. Buna baxmayaraq şəxsi heyətə bunu büruzə vermədim və düşmənin ön xəttini yararaq hücumu davam etdirdim. Düşmənin bir xeyli canlı qüvvəsini avtomobil texnikasını məhv edərək bir neçə yüksəkliyini ələ keçirdik. Növbəti tapşırığımız Talış kəndinin azad olunmasında mühüm rolum oldu. 04.10.2020-ci ildə isə Suqovuşan qəsəbəsinə daxil olduğumuz zaman düşmənin artilleriyasının zərbəsi nəticəsində ayaq nahiyəmdən yaralandım və verilən tapşırığı icra etməyə davam etdirdim. Tapşırığı yerinə yetirdikdən sonra isə Hərbi Hospitalda 3 gün müalicə olunduqdan sonra, yenidən döyüşə qatıldım. 44 gün keçən böyük Vətən müharibəsində şəhid olan döyüş yoldaşlarımın və torpaqlarımızın azadlığı uğrunda gecə-gündüz mübarizə apardım. Sonuncu tapşırığımız isə anadan olduğum Füzuli rayonunda qələbə ilə bitən günlərdə oldu [134].

## TALEH ELMAN OĞLU ASLANOV



Taleh Elman oğlu Aslanov 1996-cı il dekabrın 12-də Goranboy rayonunun Səfikürd kəndində anadan olub. 2003-cü ildə Səfikürd kənd orta məktəbinə 1-ci sinfə getmiş və 2014-cü ildə məzun olmuşdur. Orta məktəbi bitirdikdən sonra 13.01.2015-ci

ildə həqiqi hərbi xidmətə yollanmışdır. 2016-cı ildə hərbi xidməti dövrü aprel döyüşlərinə təsadüf etdiyindən , həmin döyüşlərdə də iştirak etmişdir. 27.07.2016-cı ildə hərbi xidmətini başa vurmuşdur. Qazax rayonunun Kəmərli kəndində olan mövqelərimizdə döyüşüb. Döyüş yolu İkinci Vətən müharibəsinin qalib şəhidləri sırasında olan Aslanov Taleh Elman oğlu, 2020-ci il iyul müharibəsi ərəfəsində könüllü müharibəyə yazılmaq üçün Goranboy rayon Hərbi Komissarlığına dəfələrlə müraciət etmişdir.

2020-ci il sentyabrın 21-də hərbi səfərbərlik elan olunduğu gün Tərtər rayonunda hərbi təlimlərə başlamışdır. 27.09.2020-ci il öz istəyi ilə ön cəbhədə döyüşə qatılmışdır. Tərtər Ağdərə istiqamətində şiddətli döyüşlərdə qanı-canı bahasına vuruşmuşdur.

Oktyabrın 1-də atılan erməni mərmisi onun həyatına son qoydu. Ölümündən 24 gün sonra nəşi ailəsinə təhvil verildi. Kəndin qəbiristanlığında şəhidlərlə bərabər dəfn olundu.

"Vətən uğrunda" medalı ilə təltif olunmuşdur [74; 135].

## İQBAL İLQAR OĞLU ASTANLI



İqbal İlqar oğlu Astanlı 10 avqust 1997-ci ildə Biləsuvar rayonunda anadan olmuşdur. 2003-2014-cü illərdə N.Gəncəvi adına Biləsuvar şəhər 1 saylı tam orta məktəbdə təhsil almışdır.

2015-2019-cu illərdə Azəbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirmişdir. 2019-cu ildən Ağcakənd kəndi yaxınlığında Ballıqaya istiqamətində və Mingəçevir şəhərində yerləşən “N” saylı hərbi hissələrdə kəşfiyyat bölüyündə həqiqi hərbi xidmət keçmişdir. İqbal kiçik yaşlarından idmanla məşğul olmuş, Respublikada keçirilən idman yarışlarında güləş üzrə dəfələrlə çempion olmuş, müxtəlif medallarla təltif edilmişdir. Sərbəst güləş idman növü üzrə idman ustalığına namizəd idi. Astanlı İqbal Biləsuvar rayonun savadlı, aktiv gənclərindən olub, Gənclər siyasətinin rayonda, Respublikamızda həyata keçirilməsində göstərdiyi xidmətlərə görə Biləsuvar rayon İcra Hakimiyyəti, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Respublikası Güləş Federasiyası tərəfindən Fəxri Fərman və diplomlara layiq görülmüşdür.

Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu İqbal Astanlı Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixdən başlayan Vətən müharibəsində iştirak etmiş, 29 sentyabr 2020-ci il tarixdə Tərtər rayonunun Talış kəndi istiqamətində gedən döyüş əməliyyatıları zamanı qəhrəmancasına şəhid olmuşdur. Biləsuvar şəhərində dəfn olunmuşdur.

İqbal Astanlı ölümündən sonra "Vətən uğrunda", “Suqovuşanın azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif edilmişdir.

# RUZİGAR DAŞDƏMİR OĞLU ABDULLAYEV



Ruzigar Daşdəmir oğlu Abdullayev 1991-ci ildə Gəncə şəhərində ziyalı ailəsində anadan olub. 1998-ci ildə Gəncə şəhər 2 saylı orta məktəbə daxil olub. 2009-cu ildə həmin məktəbin 11-ci sinfini bitirib. 2010-cu ildə Vətənə borcunu ödəmək üçün hərbi xidmətə gedib. Naxçıvanın Şahbuz rayonunda "N" saylı hərbi hissədə kəşfiyyat bölməsində rabitə manqa komandiri vəzifəsində hərbi xidmətə başlayıb və sona qədər erməni işğalçıları üzbəüz xidmətdə olub. 2011-ci ilin iyul ayında hərbi xidməti başa vurduqdan sonra işə düzəlmək üçün DİN-nin Gəncə şəhər baş polis idarəsinə müraciət edib.

Təlimlərlə, idmanla məşğul olub. 2012-ci ildən DİN-nin DQ-da Xüsusi Təyinatlı kimi dövlətimizin və dövlətçiliyimizin keşiyində durub. 2018-ci ilin fevralından MODENİS MMC-nin Gəncə filialında E-manat terminalında inkassator işləyir. 2020-ci ilin məlum iyul hadisələrindən çox mütəəssir olan Ruzigar çalışdığı "Varındır ver, yoxundur götür" xeyriyyə cəmiyyətinin bir üzvü kimi iyul şəhidlərinin evlərinə gedir, ailəyə, hərbi hissələrə yardım aparırdılar. Bu hadisələrdən bərk təsirlənib Vətən torpaqlarını yağı düşməndən xilas etmək məqsədilə könüllü olaraq cəbhəyə getmək üçün qeydiyyata düşüb. Gəncə şəhəri Nizami rayonu Hərbi səfərbərlik İdarəsində ehtiyac yoxdur, get gözlə, ehtiyac

olanda çağırarıq, demişdilər. Müharibənin başlayacağı xəbəri hamını həyəcan içində saxlayırdı. Bir gün səhər saat səkkizdə qapı döyülüb. Sahə müvəkkili Ruzigarı soruşmuşdu. Çox həyəcanlı bir an idi. Müharibə hələ başlamamışdı, lakin orduya çağırış başlamışdı. Ruzigar gələn kimi Vətənin çağırışına getdi. Evdəkilərdə çaşıb qalmışdı. Hər kəs xəbərsiz idi, onun könüllü yazıldığından, 27 sentyabr 2020-ci ildə müharibə başlayanda artıq Ruzigar bir həftə idi ki, "N" saylı hərbi hissədə idi. Füzulidə döyüşə hazır vəziyyətdə olanda kəşfiyyat xəbər gətirdi ki, döyüş başlasa məğlub ola bilərlər, həmin hissədə erməni qüvvəsi çoxdur. İstiqamət Cəbrayıl rayonu üzrə döyüşlərə yönləndi. Ermənilərlə döyüşlər Cəbrayıl rayonu və onun kəndləri uğrunda başladı. Azərbaycan əsgərləri ermənilərə qan uddururdu. Dayanmadan, geri çəkilmədən Azərbaycan əsgəri irəli gedirdi. Döyüşlərdə döyüş yoldaşlarını itirmək, yaralandıqlarını görmək onların ermənilərə olan nifrətini daha da artırırdı. Cəbrayıldan sonra, Qubadlıya girdilər. Ağır döyüşlər itkisiz getmirdi. Hər an ölümlə göz-gözə gəlirdilər. Üç dəfə əlbəyaxa döyüşə girib ermənilərə qan udduran igidlərimiz həmişə zəfər çalırdılar. Döyüş meydanından yaralı yoldaşlarını dəfələrlə çıxardıb, ən çətini isə səninlə çörək kəsib, çiyin-çiyinə döyüşən yoldaşlarının qəfil şəhid olması Ruzigarı üzürdü. Dayanmadan irəli gedən əsgərlərimiz Qubadlıdan sonra Laçına girmək əmri alır. Qarda-boranda Laçın dağlarında Laçın torpağı uğrunda gedən döyüşlərdə mühasirəyə düşürlər. Üç gün ac-susuz qalan bölük çox əziyyət çəkir, lakin təslim olmur. Erməni qırıcıları başlarının üstündən sıralanır, susuzluqlarını söndürmək üçün quzuqulağı yeyirlər. Dodaqları partlayır, gözləri qaralır, ancaq təslim olmurlar. Ermənilər gəlir, elə bilirlər bizimkilərdir. İrəli gedən kimi əsgərlərimizi atəşə tuturlar. Çox çətinliklə 110 km döyüş yolu keçən əsgərlərimiz başqa bir bölüyün köməyi ilə mühasirədən çıxırlar.

Ruzigar 30 oktyabr 2020-ci ildə Laçında minomyotdan atılan, atəş nəticəsində güclü xəsarət alaraq xəstəxanaya düşür. Üç gün müalicədən sonra həkimlərdən xahiş edir ki, onu yenidən

cəbhəyə göndərsinlər və məqsədinə nail olur. Yenidən Laçına qayıdır. Güləbird kəndində yerləşirlər. 10 noyabr müharibə dayandıqdan sonra əsgərlər olduqları ərazini qoruyurlar.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq Cəbrayıl, Qubadlı və Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaəti nümayiş etdirmiş qazimiz Abdullayev Ruzigar Daşdəmir oğlu "Cəbrayılın azad olunmasına görə, "Laçının azad olunmasına görə", "Qarabağ uğrunda döyüşlərə görə" medalı ilə təltif olunmuşdur.

Qazimiz "Varındır ver, yoxundur götür", xeyriyyə cəmiyyətinin fəal üzvüdür, Cəmiyyət İkinci Qarabağ Müharibəsi dövründə əsgərlərimizə daima öz yardımları ilə dəstək olublar. Fəaliyyətləri dövründə kasıblara yardım ediblər. Pandemiya zamanı şəhərin hər yerində imkansız insanlara çörək yardımları edib, ərzaq paylayıblar. Ruzigar Abdullayev döyüşə gedəndən sonra dostları yenə də öz xeyirxah əməllərini davam etdiriblər, Şuşa şəhərinin məscidinə hədiyyə olaraq azan vermək üçün səsucaldan təqdim ediblər. Hal-hazırda fəaliyyətlərini daha da genişləndiriblər, köməyə ehtiyacı olan insanlara həm maddi, həm də mənəvi yardım edirlər. Qazimiz hələ də müalicələrini davam etdirir.İşlədiyi MODENJS MMC-nin rəhbəri Talıbov Ruslan müəllimə xüsusi minnətdarlığını bildirən ailə dövlətimizə və kollektivin bütün üzvlərinə bu işdə yardımçı olduğuna görə təşəkkür edir. Kollektiv həm Ruzigara, həm də onu müalicə edən EGE hospitalın uzman doktoru Əliyev Vüsala təşəkkürnamə təqdim ediblər. Ruzigar hər kəsə öz diqqət və qayğılarını əsirgəmədiklərinə görə təşəkkür edir:

*Unutmaz tarixin böyük günləri,*
*Dünyaya mərd gəlib, mərd gedənləri!* [136].

## HƏSƏN QƏRİB OĞLU ABDULLAYEV



Həsən Qərib oğlu Abdullayev 1994-cü il iyunun 21-də Daşkəsən rayonunda anadan olub. 2000-ci ildə Daşkəsən rayonunda 4№-li məktəbin 1-ci sinfinə daxil olub. 2011-ci ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir. Məktəbi bitirdikdən sonra ailəsi ilə birlikdə Gəncə şəhərində yaşamağa başlamışdı. 4 iyul 2012-ci ildə "N" saylı hərbi hissədə hərbi xidmətdə olub. 2013-cü ildə xidmətini başa vurub. Əsgərlikdə kəşfiyyatçı kimi xidmət edib. Xidmətini başa vurduqdan sonra idmanla məşğul olub. 8 sentyabr 2020-ci ildə "N" saylı hərbi hissədə MAXE kimi işə başlamışdı. Sonra isə könüllü olaraq döyüşə getmək üçün XTQ-ə yazıldı. İlk döyüşə Murovdan başladı. Dörd gün Murovda ölülərin arasında gizləndi. Erməni quldur dəstəsi onu görməsin deyə gizlənən əsgərimizi XTQ-nin üzvləri gələndə görüb və özləri ilə aparıblar. Kəlbəcərin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabr ayının 5-dən 6-na keçən gecə Şuşa şəhərinin Daşaltı kəndində şəhid olmuşdur. 12 noyabr 2020-ci ildə "Şəhidlər xiyabanında" dəfn edilmişdir.

Ölümündən sonra 15 dekabr 2020-ci ildə "Vətən uğrunda", 18 dekabr 2020-ci ildə "Döyüşdə fərqlənməyə görə", 29 dekabr 2020-ci ildə "Kəlbəcərin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Qonşularının dediklərinə görə Abdullayev Həsənin anası oğlunun həsrətinə dözə bilmədi. Dünyasını dəyişdi. Ondan bir həftə sonra Həsən Vətən torpağını qoruyarkən şəhidlik zirvəsinə yüksəldi [136].

## MƏRAHİM ASLAN OĞLU ABDULLAYEV



Mərahim Aslan oğlu Abdullayev 2002-ci il martın 27-də Şəmkir rayonunun Keçili kəndində anadan olmuşdur.

2008-ci ildə Ə.Həsənov adına Plankənd 1 №-li tam orta məktəbin birinci sinfinə daxil olmuş, 2017-ci ildə həmin məktəbin 9-cu sinfini bitirmişdir.

2020-ci ilin may ayında Həqiqi hərbi xidmətə çağırılmış, 08 oktyabr 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Ölümündən sonra “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilmişdir [137].

## HAFİZ XALİD OĞLU ABDURRƏHMANOV



Hafiz Xalid oğlu Abdurrəhmanov 21 sentyabr 1989-cu ildə Şəmkir rayonunun Sabirkənd kəndində anadan olmuşdur. 1997-ci ildə Şəmkir rayonunun Sabirkənd kəndində yerləşən S.Rüstəmov adına tam orta məktəbində 1-ci sinfə getmiş, 2005-ci ilə qədər həmin məktəbdə təhsil almışdır. 2005-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi liseyə daxil olmuş, 2008-ci ildə Liseyi bitirmişdir. Elə həmin il Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olmuş, 2012-ci ildə Ali Hərbi məktəbi leytenant rütbəsi ilə bitirmişdir. 2012-2013-cü illərdə Texniki Təlim Mərkəzində təhsil almışdır.

2013-cü ildən Sumqayıt şəhərində yerləşən "N" saylı hərbi hissədə xidmətə başlamışdır. 2014-cü ilin əvvəlindən Qusar rayonunda yerləşən "N" saylı hərbi hissədə bölük komandiri vəzifəsində çalışmışdır. 2015-ci ildə həmin hərbi hissədə xidməti dövründə baş leytenant rütbəsini almışdır.

2015-ci ilin payızından etibarən Bakı şəhərində yerləşən "N" saylı hərbi hissədə mühəndis-istehkam bölük komandiri vəzifəsində xidmətini davam etdirmişdir.

2019-cu ilin payızından etibarən Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə mühəndis-istehkam bölük komandiri vəzifəsində xidmətini davam etdirmişdir.

2020-ci ilin 26 iyun tarixində kapitan hərbi rütbəsini almışdır. Vətən müharibəsi başladığı dövrdə öz bölüyü ilə birlikdə Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Həmin istiqamətdə gedən döyüşlərdə 29 sentyabr 2020-ci il tarixdə şəhid olmuşdur.

Hafiz Abdurrəhmanov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Hafiz Abdurrəhmanov xidməti dövründə də bir neçə medal və Fəxri fərmanlarla təltif edilmişdir:

1.Leytenant Abdurrəhmanov Hafiz Xalid oğlu Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2013-cü il tarixli müvafiq əmri ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illik yubiley medalı" ilə, 26 iyun 2018-ci il tarixdə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illik yubiley medalı" ilə, 26 iyun 2020-ci il tarixdə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalla təltif olunmuşdur.

2. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində Zabit ixtisas kursunu bitirmə haqqında Sertifikat almışdır. 25 iyul 2012 – 28 iyun 2013-cü il tarixlərində "Mühəndis-istehkam tağım komandiri" kursunu bitirmişdir;

3. Certificate of Attendance Lieutenant Abdurrəhmanov Hafiz Khalid In recognition of your attendance for NATO counter IED Training in Baku, Azerbaijan Monday 27 April - Thursday 30 April 2015;

4. Baş leytenant Abdurrəhmanov Hafiz Xalid oğlu Hərbi hissənin yaranmasının 21-ci ildönümü münasibətilə döyüş hazırlığında və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə 2017-ci il tədris ilinin döyüş və ictimai-siyasi hazırlığında və qoşun xidmətində əldə etdiyi yüksək nailiyyətlərə görə, "15 iyun – Qurtuluş Günü" münasibətilə eləcə də döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə Fəxri fərmanla təltif olunmuşdur. Ailəli idi. İki övladı var [224].

## SEYMUR MİRZƏ OĞLU ALIZADƏ



Seymur Mirzə oğlu Alızadə 12 yanvar 1998-ci ildə Şəmkir rayonunun Xuluf kəndində anadan olmuşdur. 01.09.2004-cü ildə şəhid Rövşən İsmayılov adına 2 №-li Xuluf kənd tam orta məktəbin 1-ci sinfinə daxil olmuş, 2015-ci ildə həmin məktəbi bitirmişdir. Seymurun uşaq yaşlarından idmana xüsusi həvəsi, olmuşdur. Məktəbi bitirdikdən sonra 13 yanvar 2016-cı ildə həqiqi hərbi xidmətə getmişdir. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidməti borcunu 06.07.2017-ci ildə bitirmişdir. 21 sentyabr 2020-ci il tarixdə Səfərbərlik Xidməti tərəfindən könüllü olaraq ordu sıralarına getmişdir. Təlimlərdə peşəkar əsgər kimi nümunəvi xidmət göstərmiş, 27.09.2020-ci il tarixdən bir qəhrəman Azərbaycan əsgəri kimi döyüşlərə atılmış, hər zaman öndə olmağı ilə seçilmişdir. Döyüş yolu Çocuq Mərcanlı kəndi ərazisində yerləşən adsız yüksəkliklərdən başlamış, bir neçə kənd və qəsəbələrin azad olunmasında müstəsna rolu olmuşdur. Oktyabrın 26-na keçən gecə Füzuli rayonu istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmışdır.

7 noyabr 2020-ci il tarixində Xuluf kənd qəbiristanlığında dəfn olunmuşdur.

Ölümündən sonra "Vətən uğrunda" və "Fizulinin azad olunması" medalı ilə təltif olunmuşdur [224].

Ailəli idi. Bir qız övladı var idi.

# EMİN AKİF OĞLU ALMƏMMƏDOV



Emin Akif oğlu Alməmmədov 1989-cu il 27 fevral tarixində Şəmkir şəhərində anadan olub. 1996-cı il tarixində Cahangir Rüstəmov adına tam orta məktəbə daxil olmuş və 2006-cı ildə orta məktəbi bitirmişdi.

16 sentyabr 2012-ci il tarixində Alməmmədova Mələk ilə ailə həyatı qurub.

2014-cü ildə Şəmkir şəhər 058 saylı hərbi hissəyə MAXE kimi işə qəbul olub. Sonra göstərdiyi xidmətlərə görə çavuş rütbəsinə layiq görülüb. 03.10.2018-ci tarixindən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təlim və tədris Mərkəzində 30.11.2018-ci il tarixinədək gizir rütbəsi ilə fəaliyyət göstərmiş və idarəetmə maşın heyətinin rəisi ixtisas kursunu bitirmişdir. O, həm də "Ən yaxşı topçu komandiri" adı uğrunda keçirilən yarışlarda yüksək nəticələr göstərib və fəxri fərmanla təltif olunub. Gizir Alməmmədov Emin 2014-cü ildən Şəmkir, Tovuz, Goranboy, Ağstafa və Daşkəsən rayon hərbi hissələrində xidmət edib. O, 2016-cı ildə Aprel döyüşlərinin də iştirakçısı olub.

27 sentyabr 2020-ci il tarixində başlayan Vətən müharibəsi, İkinci Qarabağ müharibəsi başlayanda Daşkəsən rayon hərbi hissəsində xidmətdə olub. 27 sentyabr 2020-ci il tarixində Kəlbəcər rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub. 29 sentyabr 2020-ci il tarixində Şəmkir rayonunun ilk şəhidi olaraq dəfn olunub.

Ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunması uğrunda" və Hərbi xidmətlərinə görə medallar ilə təltif olunub.

Ailəli idi. İki övladı var [140; 224].

## NOFƏL HƏMİD OĞLU BEHBUDOV



Nofəl Həmid oğlu Behbudov 2001-ci il iyunun 17-də Goranboy rayonunun Səfikürd kəndində anadan olmuşdur.

Behbudov Nofəl 2007-ci ilin sentyabr ayında Səfikürd kənd orta məktəbində 1-ci sinfə gedib. 7-ci sinifdə oxuyarkən kəndin musiqi məktəbində tar üzrə təhsil alıb, sonra 2018-ci ilin may ayında 11-ci sinfi qurtararaq Gəncə Qızıl əllər, diş texnikliyi və feldşerlik fakültəsinə daxil olub. Bir il oxuduqdan sonra 2019-cu ilin iyul ayında hərbi xidmətə çağırılıb və Cəlilabad "N" saylı hərbi hissədə xüsusi təyinatlı bölmənin minomyot üzrə baş gizir əsgəri olub. 2020-ci ilin sentyabrında düşmən ölkənin təxribatı nəticəsində əks hücum əməliyyatı başlayıb. Baş gizir əsgər kimi o döyüşlərdə mərdliklə vuruşub. İkinci Qarabağ müharibəsində Murov, Suqovuşan, Füzuli, Cəbrayıl, Zəngilanın alınmasında iştirak etmiş, 6 noyabr 2020-ci ildə Şuşada gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdır. 2020-ci il noyabrın 12-də Səfikürd qəbiristanlığında dəfn olunmuşdur. Alınan torpaqlarda Nofəlin ayaq izləri var.

Bacısı ilə son dəfə telefon danışığında demişdi ki, biz Cəbrayıla bayrağı sancdıq, bacı indidə istiqamətimiz Şuşadı. Əzəli torpaqlarımızı yağı düşməndən azad edəcəyik. Anasına deyib ki, biz 4 hərifli yerdəyik bayrağı ora sancacağıq iki günə. Elə də oldu bayraq iki günə Şuşada dalğalandı.

Xüsusi təyinatlı əsgər kimi Kəlbəcər torpaqlarında kəşfiyyat döyüşlərində iştirak etmişdi. Qarabağa qayıdanda yolüstü yolda valideynləri ilə görüşüb, deyib ki, tezliklə Qarabağı alacayıq, bizi televizorda görəcəklər. Yoldaşları ona deyibdilər ki, 3 ay əvvəl qardaşın Tapdıq avtomobil qəzasında həlak olub.

Nofəl isə minomyotla düşmənin mövqelərini partladırdı. Onun nailiyyətləri çox idi.

Atası Behbudov Həmid, anası Gülbəniz Məhəmməd qızı, bacısı Səbinə Nofəllə fəxr edirlər. Ölümündən sonra cəsur döyüşçü "Vətən uğurunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib [145; 148].

Birinci Qarabağ müharibəsinin iştirakçısı, müharibə veteranı uzun müddət polis, sonra prokurorluq sistemində çalışan Salman Quliyev Nofəlin qəhrəmanlığını vəsf edərək "Nofəl" şerini yazmışdı:

*Vətənin uğrunda, xalqın yolunda,*
*Hiddətlə döyüşə girişdi Nofəl.*
*Koroğlu qüvvəsi duydu qolunda,*
*İlahi həvəslə döyüşdü Nofəl.*

*Qaranlıq meşəni axtarıb gəzdi,*
*Gizlənmiş düşmənin başını əzdi.*
*Yağı həmləsinə mərdliklə dözdü,*
*Sanki muradına yetişdi Nofəl.*

*Murovdağ, Kəlbəcər, Suqovuşana,*
*Cəbrayıl, Füzuli, həm Zəngilana.*
*Xocavənd, Ağdama, Şuşa ünvana,*
*Döyüşə-döyüşə dağ aşdı Nofəl.*

*Köksünü sərnitdi Şuşanın mehi,*
*Dizini islatdı, Cıdırın şehi.*
*Ona ad verdilər: "Şuşa Fatehi",*
*Natəvan, Vaqiflə görüşdü Nofəl.*

*Xalqımız hər zaman mübariz olmuş,*
*Düşmən üzərində, zəfəri çalmış.*
*Qələbə gününə bircə gün qalmış,*
*Heyf, dünyasını dəyişdi Nofəl.*

*Hünərdən tökülüb igidlik himi,*
*Salman, qəm notludur könlümün simi.*
*Düşməni məhv edən bir şəhid kimi,*
*Səfikürd kəndilə öpüşdü Nofəl.*

## CAHANGİR ƏMRAH OĞLU BAXIŞOV



Cahangir Əmrah oğlu Baxışov Qobustan rayonunun Nardaran kəndində 2001-ci ildə anadan olmuşdur. Nardaran kənd orta məktəbində 2006-cı ildə 1-ci sinfə daxil olmuş, 2017-ci ildə orta məktəbi bitirmişdir.

2018-ci il aprelin 11-də hərbi xidmətə yollanmışdır. Qulluq illərində erməni postuna daxil olaraq 4 erməni əsgərini məhv etmişdir. Xidmət illərində dəfələrlə fəxri fərmanlara layiq görülmüşdür.

27 sentyabr 2020-ci il mənfur ermənilərin Azərbaycana hücumu nəticəsində İkinci Vətən müharibəsinə qatılmış Xocavənd uğrunda gedən gərgin döyüşlərdə 2020-ci il oktyabrın 09-da həlak olmuşdur.

*Yaxınları onu belə anırlar:*
*Bir dağ olmaq istəyirdin,*
*Şəhid olmaq istəyirdin.*
*Torpaq olmaq istəyirdin*
*Vətənin qucağında.*

İkinci Vətən müharibəsində həlak olmuş Baxışov Cahangir ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur [147].

## NATİQ SALEH OĞLU BAXŞƏLİYEV



Natiq Saleh oğlu Baxşəliyev 1980-ci il iyulun 07-də Bakı şəhərində anadan olmuşdur. Əslən Baxşəliyev Qərbi Azərbaycanın Vedi rayonundandır. 27.09.2020-ci il Yasamal rayon hərbi komissarlığından çağırış əsasında 2020-ci il sentyabrın 30-da döyüşə yollanmışdır. Füzuli, Hadrut, Xocavənd və ən son Ərgünəş

dağı yüksəkliyi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Baxşəliyev Natiq 1986-cı ildə Bakı şəhəri, Yasamal rayonu 167 №-li orta məktəbin 1-ci sinfinə getmiş və 1997-ci ildə həmin məktəbi bitirərək Azərbaycan Texniki Universitetinin Avtomexanika fakültəsinə daxil olmuşdur. Universiteti 2001-ci ildə bitirərək, elə həmin ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 25 avqust 2001-ci il tarixli əmri ilə "Leytenant" rütbəsi almış və motoatıcı taborun minaatan batareyasının tağım komandiri – Batareyanın Baş zabiti vəzifəsinə təyin edilərək hərbi xidmətə çağırılmışdır. Anası Tamella xanım deyir ki, qrup yoldaşları arasında bu rütbəni çox az sayda tələbə qazana bilmişdi. Onlardan birincisi də Natiq idi. Hələ Hərbi xidmətdə ikən tutduğu dəftərçə indi də qalmaqdadır. O, bu dəftərçədə hərbi xidmətdə olarkən bütün silah növlərinin ad və detalları, onların iş prinsipi barədə qeydlər aparmışdı. Vaxt tamamında, 2003-cü ildə "N" saylı hərbi hissədən tərxis olunub, ehtiyata buraxılır. Yüksək insani keyfiyyətlərinə görə ətrafında olan hər kəsin sevgi və hörmətini qazanan biri olmuşdur. Təmkinli, səbirli, alicənab, ürəyiaçıq, ailəcanlı, dosta sədaqətli, böyüklərə hörməti ilə seçilmişdir Eyni zamanda idman, musiqi informasiya texnologiyası, rəsmə marağı olmuşdur Uzun müddət idmanla məşğul olmuş və bu sahədə uğurlar qazanmışdır. Əldə etdiyi medallar bunun göstəricisidir. Vətəninə çox bağlı insan olmuşdur. Ürəyində böyük vətən sevgisi, torpaq nisgili var idi. İkinci Qarabağ müharibəsi başlayandan 3 gün sonra ona çağırış gəlmiş və o bir saniyə belə düşünmədən döyüşə hazır olduğunu bildirmiş və dərhal hərbi komissarlığa yollanmışdır. O, düşünməzdi ki, bu gedişin geri dönüşü də olmaya bilər. Gedişi elə bir zaman kəsiyində baş tutmuşdu ki, ailəsi ilə belə doğru düzgün vidalaşa bilməmiş, yalnız telefon danışığı ilə vidalaşmışdır. Həyat yoldaşı "biz sənsiz, necə tək qalarıq?!" – deyə ağlasa da, o qətiyyətlə "Bəs vətəni kim qorusun?!" – demiş, canından artıq sevdiyi, bir dəqiqə belə tək qoymağa qıymadığı ailəsini geridə qoyaraq vətənini qorumağa üz tutmuşdur. O, tağım komandiri kimi Füzuliyə yollanır. Ailəsinə tez-tez zəng edərdi. Sonrakı günlər yavaş-yavaş zənglərin arası səngiməyə başlamışdı. Oncə Füzulidən zəng vurdu. Ən

son zəngi isə 17.10.2020-ci il tarixində Hadrutdan olmuşdu. Ən ağır döyüşlərdə iştirak etməsinə baxmayaraq həmişə ailəsinə vəziyyətin yaxşı olduğunu deyib, onları nigaran qoymamağa çalışardı. Amma bu dəfə nədənsə vəziyyətin olduqca gərgin olduğunu demişdi. Sanki ailəsini hazırlamağa çalışırdı. Əsgərlərinin və hərbiçi yoldaşlarının sevgisini və hörmətini qazanmış Natiq, onların xatirəsində mərd, qorxmaz, təhlükədən qaçmayan, riskə gedən, döyüş planları irəli sürən əsil igid kimi qalmışdır. Əsgərləri nəql edir ki, "O, hətta gecələri də yatmırdı. Çox yalvarırdıq ki, "komandir, heç olmasa 2 saat sən də yat". O isə cavabında şəhid olmasını hiss edirmiş kimi – "onsuz da o dünyada həmişəlik yatacam" – demişdi. Oğluna verdiyi sözü tuta bilmədi. Amma halbuki, döyüş dostlarına "oğluma söz vermişəm, qayıtmalıyam" – demişdi. Əsgərləri deyir ki, "Natiq nəinki əynindəki hərbi formasını çıxartmadı, hətta çəkmələrinin ipini belə bir gündə olsa boşaltmadı. Hər saniyə döyüşə hazır vəziyyətdə idi". Bunu əsgərlərinə də bir komandir kimi əmr edərmiş. "Həmişə hazırlıqlı olaq ki, əmr gəldiyi an hücuma keçək" deyə əsgərlərini döyüşə hazırlayırmış. Komandirlər onun neçə taktikalardan istifadə etdiyini deyərək təəccüblərini gizlədə bilmirdilər. Ərgünəş yüksəkliyi strateji cəhətdən çox əhəmiyyətli bir yüksəklik olduğu üçün, orada qızğın döyüşlər gedirmiş. Həmin döyüşlərdə də Natiq Baxşəliyev öz əsgərləri ilə düşmən mövqelərini ələ keçirmiş, lakin 20.10.2020-ci il tarixində, 12:30 radələrində mənfur düşmənin atdığı ağır artilleriya atəşi nəticəsində Ərgünəş yüksəkliyi uğrunda gedən qızğın döyüşdə qəhrəmancasına həlak olaraq şəhidlik zirvəsinə ucalmışdır. Əsgərlərinin xatirələrinə görə, yaralı olsalar da "komandir, komandir" deyə çox səsləniblər, lakin səs gəlməyib... Köməyə gələn dəstə, komandirini tapmaq üçün çırpınan yaralı əsgərləri sakitləşdirmək üçün Natiqin yüngül yaralandığını və onu artıq apardıqlarını deyiblər. Bir əsgəri isə belə xatırlayır: "Özüm də yaralı idim amma bu halda şəhid olmuş bir əsgəri döyüş zonasından çıxardım və huşumu itirdim. 4 gün sonra bildim ki, sən demə daşıdığım həmin şəhid - komandirimiz Natiq Baxşəliyev imiş. Çox ağır idi bunu bilmək...". Komandirlərinin əsl qəhrəman

olduğunu bildirirdilər. Çox arzuları qaldı ürəyində Natiqin. Əsas da oğlunun böyüməsini, uğurlarını görmək, şahidi olmaq istəyirdi. Amma fələyin yazdığı qismət şərəfli olduğu qədər də, acı idi. O həyatının 41-ci baharına çatmadan əbədi olaraq şəhidlik zirvəsinə ucaldı. Şanlı Azərbaycan tarixinin yeni açılmış səhifəsinə öz qanı ilə tarix yazanlardan birinə çevrildi... Ölümündən sonra Natiq Baxşəliyev "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif etmişdir. Hazırda məzarı II Fəxri Xiyabandadır [146].

## ELMƏDDİN DƏYANƏT OĞLU BƏDƏLOV



Vətən müharibəsinin 20 yaşlı qəhrəmanı şəhid Elməddin Dəyanət oğlu Bədəlov döyüşlərdə göstərdiyi qəhrəmanlığı ilə seçilib. O, düşmən sədlərinin yarılmasında fəal iştirak edib və cəbhədən gələn ilk qələbə xəbərində onun da payı olub. Füzuli rayonunun Kərimbəyli kəndindən olan Elməddin Bədəlov 2000-ci il martın 3-də Bakı şəhərində dünyaya göz açıb. 2006-cı ildə şəhid Əkrəm Səlimov adına Kərimbəyli kənd tam orta məktəbində təhsil almağa başlayan Elməddin vətənpərvərliyi ilə seçilib. Gələcəkdə hərbçi olmaq onun ən böyük arzusu idi. İdmana da marağı olan Elməddin güləş idman növü üzrə uğurları ilə fərqlənib. 2018-ci ildə hərbi xidmətə də sevinclə yola düşən Elməddin xidmətini

ön cəbhədə yerinə yetirib. Hərbiyə marağı olduğu üçün Elməddin müddətdən artıq xidmətçi kimi yenidən Vətənin keşiyində dayanır. Vətən müharibəsində bir çox tapşırıqların uğurlu yerinə yetirilməsində fəallıq göstərib. O, kəşfiyyatçı kimi düşmənin arxasına keçərək təkbaşına Füzulinin Merdinli kəndində 16 ermənini məhv edib və döyüş yoldaşları üçün yol açıb. Daha sonra Füzulinin Qaraxanbəyli kəndi uğrunda döyüşlərdə ən çətin düşmən məntəqələrinin məhv olunmasında iştirak edib. Sentyabrın 29-da şəhid olarkən dediyi söz isə belə olub: “Yenə canım olsaydı, onu da Vətənim üçün fəda edərdim...”. Elməddin Bədəlov döyüşlərdə göstərdiyi şücaətə görə ölümündən sonra “Vətən uğrunda” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub [160].

## ORXAN SABUTAY OĞLU CÜMŞÜDOV



Orxan Sabutay oğlu Cümşüdov 1993-cü il sentyabrın 1-də Goranboy rayonunda anadan olmuşdur. 1999-cu ildə ailə Belarusiyanın Svetlaqorski şəhərinə köçmüş Orxan ilk təhsilini orada almış, daha sonra 2003-cü ildə yenidən Azərbaycana dönərək Niyazi Aslanov adına Tapqaraqoyunlu kənd orta məktəbində təhsil almış 10-cu sinifdə Fəxrəddin Rüstəmov adına Tap orta məktəbində təhsilini davam etdirmiş, 2011-ci ildə bu məktəbi bitirmiş-

dir. Daha sonra Gəncə Dövlət Universitetinin İqtisadiyyat və İdarəetmə üzrə Menecment fakültəsinə daxil olur. 2015-ci ildə bakalavr təhsilini başa vurduqdan sonra Bakı Mühəndislik Universitetinə iqtisadiyyatın Təşkili və İdarə olunması ixtisası üzrə daxil olur. Naxçıvanda hərbi xidmətə başlayır. Hərbi xidməti başa vurduqdan sonra magistr təhsilini davam etdirir. 2018-ci ildə Universiteti bitirir. 2020-ci il sentyabr ayının 1-də Bakı Nəqliyyat Agentliyində işə başlayır. Sentyabr ayının 21-də səfərbərliklə bağlı Hərbi komissarlığa çağırılır. Həmin ay 27 sentyabr döyüşləri başlayanda Füzuliyə döyüşə aparılır. 40 gün işğal olunmuş bir neçə rayonda döyüşdükdən sonra 2020-ci il oktyabrın 31-də ürəyindən zərbə alaraq şəhid olur. Ölümündən sonra "Vətən uğurunda" medalı ilə təltif olunub [186].

## TURAL ZAHİD OĞLU CUVAROV



Tural Zahid oğlu Cuvarov 01 may 1996-cı ildə Şəmkir rayonunun Ələsgərli kəndində anadan olmuşdur. 2003-cü ildə Şəmkir rayon Ələsgərli kənd Nəsir Nəsirov adına tam orta məktəbin birinci sinfinə daxil olmuş, 2014-cü ildə həmin məktəbi bitirmişdir.

Orta məktəbi bitirdikdən sonra 2014-2016-cı illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuş, həqiqi hərbi xidməti

bitirdikdən sonra 2016-2020-ci illər ərzində yaşadığı kənddə kənd təsərrüfatı ilə məşğul olmuşdur. 27 sentyabr 2020-ci ildə vətən müharibəsinə yollanmış, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 26 oktyabr 2020-ci ildə Qubadlının yağı düşməndən azad olunması uğrunda gedən döyüş zamanı şəhidlik zirvəsinə ucalmışdır.

Şəhid Tural Cuvarov doğulub boya-başa çatdığı Ələsgərli kəndində dəfn olunmuşdur.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət və fədakarlıq göstərdiyinə, habelə təşəbbüskar və qətiyyətli addımlar nümayiş etdiyinə görə Tural Cuvarov ölümündən sonra 15.12.2020-ci ildə "Vətən uğrunda", 18.12.2020-ci ildə "Döyüşdə fərqlənməyə görə" və həmçinin Füzuli rayonunun işğaldan azad edilməsinə görə, 25.12.2020-ci il tarixdə "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir [149; 188].

## KƏNAN ELMAN OĞLU DADAŞZADƏ



Kənan Elman oğlu Dadaşzadə 2001-ci il iyunun 1-də Örənqala qəsəbəsində dünyaya gəlmişdir. O, 2007-ci ildə Nazim Quluiyev adına Örənqala kənd tam orta məktəbin 1-ci sinfinə daxil

olmuşdur. 5-ci sinifdən təhsilinə Məmməd İsmayıl Cuvarlinski adına Bakı şəhəri 52 №-li tam orta məktəbdə davam etdirmişdir. 2019-cu il iyulun 1-də SHXÇDX Beyləqan rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılan Kənan Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətə başlamışdır. O, düşmənlə üzbəüz səngərlərdə şücaəti, qətiyyəti, vətən sevgisi ilə xidmət etmişdir. Kənan 27 sentyabr 2020-ci ildə Tap Qaraqoyunlu kəndində xidmətini davam etdirirdi. Cəbhə boyu əks-hücum, əkshəmlə tapşırığı alan ordumuz az müddətə düşmən üzərində üstünlük əldə etmişdir. Ermənilərin illərlə möhkəmləndiyi mövqeləri ələ keçirilmişdir. Kənan əsgər yoldaşları ilə birlikdə döyüşə atılmış, Tap Qaraqoyunlu istiqamətində qarşılarındakı düşmən mövqelərinin alınmasında iştirak etmişdir.

Daha sonra təmsil olunduğu tabor cəbhənin digər istiqamətində Tərtər rayonunun Talış kəndində döyüşlərə davam etmişdir. Lakin döyüşlərin üçüncü günü – sentyabrın 29-da yaxınlığına düşən minomyot mərmisindən qəlpə yarası alan Kənan şəhid olmuşdur. O, sentyabrın 30-da Örənqala qəsəbəsində dəfn olunmuşdur.

Kənan idmanı sevirdi. Cüdo ilə məşğul olurdu. Quru qoşunları snayperi idi.

Subay idi. Ailədə iki qardaş olublar.

Atası Elman kişi müəllim, anası Şəkurə xanım evdar qadındır.

Qardaşı Aqşin ailəlidir.

Döyüş əməliyyatları zamanı "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdi [26; 150].

# ELNUR ELMAR OĞLU ƏZİZOV



Elnur Elmar oğlu Əzizov 24 sentyabr 1998-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 2004-2016-cı illərdə Gəncə şəhəri 31 №-i orta məktəbini bitirmişdir. 2015-2019-cu illərdə Azərbaycan Dövlət Aqrar Universitetinin "Qida məhsulları mühəndisliyi" fakültəsini bitirmişdir. 2020-ci ilin yanvarında Azərbaycan Ordusu sıralarında hərbi xidmətə başlamışdır. İkinci Qarabağ müharibəsinin ilk günlərindən o döyüşən ordunun sıralarında idi. 12 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Hadrut qəsəbəsində şiddətli döyüşlərin iştirakçısı oldu. Növbəti döyüşlər Xocavənd rayonunun digər kəndlərinin azad olunması ilə baş verdi.

Ümumiyyətlə, sentyabrın 27-dən noyabrın 10-dək Elnur Cəbrayıl rayonunda, Hadrut qəsəbəsində, Xocavəndin Tuğ, Böyük Tağlar kəndlərində, Şuşanın Topxana meşəsində, Böyük Kirs dağında, Şuşi kəndinin azad edilməsində, Çanaxçı, Günaxçı Tağıverd hərbi hissə komandirinin "rabitəçisi" kimi iştirak etmişdi.

Noyabrın 9-da Şuşanın Qırmızı Bazar qəsəbəsi istiqamətində döyüşmüş, gicgahından qəlpə yarası almışdır. Dekabr ayının 9-dan igid döyüşçü Laçın rayonunu qorumaq üçün Ordu ilə bərabər getmişdi. 8 ay Laçın rayonunda xidmət etmişdir. Elnur Əzizov Xocavəndin və Laçının azad olunmasına görə 2 medalla təltif olunmuşdur.

Baş nazir tərəfindən "Müharibə iştirakçısı" medalı ilə Müdafiə Nazirliyi tərəfindən 1 təşəkkür məktubu, 3 fəxri fərmanla təltif olunmuşdur.

Hazırda Gəncə şəhər icra nümayəndəliyində "Nəqliyyat və Sərnişindaşıma" işləri üzrə şöbə rəisinin müavini işləyir (141).

## AMAL RAUF OĞLU ƏHMƏDOV



Amal Rauf oğlu Əhmədov 3 may 1996-cı il Rusiyanın Tver şəhərində anadan olub. 2002-2003-cü illərdə Gəncə şəhərində C.Cabbarlı adına 6 №-li tam orta məktəbdə təhsil alıb, 2013-cü ildə Gəncə Texniki Kollecinə daxil olub. 2014-cü ildə isə təhsilini dayandıraraq hərbi xidmətə gedib.

2014-2016-cı illərdə Azərbaycan Ordusunun Quru qoşunlarında xidmət edib. Gizir idi.

Amal Əhmədov 2020-ci il Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Amal Əhmədov oktyabrın 13-də Füzulinin azad edilməsi zamanı şəhid olub. Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 15 dekabr 2020-ci il tarixində Amal Əhmədov ölümündən sonra "Vətən uğurunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən cəsarət göstərdiyinə və qətiyyətli addımlar atdığına görə Amal Əhmədov ölümündən sonra 18 dekabr 2020-ci ildə "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə 25 dekabr 2020-ci il tarixində "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmişdir. Subay idi [141].

## ANAR RAFİQ OĞLU ƏSƏDOV



Anar Rafiq oğlu Əsədov 1982-ci il iyulun 7-də Füzuli rayonunun Kərimbəyli kəndində anadan olub. 1989-cu ildə Kərimbəyli kənd Əkrəm Səlimov adına tam orta məktəbin 1-ci sinfinə daxil olan Anar hələ uşaq yaşlarından vətənpərvərliyi ilə seçilib.

1990-cı illərdə erməni vəhşiliyinə hələ yeniyetmə çağlarında şahid olan Anar düşmənə qisas hissi ilə yaşayıb. 2001-ci ildə həqiqi hərbi xidmətə yola düşən Anar hərb sirlərinə peşəkarcasına yiyələnib. Hərbi xidməti başa vurduqdan sonra bir müddət mülki işdə çalışsa da, Vətən harayı Anarı hərbçi olmağa səsləyib. Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəyə müddətdən artıq hərbi qulluqçu kimi hərbi xidmətə qəbul olunan Anar ön cəbhədə xidmətini davam etdirib. Həmləçi snayper və manqa komandiri olan Anar Vətən müharibəsində qorxu bilmədən həmişə öndə gedərək düşmənin atəş nöqtələrini susdurmaqda fəallıq göstərib. Snayper silahından açdığı dəqiq atəşlər erməni hərbi birləşmələrinə göz dağı olub. Cəbhədən ilk gündə gələn Qələbə xəbərlərində Anar və döyüşçü yoldaşlarının da payı olub. Döyüşlərin ikinci günündə düşmənin pusqusuna düşən silah yoldaşlarını xilas edərkən Anar şəhidlik zirvəsinə yüksəlib. Anar Əsədov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub [160].

## RAUF VAQİF OĞLU ƏSGƏROV




Rauf Vaqif oğlu Əsgərov 1978-ci il noyabrın 2-də Gəncə şəhərində dünyaya gəlmişdir. 1985-ci ildə birinci sinfə gedib. Əvvəlcə rus bölməsində oxuyub. Məlum 1990-cı il hadisələrindən

sonra, 7-ci sinifdə Azərbaycan bölməsinə keçən Rauf tez-tez qaçıb şəhərdə yerləşən hərbi hissəyə gedib baxırdı. Məni də aparın, gedib erməniləri öz əllərimlə öldürüm deyirdi. Anasının dediyinə görə direktor valideynini çağırırmış ki, gəl gör uşağı hərbçilər və ya polislər məktəbə gətirirlər. Gəncədə olan mitinqlərdə iştirak edirdi. 1986-cı ildə 44 №-li tam orta məktəbi bitirib, həmin ildə Azərbaycan Neft Akademiyasına daxil olub. Ailə vəziyyəti ilə əlaqədar olaraq, Gəncə şəhər Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun eyni fakültəsinə dəyişdirildi. Həm oxuyurdu, həm də işləyirdi.

2005-2007-ci illərdə Naxçıvan şəhərində "N" saylı hərbi hissədə Baş leytenant rütbəsində xidmətdə olub. 2008-ci ildə ailə həyatı qurub. İki qız, bir oğul övladı var. Müxtəlif işlərdə işləyib. "Varındır ver, yoxundur götür" xeyriyyə cəmiyyətinin üzvü olub. Pandemiya dövrü əhalinin kasıb təbəqəsinə çörək yardımı təşəbbüsünü irəli sürüb.

Tovuz hadisələrindən çox təsirlənib. Hərbi səfərbərlik vaxtı hərbi hissəyə gedib, könüllü olaraq Orduya yazılıb. Oktyabrın 6-da hərbiyə çağırılan Rauf bir neçə gün Gəncədə təlimlərdə olub. Sonra döyüş bölgəsinə gediblər. Döyüşdə Füzuli rayonuna gətirilən Rauf və əsgərləri Vətənin azadlığı uğrunda döyüşlərdə fəal iştirak ediblər. Yaralıların köməyinə çatıblar, şəhid olanları döyüş meydanından çıxarmağa kömək ediblər. Füzulinin kəndlərində döyüş yolu keçən Rauf Əsgərov Vətən uğrunda döyüşlərdə, 26 oktyabr 2020-ci ildə şəhadətə qovuşdu. Gəncə "Şəhidlər" xiyabanında dəfn edildi.

Ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi [136].

# FƏRİD HAMLET OĞLU ƏLİYEV



Fərid Hamlet oğlu Əliyev 2001-ci il martın 22-də İsmayıllı şəhər Kürdmaşı kəndində anadan olmuşdur. 2007-ci ildə C.Həsənov adına Kürdmaşı kənd tam orta məktəbinə daxil olmuşdur. 2018-ci ildə məktəbi bitirmişdir. 2018-ci ildə İsmayıllı Dövlət Humanitar və Texnologiya Kollecinin "Turizm və Onun Təşkili" ixtisası üzrə qəbul olunmuşdur. 2019-cu ildə təhsilinə fasilə verərək hərbi xidmətə getmişdir.

Subay idi. Atası Əliyev Hamlet C.Həsənov adına Kürdmaşı kənd tam orta məktəbin biologiya müəllimidir. Anası Vəliyeva Rəna həmin məktəbin ingilis dili müəllimidir.

Azərbaycan Ordusunun əsgəri olan Fərid Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olmuşdur. Fərid Əliyev sentyabrın 28-də doğulduğu İsmayıllı rayonunun Kürdmaşı kəndində dəfn olunmuşdur. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 15.12.2020-ci il tarixdə Fərid Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə 24.12.2020-ci il tarixdə Fərid Əliyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi [81].

## ƏLİ AYDIN OĞLU ƏLƏSOV



Əli Aydın oğlu Ələsov 1995-ci il yanvarın 8-də Goranboy rayonunun Səfikürd kəndində anadan olmuşdur. 2001-ci ildə Goranboy rayonu Tatarlı kəndində yerləşən Sərxan Ocaqverdiyev adına məktəbin 1-ci sinfinə daxil olub. Tarix fənnini çox sevirdi. Tarix üzrə olimpiadalarda, yarışlarda öndə olurdu. 2012-ci ildə həmin məktəbin 11-ci sinfini əla qiymətlərlə bitirərək Azərbaycan Müəllimlər İnstitutunun "Psixologiya" fakültəsinə daxil oldu. Müəllimlər İnstitutu Pedaqoji Universitetin bazası ilə birləşdirildiyi üçün Əli 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Psixologiya" fakültəsini bitirib. Yoldaşları içərisində həmişə fərqlənən Əli 2016-cı ildə hərbi xidmətə yola salındı. Hərbidə Əli Ədliyyə sahəsi üzrə Təlim Tədris Mərkəzində hərbi hazırlıq kursunu keçdi. Daima Xocalı faciəsini unuda bilməyən, ona aid sənədli filmlərə, xəbərlərə baxan, mütaliə edən Əli heç vaxt

sakit ola bilmirdi. Nə qədər ki, torpaqlarımız düşmənin əlindədir nə biz, nə də övladlarımız rahat ola bilməzlər deyirdi. Biz torpaqlarımızı düşməndən azad etməliyik. 2019-cu ilin fevral ayında kursu müvəffəqiyyətlə başa vuraraq "N" saylı hərbi hissəyə zabit kimi təyin olunur və bölük komandirinin müavini təyin olunur.

Leytenant Ələsov Əli 27 sentyabrda Tərtər rayonunun Talış kəndi və Suqovuşan uğrunda gedən döyüşlərə başlayır.

Əli ixtisasca psixoloq idi. Uşaqları çox sevirdi. Yenicə ailə qurmuşdu. Aydın adlı körpə övladı var idi. Oğlunu çox sevirdi. Amma Vətən sevgisini, yurd məhəbbətini övlad məhəbbətindən üstün bilirdi. Əmisi, atası ilə bərabər sevdiyi Şoşan Ələsov da Birinci Qarabağ müharibəsində həmişə ön cəbhədə könüllü vuruşanlardan idi. Dəfələrlə yaralansa da müharibədən sağ qayıtmışdı. Bəlkə Əli də onun kimi olmağı hələ körpəlikdən seçmişdi.

Əlinin bölük komandiri baş leytenant Abbasov Xasməmməd xatirələrində qeyd etdi ki, döyüşdüyümüz yer Talış və Suqovuşan ərazisində olub. İlk olaraq Talış istiqamətində düşmənlə üz-üzə dayandıq. Döyüşdə düşmənin ön xəttini yardıq. Ələsov Əli bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində çalışırdı. Onun işi yeni şəxsi heyəti döyüşə ruhlandırmaq, mənəvi psixoloji vəziyyəti aradan götürmək, döyüşdə isə yaralıları və şəhidləri qeydiyyata almaq idi. Amma Əli bu yolu seçmədi. Bunu mənə hələ müharibə başlamamışdan demişdi: "Müharibə başladı mən hamı kimi döyüşəcəyəm". Elə də oldu. Mən Əli Ələsovda qorxmazlığı, cəsarəti, vətənə sevgini gördüm.

Artıq döyüşün üçüncü günü idi. Düşmən postlarının qarşısında 3 tank var idi. Əli, mən və digər döyüşçülər həmin istiqamətdə irəlilədik. Düşmənlər döyüş meydanından qaçdılar. Biz tankları götürüb bölməmizə gətirdik ki, bizimkilər düşmənə qarşı istifadə etsinlər. Növbəti döyüş zamanı Tərtər rayonunun Suqovuşan ərazisində idik. Düşmən bizi pusquya saldı. Biz bir binanın arxasında idik. Oradan çıxmaq mümkün deyildi. Düşmən müxtəlif silahlardan atırdı. Əli hamıdan əvvəl mövqedən çıxıb, cəld hərəkətlə bizim istiqamətimizdəki düşmən əsgərlərini məhv etdi,

yol açdı və bizi mühasirədən çıxardı. Səhərisi gün Ağdərə istiqamətində döyüş tapşırığı aldıq. Tapşırıq çox çətin idi. Həmin yerlər sıldırım qaya və sıx meşə idi. Biz qarşıdakı yüksəkliyə 4 saata qalxdıq. Düşmənin xüsusi təyinatlı qüvvələrinə rast gəldik. Onlar güclü müqavimətimizə tab gətirə bilmədilər və geri çəkildilər. Biz isə irəlilədik və qarşıda düşmənin bir neçə tanklarının səsi gəlirdi, amma tankların dəqiq yerlərini bilmirdik. Tanklar atəş açmağa başladı. Nəticədə bizim bir neçə qardaşımız şəhadətə qovuşdu. Əli ağır yaralanmışdı. O yenə də sürünə-sürünə irəliləyirdi. Nəticədə Əli yüksəkliyə birinci çıxanlardan oldu. O ölümsüzlüyə qovuşdu. Döyüş tapşırığını ləyaqətlə yerinə yetirməyi həyatından üstün tutdu. Bu istəklə bir neçə əsgərlə bərabər qabağa getdi. Düşməni qovmaq, köksü ilə Vətən torpaqlarını qorumaq, Əlinin ən ülvi məqsədi idi. Elə də etdi. Döyüş meydanında qəhrəmancasına həlak olmuş Əlinin bu xəbəri kənddə sürətlə yayıldı. Xəbəri eşidən Birinci Qarabağ müharibəsi iştirakçısı, keçmiş döyüşçü Şoşan Ələsov döyüş meydanına getmək istədi. Dedilər, Əli ön cəbhədə şəhid olub. Nəşi hələlik ön cəbhədədir. Eybi yoxdur icazə verin mən də igid Əlinin yanına gedim, ölsəm Vətən uğrunda ölərəm dedi. İcazə verilmədiyi üçün aylarla igid Əlinin həsrəti ilə yaşadı. Axtardı Əli isə yaralı ikən özü üçün elə bir mövqe seçdi ki, ölənədək vuruşsun və düşmən əlinə keçməsin. Sıldırımlı qayalıq, meşəlik ərazidə nəşi isə dekabrın 29-da tapıldı. Evdə ana, atasına mən lazım gəlsə döyüşdə şəhid olacam, amma Vətənim Azərbaycanı qoruyacağam demişdi. Onun arzusu çin oldu.

Gənc şəhid leytenant Ələsov Əli Aydın oğlu ölümündən sonra "Vətənə xidmətə görə" III dərəcəli orden, "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Azərbaycan Ordusunun leytenantı Əli Ələsov 2020-ci il Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun, Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə savaşıb. Əli Ələsov oktyabrın 6-da Ağdərə istiqamətində şəhid olub. Dekabrın 29-da Goranboy rayonunun Səfikürd kənd qəbiristanlığında kəndin digər şəhidləri ilə eyni sırada dəfn olunub [156; 157; 161].

# ORXAN ELŞAD OĞLU ƏLİLİ



Orxan Elşad oğlu Əlili 2000-ci il avqustun 23-də Şəmkir rayonunun Qaracəmirli kəndində anadan olub. 15 sentyabr 2007-ci ildə Qapanlı kənd İsrafil Məmmədov adına tam orta məktəbin 1-ci sinfinə qəbul edilmiş və 31 may 2018-ci il tarixdə isə həmin məktəbin 11-ci sinfini bitirmişdir. 2019-cu ilin oktyabr ayında isə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısının alınması ilə əlaqədar hərbi əməliyyatlar çərçivəsində 2020-ci il noyabr ayının 16-da Şuşa rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad edilməsinə görə" medalları ilə təltif edilmişdir. Subay idi [151].

## NURÇİN EMİN QIZI ƏLİYEVA



Nurçin Emin qızı Əliyeva 1987-ci il martın 06-da Şəmkir rayonunun Çinarlı qəsəbəsində dünyaya göz açıb. Çinarlı qəsəbəsində Etibar Həsənov adına 1 №-li tam orta məktəbdə təhsil alıb. 1994-cü ildə Gəncə Müəllimlər İnstitutunun ibtidai təhsilin metodikası fakültəsini bitirib. 2003-cü il fevralın 16-da ailə qurub.

Həyat yoldaşı – Əlizadə Anar Adil oğlu – 1982-ci il iyulun 31-də anadan olub.

2020-ci il oktyabrın 11-də Gəncə hadisələrində şəhid olub, (“mülki şəhiddir”).

Qızı – Əlizadə Sevil.

Oğlu – Əlizadə Hüseyn Anar oğludur [224].

## ANAR ADİL OĞLU ƏLİZADƏ



Anar Adil oğlu Əlizadə 1982-ci il iyulun 31-də Gəncə şəhərində anadan olub Gəncə şəhər 32 №-li orta məktəbdə oxuyub. Hərbi xidmətdə Daxili qoşunların XTD-də olub. Çavuş rütbəsinə yüksəlib. Gəncə ATS idarəsində mühafizə xidmətinin rəisi müavini vəzifəsində leytenant rütbəsi ilə işləmişdir. 12 il Rusiya Federasiyasında fərdi əməklə məşğul olub. İdmançı idi. Karate – şotokan növü ilə məşğul olub və məşqçilik edib. 2003-cü il fevralın 16-da ailə qurub.

Həyat yoldaşı – Əliyeva Nurçin Emin qızı – 1987-ci il martın 06-da anadan olub. 11.10.2020-ci il Gəncə, hadisələrində şəhid olub ("mülki şəhiddir").

Əlizadə Sevil adlı qızı, Əlizadə Hüseyn adlı oğlu vardır [24].

## İLKİN BƏKİR OĞLU ƏLƏSGƏRLİ



İlkin Bəkir oğlu Ələsgərli 1992-ci il oktyabrın 14-də Şəmkir rayon Keçili kəndində anadan olmuşdur.

1999-cu ildə Səməd Vurğun adına tam orta məktəbin birinci sinfinə daxil olmuş, 2010-cu ildə həmin məktəbin on birinci sinfini bitirmişdir.

2010-cu ilin oktyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə gedib. 2012-ci ildə hərbi xidmətdən tərxis olunmuşdur.

2013-cü ildən 2016-cı ilədək kursdan keçərək Ağcabədi rayonunda "N" saylı hərbi hissədə MAXE kimi fəaliyyətə başlamış və bir müddət sonra (3 il) gizir işləyib. Həm gizirlik, həm də kəşfiyyatçılıq fəaliyyəti dövründə həmişə özündən yüksək rütbəli rəhbərliyin rəğbətini qazanmışdır. Tağım komandiri olub. Qorxmaz igid kəşfiyyatçı 2016-cı ilin aprel döyüşlərinin fəal iştirakçılarından biri olmuşdu. 2019-cu ildən 30.10.2020-ci ilədək kəşfiyyatçı işləyib.

İkinci Qarabağ müharibəsində iştirak etmiş, Füzuli Rayonunun Alxanlı kəndində 30 oktyabr 2020-ci ildə qəhrəmancasına şəhid olmuşdur [152].

## RÖVŞƏN İSRAFİL OĞLU ƏLİYEV



Rövşən İsrafil oğlu Əliyev 03 fevral 1999-cu ildə Şəmkir rayon Düyərli kəndində anadan olmuşdur. 2005-ci ildə Düyərli kənd 1 №-li tam orta məktəbin birinci sinfinə daxil olmuş və 2006-cı ildə həmin məktəbi bitirmişdir.

2017-ci ilin aprel ayında hərbi xidmətə getmiş Naxçıvan MR-in Ordubad rayonunda "N" saylı hərbi hissədə xidmət etmiş və 2018-ci ilin oktyabr ayında tərxis olunaraq ehtiyata buraxılmışdır .

2020-ci ilin sentyabr ayında "Vətən müharibəsi"nin başlanması ilə cəbhə bölgəsinə yollanmış və Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur [153].

# MƏHƏMMƏD YAQUB OĞLU ƏLİYEV



Məhəmməd Yaqub oğlu Əliyev 2001-ci il mayın 28-də Şəmkir rayonunun Sabirkənd kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Söhrab Rüstəmov adına Sabirkənd kənd orta məktəbində təhsil almışdır. 2019-cu il iyul ayının 14-də həqiqi hərbi xidmətə çağırılmışdır. Vətənə olan borcunu Naxçıvan Muxtar Respublikasının "N" saylı hərbi hissəsində yerinə yetirirdi. 2020-ci il oktyabr ayının 24-dən döyüş bölgəsində xidmətini davam etdirməyə başlamışdır. 28 oktyabrda Füzuli rayonunun Sığnaq kəndi uğrunda gedən döyüşlərdə ağır yaralanmış, həmin ayın 30-da isə şəhidlik zirvəsinə ucalmışdır [154].

## ELVİN FAMİL OĞLU ƏLİYEV



Elvin Famil oğlu Əliyev 31 iyul 2000-ci il tarixdə Şəmkir şəhərində anadan olub. 15 sentyabr 2007-ci ildə Şəmkir şəhəri Qalib Mirzəmməmədov adına Sərxan tam orta məktəbinin 1-ci sinfinə qəbul edilmiş və 31 may 2018-ci il tarixdə isə həmin məktəbin 11-ci sinfini bitirmişdir. 2019-cu ilin oktyabr ayında isə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısının alınması ilə əlaqədar "Dəmir Yumruq" əməliyyatları çərçivəsində 2020-ci il oktyabr ayının 9-da Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad edilməsinə görə" medalları ilə təltif edilmişdir. Subay idi [155].

## RUFAN ELZABİT OĞLU ƏKBƏRLİ



Rufan Elzabit oğlu Əkbərli 06 yanvar 1998-ci ildə Şəmkir rayonunun Çaparlı kəndində anadan olmuşdur.

2005-ci ildə Əhməd Həsənov adına Plankənd 1 saylı tam orta məktəbin birinci sinfinə daxil olmuş, 2015-ci ildə həmin məktəbin 10-cu sinfini bitirmişdir.

Əkbərli Rufan Elzabit oğlu 2016-cı ilin aprel ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidmətinin Şəmkir rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır.

2016-2017-ci illərdə Azərbaycan Respublikası Beyləqan rayonunun "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmət keçmişdir.

Əkbərli Rufan Elzabit oğlu Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissənin komandiri polkovnik Eldəniz İmaməliyev tərəfindən "Fəxri fərman"la təltif olunmuşdur.

2017-ci ildən 2020-ci ilədək fərdi əməklə məşğul olmuş, kəndli təsərrüfatında ailəsi ilə birlikdə çalışmışdır.

2020-ci il sentyabrın 21-də səfərbərlik ilə əlaqədar olaraq hərbi xidmətə çağırılmış, 27.10.2020-ci il tarixdə İkinci Qarabağ müharibəsində Füzuli rayonunun Seyidəhmədli kəndi istiqamətində gedən döyüşlərdə iştirak edərkən şəhid olmuşdur.

Ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunması", "Döyüşdə Fərqlənməyə" görə medalları ilə təltif olunmuşdur [183].

# ŞAMXAL MAARİF OĞLU ƏJDƏRLİ



Şamxal Maarif oğlu Əjdərli 1997-ci il dekabrın 17-də Şəmkir rayonunun Xuluf kəndində anadan olmuşdur. 01.09.2004-cü ildə şəhid Rövşən İsmayılov adına 2 №-li Xuluf kənd tam orta məktəbin 1-ci sinfinə daxil olmuş, 2015-ci ildə həmin məktəbi bitirmişdir. Orta məktəbi bitirdikdən sonra 21 yanvar 2016-cı ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidməti borcunu başa vuraraq 2017-ci il iyulun 05-də geri qayıtmışdır. 2020-ci il sentyabrın 21-də Səfərbərlik Xidməti tərəfindən könüllü olaraq ordu sıralarına getmişdir. Təlimlərdə peşəkar əsgər kimi nümunəvi xidmət göstərmiş, 2020-ci il sentyabrın 27-də qəhrəman Azərbaycan əsgəri kimi döyüşlərdə iştirak etmiş, hər zaman öndə olmağı ilə seçilmişdir. Döyüş yolu Çocuq Mərcanlı kəndi ərazisində yerləşən adsız yüksəkliklərdən başlamış və bir neçə kənd – qəsəbələrin azad olunmasında müstəsna rolu olmuşdur. Döyüş vaxtı vətənpərvərlik göstərərək düşmənin canlı qüvvəsini məhv etmişdir. Son döyüşündə oktyabrın 26-na keçən gecə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmışdır. Amansız düşmən gülləsi şəhidimizin polis olmaq arzusunu yarımçıq qoydu. 29 oktyabr 2020-ci il tarixində Xuluf kənd qəbiristanlığında dəfn olunmuşdur.

Ölümündən sonra "Vətən uğrunda" və "Fizulinin azad olunması" medalları ilə təltif olunmuşdur. Subay idi [224].

## HABİL QABİL OĞLU ƏBDÜRRƏHİMLİ



Habil Qabil Əbdürrəhimli oğlu 26 sentyabr 1997-ci ildə Şəmkir rayonunun Sabirkənd kəndində dünyaya gəlmişdir. 2003-2014-cü illərdə Söhrab Rüstəmov adına Sabirkənd kənd orta məktəbində tam orta təhsil almışdır. 2014-cü ildə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyasına qəbul olunmuş, 2018-ci ildə Akademiyanı bitirmişdir. Məzun olduqdan sonra təyinat yerinə əsasən Dövlət Sərhəd Xidmətinin Yevlax rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidməti vəzifəsini tağım komandiri olaraq yerinə yetirməyə başlamışdır. Daha sonra bölük komandiri vəzifəsinə təyin edilərək xidmətini həmin hərbi hissədə davam etdirmişdir. Habil ixtisası ilə əlaqədar Türkiyə Cümhuriyyətində komando kurslarında iştirak etmiş, kursu yaxşı göstəricilərlə, nizam-intizama görə isə fərqlənmə sertifikatı ilə tamamlamışdır. Azərbaycanda Vətən müharibəsi başladığı andan cəbhəyə yollanmışdır. Sərhədboyu ərazilərin işğaldan azad olunmasında iştirak etmişdir. Xüsusilə Zəngilanın 2 kəndi onun rəhbərliyi altında azad olunmuşdur. Döyüşlər gedən müddətdə Habil

başleytenant rütbəsi ilə təltif edilmişdir, Habil Zəngilanda yerləşən 3 yüksəkliyi şəxsən azad etmiş, 4-cü yüksəklik uğrunda gedən döyüşdə 8 noyabr 2020-ci il tarixində qəhrəmancasına şəhid olmuşdur.

15 dekabr 2020-ci ildə ölümündən sonra "Vətən uğrunda" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə, 25 dekabr 2020-ci il tarixində "Zəngilanın azad olunmasına görə" medalı təltif olunmuşdur. Ailəli idi. Bir qız övladı var [224].

## NİYAMƏDDİN İSRAFİL OĞLU ƏLƏKBƏROV



Niyaməddin İsrafil oğlu Ələkbərov 1989-cu il iyulun 12-də Naxçıvan MR-nın Sədərək rayonunda anadan olmuşdur. 1992-ci il ildən Sumqayıt şəhərində yaşamışdır. 1996-cı ildə 32 №-li TTEL liseyin 1-ci sinfinə daxil olmuş, 2003-cü ildə 35 saylı orta məktəbdə təhsilini davam etdirmiş, 2007-ci ildə 11-ci sinfi bitirmişdir.

2011-ci il oktyabrın 21-də Sumqayıt şəhərindən hərbi xidmətə çağırılmışdı. Əsgəri xidmətini kəşfiyyatçı kimi davam etdirmişdi. 2013-cü il 1 apreldə hərbi xidmətini başa vurmuşdur. Sonra da müddətdən artıq hərbi xidmətini davam etdirmiş, Naftalan şəhərində yerləşən "N" saylı hərbi hissədə kəşfiyyatçı kimi xidmət etmişdir. 2016-cı il aprel döyüşlərində iştirak etmişdi. 2018-

ci ildə "Azərbaycan Ordusunun 100 illik" medalı ilə təltif olundu. 2018-ci il gizirlik kursuna getmiş, sonra Beyləqan rayonunun "N" saylı hərbi hissəsində kəşfiyyatçı gizir olaraq xidmətini davam etdirmişdir. 2020-ci ildə iki dəfə fəxri fərmanla təltif olunmuşdu. 2020-ci il oktyabrın 02-də İkinci Qarabağ müharibəsində Füzulinin Horadiz kəndini azad etdikdən sonra İlandağı ətrafında döyüşlərdə həlak olmuşdur. Ölümündən sonra "Vətən uğrunda" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" orden və "Füzulinin azad edilməsi uğrunda" medalı ilə təltif olunub [186].

## EŞQİN RABİL OĞLU GÜLMƏMMƏDOV



Eşqin Rabil oğlu Gülməmmədov 2001-ci il avqustun 11-də Şəmkir rayonunun Qaracəmirli kəndində anadan olub. 2007-ci il sentyabrın 15-də Qaracəmirli kənd Cəlil Bayramov adına 2 №-li tam orta məktəbin 1-ci sinfinə qəbul edilmiş və 31 may 2018-ci il tarixdə isə həmin məktəbin 11-ci sinfini bitirmişdir. 2019-cu ilin oktyabr ayında isə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısının alınması ilə əlaqədar hərbi əməliyyatlar çərçivəsində oktyabrın 25-dən 26-a keçən gecə Füzuli rayonunda qəhrəmancasına şəhid olmuşdur. "Vətən uğrunda" və "Füzulinin azad edilməsinə görə" medalları ilə təltif edilmişdir [162].

# ELNUR YAQUB OĞLU HACIYEV



Elnur Yaqub oğlu Hacıyev 1979-cu il iyunun 12-də Ucar şəhərində anadan olub. 1986-1996-cı illərdə Ucar şəhərində 5 nömrəli tam orta məktəbdə təhsil alıb. 1997-2002-ci illərdə isə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində ali hərbi təhsil alıb. Ailəli idi. Bir qızı yadigar qaldı.

Elnur Hacıyev 2002-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət edirdi. O, 2002-2006-cı illərdə Qobustan rayonunda yerləşən "N" saylı hərbi hissədə, 2006-2011-ci illərdə Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissədə, 2011-2015-ci illərdə Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissədə, 2015-2019- cu illərdə Gədəbəy rayonunda yerləşən "N" saylı hərbi hissədə, 2019-cu ildən isə Ağstafa rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət edirdi.

2000-ci ildən Azərbaycan Ordusunun Quru Qoşunlarında xidmət edib.

Azərbaycan Ordusunun mayoru olan Elnur Hacıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elnur Hacıyev oktyabrın 17-də Füzuli döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 15.12.2020-ci il tarixdə Elnur Hacıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərən, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə 15.12.2020-ci il tarixdə Elnur Hacıyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi.

Mayor Elnur Hacıyev Ucar rayon Şəhidlər Xiyabanında dəfn edilib.

Elmar Hacıyev hələ xidməti dövründə bir sıra medallarla təltif olunmuşdu:

26.06.2008 – "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı;

26.06.2013 – "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı;

26.06.2018 – "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı;

26.06.2018 – III dərəcəli "Qüsursuz xidmətə görə" medalı [82].

## SAMİR ALLAHVERDİ OĞLU HÜSEYNLİ



Samir Allahverdi oğlu Hüseynli 13 aprel 1997-ci ildə Goranboy rayonunun Boluslu kəndində anadan olub. 2003-2014-cü illərdə Boluslu kənd orta məktəbini bitirmiş, 2014-cü ildə Azərbaycan Dövlət Tibb Universitetinin Hərbi fakültəsinə daxil olub. 2020-ci ildə həmin fakültəni bitirərək Füzuli rayonunun Şükürbəyli kəndində yerləşən 706 saylı hərbi hissənin Lələ Təpədə yerləşən 4-cü Taborunda Tibb Məntəqəsinin rəisi işində çalışıb. Müharibə başlayan gündən ön cəbhədə yaralılara yardım göstərərək lazım gələndə Qospitala daşıyıb. Döyüş yolu Şuşaya qədər davam edib. Şuşa alınandan sonra Xocavənd uğrunda döyüşlərdə yaralanmış gizirə tibbi yardım edərkən atılmış minomyot zərbəsindən huşunu itirmişdir.

Buna baxmayaraq ayıldıqdan sonra yenidən yardım göstərərək yaralıları özü və köməkçi tibb işçisinin köməyi ilə çiynində döyüş sahəsindən çıxarmışdır.

Xeyli yaralı daşıdıqdan sonra yenidən huşunu itirmişdir. Gözünü Horadiz qospitalında açmışdır. Beyin travması və hər 2 qulaq pərdəsini perforasiyası diaqnozu ilə Qazax rayonu Qospitalına təxliyə olunmuşdur. Uzun müddət Respublika xəstəxanasının əsəb şöbəsində müalicə almışdır. Döyüş yoluna Füzulidən başlayan Samir Hüseyn Cəbrayılın, Şuşanın, Xocavəndin azad edilməsi uğrunda döyüşmüşdür.

İkinci Qarabağ müharibəsində göstərdiyi mərdliyə, vətənpərvərliyə görə Samir “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif olunmuşdur.

Hərbi həkim Hüseynli Samir Allahverdi oğlu Xocavənddə hərbi həkim işləyir.

Atası Allahverdi Hüseynov mühəndis idi. 2017-ci ildə dünyasını dəyişmişdir.

Anası Əliyeva Yazgül pediatr həkimdir.

Qardaşı Hüseynov Samir Allahverdi oğlu əczaçı həkimdir. Aptekdə işləyir.

## EMİL ELDƏNİZ OĞLU HƏSƏNOV



Emil Eldəniz oğlu Həsənov 1999-cu il martın 2-də Goranboy rayonunun Tatarlı kəndində anadan olub. 2005-ci ildə Sərxan Ocaqverdiyev adına tam orta məktəbinin 1-ci sinfinə daxil olub. 2014-cü ildə məktəbin IX sinfini bitirib və Zaqatala rayonu Dövlət İdarəetmə və Texnologiya kollecinə daxil olub.

2018-ci ildə oranı bitirib, 2018-ci ildə iyulun 9-da hərbi xidmətə çağırılıb, Beyləqan rayonu 702 saylı hərbi hissədə 2020-ci il yanvarın 9-da hərbi qulluğunu başa vurub.

2020-ci ilin avqustunda müddətdən artıq hərbi qulluqda xidmət edib. Minomyotçu olub. 27 gün 60-lıq minomyotla düşmənin səngərlərini göyə sovurub. Komandir deyirdi ki, Emil anan səni necə cəld doğub.

O, Talış, Murov yüksəkliyində, Hadrut, Suqovuşanda döyüşüb. Oktyabrın 22-də Suqovuşan uğrunda döyüşlərdə həlak olub. Bir gün sonra oktyabrın 23-də döyüş meydanından götürülmüş, oktyabrın 24-də Səfikürd kənd qəbiristanlığında dəfn olunub. Anası Mətanət xanım deyir ki, mən oğlumla fəxr edirəm. O, həmVətənin, həm də özünün qisasını ermənilərdən aldı, sonra şəhid oldu. Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.

## İSRAYIL SƏMƏD OĞLU HACIYEV



İsrayıl Səməd oğlu Hacıyev 2002-ci il fevralın 28-də Şəmkir rayon Zəyəm Cırdaxan kəndində anadan olmuşdur. 2008-ci ildə Şəmkir rayon Zəyəm-Cırdaxan kənd C.Abdıyev adına tam orta məktəbin birinci sinfinə daxil olmuş, həmin məktəbdə 9-cu sinfə qədər oxumuşdur.

2017-ci ildən 2020-ci ilədək kəndli təsərrüfatında ailəsi ilə birlikdə çalışmışdır.

2020-ci il aprel ayında Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır.

2020-ci ildə Azərbaycan Respublikası Füzuli rayonu "N" saylı hərbi hissədə həqiqi hərbi xidmət keçmiş, 2020-ci il sentyabrın 28-də İkinci Qarabağ müharibəsi zamanı Füzuli rayonu istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.

## VAQİF ASƏF OĞLU HÜSEYNOV



Vaqif Asəf oğlu Hüseynov 2000-ci il yanvarın 1-də Şəmkir rayonunun Qaralar kəndində anadan olmuşdur. O, 2006-cı il tarixdə yaşadığı Şəmkir rayonu Qaralar kənd tam orta məktəbin 1-ci sinfində təhsilinə başlamış və 2017-ci il tarixdə həmin məktəbin 11-ci sinfini bitirməklə tam orta təhsilini başa vurmuşdur. Bundan sonra şəhid Vaqif Hüseynov 2018-ci ilin yanvar ayında müddətli hərbi xidmətə yollanmış və 2019-cu ilin iyul ayında müddətli hərbi xidmətini başa vuraraq yaşadığı Qaralar kəndinə geri qayıtmışdır. Vətən Müharibəsi başlayana qədər 2020-ci il sentyabrın 27-də ordu sıralarına çağırış elan olunduqda qardaşı

Qaçay Hüseynov ilə birlikdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayon şöbəsinə gedərək qeydiyyatdan keçmiş və döyüşlərə qoşulmuşdur. Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmiş, lakin sonradan Füzuli rayonun azad edilməsi uğrunda gedən döyüşlərə qoşulmuş və həmin döyüşlərdə şəhid olmuş, qardaşı Qaçay Hüseynov isə yaralanaraq qazi olmuşdur.

Subay idi.

## ANAR SADAY OĞLU HÜSEYNLİ



Anar Saday oğlu Hüseynli 1994-cü il avqustun 13-də Şəmkir rayonu, Təzəkənd kəndində anadan olmuşdur.

2000-2011-ci illərdə Səməd Vurğun adına Təzəkənd kənd orta məktəbində orta təhsil almışdır.

2012-2013-cü illərdə müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

2020-ci ilin sentyabr ayında Vətən müharibəsi başlayan zaman Azərbaycan Respublikası Prezidentinin hərbi səfərbərlik elan etməsi ilə bağlı 29 sentyabrda ordu sıralarına daxil olaraq hərbi xidmətə başlamışdır.

Qubadlı, Füzuli rayonları və Şuşanın işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında aktiv iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmişdir.

08 noyabr 2020-ci ildə Şuşa-Xankəndi yolunda döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

17 noyabr 2020-ci il tarixdə doğma kəndində dəfn olunmuşdur.

Ölümündən sonra 15 dekabr 2020-ci il tarixdə "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixdə "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir. Subay idi.

## FEYRUZ BƏHRUZ OĞLU HACILI



Feyruz Bəhruz oğlu Hacılı 1994-cü il aprelin 03-də İsmayıllı rayonunda anadan olub. Evin ilk övladı idi. Uzun illər Rusiyada yaşadıqlarından 8-ci sinfi bitirənə qədər Rusiya şəhərinin Surqut vilayətində orta məktəbi oxuyub. Təhsilini Bakı şəhərində davam etdirib.

Yasamal rayon 286 nömrəli orta məktəbi bitirmişdir. Təhsilini davam etdirmək üçün Kiyev şəhərində Boqomolçe adına Tibb Universitetinin Stomatoloji fakültəsinə daxil olmuşdur. 2017-ci ildə oranı qırmızı diplomla bitirdikdən sonra Azərbaycana qayıtmışdır. 2017-2018-ci illərdə Ağdam rayon "N" saylı hərbi

hissədə xidmət edib. Hərbi xidmətdə mina atan batareyada manqa komandiri olub.

2018-2020-ci illərdə Bakı şəhərində stomatoloq kimi çalışıb.

İkinci Qarabağ müharibəsi başlayandan üç gün sonra 30 sentyabr tarixində döyüşə getmişdir. Füzuli və Cəbrayıl rayonlarının düşməndən azad edilməsində iştirak edib.

Döyüş vaxtı ata-anası ilə əlaqəsi olub.

14 oktyabr tarixində Füzuli istiqamətində döyüşlərdə şəhid olmuşdur.

2020-ci il oktyabrın 14-də Qaradağ ümumşəhər qəbiristanlığında dəfn olunub. Daha sonra II Fəxri Xiyabana köçürülüb. Ölümündən sonra "Vətən oğrunda" və "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Arzuları çox idi. Öz klinikasını açmaq, orda sayılıb-seçilmiş həkimlərlə birlikdə çalışmaq istəyirdi. Atası əziyyətli işdə çalışdığı üçün ona kömək etmək, öz karyerasını qurmaq, ailə həyatı qurmaq istəyirdi, lakin qismət olmadı.

Son günlərdə döyüşə getməmişdən əvvəl dostlarına yazıb ki "Mən gedirəm, amma qayıtmaq üçün yox, Vətən üçün".

Anası Həbibə xanım onu həmişə belə xatırlayır: "İndi yanımızda olsaydı oturub onunla dərdləşərdik, alnından öpərdim".

Deyərdim "Ay Dədəm işlərin necə gedir? – O da mənə deyərdi ki – ƏLA".

Deyirdim Sən mənim həyatımsan. Həbibə xanım kövrəlir və əlavə edir:

O gün həm öldük, həm dirildik.

Biz Feyruzla son dəfə 11 oktyabr tarixində danışmışdıq. Ondan sonra dəfələrlə zəng etdik, amma zəng çatmadı. Ətrafımızdakı insanlar orda set olmadığını deyirdilər, biz də həmin sözlərdən təsəlli alırdıq. Lakin 17 oktyabr səhər saatlarında Hərbi Prokurorluqdan bizə zəng gəldi. Telefonu açanda bir cavan oğlan bizə Hacılı Feyruz sizin oğlunuzdur, deyə soruşdu. Amma yaralı

olduğunu bildirdilər. Biz də dərhal Füzuli şəhərinə yollandıq. Lakin oraya çatanda başqa bir mənzərə ilə qarşılaşdıq. Oğlumuzun cansız bədənini bizə göstərdilər, onun bizim oğlumuz olub olmadığını bilsinlər deyə, bizi çağırmışdılar. Təcilli yardım maşını ilə Bakıya yollandıq. Həqiqətən bizim üçün çox ağır bir gün idi.

17 oktyabr tarixi: Həmin gün Yasamal rayon sakinlərinin əksəriyyəti, qohum-qonşular Feyruz Haclını qarşılamağa gəlmişdilər. İzdiham idi. İnsanlar Azərbaycan və Türk bayraqları əllərində Vətən oğlunu qarşılayırdılar. O, məhəllənin ilk şəhidi idi. Anası Həbibə maşından düşüb, gələnlərə bildirdi ki, “ay camaat mənim oğlum ölüb”. O, Vətəninin oğlu idi. Torpağını sevirdi. Axşamüstü olduğundan Feyruzu gecəni evdə saxladılar. Həbibə ana oğlunu oxşadı:

**Vətən torpağının müqəddəsliyi,**
**Şəhid zirvəsinə ucaltdı səni.**
**Ölməzlik adını alsan da inan,**
**Ölümün əbədi sarsıtdı məni!**

Vətənə olan məhəbbətini, sirrini, eşqini özü ilə öz qəlbində apardı, Vətənə bağlı oğlan idi.

Həkimlik üzrə kitablar oxumağa həvəsi böyük idi. Uşaqlıqda dinə çox marağı var idi. Namaz qılan, oruc tutan bir uşaq olub. Ailə həyatı qurmağını valideynləri çox istəyirdi. O təhsil aldı. Stomatologiya üzrə diplom və sertifikat aldı. Kaş ki, heç olmasa onu evləndirə biləydim deyir, Həbibə ana. Sonra əlavə edir ki, Feyruz Vətənini, Azərbaycanını çox sevirdi. O yolda da ölməzliyə qovuşdu. Məkanı cənnət olsun.

# SALEH VALEH OĞLU HƏSƏNOV



Saleh Valeh oğlu Həsənov Azərbaycan Silahlı Qüvvələrinin mayoru, Vətən müharibəsinin iştirakçısı, Goranboy rayonunun, Qızılhacılı qəsəbəsində anadan olub. Şəhid Dilbazi Qasımov adına 1 №-li tam orta məktəbi, İncəsənət və Mədəniyyət Universitetini bitirib.

Azərbaycan Ordusunun mayoru olan Saleh Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə, həmçinin Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidlik və mərdlik nümayiş etdirdiyinə görə 09.12.2020-ci il tarixində Saleh Həsənova “Vətən Müharibəsi Qəhrəmanı” adı verildi [83].

# BƏŞİR XƏQANİ OĞLU HƏSƏNOV



Bəşir Xəqani oğlu Həsənov 1995-ci il iyulun 13-də Şəmkir rayonu, Təzəkənd kəndində anadan olmuşdur.

2001-2012-ci illərdə Səməd Vurğun adına Təzəkənd kənd orta məktəbində orta təhsil almışdır.

2020-ci ilin sentyabr ayında Vətən müharibəsi başlayan zaman Azərbaycan Respublikası Prezidentinin hərbi səfərbərlik elan etməsi ilə bağlı hərbi xidmətə getmişdir.

Cəbrayıl və Füzuli rayonları, Ağoğlan (keçmiş – Hadrut) qəsəbəsi və bir çox istiqamətlərdə vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında aktiv iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmişdir.

25 oktyabr 2020-ci ildə Füzuli rayonu ərazisində döyüşdə qəhrəmancasına şəhid olmuşdur.

28 oktyabrda doğma kəndində dəfn olunmuşdur. Ölümündən sonra, 2020-ci il dekabrın 15-də “Vətən uğrunda”; 18 dekabr 2020-ci il tarixdə “Döyüşdə fərqlənməyə görə”, 25 dekabr 2020-ci il tarixdə “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

Subay idi.

## HİKMƏT ŞUBAY OĞLU HACIYEV



Hikmət Şubay oğlu Hacıyev 7 dekabr 1984-cü ildə Şəmkir şəhərində anadan olub. 1991-ci ildə Məhəmməd Füzuli adına tam orta məktəbin birinci sinfinə daxil olub. 1999-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olub və 2002-ci ildə həmin hərbi liseyi bitirib. 2002-ci ildə Heydər Əliyev adına AAHM daxil olub. 2006-cı ildə Heydər Əliyev adına AAHM bitirərək leytenant rütbəsini aldıqdan sonra Lənkəran şəhəri "N" saylı hərbi hissədə xidmətə başlayıb. Daha sonra Cəlilabad rayonunda "N" saylı hərbi hissədə xidmət edib. 2007-ci ildən Füzuli rayonunda ön xəttə xidmət edib. 3 ilə yaxın 2010-2013-cü illərdə Bakı şəhərində TTM-in 6 aylıq NATO hərbi hazırlıq kurslarında iştirak edib. Daha sonra Bakı şəhər "N" saylı hərbi hissədə sülhməramlılar taborunda xidmətdə olmuş və xidmət dövründə Rumıniya və Bolqarıstanda hərbi təlimlərdə iştirak etmişdir. Həmçinin Azərbaycanda BMP tipli döyüş hərbi nəqliyyat vasitəsini ilk tanıdan zabitlərdən olmuşdur. 2014-cü ildə Beyləqan rayonu "N" saylı hərbi hissəyə göndərilərək, burada Kapitan rütbəsi alıb və bölük komandiri vəzifəsinə təyin edilib.

2015-ci ildə yenidən Bakı şəhəri "N" saylı hərbi hissəyə Qərargah bölük komandiri vəzifəsinə təyin edilib. 2018-ci ildə Bakıdan Goranboy rayonu "N" saylı hərbi hissədə, 2019-cu ildə

isə Beyləqan rayonu 181 nömrəli hərbi hissədə xidmətə göndərilib. 2019-cu ilin dekabrında Ağcabədi rayonu "N" saylı hərbi hissədə ön xətdə xidmətini davam etdirib. 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsində döyüşlərə qatılıb. Müharibənin ilk günlərindən Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabr ayının 2-dən – 3-nə keçən gecə döyüş zamanı yaralanıb. 35 gün ağır vəziyyətdə Bakı şəhəri Respublika Neyrocərrahiyyə xəstəxanasında reanimasiyada yatmışdır. Noyabrın 8-də şəhidlik zirvəsinə ucalıb və noyabrın 10-da Şəmkir şəhərində dəfn edilib. Ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Ailəli idi. İki övladı var.

## SƏRRAF MURTUZƏLİ OĞLU İMAMƏLİYEV



Sərraf Murtuzəli oğlu İmaməliyev 10 sentyabr 1996-cı ildə Qusar rayonunun Əniq kəndində anadan olmuşdur. Sərrafı həyat uşaqlıqdan sınağa çəkib. O, 2 yaşında ikən atası vəfat edib. Onu babası Muradnəsil və nənəsi Sona böyüdüb. 8 illik məktəbi, Naxçıvanski adına hərbi liseyi bitirib 2014-2018-ci illərdə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsil alıb. 2016-cı ilin aprel döyüşlərində igidliyi ilə seçilən Sərraf xidmət etdiyi hissənin sevimlisi idi. Nənəsi ilə babasının ümid yeri olan Sərraf daim bu iki

əzizinə – xəstə nənəsinə və qocalmış babasına öz övladlıq borcunu ödəmək barədə düşünürdü. Nənəsinin vəfatı onu sarsıtmışdı. Müharibə başlamamışdan iki ay əvvəl ailə qurmuşdu. Müharibə hər şeyi dəyişdi.

Füzuli ətrafında gedən döyüşlərdə o yaralanır. 12 gündən sonra öz xahişi ilə döyüşlərə qayıdır. Şuşa uğrunda gedən döyüşlərdə qələbəyə bir neçə gün qalmış həlak olub. Ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olmasına görə" və "Hərbi xidmətlərə görə" medallarla təltif olunub.

## ELÇİN MÜBARİZ OĞLU İSMAYILOV



Xüsusi Təyinatlı Qüvvələrin zabiti, "Yaşma" taborunun qərargah rəisi müavini, kəşfiyyatçı, şəhid kapitan Elçin Mübariz oğlu İsmayılov 1989-cu il  mayın 30-da Ucar rayonunda anadan olub. Ailənin ilk övladı olan Elçin 1995-ci ildə Ucar rayon 1 saylı tam orta məktəbə gedib və 2006-cı ildə həmin məktəbi bitirərək Ali Hərbi Məktəbə qəbul olub. Kiçik yaşlarından sinif yoldaşlarından, tay-tuşlarından öz biliyi, bacarığı, xüsusi istedadı və gücü ilə seçilən Elçin oxuduğu məktəbin ən fəal şagirdi kimi ad çıxarıb. "Cəsurlar" (1998) və "Şahin" (1996) adlı hərbi-idman oyunlarının (VII-VIII, X-XI sinif şagirdləri arasında keçirilən), çoxsahəli

yarışların aktiv iştirakçısı olan Elçin müxtəlif fəxri fərmanlarla təltif edilib.

Elçin İsmayılov 2010-cu ildə Azərbaycan Ali Hərbi Məktəbini əla qiymətlərlə bitirdikdən sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə zabitlərin təkmilləşdirmə kursuna dinləyici kimi göndərilmiş və oranı da yüksək nəticə ilə başa vurmuşdur.

2011-ci il iyul ayından Ağcabədi rayonunda "N" saylı hərbi hissənin V motoatıcı taborunda tağım komandiri kimi xidmətə başlayan Elçin İsmayılov bir müddət qulluq etdikdən sonra komandanlığa raport yazaraq könüllü olaraq XTQ-də xidmət etmək niyyətində olduğunu bildirir. 2012-ci ildə Xüsusi Təyinatlı Qüvvələrdə qulluq etmək üçün kursa cəlb edilmiş 300 nəfər hərbi qulluqçunun içindən seçim mərhələsinə çıxan 19 nəfərdən biri də Elçin İsmayılov olur. Elçin İsmayılov dəfələrlə Türkiyədə hərbi təlimlərdə iştirak edərək sertifikatlar, fəxri fərmanlar və medallarla mükafatlandırılıb.

2012-ci il iyul ayının 8-dən XTQ-də xidmətini davam etdirən Elçin İsmayılov "N" saylı hərbi hissədə qrup komandirinin müavini, 2014-cü ilin mart ayında isə elə həmin hissədə xüsusi əməliyyat taborunun qrup komandiri vəzifəsində xidmətini davam etdirib.

Qəhrəman hərbçimiz 2015-ci ilin fevral ayında Qazax və Ağstafa istiqamətindəki döyüşlərin fəal iştirakçısı olub. 2016-cı ildə Elçin aprel döyüşlərində Talış kəndi istiqamətində gedən savaşda iştirak edib.

Qəhrəmanımız 2015-ci il oktyabr ayından 2016-cı ilin yanvar ayınadək amerikalı təlimatçılar tərəfindən Goran Təlim Mərkəzində "Special Operations Training" kursunu uğurla keçərək sertifikat alıb. 2018-ci ilin iyul ayında Türkiyə Respublikasında "Anadolu Tatbikatı" təlimində iştirak edən Elçin 2019-cu ilin iyul ayında pakistanlı təlimatçılar tərəfindən Giləzi Tədris Mərkəzində keçirilən "Dağlarda döyüş" xüsusi kursunu da uğurla başa vurub.

Döyüş yoluna Murovdağ zirvəsinin fəthindən başlayan Qərargah rəisinin müavini kapitan Elçin İsmayılov Cəbrayıl rayonunun işğaldan azad edilməsində xüsusi fəallıq göstərib. 4 oktyabrda ilk dəfə Cəbrayılda Azərbaycan bayrağı əfsanəvi qəhrəman kapitan Elçin Mübariz oğlu İsmayılov tərəfindən ucaldılıb. Döyüşdə Ermənistan Silahlı Qüvvələrinin xeyli sayda erməni hərbçisini və çox sayda döyüş texnikasını məhv edib. Vətən Müharibəsi Qəhrəmanı Elçin İsmayılovun göstərdiyi rəşadət yüksək qiymətləndirilərək ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

Baş leytenant döyüş yoldaşı dedi ki, birgə təlimlərdə də çox olmuşduq. Amma təlimlə gerçək müharibənin fərqini yalnız onu görənlər bilər. Bizim Elçinlə döyüş yolumuz Murovdağ silsiləsindən başladı. "Koroğlu" postu bizdə, "Ömər" yüksəkliyi isə ermənilərdə idi. Biz zirvəyə qalxıb "Canavar 1" və "Canavar 2" zirvələrini götürməliydik. Haradasa 3000 metr yüksəkliyin üstündə idi. Zirvəyə iplə qalxırdıq. Kapitan İsmayılov bizdən yaşca böyük olmasına baxmayaraq hamıdan öndə dırmanırdı. Elçin ora getməyə də bilərdi. Əməliyyatı idarə edən məsul şəxs idi. Onun başına bir iş gəlsəydi əməliyyat pozula bilərdi. Qrup başsız qalardı. Amma kapitan İsmayılov öndə idi. İnanın hara baxırdın onu görürdün. Gah irəlidə, sağda, gah solda... Kəşfiyyatçı olduğu üçün əraziləri gözəl bilirdi. Elə bil hər şeyi əli ilə qoyub, hər yeri gözəl tanıyırdı. Çox hazırlıqlı adam idi. Biz, az qüvvə ilə hücum edib zirvəni götürdük, düşmənin 60-dan çox canlı qüvvəsini yerindəcə məhv etdik. Eyni zamanda köməyə gələn erməni hərbçiləri ilə dolu olan iki hərbi yük maşınını da anındaca məhv etdik. Həmin döyüşdə az qala biz mühasirəyə düşəcəkdik. Ermənilər həm sayca çox idilər, həm də yüksəklik onlarda idi. Bu döyüşdə kapitan İsmayılovun xüsusi bacarığı, yüksək komandirlik bacarığı, ciddi səyi və istisnasız qəhrəmanlığı sayəsində mühasirəni yarıb erməniləri məhv edə bildik.

Biz Murovdağ silsiləsində çox böyük strateji əhəmiyyətli zirvəni götürüb, 3-4 gün orada qalıb mövqelərimizi möhkəmləndirə bildik. Sonra bizə tapşırıq gəldi ki, Cəbrayıla gedin. Cəbrayılın azad olunmasında da qəhrəmanımız Elçin İsmayılovun müstəsna xidmətləri oldu. Məlum olduğu kimi oktyabrın 4-də Cəbrayılda Azərbaycan bayrağını ilk dəfə kapitan Elçin İsmayılov qaldırdı.

XTQ-nin kəşfiyyatçısı, kapitan bildirdi ki, biz kənd Horadizin ərazisinə belə deyək ki, yaxşı bələd idik. Kəşfiyyatçı qrup olaraq bu yerləri yaxşı tanıyırdıq. Həm də cəmi bir neçə gün öncə bu əraziləri düşməndən təmizləyib, ordu qüvvələrinə təhvil verib Cəbrayıla istiqamət götürmüşdük. Hətta biz kənd Horadizdə döyüşərkən qəhrəman komandirimiz, cəsur döyüşçü, şir ürəkli Elçin İsmayılov əlbəyaxa döyüş zamanı düşmənin Komanda İdarəetmə Məntəqəsinə girərək, düşmən polkovnikinin sinəsinə çöküb, "Sənə general Polad Həşimovdan salam gətirmişəm" deyərək onun başını bədənindən ayırmışdı. Biz yenidən həmən əraziyə qayıtmışdıq. Təbii ki, düşmən kəşfiyyatı da işləyirdi. Onlarda da bizim, Elçinin qrupunun orada olması haqqında məlumat var idi. Elçinin qrupunun orada olması düşməndə bir panika, təşviş yaratması inkar olunmaz fakt idi.

Oktyabrın 7-də düşmən "KORD" snayperlə döyüş meydanında Elçini vura bildi.

Elçin Mübariz oğlu İsmayılov 2020-ci il oktyabrın 7-də iki övladını Vətənə əmanət qoyub, əbədiyyətə qovuşdu [11].

## BƏKİR FEHRUZ OĞLU İBRAHİMOV




Bəkir Fehruz oğlu İbrahimov 19 may 1996-cı ildə Goranboy rayonunun Tatarlı kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə Sərxan Ocaqverdiyev adına Tatarlı kənd orta məktəbini bitirmişdir. 2014-2016-cı illərdə Naxçıvan Muxtar Respublikasında "N" saylı hərbi hissədə xidməti borcunu yerinə yetirmişdir. 2020-ci il sentyabrın 12-də könüllü olaraq hərbi hissədə MAXE başladı. Vətənimizin torpaqlarını azad etmək, mənfur düşmənə layiqli cavab vermək anı sentyabrın 27-də gəlib çatdı. Talış kəndi istiqamətində gedən döyüşlərdə iştirak etdi. O sürücü idi. Düşmən güllələrinin təsiri altında ön cəbhədə döyüşən əsgərlərə yemək və sursat daşıyırdı. Talış kəndi, Ağ uçuq döyüşündə müvəffəqiyyətlə iştirak etdi. Oktyabrın 9-da Baş İncəçayını keçərkən düşmən mərmisinə tuş gəldi. Yanına düşən kaset bombası nəticəsində ayaq nahiyəsindən qəlpə yarası alaraq iki gün müalicə alaraq, yenidən döyüş meydanına qayıtdı və Talış, Suqovuşan uğrunda döyüşlərdə iştirak etdi. İbrahimov Bəkir Fehruz oğlu "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medallarla təltif olunmuşdur. O yenə də Azərbaycan ordusunda Laçın rayonu ərazisində xidmət edir. Deyir ki, nə qədər canım var, müqəddəs Vətən torpaqlarımızın keşiyində vüqarla dayanacağam.

## ELVİN ELÇİN OĞLU İSLAMOV



Elvin Elçin oğlu İslamov 1995-ci il fevralın 18-də Bakı şəhəri Yasamal rayonunda anadan olmuşdur. 2001-2013-cü illərdə 158 saylı tam orta məktəbi bitirmişdir. 2013-cü ildə həqiqi hərbi xidmətə yollanmış, ilk 8 ayı Salyan kəşfiyyatında qalmış, 8 ayı isə Xocavəndin Kuropatkinə kəndində düşmənlə üz-üzə xidmət etmişdir. 2015-ci ildə ordudan ehtiyata buraxılıb. Əsgəri xidmətindən sonra Dövlət Bayraq Meydanında ARDB-nı mühafizə etmək üçün işə başladı. 2016-cı il aprel döyüşləri zamanı döyüşlərdə iştirak etmək üçün kəşfiyyat təlimlərində iştirak etmişdir. 2020-ci il sentyabr ayının 21-də təlimlərə yollanıb və 26 sentyabrda öz yaxınlarından və ailəsindən halallıq alaraq döyüşə yollanmışdır. Təlimlərdə fərqləndiyi üçün gizir rütbəsi ilə təltif olunub.

Ailəsi ilə danışan zaman Cəbrayıl döyüşlərində iştirak etdiyini və Cəbrayılı fəth etdiklərini vurğulayıb. Xocavənd və Füzuli istiqamətlərində döyüşüb, bir çox postların düşməndən azad edilməsində və bir neçə əsgər yoldaşının mühasirədən xilas edilməsində iştirak edib.

Füzuli istiqamətində 14 postun azad edilməsində iştirak edib, bunker adlanan yerdə şəhadətə qovuşub.

9 oktyabr 2020-ci ildə həlak olub. 30 oktyabr 2020-ci ildə Qaradağ Ümumşəhər qəbiristanlığında dəfn olunub. Daha sonra ikinci Fəxri Şəhidlər Xiyabanına köçürülüb.

Ölümündən sonra o, “Cəbrayılın azad olunmasına görə” medal, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Vətən uğrunda” medalları ilə təltif olunub.

Anası Sevinc İslamova evdar qadındır. Atası İslamov Elçin işləmir.

## ELÇİN BƏXTİYAR OĞLU İSRAFİLZADƏ



Elçin Bəxtiyar oğlu İsrafilzadə 11 iyul 1990-cı ildə Şəmkir rayonunun Qədimqala (Muxtariyyət) kəndində anadan olmuşdur.

İsrafilzadə Elçin Bəxtiyar oğlu 1996-cı ildə Qədimqala kənd tam orta məktəbinin birinci sinfinə daxil olub, 2005-ci ildə həmin məktəbi bitirmişdir.

2007-ci ildən – 2008-ci ilədək kəndli təsərrüfatında ailəsi ilə birlikdə çalışmışdır.

2008-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. 2010-cu ilin yanvar ayında hərbi xidmətdən tərxis olmuşdur.

2015-ci ildə Müddətli Həqiqi Hərbi qulluğa çağırılmışdı.

2020-ci ildə Azərbaycan Respublikası Ağcabədi və Füzuli rayonunun Şükürbəyli kəndində “N” saylı hərbi hissələrdə həqiqi hərbi xidmət keçmiş, 2020-ci il oktyabrın 20-də İkinci Qarabağ

müharibəsi zamanı Füzuli rayonunun Şükürbəyli kəndi istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

Ailəli idi. Kənan və Yusif adlı oğlanları, Leyla adlı qızı var.

## ELŞƏN İSƏ OĞLU İSMAYILOV



Elşən İsə oğlu İsmayılov 25 mart 1997-ci il tarixdə Şəmkir rayonunda anadan olmuşdur.

2003-cü ildə Şəmkir rayon Xanallar kənd, Faiq Ələkbərov adına orta məktəbə daxil olmuşdur. 2014-cü ildə Şəmkir rayon Xanallar kənd, Faiq Ələkbərov adına orta məktəbi bitirmişdir. 2015-ci ildə hərbi xidmətə çağırılmışdır. Hərbi xidməti Azərbaycan Respublikasının Bakı şəhəri “N” saylı hərbi hissəsində olub. 2016-cı ilin oktyabr ayında Hərbi xidməti başa vurmuşdur. Hərbi xidməti bitirdikdən sonra müxtəlif işlərdə işləmişdir. 2020-ci il sentyabrın 29-da müharibəyə yollanmışdır, Vətən müharibəsi zamanı 08 noyabr 2020-ci ildə qəhrəmancasına şəhid olmuşdur.

Subay idi.

## ARZU SEYMUR OĞLU İSGƏNDƏROV



Arzu Seymur oğlu İsgəndərov  1988-ci il oktyabrın 28-də Şəmkir rayonunun Zəyəm qəsəbəsində anadan olmuşdur. 1994-cü ildə Əhməd Cəmil adına Zəyəm qəsəbə 1 №-li tam orta məktəbin birinci sinfinə daxil olmuşdur. 2003-2006-cı illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə, 2006-2010-cu illərdə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə ali hərb təhsili almışdır.

2010-cu ildən Təlim Tədris Məktəbinə yollanmış və leytenant hərbi rütbəsi ilə zabit kimi ordu sıralarına qoşulmuşdur.

2010-2012-ci illərdə Tərtərdə “N” saylı hərbi hissədə tağım komandiri;

2012-2015-ci illərdə Bərdədə “N” saylı hərbi hissədə şöbə rəisi;

2015-2016-cı illərdə Goranboyda “N” saylı hərbi hissədə Avtomatik idarə olunma Sistemləri (AİS) rəisi, həmçinin Aprel döyüşlərinin iştirakçısı olmuş;

2016-2018-ci illərdə Ağdamda “N” saylı hərbi hissədə AİS rəisi;

2018-2020-ci illərdə Füzulidə “N” saylı hərbi hissədə AİS rəisi;

2020-ci ilin avqust ayından Vətən müharibəsi başlayanadək 4-cü Ordu korpusunda (Bakı korpusu) AİS rəisinin müavini vəzifələrində çalışmışdır.

2020-ci ilin sentyabr ayında Vətən müharibəsinin başlanması ilə cəbhə bölgəsinə yollanmış və Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Xidmət dövrü ərzində – 24.06.2013-cü il tarixdə “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi” yubiley medalı, 2018-ci il iyunun 26-da “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi” yubiley medalı, 26.06.2018-ci il tarixdə “Qüsursuz xidmətlərə görə” 3-cü dərəcəli medalı, ölümündən sonra “Vətən uğrunda” medalları ilə təltif olunmuşdur. Ailəli idi.

Həyat yoldaşı – Vəliyeva Rəqsanə Məzahir qızı evdar qadındır.

Övladları İsgəndərova Arzum və İsgəndərova Aylin məktəblidirlər.

## SEHUN RAFİQ OĞLU İBRAHİMZADƏ



Sehun Rafiq oğlu İbrahimzadə 1997-ci il yanvarın 28-də Şəmkir rayonunun Tatarlı kəndində anadan olmuşdur. 2003-cü ildə Rəfael Gülməmmədov adına Tatarlı kənd tam orta məktəbin birinci sinfinə daxil olmuş, 2014-cü ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir.

2015-ci ilin yanvar ayında həqiqi hərbi xidmətə çağırılmış, 2016-cı ilin iyul ayında hərbi xidmətdən tərxis olmuşdur.

2016-2020-ci illərdə Sehun İbrahimzadə Bakı şəhəri, Babək prospektində yerləşən “ZZ” adlı avtoservisdə çilingər kimi işləmişdir.

2020-ci il sentyabr ayının 21-də səfərbərliyə çağırılmış, sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində iştirak etmiş, oktyabrın 25-dən – 26-na keçən gecə qəhrəmancasına şəhid olmuşdur.

Ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif olunmuşdur.

Subay idi.

Atası – Hüseynov Rafiq İbrahim oğlu Birinci Qarabağ müharibəsində 1992-1996-cı illərdə Gədəbəy döyüşlərində iştirak etmiş, Başkəndin alınmasında böyük rolu olmuşdur.

## ARİF İSMAYIL OĞLU QEYBİYEV



Arif İsmayıl oğlu Qeybiyev Kross qaçışı üzrə üçqat Azərbaycan Çempionu, Atletika üzrə gənclər arasında Azərbaycan çempionu, Avropa Olimpiya təsnifat yarışlarının iştirakçısı, Yeniyetmələr arasında Respublika Birinciliyinin qalibi, Azərbaycan Silahlı Qüvvələrinin müddətdən artıq xidmət edən hərbi qulluqçusu, İkinci Qarabağ müharibəsinin şəhidi.

Qeybiyev Arif orta məktəb dövründə idmanın atletika növü ilə məşğul olub. Rayon və ölkə üzrə yarışlarda ilk üçlüyə düşüb. Bundan başqa atletika üzrə 50-dən çox diplomu var, onlardan 30-u birincilik üzrədir. 2015-ci il Avropa Oyunlarının iştirakçısı olub. Tarixi İpək yolu üzərində yerləşən qədim Astarada alovqoruyanların müşayiəti ilə keçirilən məşəl yürüşündə Arif Qeybiyev də iştirak etmişdir.

Qeybiyev Arif 1997-ci il iyunun 6-da Astara rayonunun Səncərədi kəndində anadan olub. 2002-ci ildə E.Ağayev adına Səncəri kənd tam orta məktəbinə daxil olmuşdur. 2012-2016-cı illərdə Astara Pedaqoji Kollecinin idman fakültəsində orta ixtisas təhsili alıb.

Ailəli idi, Gülnur adında bir qız övladı yadigar qaldı.

Qeybiyev Arif 2016-cı ilin iyul ayında Azərbaycan Silahlı Qüvvələrinə müddətli həqiqi hərbi xidmətə çağırılıb. İlk xidmət yeri Bakı şəhərində Daxili İşlər Nazirliyinin Daxili Qoşunları olsa da, daha sonra xidmətini Naxçıvan Muxtar Respublikasında xüsusi təyinatlıların bölüyündə davam etdirmişdir. Hərbi xidməti müddətində 2 dəfə tərifnamə ilə təltif olunub. Hərbi xidmətini 2018-ci ilin yanvar ayında başa vurub. Ordu sıralarında xidmət etmək üçün 3 dəfə sənəd verib, lakin qəbul olmayıb. Ancaq 4-cü dəfə sənəd verərkən istəyinə nail olmuşdur. 2018-ci ilin oktyabr ayında hərbi kursa çağırıldı. 2019-cu ilin yanvar ayında Ağcabədi rayonunda yerləşən hərbi hissədə müddətdən artıq xidmət edən hərbi qulluqçu olaraq tankçı kimi xidmət etməyə başlamışdır. 2019-cu ilin avqust ayında təyinatı Füzuli rayonunda yerləşən hərbi hissəyə verilir və şəhadətinə qədər xidmətini orada davam etdirir.

Azərbaycan Silahlı Qüvvələrinin müddətdən artıq xidmət edən hərbi qulluqçusu, tankçı Arif Qeybiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə savaşıb. Sentyabrın 27-də Füzuli döyüşlərində Arif Qeybiyevin dostu, tankçı Mirrahil Teymurlunun tankı minaya düşür və Arif öz tankından düşüb 100-200 metr aralıda olan dostunun tankına çatıb

dostunu xilas etmək istəyərkən erməni snayperinin gülləsinə tuş gəlir və şəhid olur. Astara rayonunun Ərçivan qəsəbəsində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Arif Qeybiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi [124].

## İLQAR AKİF OĞLU QULİYEV




İlqar Akif oğlu Quliyev 1973-cü il fevralın 3-də Goranboy rayonunda anadan olub. 1980-1990-cı illərdə Faxralı Kənd tam orta məktəbində təhsil alıb. 1991-1996-cı illərdə isə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında (AKTA) "Mühasibat uçotu" üzrə ali təhsil alıb. Ailəli idi. İki övladı yadigar qaldı.

2000-2020-ci illərdə Azərbaycan Ordusunun Quru Qoşunlarında xidmət edib.

Azərbaycan Ordusunun mayoru İlqar Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda döyüşlərdə savaşıb. İlqar Quliyev sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub. Goranboy rayonunda dəfn olunub.

O, Füzulu və Xocavənd rayonunda gedən döyüşlərdə iştirak edib. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsiuğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 2020-ci il dekabrın 15-də İlqar Quliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə, Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə 25.12.2020-ci il tarixdə "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Mayor İlqar Quliyev həmçinin III dərəcəli "Qüsursuz xidmətə görə" medalı; "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı; "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı; "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif olunmuşdur [84].

# KAMİL NÜSRƏT OĞLU QASIMOV



Kamil Nüsrət oğlu Qasımov 1995-ci il fevralın 5-də Goranboy rayonunun Səfikürd kəndində anadan olmuşdur. 2001-ci ildə Səfikürd orta məktəbinə 1-ci sinfinə daxil olmuş, 2010-cu ildə 9-cu sinfi bitirmiş, 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrində hərbi xidmətini başa vurmuşdur.

18 yaşında Azərbaycan Silahlı Qüvvələrində hərbi xidmətə başlamışdır. Tovuzun Əlibəyli kəndində xidmətini davam etdirdi. Yaxşı xidmətə görə fəxri fərmanla mükafatlandırıldı. Əsgəri xidmətini başa vurduqdan sonra əmək fəaliyyətinə davam etdi. Atası Nüsrət kişi və anası Nüşabə xanım əməksevər insanlar idi. Onlar təsərrüfatla məşğul idilər. Kamil Mingəçevir şəhərində təşkil olunmuş kurslara qatıldı, Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi. O, 2020-ci ildə Quru Qoşunlarında əsgər kimi xidmət edirdi. MAXE kimi müddətdən artıq hərbi xidmətdə Talış, Suqovuşan istiqamətində xidmət edirdi.

Azərbaycan Ordusunun əsgəri olan Kamil Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Talışın və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Kamil Qasımov

10 oktyabr 2020-ci ildə Talış kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 15.12.2020-ci il tarixdə Kamil Qasımov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdi [85].

## İSMƏT FİRUZ OĞLU QURBANOV



İsmət Firuz oğlu Qurbanov 1998-ci il aprelin 22-də Şəmkir rayonunun Varlı Həyat kəndində doğulub. Orta məktəbə Varlı Həyat kəndində gedib. Boş vaxtlarında təsərrüfatla məşğul olurdu. Atıcılıq qabiliyyəti vardı. Hərbi xidmətə Naxçıvan Muxtar Respublikasında gedib. İkinci Qarabağ müharibəsində Füzuli rayonunda 707-ci hərbi alayın tərkibində vuruşub. İsmət Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə 01 noyabr 2020-ci ildə qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı.

Qurbanov İsmət Firuz oğlu ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

## RUSLAN MEHMAN OĞLU QƏHRƏMANOV



Ruslan Mehman oğlu Qəhrəmanov 1988-ci il oktyabrın 06-da Almaniyanın Mardenburq şəhərində hərbiçi ailəsində anadan olmuşdur. 01.09.1995-ci ildən – 2003-cü ilə qədər şəhid Rövşən İsmayılov adına Xuluf kənd tam orta məktəbində təhsil almışdır. Bu vətənpərvərlik söhbətlərindən özündə nümunəvi bir məqsəd seçərək Ruslan qarşısına böyük bir addım götürüb hərbiçi olmaq arzusu ilə sənədlərini C.Naxçıvanski adına hərbi liseyinə vermiş, 2004-cü ildə yüksək balla hərbi liseyə qəbul olmuşdur. 2007-ci ildə həmin liseyi bitirmişdir. 2007-2011-ci illərdə Heydər Əliyev adına ali hərbi məktəbdə təhsil almış, daha sonra isə 2011-2012-ci illərdə Təlim Tədris Mərkəzində hərbi təhsil almışdır. 2012-ci il tarixdən 052 saylı XTQ-də xidmət etmişdir. Kapitan hərbi rütbəsinə qədər yüksəlmişdir. Xidmət etdiyi müddət ərzində müxtəlif təltifləri olmuşdur.

14 iyun 2016-cı il tarixdə "15 İyun – Qurtuluş Günü"nün qeyd edilməsi münasibəti ilə döyüş hazırlığında yüksək nailiyyətlər əldə etdiyinə, nizam-intizamı ilə seçildiyinə görə fəxri fərman ilə təltif edilmişdir.

28 may 2018-ci il tarixində "28 May Respublika Günü" münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda yüksək nailiyyətlər əldə etdiyinə və nizam-intizamı ilə seçildiyinə görə fəxri fərman ilə təltif edilmişdir.

08 noyabr 2019-cu il tarixdə “9 noyabr – Dövlət Bayrağı günü”nün qeyd edilməsi münasibəti ilə nizam-intizamı ilə seçildiyinə görə fəxri fərmanla təltif edilmişdir.

Baş leytenant Ruslan Qəhrəmanov 2016-cı ilin aprel döyüşlərində Talış yüksəkliyinin alınmasında və 2020-ci ilin iyul ayında Tovuz döyüşlərində fəal iştirak etmişdir. Döyüşlərdə iştirak edənlər onun mərdliklə, qəhrəmanlıqla döyüşdüyünü deyirlər. Ruslan Qəhrəmanov kapitan hərbi rütbəsində 052 saylı hərbi hissədə bölmə komandiri, təlim tədris mərkəzində müəllim, hərbi hissənin rabitə rəisinin müavini vəzifələrində xidmət edib.

Oktyabrın 4-ü kapitan R.Qəhrəmanov Cəbrayıl yaxınlığında gedən gərgin döyüşlərdə boğazından yaralandı. Onu ölümün əlindən almaq mümkün olmadı. Yaralı olan vaxt onu təxliyə edən həkimə son sözü anasına çatdırmağı xahiş edir. Onun son sözü “Ana mən şərəflə şəhid oldum” cümləsi olmuşdur. 05 oktyabr 2020-ci tarixdə şəhidlik zirvəsinə ucalmış və həmin gün də Xuluf kənd qəbiristanlığında dəfn edilmişdir.

Ölümündən sonra “Azərbaycan Bayrağı ordeni” və “İgidliyə görə”, “Vətən uğrunda” medalı ilə təltif olunmuşdur. Qızları Aygün, Mələk və Ruslanın şəhidliyindən 17 gün qabaq dünyaya gələn Yusif də atalarının döyüş və ömür yolu ilə fəxr edəcəklər.

## SƏBUHİ TELMAN OĞLU QASIMOV



Səbuhi Telman oğlu Qasımov 2001-ci il noyabrın 12-də Şəmkir şəhərində anadan olub, 15 sentyabr 2009-cu ildə Şəmkir şəhəri Cahangir Rüstəmov adına tam orta məktəbin 1-ci sinfinə qəbul edilmiş və 31 may 2018-ci il tarixdə həmin məktəbin 9-cu sinfini bitirmişdir. 2020-ci ilin yanvar ayında isə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmət zamanı nümunəvi xidmətlərinə görə 7 dəfə fəxri fərmanla təltif edilmişdir.

Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısının alınması ilə əlaqədar hərbi əməliyyatlar çərçivəsində 2020-ci il noyabr ayının 18-də Xocavənd rayonunda qəhrəmancasına şəhid olmuşdur. Ölümündən sonra “Vətən uğrunda”, “Xocavəndin azad edilməsinə görə” və “Cəsur döyüşçü” medalları ilə təltif edilmişdir.

Subay idi.

## TELMAN MEHTİ OĞLU QARAYEV



Telman Mehti oğlu Qarayev 15 dekabr 1999-cu ildə Şəmkir şəhərində anadan olub. 2007-ci ildə Məhəmməd Füzuli adına Tam Orta Məktəbin 1-ci sinfinə daxil olub. 2014-cü ildə Nizami Gəncəvi adına Tam Orta Məktəbin 7-ci sinfinə qəbul olunub. 2016-cı ildə Şəmkir rayon Peşə Liseyinə daxil olub, 2019-cu ildə həmin Liseyi bitirib.

2019-cu ildə Qarayev Telman Əli oğlu həqiqi hərbi xidmətə çağırılıb. Əvvəl Ağcabədi rayon "N" saylı hərbi hissədə xidmət keçən Telman Qarayev sonra hərbi xidmətini 706 saylı hərbi hissədə davam etdirib. Oradan da 2020-ci il 27 sentyabrda başlayan Vətən müharibəsi, İkinci Qarabağ müharibəsində iştirak etməsi üçün cəlb olunub. Füzuli Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşub. 8 noyabr 2020-ci il tarixində Xocavənd uğrunda gedən döyüşlərin birində yaralanıb və Füzuli rayon Hərbi Xəstəxanasında 25 noyabr 2020-ci il tarixində şəhid olub.

Ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin", "Füzulinin" və "Şuşanın azad edilməsinə görə" medalları ilə təltif olunub.

Subay idi.

# MİR HƏMİD NAZİM OĞLU QASIMLI



Mir Həmid Nazim oğlu Qasımlı 29 sentyabr 1994-cü ildə Bakı şəhərində anadan olub. Əslən Xızı rayonundan idi. 2012-ci ildə 240 saylı orta məktəbi bitirib.

Mir Həmid Qasımlı 2017-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində hərbi xidmətə başlayıb.

Azərbaycan Ordusunun əsgəri olan Mir Həmid Qasımlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olanə razilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli və Xocəvənd rayonları istiqamətində döyüşüb.

Mir Həmid Qasımlı 2020-ci il oktyabrın 21-də Füzuli uğrunda döyüşlər zamanı şəhid olub. Bakıda II Şəhidlər Xiyabanında dəfn olunub. Qasımlı Mir Həmid ölümündən sonra " Xocavəndin azad olunmasına görə, “Füzulinin azad olunmasına görə" və “Vətən uğrunda”  medalları  ilə təltif edilib.

# MAYIL MAYİS OĞLU QURBANOV



Mayıl Mayis oğlu Qurbanov 1996-cı ilin 8 iyununda İmişli rayonunun Xoşçobanlı kəndində anadan olmuşdu. O, 2013-cü ildə K.Ə.Mirzəyev adına 1 saylı Xanlıq tam orta məktəbini bitirib. M.Qurbanov hərbi xidmətini Naxçıvanda başa vurub.

İkinci Qarabağ müharibəsi başlayan zaman rahatlıq bilməyən Mayıl Qurbanov sentyabrın 28-də cəbhəyə gedib. Cəbrayıl, Qubadlı rayonlarının azad edilməsi uğrunda döyüşüb. 19 oktyabr 2020-ci ildə Cəbrayıl-Qubadlı uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Mayıl Qurbanov şəhidlik zirvəsinə ucaldıqdan sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Ailəli idi. Onun Xədicə və Məryəm adlı iki qız övladı var.

# AYXAN FİKRƏT OĞLU QƏDİMOV



Ayxan Fikrət oğlu Qədimov 30 aprel 1999-cu ildə Şəmkir şəhərində anadan olub. 2005-ci ildə Şəmkir şəhər Nizami Gəncəvi adına tam orta məktəbin birinci sinfinə daxil olmuş, 2016-cı ildə həmin məktəbi bitirmişdir.

2017-ci il 30 aprel tarixindən 2018-ci il tarixədək Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə hərbi xidmətini çəkmişdi. Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq 2020-ci il 26 sentyabr tarixdə Səfərbərlik Üzrə Hərbi Xidmətə Çağırış Xidmətinin Şəmkir şöbəsi tərəfindən müharibəyə çağırılmışdı.

Müharibə dövründə Füzuli, Laçın, Xocavənd, Şuşa və Xankəndi istiqamətində döyüşlərdə iştirak edib. 8 noyabr 2020-ci il tarixdə Xankəndi istiqamətində gedən döyüşlərdə ağır yaralanıb və noyabrın 29-da şəhid olmuş, noyabrın 30-da Şəmkir şəhərində dəfn edilmişdir.

Ölümündən sonra "Vətən uğrunda", "Füzuli və Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdu.

Subay idi.

## CAVİD ƏMİRXAN OĞLU QARAYEV



Cavid Əmirxan oğlu Qarayev 5 sentyabr 1984-cü ildə Füzuli rayonu Kərimbəyli kəndində anadan olub, 1990-cı il Kərimbəyli kənd orta məktəbin 1-ci sinfinə başlamış, 2002-ci ildə məktəbi bitirmişdir. Elə həmin ilin oktyabrında hərbi xidmətə yollanıb. 2006-2011-ci illərdə Bədən Tərbiyəsi Akademiyasında təhsil alıb. 2016-cı ildən "N" nömrəli hərbi hissədə müddətdən artıq manqa komandiri kimi fəaliyyət göstərib. 26 oktyabr tarixində Qorqan cəbhəsində şəhid olmuşdur. Ailəli idi. İki övladı var.

# FİKRƏT ELŞAD OĞLU MƏMMƏDOV



Fikrət Elşad oğlu Məmmədov 1997-ci il iyunun 29-da Ucar rayonunun Müsüslü kəndində anadan olmuşdur. 2003-cü ildə şəhid Əhliman Məmmədov adına orta məktəbin 1-ci sinfinə daxil olub, 2014-cü ildə orta məktəbi bitirib. Fikrətin 9 yaşı olanda anası Fərqanə xanım dünyasını dəyişib. Nənəsi Solmaz xanım, atası Elşad kişi Fikrətin və az yaşlı bacısının qayğısını çəkiblər. Müəlliməsi, əslən Ağdamlı Sevinc Fərəcova qeyd edir ki, Fikrət orta məktəbdə oxuyarkən öz uşaq qayğıları ilə yoldaşlarından fərqlənirdi. Anasını çox sevirdi. Onu erkən itirdiyi üçün çox qüssələnirdi. Məktəbdə keçirilən tədbirlərdə "şahinlər", "cəsurlar" idman oyunlarında fərqlənirdi. Xocalı faciəsi ilə əlaqədar keçirilən tədbirdə o öz xahişi ilə Azərbaycan əsgəri rolunu oynamışdı. Bu səhnəni o qədər canlı göstərmişdi ki, əsgər şəhid olarkən Solmaz xanım hər şeyi həqiqət zənn edib bərkdən ağlamışdı. Bəli, ana sevgisini də Vətən sevgisindən alan Fikrət torpaqlarımızın azad olunmasına, bu yolda şəhid olmağa daima can atırdı. Fikrət Məmmədov 2016-2018-ci illərdə "N" saylı hərbi hissədə əsgəri xidmətini yerinə yetirib. 2016-cı il aprel döyüşlərində iştirak edib. 2020-ci il müharibə ərəfəsində o Bakıda SOCAR-da işləyirdi. Atası Elşad kişi, analığı Nəcibə xanım Fikrətin müharibəyə getmək istəyini qeyd etdilər. Sentyabrın 28-də onu da hərbi xidmətə çağırdılar.

Əvvəl, Ağcabədiyə "N" saylı hissəyə apardılar. Füzuli, Cəbrayıl, Xocavənd uğrunda gərgin döyüşlərdə iştirak etdi.

Oktyabrın 30-da evə zəng etmişdi. Atası ilə danışanda deyib ki, biz Xocavənd, Şuşa istiqamətində döyüşürük. Sən mənimlə fəxr edə bilərsən, ata, biz düşmənə aman vermirik, hər şey yaxşı olacaq. Noyabrın 6-da Xocavənd uğrunda döyüşlərdə o ağır yaralandı və noyabrın 8-də şəhadətə qovuşdu. Noyabrın 12-də anası Fərqanə dəfn olunan Müsüslü kənd qəbiristanlığında dəfn olundu.

Ölümündən sonra o, "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalı ilə təltif olunub.

Mehriban, qayğıkeş, əməksevər, cəsur Fikrət Məmmədov Aprel döyüşlərinin, İkinci Vətən müharibəsinin igid döyüşçüsü, and və qürur yeridir. Xocavənd-Şuşa istiqamətində döyüşlərdə həlak olub. Balayar Sadiq onu belə yad edir.

*Bir oğlun dönmədi döyüşdən, Vətən.*
*Şəhidlik andını bağrına basdı.*
*Döyüş meydanında ürək qanıyla,*
*Sənə sevgisini torpağa verdi.*

Bəli, döyüş yoldaşların sənin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin qisasını alıb, müqəddəs bayrağımızı Şuşada dalğalandıraraq ruhunuzu şad etdilər. Fikrət, cəbhədən qayıdan igid döyüşçülər sənin məzarını qürur və kədər hissi ilə yad edirlər.

## YUSİF VAQİF OĞLU MƏMMƏDOV



Yusif Vaqif oğlu Məmmədov 1995-ci il yanvarın 16-da Yevlax şəhərində anadan olmuşdur.

2016-cı ildə Azərbaycan Dövlət Aqrar Universitetini bitirərək hərbi xidmətə yola düşmüşdür. Hərbi xidmətini Murovdağda başa vurmuşdur. 2020-ci il sentyabrın 28-də Vətən müharibəsində iştirak etmək üçün Ağcabədidəki hərbi xidmətə yollanmışdır. Füzulinin Şükürbəyli və digər kəndlərinin düşmən işğalından azad edilməsində ön cəbhədə iştirak etmişdir. 2020-ci il oktyabrın 26-da Veysəlli kəndində yerləşən 102-ci erməni postunun ələ keçirilməsində iştirak etmiş, Azərbaycan bayrağını posta sancıb dalğalandırmış və düşmənin ağır artilleriya atəşi nəticəsində qəlpə yarası ilə şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 15.12.2020-ci il tarixdə Məmmədov Yusif Vaqif oğlu ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edildi [127].

## CEYHUN ZİRƏDDİN OĞLU MİRZƏYEV



Ceyhun Zirəddin oğlu Mirzəyev 1996-cı il avqustun 12-də Tovuz rayonunun Əyyublu kəndində anadan olub. 2002-2013-cü illərdə E.Bayramov adına Əyyublu kənd tam orta məktəbində təhsil alıb. Subay idi.

Mirzəyev Ceyhun 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Mirzəyev Ceyhun 2016-cı ilin Aprel döyüşlərində iştirak edib.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Mirzəyev Ceyhun 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Zəngilan, Qubadlı və Laçının azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Mirzəyev Ceyhun noyabrın 9-da Laçın rayonu istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Tovuz rayonunun Əyyublu kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 15.12.2020-ci ildə ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edildi [56].

# ABİD ASİF OĞLU MƏMMƏDOV



Abid Asif oğlu Məmmədov 1994-cü il aprelin 4-də Oğuz rayonunun Dəymədərə kəndində anadan olub. 2000-ci ildə şəhid Elbrus Haşımov adına Dəymədərə kənd tam orta məktəbinə daxil olmuşdur. 2011-ci ildə məktəbi bitirmişdir. Oğuz Qarğıdalı Emalı və Qlükoza İstehsalı zavodunda operator kimi çalışmışdır. Ailəli idi, Əli adlı övladı yadigar qaldı.

Məmmədov Abid Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri Məmmədov Abid 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan İkinci Qarabağ müharibəsində Murovdağ döyüşlərində iştirak etmişdir. Abid Məmmədov oktyabrın 4-də Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olmuşdur. Məmmədov Abid oktyabrın 4-də Oğuz rayonunun Dəymədərə kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 15.12.2020-ci il tarixdə Abid Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi [57].

## TEHRAN CAVİD OĞLU MƏNSİMOV



Tehran Cavid oğlu Mənsimov 1972-ci il avqustun 24-də Qusar rayonunun Düztahir kəndində anadan olmuşdur. Orta təhsilini Qusar rayonunda almış, 1989-cu ildə məktəbi bitirmişdir. 1990-cı ildən 6 yanvar 1992-ci ilədək Sovet Ordusunun sıralarında hərbi xidmət keçmiş, Azərbaycan Milli Ordusunda xidmətə başlamışdır. Könüllü olaraq Birinci Qarabağ müharibəsinə yollanmış və müxtəlif istiqamətlərdə gedən döyüşlərdə fəal iştirak etmişdir. Ardınca Bakı Birləşmiş Zabitlər Məktəbində təhsil almış və birinciliklə məzun olaraq leytenant rütbəsi almışdır. 2011-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyasında təhsilini davam etdirərək birinci sırada təhsilini tamamlamışdır.

Birinci Qarabağ müharibəsində könüllü iştirak etdikdən sonra hərbi təhsil alaraq ordu sıralarında xidmətini davam etdirmişdir. Taqım komandirliyindən briqada komandirliyinə kimi Qarabağ bölgəsində xidmət etmişdir.

2013-cü ildə Naxçıvan Əlahiddə Ümumqoşun Ordusuna xidmətə başlamış və Şahbuz rayonundakı hərbi hissənin komandiri kimi xidmət etmişdir. Hazırda Döyüş Hazırlığı və Tədris İdarəsinin rəisi vəzifəsində xidmətini davam etdirir.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun zabiti olan Mənsimov Tehran 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı

Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün başlanan Vətən müharibəsində fəal iştirak etmişdir. Ələlxüsus, noyabrın 4-dən – 8-nə qədər davam edən Şuşanın azadlığı uğrunda döyüşlərində şəhərə girən ilk zabitlərdən olmuşdur.

Polkovnik-leytenant Mənsimov Tehran Azərbaycan Preidenti İlham Əliyevin 24 iyun 2005-ci il tarixli 860 nömrəli Sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif edilmişdir.

Polkovnik Mənsimov Tehran Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 20 iyun 2017-ci il tarixdə "Vətən uğrunda" medalı ilə, 15 dekabr 2020-ci ildə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir. Azərbaycan Silahlı Qüvvələrinin polkovniki, Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun zabiti Mənsimov Tehran həmçinin, III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı, III dərəcəli "Qüsursuz xidmətə görə" medalı, II dərəcəli "Qüsursuz xidmətə görə" medalı, "Azərbaycan Silahlı Qüvvələri Veteranı" medalı, "Azərbaycanın Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubileyi medalı, "Azərbaycan Bayrağı" ordeni, "Şuşanın azad olunmasına görə" medalı, "Vətən uğrunda" medalı, "İgidliyə görə" medalı ilə təltif edilmişdir [57].

## FUAD İMAMƏDDİN OĞLU MƏHƏRRƏMOV



Baş leytenant Fuad İmaməddin oğlu Məhərrəmov 1994-cü ildə Goranboy rayonunun Zeyvə kəndində anadan olub. 2000-ci ildə birinci sinfə gedib. 2011-ci illərdə S.Məmmədov adına Zeyvə kənd orta məktəbini əla qiymətlərlə bitirərək Heydər Əliyev adına Ali Hərbi məktəbə daxil olub. 2016-cı ildə leytenant rütbəsi alaraq, Lənkəran şəhəri "N" sayılı hərbi hissədə təyinatla işə başlayıb. 5 il həmin hissədə xidmət edib. 2018-ci ildə Baş Leytenant rütbəsi alıb. Xidmətdə fərqləndiyinə görə 2018-ci ildə tərifnamə və medalla təltif olunub. 27 sentyabr 2020-ci ildə başlayan İkinci Vətən müharibəsinin birinci günündən döyüşlərə qatılır. Vətənpərvər Azərbaycan övladı, Azərbaycan Milli Ordusunun zabiti şərəflə, ləyaqətlə vətənə xidmət edib. Cəbrayıl, Füzuli uğrunda döyüşlərdə iştirak edir. 17 oktyabr 2020-ci ildə Füzulinin Qaraxanbəyli kəndi ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Məhərrəmov Fuadın sayəsində neçə-neçə əsgər və zabit hal-hazırda yaşayır. Onları yaralı halda döyüş meydanından çıxartmışdı. Qrup komandir kimi 10-a qədər uğurlu əməliyyata imza atıb. Bölük komandiri kimi Füzulinin və kəndlərinin alınmasında iştirak edib. Çoxlu sayda erməni texnikasını məhv edib. Ölümündən sonra "Vətən uğrunda" "Füzulinin Azad Olunması Uğrunda" medalı ilə təltif olunub. 2020-ci il 30 oktyabrda torpağa tapşırılmışdır.

## AYXAN MEHMAN OĞLU MUSAYEV



Ayxan Mehman oğlu Musayev 2000-ci il sentyabrın 22-də Gəncə şəhərində anadan olmuşdur. 2006-2017-ci illərdə Ayxan Gəncə Şəhər Cəfər Cabbarlı adına 6 saylı tam orta məktəbdə təhsil almışdır. O, 2016-cı ildə Gəncə Şəhər 1 saylı Peşə məktəbinə daxil olaraq Qaz Qaynaqçısı ixtisası üzrə təhsil almışdır. Ayxan təhsilini bitirdikdən sonra 2019-cu ildə Səfərbərlik və Hərbi xidmətə çağırış üzrə Samux rayon Komissarlığından həqiqi hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. Ayxan hərbi hissədə olan zaman Azərbaycan-Türkiyə birgə döyüş atışı taktiki təlimində və "Azərbaycan uğrunda ən yaxşı bölük" adlı yarışda əldə etdiyi nailiyyətlərə görə mükafatlandırılmışdır.

2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsində iştirak etmişdir. Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Cəbrayıl habelə Şuşa uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ayxan 1 oktyabr tarixində qolundan yaralanmışdır. Yarası tam sağalmasa da, o yenidən döyüşə davam etmişdir. Ayxan yaralı olduğu müddət ərzində ailəsinə bu haqda məlumat verməmişdir. Komandirləri yaralısan desələr də Ayxan inadla "Mən bu döyüşlərdə iştirak edəcəyəm, mənim yolumu kəsməyin deyərək" xidmətə davam etmişdir. Musayev Ayxan 8 noyabr Şuşa ətrafında

gedən döyüşlər zamanı sağ çiynindən yaralanmışdır. Tibbi yardım göstərilməsi üçün Füzuli rayonuna gətirilmişdir. Daha sonra isə vəziyyəti ağırlaşdığı üçün Bakı şəhər hərbi qospitalına aparılmışdır. 28 noyabr 2020-ci il tarixində isə gözlərini əbədi bu həyata yumaraq şəhidlik zirvəsinə ucalmışdır. 29 noyabr 2020-ci il tarixində isə Gəncə şəhər şəhidlər xiyabanında dəfn edilmişdir. Ayxan subay idi. Bir bacısı və anası var. Ölümündən sonra o, Füzulinin və Xocavəndin azad edilməsi və "Vətən uğrunda" medalları ilə təltif olunmuşdur. Ayxan ölümündən sonra "8 Noyabr Zəfər Günü" münasibəti ilə "Ədalət yolu" qəzetinin təsisçisi və baş redaktoru Yasəmən Qəyyumlu tərəfindən "Zəfər Diplomu" ilə təltif olunmuşdur.

## RƏŞAD FƏRƏMƏZ OĞLU MƏMMƏDOV



Rəşad Fərəməz oğlu Məmmədov 1989-cu il sentyabrın 4-də Gəncə şəhərində ziyalı ailəsində anadan olmuşdu.

2006-cı ildə Gəncə şəhər 34 nömrəli tam orta məktəbini bitirmişdir. 2006-cı ildə Gəncə Dövlət Universitetinə daxil olmuş, 2010-cu ildə Universiteti "Tarix" ixtisası üzrə bitirmişdir. 2013-cü ildə Gədəbəy rayon Qoşabulaq kənd 1 saylı tam orta məktəbində tarix müəllimi kimi əmək fəaliyyətinə başlamışdır. 2018-ci ildə Gəncə şəhər M.Ş.Vazeh adına 16 saylı tam orta məktəbdə

pedaqoji fəaliyyətini davam etdirmişdir. 2020-ci ildə Gəncə Dövlət Universitetinin "Azərbaycanın Yeni və Ən Yeni Tarix" ixtisası üzrə magistr pilləsində təhsil almağa başlamışdır.

Rəşad Məmmədov 2010-cu ildə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

27 sentyabr 2020-ci il tarixində İkinci Qarabağ müharibəsinin başlaması ilə əlaqədar sentyabrın 28-də qismən səfərbərlik elan olunmuşdur. Sentyabrın 27-də Gəncə şəhərində könüllü olaraq müharibəyə getmək haqqında hərbi hissəyə müraciət etdi. Rəşad Məmmədov 2020-ci il sentyabrın 29-da yenidən hərbi xidmətə çağırılmışdı.

Azərbaycan Ordusunun Quru Qoşunlarında əsgər kimi Füzulinin, Hadrutun, Qubadlının, Şuşanın azad edilməsi uğrunda döyüşmüşdü. Məmmədov Rəşad 8 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən həlak olmuşdur. 17 noyabr 2020-ci ildə Gəncə şəhidlər xiyabanında torpağa tapşırılmışdır.

15 dekabr 2020-ci ildə ölümündən sonra Rəşad Məmmədov "Vətən uğrunda", 18 dekabr 2020-ci il "Cəsur döyüşçü", 29 dekabr 2020-ci ildə "Şuşanın azad olunmasına görə" medalı ilə təltif olundu [59].

# TURXAN RİZVAN OĞLU MƏMMƏDOV



Turxan Rizvan oğlu Məmmədov 1998-ci ildə Gəncə şəhərində anadan olub. 2005-2009-cu illərdə Gəncə şəhərində 32 №-li tam orta məktəbdə, 2015-2016-cı illərdə isə Gəncə şəhərində N.Aydın adına 18 nömrəli məktəbdə tam orta təhsil alıb. Subay idi.

Məmmədov Turxan 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

Azərbaycan Ordusunun əsgəri olan Məmmədov Turxan 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycan ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Məmmədov Turxan sentyabrın 27-də Murovdağ döyüşləri zamanı Gamışdağ istiqamətində şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 08.12.2020-ci il tarixində Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycan ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Məmmədov Turxan ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilib [125].

## ELŞƏN HABİL OĞLU MÜSLÜMOV



Elşən Habil oğlu Müslümov 1995-ci ildə Bakı şəhərinin Yasamal rayonunda anadan olmuşdur. 2002-ci il sentyabr ayının 1-də 286 saylı məktəbin 1-ci sinfinə gedib. 2011-ci ildə həmin məktəbin 9-cu sinfini bitirib. Həmin ildə Bakı Humanitar kollecinə qəbul olmuşdur. 2014-cü ildə həmin kollecin turizm və idarə etmə fakültəsini bitirib.

Hərbi dərsləri sevirdi. Vətənə bağlı və bayrağını sevən şagird idi. O fikirləşirdi ki, mən nə həyat keçirim ki, tarixə düşüm. Maşınında sevdiyi bayrağı saxlayırdı, bir dövlət tədbiri keçiriləndə maşını bayraqla bəzəyirdi. O bayrağı ilə həmişə qürur duyurdu, bayrağı yüksəklərə qaldırmaq arzusunda idi

2014-2016-cı illərdə hərbi xidmətə çağırılmışdı. 2016-cı ilin dekabrına qədər xidmətini "N" saylı hərbi hissədə başa vurmuşdur. Xidmət etdiyi dövrdə məxfi rabitəçi peşəsinə yiyələnmişdir. Dəfələrlə yaxşı xidmətə görə fəxri fərmana layiq görülmüş, məzuniyyətə buraxılmışdır. Ona çavuş rütbəsi verilmiş və yaxşı atıcı döş nişanına layiq görülmüşdür.

Uşaq vaxtlarından vətənini sevən, yaşıdları arasında xasiyyəti ilə seçilən oğlan idi. Özündən yaşca böyüklərlə təmasda olurdu.

21 sentyabrda Ağsu rayonu hərbi komissarlığından Elşənə çağırış vərəqəsi gəldi və həmin gün gecə saat 22-00 da Gorana yola salındı.

Goranda üç gün qaldıqdan sonra onu Mingəçevirə apardılar. Sentyabr ayının 27-si Vətən müharibəsi başlandı. Elşənin döyüş yolu isə Talış kəndindən Suqovuşan və Ağdərə istiqamətində gedən döyüşlərdə oktyabr ayının 8-i qəhrəmancasına şəhid oldu. Oktyabrın 7-də o ev ilə danışanda ola bilər ki, mənə zəng çatmasın deyib. Elədə oldu, 8-də Ağdərə uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu.

Ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad edilməsi uğrunda" medalı ilə təltif edilib.

## NURLAN AĞAMUSTAFA OĞLU MUSTAFAYEV



Nurlan Ağamustafa oğlu Mustafayev 1991-ci il noyabrın 08-də Bakı şəhərində anadan olub. Yasamal rayonu "N" saylı orta məktəbi 1998-2009-cu illərdə bitirib. 2010-2011-ci illərdə hərbi xidmətdə iştirak edib. "N" saylı Ağdamda yerləşən hərbi hissədə qulluq edib. Rayonun Yusifcanlı, Yuxarı Qiyamətdinli və Mərzilidə xidmətini davam etdirib. Əqidəli, tərbiyəli olmaqla bərabər həyatda da xidmətdə də vətənpərvər idi. Nurlan Mübariz İbrahimovun həyat yolunu, əməllərini çox sevirdi. Tez-tez qəbrini ziyarət edir, şəklini sinəsində özü ilə bərabər gəzdirirdi. 27 sentyabrda ermənilərin torpaqlarımıza növbəti hücumu zamanı sentyabrın 29-da Nurlan Yasamal rayon komissarlığına getdi. Oradan o,

Beyləqanda yerləşən “N” saylı hərbi hissəyə getdi, orada 4 gün qaldıqdan sonra Füzuliyə aparıldı və döyüş meydanına atıldı. Gərgin döyüşlər gedirdi. Nurlan hərbi xidmətdə olarkən o, kəşfiyyatda iştirak edirdi. Həm də “N” saylı hərbi hissədə snayperçi idi. Hadrut istiqamətində gedən qızğın döyüşlərdə iştirak etdi. Onlar mövqe tutdular. Bir gün sonra günorta döyüşlərdə saat 16.00-da mühasirəyə düşdülər. O, fədakarlıqla döyüşdü. Mühasirədən çıxmaq üçün xeyli vuruşdu. Lakin özü həmişə sevdiyi qəhrəman Mübariz İbrahimov kimi, torpaqlarımız uğrunda qəhrəmancasına həlak oldu.

Nurlanın atası Mustafayev Ağamustafa 2003-cü ildə rəhmətə getmişdi. Anası Mustafayeva Sevda xanım tibb bacısıdır. İndi işləmir. Onların atası rəhmətə gedəndə Sevda xanım 4 övladı ilə bərabər qaldı, 3 oğlan 1 qız ilə. O övladlarını ağıllı, qeyrətli, əməksevər, yurdsevər böyütdü. İndi qızı Könül tibb bacısıdır. Böyük oğlu Elnur evlidir. Bir qız övladı var. Nurlan və Tərlan qardaşları isə əkiz idilər. Ağıllı, əməksevər uşaqlar idilər. Nurlan Qarabağ müharibəsində həm kəşfiyyatçı, həm də snayperçi idi. O, döyüş tapşırığını fəxrlə yerinə yetirərdi.

Nurlan Mustafayev ölümündən sonra “Vətən uğrunda”, “Xocavəndin azad edilməsi uğrunda” medalı ilə təltif olunub.

Bakıda II Fəxri Şəhidlər Xiyabanında dəfn olunub.

Anası Sevda xanım yana-yana ürəyində həmişə onu məhəbbətlə yad edir:

Ürək tab gətirmir, ürək dözməyir.
Bu vaxtsız ölümə, vaxtsız itkiyə.

## İSA MƏHƏRRƏM OĞLU MƏHƏRRƏMOV



1999-cu il fevralın 15-də Bakı şəhərinin Yasamal rayonunda anadan olmuşdur. Atası Məhərrəm kişi, anası Kəmalə xanım, qardaşı İsmayıl Məhərrəmovdur. Kəmalə xanım evdar qadındır. İsa 2005-ci il 15 sentyabrda 52 №-li məktəbin 1-ci sinfinə daxil olmuşdur. 2016-cı ildə məktəbi bitirmişdir. Bakı Kooperasiya kollecinə daxil olmuşdur. 2017-ci il 20 aprel tarixində Yasamal rayonu hərbi komissarlığından xidmətə çağırılmışdır. Naxçıvan Muxtar Respublikasının "N" saylı hərbi hissəsində kəşfiyyatçı kimi xidmət etmişdir. Xidmət zamanı nümunəvi əsgər kimi ona verilən xidməti tapşırıqları layiqincə yerinə yetirmişdir. Komandir və hərbi hissənin rəhbərliyi tərəfindən təşəkkürnamə və fəxri fərmanlarla təltif olunmuşdur. 2018-ci il oktyabr ayının 1-də həmin hərbi hissədən ehtiyata buraxılmışdır. Hərbi xidmətdən qayıtdıqdan sonra təhsil aldığı kollecdə təhsilini davam etdirmişdir. 2020-ci ildə kolleci bitirmi°dir.

Məhərrəmov İsa Vətənini, mənəvi irsimizi, xalq yaradıcılığını çox sevirdi. Hələ orta məktəbdə oxuduğu illərdə o rəqslə, musiqi ilə məşğul olurdu. Azərbaycan rəqslərini çox sevirdi. Onu valideynləri 22 №-li musiqi məktəbində nağara ixtisası üzrə təhsil almasını təmin etmişlər. O, 5 il təhsil almış, istedadına görə Natiq ritm qrupuna üzv seçilmişdir.

İsa Məhərrəmov həm də gözəl rəsm çəkirdi. Tələbəlik illərində həvəskar fotosessiya ilə məşğul olmuşdur.

2020-ci il 27 sentyabrda İkinci Qarabağ müharibəsində iştirak etmək üçün döyüşlərə qatılmışdır. Artıq sentyabrın 29-da o mənfur düşməndən Vətəni xilas etmək məqsədilə Yasamal rayon hərbi komissarlığından döyüş bölgəsinə yollandı. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonu uğrunda gedən döyüşlərdə fəal iştirak etdi. 2020-ci il 19 oktyabrda gecə gedən qızğın döyüşlərdə Məhərrəmov İsa qəhrəmancasına şəhid olmuşdur. 20 oktyabr 2020-ci il tarixində şəhidin cənazəsi II Fəxri Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

İsa Məhərrəmovun atası Məhərrəm kişi 8 il idi yataq xəstəsi olmuşdu. İsa, qardaşı İsmayıl ilə birlikdə anaları Kəmalə xanıma köməklik göstərirdilər. İsa atasının qulluğunda həvəslə dayanırdı. Atası yenicə rəhmətə getmişdi. Atasının iki cüməsini verib cəbhəyə getmişdi. Atasının 40-ı çıxmamış özü də şəhadətə qovuşdu.

Vətənini, atasını, anasını, qardaşını, xalqını, Azərbaycan musiqisini, məktəbini sevən sevimli İsa Məhərrəmov cənnətə getdi. Ölümündən sonra İsa Məhərrəmov "Vətən uğrunda", "Füzulinin azad olunması uğrunda" medallar ilə təltif olunmuşdu.

İsa Məhərrəmovun qardaşı İsmayıl hər dəfə İsanın qəbrini ziyarət edərkən onu oxşayır.

*Atanın qırx günü olmamış tamam,*
*Oğlunun şəhidlik xəbəri gəldi.*
*Ananın göz yaşı eylədi qiyam,*
*İsanın Kərbəla səfəri gəldi.*
*Oğlum şəhadətin mübarək olsun,*
*Şəhadət başının tacıdır İsa.*
*Sənsiz həyatımın ən şirin anı,*
*Mənim üçün acıdan acıdır İsa.*
*Barışmaq olmur zalım fələklə,*
*Solmuş həyatıma əsən küləklə.*
*Sənin həsrətinə yanan ürəklə,*
*Ağlayan Anadır, Bacıdır İsa.*

# MÜNASİB ELMAN OĞLU MƏMMƏDOV



Münasib Elman oğlu Məmmədov 1996-cı il yanvarın 15-də Şəmkir rayonunda anadan olmuşdur.

2003-cü ildə Şəmkir rayon Abbaslı kənd 2 nömrəli tam orta məktəbə daxil olmuş, 2014-cü ildə Şəmkir rayon Abbaslı kənd 2 nömrəli tam orta məktəbi bitirmişdir. 2015-ci ildə hərbi xidmətdə olub. Hərbi xidməti Azərbaycan Respublikasının Füzuli rayonunun "N" saylı hərbi hissəsində olub. Hərbi xidməti bitirdikdən sonra müxtəlif işlərdə işləyib. Vətən müharibəsi zamanı 25 oktyabr 2020-ci ildə qəhrəmancasına şəhid olmuşdur.

Məmmədov Münasib ölümündən sonra "Füzulinin azad olunmasına görə, "Vətən uğrunda", "Döyüşdə fərqləndiyinə görə" və 3-cü dərəcəli "Vətənə xidmətə görə medalları ilə təltif edilib.

Ailəli idi. Bir övladı var.

## CAVİD İLHAM OĞLU MƏMMƏDOV



Cavid İlham oğlu Məmmədov 1990-cı il oktyabrın 18-də Şəmkir rayonunun Yeniabad kəndində anadan olub. 1997-ci ildə Rüstəm Əliyev adına Yeniabad kənd tam orta məktəbin birinci sinfinə daxil olub.

2008-ci ildə həmin məktəbin on birinci sinfini bitirib. 2008-ci ilin 19 oktyabrında həqiqi hərbi xidmətə çağırılmış, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Bərdə rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətini davam etdirmişdir.

2010-cu ildə həqiqi hərbi xidmətini başa vurmuşdur. 2010-cu ildə hərbi xidmətdən qayıtdıqdan sonra Yeniabad kəndinə qayıdaraq təsərrüfatla məşğul olmuşdur.

2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin "gizirlik" kursunu bitirərək gizir kimi fəaliyyət göstərmişdir.

2020-ci il oktyabrın 04-də İkinci Qarabağ müharibəsində Tərtər-Talış istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Ailəli idi. İki övladı var.

## NİYAMƏDDİN ZİRƏDDİN OĞLU MUSAYEV



Niyaməddin Ziréddin oğlu Musayev 1997-ci il martın 10-da Şəmkir rayonunun Mahmudlu kəndində anadan olub.

2003-cü ildə Yaşar Əsgərov adına Koltəhnəli kənd tam orta məktəbinin 1-ci sinfinə gedib.

2014-cü ildə Yaşar Əsgərov adına Koltəhnəli kənd tam orta məktəbinin 11-ci sinfini bitirib.

2015-ci ildə Həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidməti Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissədə çəkib.

2016-cı ildə ordudan tərxis olunub.

Hərbi xidmətdən qayıtdıqdan sonra avtomobil təmiri ilə məşğul olub. Çilingər idi.

2020-ci il sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış Komitəsi tərəfindən orduya çağırılıb.

27.10.2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə şəhid olub.

Subay idi.

## VÜSAL AYDIN OĞLU MƏMMƏDOV



Vüsal Aydın oğlu Məmmədov 1989-cu il aprelin 08-də Gəncə şəhərində anadan olub. 1996-cı ildə məktəbə gedib. 25 may 2007-ci ildə məktəbi bitirib. 2000-ci ildə oxuya-oxuya Gəncə Fikrət Əmirov adına musiqi kollecinə daxil olub. Azərbaycan Respublikası xalq artisti Gülyaz Məmmədovanın 3 il tələbəsi olub.

2007-ci il aprelin 08-də hərbi xidmətə çağırılıb. 2008-ci il oktyabrın 08-də hərbi xidməti bitirmişdir.

2014-cü il avqustun 01-də MAXE kimi ordu sıralarına daxil olub.

Subay idi.

İkinci Qarabağ müharibəsində şəhid olmuşdur.

# VACİB ZABİT OĞLU MƏMMƏDOV



Vacib Zabit oğlu Məmmədov 27 fevral 2001-ci ildə Şəmkir şəhərində anadan olub. 2007-ci ildə Şəmkir şəhəri Morul tam orta məktəbin birinci sinfinə gedib, 2018-ci ildə həmin məktəbi bitirib. Güləş üzrə keçirilən yarışlarda çoxsaylı rayon birincilikləri əldə etmişdir. 2019-cu ilin aprel ayında həqiqi hərbi xidmətə başlayıb. Hərbi xidməti zamanı Silahlı Qüvvələr arası sərbəst güləş turnirində 3-cü yeri tutmuşdur. 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayan zaman Qarabağın azad olunmasında iştirak etmişdir. Füzuli, Xocavənd istiqamətində gedən döyüşlərdə 2020-ci il oktyabrın 01-də aldığı qəlpə yaralarından şəhid olmuşdur. Subay idi.

# RÜSTƏM MÜSƏLLİM OĞLU MƏMMƏDOV




Rüstəm Müsəllim oğlu Məmmədov 2001-ci il oktyabrın 03-də Şəmkir rayonu Təzəkənd kəndində anadan olmuşdur.

2019-cu ilin oktyabr ayında həqiqi hərbi xidmətə çağırılmış, 2020-ci ilin sentyabr ayında Vətən müharibəsi başlayan anda döyüşlərə qatılmış, Füzuli və Xocavəndin azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında aktiv iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmişdir.

15 dekabr 2020-ci ildə ölümündən sonra "Vətən uğrunda" və 25 dekabr 2020-ci ildə "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2008-ci ildə Səməd Vurğun adına Təzəkənd kənd tam orta məktəbində 1-ci sinfə başlamış, 2019-cu ildə 11-ci sinfi bitirmişdir.

2020-ci il  noyabrın 03-də Xocavənd istiqamətində gedən döyüşlərdə mühasirədə qalmış, əsir düşməmək üçün döyüş yoldaşları ilə birlikdə özlərini və onlara hücum edən erməni terrorçularını da partladaraq qəhrəmancasına şəhid olmuşdur.

18 noyabr 2020-ci il tarixdə Şəmkir rayonunun Təzəkənd kəndində dəfn olunmuşdur. Subay idi.

## PƏRVİN NATİQ OĞLU MƏMMƏDOV



Pərvin Natiq oğlu Məmmədov 1988-ci il iyunun 20-də Şəmkir rayon Zəyəm qəsəbəsində anadan olmuşdur. 2005-ci ildə Əhməd Cəmil adına Zəyəm qəsəbə 1 №-li tam orta məktəbin birinci sinfinə daxil olmuş, 2016-cı ildə həmin məktəbi bitirmişdir.

2016-cı ildə hərbi xidmətə çağırılmış və 2018-ci ildə tərxis olunaraq ehtiyata buraxılmışdır. Hərbi xidmətini 2016-cı ildə Aprel döyüşləri zamanı işğaldan azad olunmuş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində keçmişdir.

2020-ci ilin sentyabr ayında "Vətən müharibəsi"nin başlaması ilə cəbhə bölgəsinə yollanmış və Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə Xocavənd istiqamətində qəhrəmancasına şəhid olmuşdur.

Ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmuşdur.

Subay idi.

## ÇİNGİZ İLHAM OĞLU MƏMMƏDOV



Çingiz İlham oğlu Məmmədov 1992-ci il iyulun 09-da Şəmkir rayonun Yeniabad kəndində anadan olub. 1999-cu ildə Rüstəm Əliyev adına Yeniabad kənd tam-orta məktəbin birinci sinfinə daxil olub. 2010-cu ildə kənd tam-orta məktəbin 11-ci sinfini bitirmişdir.

2010-cu ildə Həqiqi hərbi Xidmətə çağırılıb. Hərbi xidmətini Lənkəran şəhərində yerləşən "N" saylı hərbi hissədə çəkib.

2012-ci ildə hərbi xidməti bitirib. 2012-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin "gizirlik" kursunu bitirərək gizir kimi fəaliyyət göstərmişdir.

2020-ci il dekabrın 17-də İkinci Qarabağ müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Evli idi. Elgiz və Uğur adlı iki övladı var.

## NİYAMƏDDİN İSRAİL OĞLU MƏHƏRRƏMOV



Niyaməddin İsrail oğlu Məhərrəmov 1993-cü il yanvarın 05-də Şəmkir rayonunun Kür qəsəbəsində anadan olub.

Niyaməddin Məhərrəmov 2000-ci ildə Kür qəsəbə İsgəndər Aznaurov adına tam orta məktəbin 1-ci sinfinə daxil olub – 2011-ci ildə tam orta məktəbin 11-ci sinfini bitirib.

2011-ci ildə Həqiqi Hərbi xidmətə çağırılıb. Hərbi xidmətini Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə çəkib.

2012-ci ildə Həqiqi Hərbi xidməti başa vurub. Fərdi əməklə məşğul olub. Orta təhsilli idi.

2020-ci il sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış komitəsinin Şəmkir rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılıb.

Sentyabrın 29-da Murovdağ istiqamətində gedən döyüşlərdə şəhid olub.

## RÖVŞƏN VÜQAR OĞLU MƏDƏTOV



Rövşən Vüqar oğlu Mədətov 07 iyul 1998-ci ildə Şəmkir şəhərində anadan olub. 2005-ci ildə Şəmkir şəhəri Məhəmməd Füzuli adına tam orta məktəbin birinci sinfinə daxil olub. 2016-cı ildə həmin məktəbi bitirib. 2016-cı il iyulun 08-də həqiqi hərbi xidmətə çağırılıb 2018-ci ilin yanvarında tərxis olunub. 2020-ci il sentyabrın 22-də könüllü olaraq Vətən müharibəsində iştirak etmək üçün ordu sıralarına qoşulub. 2020-ci il noyabrın 20-də şəhid olub.

# BABƏK SƏHMAN OĞLU NAMAZOV



Babək Səhman oğlu Namazov 1994-cü il mayın 15-də Şəmkir rayon Əliyaqublu kəndində anadan olub. 2012-ci ildə Gəncə şəhər Nizami adına 11 №-li tam orta məktəbi bitirib. Həmin ildə Bakı Texniki Universitetinə daxil olub 2016-cı ildə hərbi xidmətə çağırılıb. Xidmət etdiyi Cəlilabad rayon Göytəpə kəndindəki "N" saylı hərbi hissədə XTQ kəşfiyyatçı sapyor xidmətini yerinə yetirirdi.

2018-ci ilin yanvar ayında müddətdən artıq hərbi xidmətdə qalıb işləmişdir. 2019-cu ilin sonunda yaxşı xidmətinə görə kiçik çavuş rütbəsinə layiq görülmüşdür.

Ona 2020-ci ilin sentyabr ayında işini yaxşı yerinə yetirdiyinə görə gizir rütbəsi verilmişdi. Lakin Qarabağ Vətən müharibəsi buna imkan vermədi. Müharibənin ilk günlərindən Murovda "Yırtıcı" ləqəbi ilə şücaətlə döyüşlərdə iştirak edib. Oktyabrın 1-dən isə Xocavənd, Cəbrayıl istiqamətlərində vuruşmuşdu.

Oktyabrın 4-dən 5-nə keçən gecə ağır döyüşdən sonra ondan heç bir xəbər olmamışdır. Şəhidin nəşi 4 ay yarımdan sonra 2021-ci il fevralın 19-da DNK testi ilə Cəbrayıl istiqamətində tapılmışdı.

2021-ci il fevralın 20-də doğulduğu Əliyaqublu kəndində torpağa tapşırılmışdı.

Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə Kəlbəcər, Xocavənd, Cəbrayılın azad olunmasına görə medallarla, həmçinin "Vətən uğrunda" və şücaət medalları ilə təltif edilmişdir.

## YUSİF NADİR OĞLU NƏCƏFOV



Yusif Nadir oğlu Nəcəfov 2001-ci il oktyabrın 14-də Bakı şəhərinin Yasamal rayonunda anadan olub. 52 nömrəli tam orta məktəbdə orta təhsil alıb. Məktəbin direktoru və müəllimlərin sevgisini qazanmış bir şagird olub. Müharibəyə qədər ki, dövrdə həmişə təlim-tərbiyəsinə görə seçilmişdir. İkinci Qarabağ müharibəsində 27.09.2020-ci il tarixindən – 01.10.2020-ci il tarixinədək Daşkəsən ərazisi istiqamətində ermənilərə qarşı müharibədə iştirak edib. 2020-ci il oktyabrın 01-də olduqları əraziyə raket atılan zaman dizindən və boynundan qəlpə yarası alaraq yaralanmışdır. Məktəb illərində Cüdo idman növü ilə 6 il məşğul olub, bu müddətdə İran, Türkiyə Gürcüstan və Azərbaycan Respublikasının şəhərlərində idman yarışlarında iştirak edərək nailiyyətlər əldə edib.

Məktəbi bitirdikdən sonra atası ilə birlikdə şəxsi heyvan təsərrüfatı ilə məşğul olub. Hərbi xidmət illərində Gəncə şəhəri "N" saylı hərbi hissədə artilleriya diviziyasında xidmət edib. Hərbi

xidmət dövründə komandir və heyətin rəğbətini qazanıb. 12.10.2020-ci il tarixinədək Daşkəsən mərkəzi xəstəxanasında müalicə almışdır. Sonra döyüşən orduya qatılaraq 13.10.2020-ci ildə Kəlbəcər rayonu, Murovdağ istiqamətində vuruşmuş, şəhid olmuşdur. 14.10.2020-ci ildə 19-cu doğum günündə Qarabağ rayon ümumşəhər qəbiristanlığında dəfn olunub. Daha sonra İkinci Fəxri Xiyabana köçürülüb. Ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənmə" medalları ilə təltif olunub [423].

## NADİR ARZU OĞLU NADİRLİ



Nadir Arzu oğlu Nadirli 1992-ci il martın 23-də Şəmkir rayonunun Qasımalılar kəndində anadan olmuşdur. 01 sentyabr 1998-ci ildə Rusiya Federasiyası Udmurtiya Respublikasının İjevski şəhərində orta məktəbə getmişdir. 15 sentyabr 2006-cı ildən Şəmkir şəhər Cahangir Rüstəmov adına tam orta məktəbə qəbul edilmiş və 31 may 2009-cu il tarixdə isə həmin məktəbin 11-ci sinfini bitirmişdir.

2009-cu ildə Bakı Dövlət Universitetinin Biologiya fakültəsinə daxil olmuş və 2013-cü ildə həmin universiteti bitirmişdir.

2013-cü ildə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. 2014-cü ildə həqiqi hərbi xidmətdən əsgər rütbəsi ilə ehtiyata buraxılmışdır. Hərbi xidmət zamanı nümunəvi xidmətlərinə görə Təşəkkürnamə almışdır.

Əmək fəaliyyətinə mühafizə xidmətinin işçisi kimi başlamışdır. 2015-ci ilin yanvar ayından 2016-cı ilin may ayına kimi bu vəzifədə çalışmışdır.

2016-cı ilin may ayından 2017-ci ilin aprel ayına kimi "Şərq Ulduzu" MMC-də laborant vəzifəsində çalışmışdır.

2017-ci ilin aprel ayından 2020-ci ilin may ayına kimi "Azerbaijan International Mining Company Limited" şirkətinin Gədəbəy qızıl mədəni zavodunda laborant vəzifəsində çalışıb.

2020-ci ilin may ayından şəhidlik zirvəsinə ucalan vaxta qədər "Azerbaijan International Mining Company Limited" şirkətinin Gədəbəy qızıl mədəni zavodunda mühəndis vəzifəsində çalışıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısının alınması ilə əlaqədar "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" 28 sentyabr 2020-ci il tarixli sərəncamının icrası ilə bağlı təsdiq edilmiş plana uyğun olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayon Şöbəsində yenidən hərbi xidmətə çağırılmışdır. Hərbi əməliyyatlar çərçivəsində 2020-ci il oktyabr ayının 25-dən – 26-na keçən gecə Füzuli rayonunda qəhrəmancasına şəhid olmuşdur. Ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad edilməsinə görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir. Evli idi.

## TƏBRİZ ƏLƏMDAR OĞLU NAMAZOV



Təbriz Ələmdar oğlu Namazov 1994-cü il martın 14-də Şəmkir rayonu Seyfəli kəndində anadan olub. 2001-ci ildə Natiq Abbasov adına Aşağı Seyfəli kənd tam orta məktəbin 1-ci sinfinə qəbul edilmiş və 31 may 2011-ci il tarixdə həmin məktəbi bitirmişdir. 2012-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. 2013-cü ildə hərbi xidmətdən ehtiyata buraxılmışdır. Hərbini bitirdikdən sonra fərdi təsərrüfatla məşğul olur. Daha sonra 2020-ci il yanvar ayında MAXE kimi ordu sıralarına qoşulmuşdur.

2020-ci il 29 sentyabr tarixində şəhid olmuşdur. 6 dekabr 2020-ci ildə Aşağı Seyfəli kəndində torpağa tapşırılmışdır. Subay idi.

## RUSLAN İLQAR OĞLU NƏRİMANZADƏ



Ruslan İlqar oğlu Nərimanzadə 1995-ci il aprelin 23-də Şəmkir rayon Zəyəm Cırdaxan kəndində anadan olmuşdur. 2003-cü ildə Şəmkir rayon Zəyəm Cırdaxan kənd S.Məmmədov adına tam orta məktəbin birinci sinfinə daxil olmuş, həmin məktəbi 9-cu sinfə qədər oxumuşdur.

2012-2013-cü illərdə ailə kəndli təsərrüfatında ailəsi ilə birlikdə çalışmışdır.

2013-cü il iyul ayında Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır.

2013-2015-ci illərdə Azərbaycan Respublikası Füzuli rayonu “N” saylı hərbi hissədə həqiqi hərbi xidmət keçmişdir.

2017-2020-ci illərdə işləmək məqsədi ilə Qazaxıstan Respublikasına, Rusiya Federasiyasına getmişdir.

2020-ci ilin iyun-sentyabr aylarında Bakı şəhərində fərdi əməklə məşğul olmuşdur.

Oradan qayıtdıqdan sonra 2020-ci il sentyabrın 21-də Səfərbərlik ilə əlaqədar olaraq hərbi xidmətə çağırılmış, 2020-ci il oktyabrın 13-də İkinci Qarabağ müharibəsində Füzuli rayon istiqamətində gedən döyüşlərdə iştirak edərkən şəhid olmuşdur.

Ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif olunmuşdur.

## ZAUR ƏLƏDDİN OĞLU NƏBİYEV



Zaur Ələddin oğlu Nəbiyev 2001-ci il iyulun 01-də Şəmkir rayon Ələsgərli kəndində anadan olmuşdur. 2008-ci ildə Şəmkir rayon Ələsgərli kənd Nəsir Nəsirov adına tam orta məktəbin birinci sinfinə daxil olmuş. 2019-cu ildə həmin məktəbi bitirmişdir.

2020-ci il iyul ayında Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində qumbaraatan vəzifəsi üzrə əsgər olaraq xidmət etmişdir.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsinə qatılmışdır.

Tərtər rayonu Suqovuşan kəndinin mənfur düşməndən azad olması uğrunda gedən döyüş zamanı 03 oktyabr 2020-ci ildə qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalmışdır.

Şəhid Zaur Nəbiyevin nəşi 2020-ci il oktyabrın 04-də doğulub boya başa çatdığı Ələsgərli kəndində dəfn olunmuşdur.

Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

# İSMƏT SƏMƏD OĞLU NAMAZOV



İsmət Səməd oğlu Namazov 1996-cı il iyulun 17-də Şəmkir rayonunun Mahmudlu kəndində anadan olub. 2002-ci ildə Yaşar Əsgərov adına Koltəhnəli kənd tam orta məktəbin 1-ci sinfinə daxil olub.

2013-cü ildə həmin məktəbin 11-ci sinfini bitirib.

2013-cü ildə Səfərbərlik və hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətini Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə çəkmişdir.

2020-ci il oktyabrın 27-də İkinci Qarabağ müharibəsində Fizuli rayonunun alınması uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Ailəli idi. İki övladı var.

Ölümündən sonra "Vətən uğrunda", "Füzuli alınmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

## İSƏ RAZİM OĞLU ORUCOV



İsə Razim oğlu Orucov 2001-ci il iyun 20-də Şəmkir şəhərində anadan olmuşdur.

2007-ci ildə Şəmkir rayon Xanallar kənd, Faiq Ələkbərov adına orta məktəbə daxil olmuşdur. 2018-ci ildə Şəmkir rayon Xanallar kənd Faiq Ələkbərov adına orta məktəbi bitirmişdir. 2019-cu ildə hərbi xidmətdə olub, Hərbi xidməti Azərbaycan Respublikasının Fizuli rayonunun "N" saylı hərbi hissəsində olub. Hərbi xidməti dövründə başlayan Vətən müharibəsində 2020-ci il oktyabrın 28-də qəhrəmancasına şəhid olmuşdur.

## ŞAMO HEYDƏR OĞLU RƏHİMOV



Vətən müharibəsi zamanı qəhrəmanlıqla döyüşərək şəhid olmuş oğullarımızdan biri də Kərimbəyli kənd şəhidi Şamo Heydər oğlu Rəhimovdur. 1982-ci ildə sentyabrın 08-də anadan olub. 44 günlük müharibədə Xocavəndin və Füzulinin azad olunması uğrunda döyüşlərdə şəhid olub. Füzuli rayon İcra Hakimiyyətinin əməkdaşları, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Füzuli rayon şöbəsinin əməkdaşları, Füzuli rayonunun millət vəkilinin nümayəndələri, Füzuli rayonunun Axundu, Azərbaycan Respublikasının Dini Qurumlarla işi üzrə Dövlət Komitəsinin nümayəndəsi, Kərimbəyli kənd icra nümayəndəliyi, məktəb direktoru, Birinci-İkinci Qarabağ müharibəsi qaziləri Kərimbəyli kənd sakinləri ilə birlikdə şəhidin ailəsini və məzarını ziyarət etmişdir. Ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

## SAHİL SƏRVAN OĞLU RƏSULOV



Sahil Sərvan oğlu Rəsulov 24 iyul 1999-cu ildə Goranboy rayonunun Səfikürd kəndində anadan olmuşdur. 2005-2016-cı illərdə Səfikürd orta məktəbini bitirmişdir. Uşaq yaşlarında sağlamlığında problem var idi. Sahil isə əsgər olmaq, Azərbaycan torpaqlarını azad etməkdə iştirak üçün çırpınırdı. 2016-2017-ci illərdə müalicə olundu. 2019-cu il 23 yanvarda o hərbi xidmətə getdi. Sumqayıtda hərbi hava qüvvələrində qulluq etmişdir. 3 iyul 2020-ci ildə hərbi xidmətini başa vurmuşdur.

26 iyul 2020-ci ildə könüllü orduya yazıldı. 19 avqustdan Mingəçevirdə təlimə qatıldı. Sentyabrın 10-da Goranboy rayonunun Tapqaraqoyunlu kəndi istiqamətində yerləşdilər. Sentyabrın 27-də mənfur düşmənlər hücuma keçdikdə Sahil də döyüşə qatıldı. O orduda MAXE idi. Tapqaraqoyunlu istiqamətində düşmənin ön cəbhəsinin yarılmasında qəhrəmancasına döyüşlərdə iştirak etdi.

Sahil komandirinin verdiyi məlumata görə avtomatik qumbaraatandan istifadə edirdi. 13 metr radiusu məhv edən bu silah erməniləri vahiməyə salmışdı. O Talış kənd meşələrində, qaranlıq meşədə, Ağ uçuqda düşmənin məhv edilməsində böyük rol oynamışdı. Düşmənin 37 texniki vəsaitini məhv etmişdi. Bir neçə yüksəkliyin alınmasında xüsusi rol oynamışdı. Ağdərə istiqamətində vuruşmada 40-a yaxın canlı qüvvəni məhv etmişdi. Onlar üç nəfər dost – Sahil, Murad, İbadət qumbaraatan AQEES silahı ilə strateji

yüksəkliklərdən düşmənlərin qovulmasında böyük rol oynayırdılar. Murad Qusar rayonundan idi. Suqovuşan, Tonaşen istiqamətindəki döyüşlərdə qəlpə yarası aldı və oktyabrın 10-da şəhadətə qovuşdu. Sahil sadə kəndli ailəsində dünyaya göz açmışdı. Atası Rəsulov Sarvan, anası Samirə xanım zəhmətkeş insanlar idi. Onlar övladlarını əməyə məhəbbət, torpağa sevgi, insanlara məhəbbət ruhunda tərbiyə etmişdilər. O, bacısı Ləman və Aydanı çox sevirdi, onların qayğısını çəkirdi. Amma, Vətən sevgisi, yurd məhəbbəti daha güclü idi. İndi o Səfikürd kənd qəbiristanlığında uyuyur. Ölümündən sonra "Vətən uğrunda", "Laçının azad edilməsinə görə" medallarla təltif olunmuşdur.

## SƏMƏD FÜZULİ OĞLU RZAYEV



Səməd Füzuli oğlu Rzayev 1995-ci il aprelin 19-da Goranboy rayonunun Tatarlı kəndində anadan olub. 2001-ci ildə Sərxan Ocaqverdiyev adına orta məktəbin 1-ci sinfinə daxil olub, 2011-2012-ci tədris ilində orta məktəbi bitirib. Atası rəhmətə getdiyindən ailənin ağırlığını kiçik yaşlarından çəkirdi. 2013-cü ildə əsgərliyə çağırıldı. Quba şəhəri "N" saylı hərbi hissədə xidmət etmişdi. O xüsusi təyinatlı hərbi bölməyə yazıldı. 2016-cı il avqust ayında müddətdən artıq Ağcakənd "N" saylı hərbi hissəsində xidmətə çağırıldı. O hazırlaşıb axırıncı dəfə evdən gedəndə anasına

müharibənin tezliklə başlanmasını bildirdi və evlərinin yanından görünən yüksək Murov dağlarını göstərərək dedi ki, o yüksəkliklər alındıqdan sonra torpaqlar bizim əlimizdə olacaq. Dizim imkan verəcəkmi o dağlara çıxmağa. Ana, o dağlarda mən şəhid olacağam. 2020-ci il sentyabrın 27-də erməni postuna əks hücum edildi.

Səməd kiçik çavuş idi. Xeyli erməni əsgəri məhv edildi. 27 sentyabrda yenə də hücum başlandı. Kiçik çavuş Səməd döyüş yoldaşlarını arxaya keçirib, önə özü keçdi. Dizi ağrıyırdı. O, dizini möhkəm sıxıb bağladı. Yoldaşları ilə 29-cu erməni postuna hücuma keçdilər. Yoldaşlarından bir neçə nəfər şəhid oldu. Bunu görən Səməd 2-ci erməni postuna tək hücuma keçdi. O ermənilərin səngərinə daxil oldu. Xeyli ermənini məhv etdi. 29 sentyabrda Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid oldu. Yoldaşları bildirdilər ki, o Mübariz İbrahimov kimi ölümün gözünə dik baxa-baxa şəhid oldu. Onun bölük komandiri deyirdi ki, Səməd elə bir döyüşçü idi ki, həm cəsur, qorxmaz, vətənpərvər, həm də yaxşı yoldaş idi. Onda olan cəsarəti heç bir döyüşçü də görmədim. Səməd öz səhifəsində yazmışdı. Vətənini satan, namusunu, qeyrətini də satır. Biz Səmədlə, eləcə də onunla çiyin-çiyinə vuruşub şəhid olan yoldaşları ilə fəxr edirik. Yaxşı ki, belə övladlar var.

Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunmuşdu [120].

## ELXAN AYAZ OĞLU RƏSULOV



Elxan Ayaz oğlu Rəsulov 1989-cu il aprelin 06-da Goranboy rayonunun Zeyvə kəndində anadan olub. 1996-cı ildə S.Məmmədov adına Zeyvə kənd orta məktəbin 1-ci sinfinə daxil olub, 2007-ci ildə orta məktəbi bitirib. 2007-ci ildə Azərbaycan Ordusu sıralarında xidmət etmək üçün Gədəbəy rayonunda kiçik çavuş kimi fəaliyyətə başlayıb.

2008-ci ildə əsgəri xidmətini başa vurub. 2020-ci ilin avqust ayında könüllü müddətdən artıq hərbi xidmətə gedib. İkinci Qarabağ müharibəsində Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 13-də zəng edib, evdəkilərə deyib, narahat olmayın, biz yaxşıyıq. İrəli gedirik, hər şey yaxşı olacaq. İnşallah müharibə tezliklə bitəcək, torpaqlarımızı geri alacağıq. Müharibədə çox çevikliklə döyüşüb. Döyüş zamanı qarın boşluğundan qəlpə yarası alıb, döyüşə davam edib. Bu zaman baş nahiyəsindən güllə yarası alaraq şəhidlik zirvəsinə yüksəlib. Elxan kimi oğullar daima Azərbaycan xalqının ürəyində yaşayacaq. Oktyabrın 16-da şəhid olan Rəsulov Elxan Ayaz oğlu ölümündən sonra “Vətən uğrunda”, “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunub. Mərd oğullarını Vətən heç vaxt unutmur, igid oğullar tək öz ailələrinin, yaxınlarının deyil, həm də hər bir azərbaycanlının ürəyindədir.

# ƏMRAH VƏTƏN OĞLU RƏCƏBOV



Əmrah Vətən oğlu Rəcəbov 2000-ci il dekabrın 11-də Gəncə şəhərində anadan olmuşdur. Kiçik yaşlarından atasını itirmişdi. Anası tərəfindən Gəncə şəhərində yerləşən internat tipli məktəbə verilmişdi.

Orta təhsilini Gəncə şəhər Samir Vəliyev adına 34 nömrəli tam orta məktəbində alır.

Gəncə İnternat məktəbindən məzun olduqdan sonra, dövlət tərəfindən Masazır məzunlar evindən ev hədiyyə olunur. 2019-cu ilin oktyabr ayında Azərbaycan Silahlı Qüvvələrinin sıralarında həqiqi hərbi xidmət keçmək üçün orduya çağırılmışdır.

Xidməti fəaliyyətini Beyləqan rayonunun “N” saylı hərbi hissəsində icra etmişdir. 2020-ci ilin 27 sentyabr tarixində İkinci Qarabağ müharibəsinin başlanmasından sonra Füzuli Əməliyyatına cəlb olunmuş və Füzuli rayon mərkəzinin azad edilməsi uğrunda aparılan şiddətli döyüşlərdə iştirak etmişdir.

Əmrah Rəcəbov 2020-ci ilin 8 oktyabr tarixində Füzuli əməliyyatının gedişində yaralanmış əsgər yoldaşını, döyüş mövqelərindən çıxartmağa çalışarkən yaxınlığına düşən mərmi nəticəsində həlak olmuşdur. Uzun müddət itkin olaraq axtarılan Əmrah Rəcəbovun nəşi 23 fevral 2021-ci ildə tapılmış və Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli sərəncamına əsasən Əmrah Rəcəbov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilib [129].

## ELGÜN İLHAM OĞLU SƏMƏDOV



Elgün İlham oğlu Səmədov 2001-ci il avqustun 28-də Şəmkir rayon Mehrili kəndində anadan olub. 2008-ci ildə Yuxarı Seyfəli kənd İ.Mehdixanov adına orta məktəbin 1-ci sinfinə daxil olub. 2019-cu il mayın 31-də həmin məktəbi bitirmişdir. 2019-cu ilin oktyabr ayında hərbi xidmətə çağırılmışdır. 06 oktyabr 2020-ci il tarixində Ağdərə istiqamətində Suqovuşanda şəhid olmuşdur. Azərbaycan Respublikası "Cəsur Döyüşçü", Suqovuşanın azad edilməsi" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Subay idi.

## DMİTRİY ALEKSANDROVİÇ SOLNSEV



Dmitriy Aleksandroviç Solnsev 1995-ci il aprelin 15-də Bakı şəhərində anadan olub. Milliyyətcə rus idi. Uşaq yaşlarında həm anasını, həm də atasını itirib. Bir bacısı var. 2001-2012-ci illərdə Nəsimi rayonunda 240 nömrəli tam orta məktəbdə təhsil alıb. 2012-2016-cı illərdə isə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) ali təhsil alıb. Subay idi.

Dmitriy Solnsev 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra öz istəyi ilə Nəsimi Rayon Hərbi Komissarlığına müraciət edib və Azərbaycan Ordusu sıralarına yazılıb.

Azərbaycan Ordusunun Əsgəri olan Dmitriy Solnsev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Hadrut qəsəbəsinin, Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Dmitri Solnsev oktyabrın 25-də Qubadlının azad edilməsi zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş

tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Dmitriy Solnsev 24.06.2021-ci ildə "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Dmitriy Solnsev oktyabrın 25-də Qubadlının azad edilməsi zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Dmitri Solnsev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə 25.12.2020-ci il tarixli Sərəncamına əsasən "Xocavəndin azad edilməsinə görə" medalı ilə təltif edilmişdir [60].

## RƏŞAD XANLAR OĞLU SADIQOV



Polkovnik-leytenant Rəşad Xanlar oğlu Sadıqov 11 oktyabr 1978-ci ildə Laçın şəhərində anadan olmuşdur. 1984-cü ildə Laçın şəhəri 2 nömrəli orta məktəbin birinci sinifinə daxil olmuşdur.

1993-cü il may ayının 9-da Laçın şəhərindən Şəmkir şəhərinə gəlmiş və ailəsi ilə birlikdə burada məskunlaşmışlar. 1995-ci ildə Şəmkir şəhəri Ə.Cavad adına orta məktəbi bitirmiş və həmin il Bakı Birləşmiş Ali Komandirlər Məktəbinə qəbul olmuşdur. 1999-cu ildə ali təhsilini başa vurmuş və leytenant rütbəsi ilə ilk hərbi xidmətinə Naxçıvan şəhərində başlamışdır. 2006-cı il avqust ayının 12-də ailə həyatı qurmuşdur. 2004-cü ildən 2019-cu ilədək Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev adına hərbi liseydə, Səfərbərlik xidmətində və hərbi hospitalda müxtəlif vəzifələrdə çalışmış, 2019-cu ildə Goranboy rayonunda "N" saylı hərbi hissədə xidmətinə davam etmişdir. 2020-ci il sentyabr ayının 27-də Vətən müharibəsində ordumuzun sıralarında yer almış, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və nəhayət Laçın rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmiş, şəhid olmuşdur.

Ailəli idi. İki övladı var.

## EMİL ŞAHİN OĞLU ŞIXƏLİZADƏ



Emil Şahin oğlu Şıxəlizadə 1998-ci il martın 10-da Lənkəran rayonunun Gərmətük qəsəbəsində anadan olmuşdur. Orta təhsilini Gərmətük qəsəbə tam orta məktəbində başa vurub.

Emil Şıxəliyev 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət qulluqçusu olan Emil Şıxəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşlərin birində savaşaraq şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 15.12.2020-ci il tarixdə Emil Şıxəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Atası Şahin kişi və anası Azadə xanım oğlanları ilə fəxr edirlər [61].

## VÜSAL İSLAM OĞLU ŞAHKƏRİMOV



Vüsal İslam oğlu Şahkərimov 2001-ci il iyunun 29-da Xaçmaz rayonunun Qusarçay kəndində anadan olub. Şəhid Arif Məmmədov adına orta məktəbi bitirdikdən sonra əsgərliyə yollanan 19 yaşlı Vüsal Vətən müharibəsində topçu kimi şərəflə xidmətini davam etdirdi.

Atası İslam Şahkərimov deyir ki, oğluna elə ad günü çağırış vərəqəsi gəlib: “Elə ad günü çağırış gəldi və o da getdi hərbi xidmətə. Uğurlarını və necə xidmət etdiyini də hamı gördü. O gün olsun ki, bütün əsgərlərimiz sağ-salamat qələbə ilə öz evlərinə dönsünlər”.

44 günlük müharibədə döyüş meydanında topçu Vüsal kimi vuruşub [62].

## ŞAHBAZ MİRZƏ OĞLU ŞAHBAZOV



Şahbaz Mirzə oğlu Şahbazov 1996-cı il iyunun 22-də Şəmkir rayonunun Qaracəmirli kəndində anadan olub. 15 sentyabr 2002-ci ildə Qaracəmirli kənd Cəlil Bayramov adına 2 saylı tam orta məktəbin 1-ci sinfinə qəbul edilmiş və 31 may 2014-cü il tarixdə isə həmin məktəbin 11-ci sinfini bitirmişdir. 2015-ci ildə isə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. 2017-ci ildə isə hərbi xidmətini başa vurmuşdur. Hərbi xidmət zamanı nümunəvi xidmətlərinə görə təşəkkürnamə ilə təltif edilmişdir.

Hərbi xidməti başa vurduqdan sonra fərdi təsərrüfatla məşğul olmuşdur. Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısının alınması ilə əlaqədar “Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında” 28 sentyabr 2020-ci il

tarixli sərəncamın icrası ilə bağlı təsdiq edilmiş plana uyğun olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayon şöbəsində yenidən hərbi xidmətə çağırılmışdır. Hərbi əməliyyatlar çərçivəsində 2020-ci il oktyabr ayının 25-dən-26-a keçən gecə Füzuli rayonunda qəhrəmancasına şəhid olmuşdur. Ölümündən sonra "Vətən uğrunda", silahlı qüvvələrinin təxribatlarının qarşısının alınması ilə əlaqədar "Füzulinin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

## ELXAN FƏXRƏDDİN OĞLU TAĞIYEV



Elxan Fəxrəddin oğlu Tağıyev 1990-cı il fevralın 26-da Goranboy rayonunun Faxralı kəndində anadan olub. 1997-2007-ci illərdə T.Sadıqov adına Faxralı kənd tam orta məktəbində təhsil almışdır. 2008-2010-cu illərdə müddətli hərbi xidmətdə olmuşdur. 2016-cı ilin 15 oktyabr tarixindən Beyləqan rayonunda "N" saylı hərbi hissədə (MAXE) hərbi qulluqçu kimi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun MAXE hərbi qulluqçusu olan Elxan Tağıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad

edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan kəndinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşərək oktyabrın 1-də şəhid olub. Goranboy rayonunun Faxralı kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 2020-ci il dekabrın 15-də Elxan Tağıyev ölümündən sonra "Vətən uğrunda", 2020-ci il dekabrın 29-da "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Ailəli idi. İki övladı qalıb [128].

## QOŞQAR NURUŞ OĞLU VƏLİYEV



Qoşqar Nuruş oğlu Vəliyev 1989-cu il aprelin 12-də Füzuli rayonunun Kərimbəyli kəndində anadan olub. 1996-cı ildə Kərimbəyli kənd orta məktəbində l-ci sinfə başlamış, 2007-ci ildə isə məktəbi bitirmişdir. 2008-ci ilin aprelində həqiqi hərbi xidmətə yollanıb. MAXE kimi xidmətə 2010-cu ildə başlayıb. 2016-cı ildə Aprel döyüşlərində fəal iştirak edib. Vətən müharibəsi başlayandan öz tankı ilə ön cəbhədə Əbdürrəhmanlı istiqamətində cəbhənin yarılmasında iştirak edən Qoşqarın tankı xain düşmən tərəfindən vurulur və partladılır. Bu zaman o kəllə beyin travması alır.

Müalicəsi başa çatmamış yenidən döyüş meydanına qayıdır. Noyabrın 2-si Xocavənd rayonunda tankı yenidən vurulur. Xəstəxanada müalicəsini yarımçıq qoyaraq xidmətə qayıdır və Hadruta yollanır. Noyabrın 22-də Şuşa şəhəri yaxınlığında düşmən texnikasını götürməyə getdiyi zaman havanın qatı dumanlı olmasından və heç bir yeri görmək mümkün olmadığından texnikanın dağa çırpılaraq aşağı düşməsi nəticəsində tankın altında qalaraq şəhid olub.

## HİDİ BƏXTİYAR OĞLU VƏLİYEV



Hidi Bəxtiyar oğlu Vəliyev Goranboy rayonu Tapqaraqoyunlu kəndinin şəhidi 1994-cü il martın 02-də dünyaya gəlib. Ailədə 4-cü övlad olub.

Hidi Vəliyev 2001-ci il sentyabrın 01-də Niyazi Aslanov adına Tapqaraqoyunlu kənd orta məktəbinin 1-ci sinfinə getmiş, 2012-ci ildə həmin məktəbi bitirmişdir.

Atası Vəliyev Bəxtiyar özü də müharibə iştirakçısı olub. Veterandı. Hidinin səhhəti ilə əlaqədar olaraq əsgərliyə aparılmayıb. O əsgər getməsi üçün çox cəhd edir. Nəhayət Hidi Vəliyev 2016-cı ildə əsgər getməyə nail olur. Hidi Aprel döyüşlərində Lələtəpə uğrunda gedən döyüşlərdə iştirak edir. Hidinin ən böyük arzusu Vətənə xidmət etmək olur. Hidi əsgərlikdən bir neçə il

sonra öz istəyinə çatır. 01.01.2020-ci ildə Vəliyev Hidi müddətdən artıq hərbiçi MAXE kimi işə başlayır. Hidi rabitə sahəsində işləmək istədiyini bildirir.

Vəliyev Hidi 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsində iştirak edərək Tərtər-Ağdərə uğrunda döyüşlərdə iştirak edir. Hidi Vəliyev şəhidlik zirvəsinə ucalır. Doğulub boya-başa çatdığı kənd mütəmadi olaraq atəşə tutulmasına görə Vəliyev Hidi qonşu Balakürd kəndində kənd Şəhidlər Xiyabanında 28.04.2020-ci ildə dəfn olunur. Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.

## ELMİR MƏMMƏDQULU OĞLU VƏLİYEV



Elmir Məmmədqulu oğlu Vəliyev 1986-cı il aprelin 13-də Füzuli rayonunun Kərimbəyli kəndində anadan olmuşdur.

1992-ci ildə Kərimbəyli kənd Əkrəm Səlimov adına tam orta məktəbin 1-ci sinfinə getmiş, 2003-cü ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir.

2004-cü ildə həqiqi hərbi xidmətə çağırılır, 2006-cı ilin yanvar ayında xidmətini "N" saylı hərbi hissədə başa vurmuşdur.

2009-cu ildə ailə qurmuş və iki övladı dünyaya gəlmişdi. Vəliyev Dəniz və Vəliyeva Zəhra.

2008-ci ildə “N” saylı hərbi hissəyə müddətdən artıq hərbi qulluqçu tankçı kimi qəbul olur.

Xidmət etdiyi müddətdə iki dəfə fəxri fərmanla təltif edilib.

İkinci Vətən müharibəsində 2020-ci il oktyabrın 27-də Füzuli uğrunda gedən döyüşlərdə düşmənin minomyotu mərmisinin yaxın məsafəyə düşməsi nəticəsində qəhrəmancasına şəhid olmuşdur. Ölümündən sonra Füzuli uğrunda gedən döyüşlərdə medalla təltif edilib.

## KƏRİM HƏSRƏT OĞLU YUSİFOV



Kərim Həsrət oğlu Yusifov 1995-ci il avqustun 01-də Goranboy rayonunun Faxralı kəndində anadan olub. 2001-ci ildə Faxralı kəndindəki T.Sadıqov adına Faxralı kənd tam orta məktəbinin l-ci sinfinə qəbul edilmiş və 2012-ci ildə həmin məktəbi bitirmişdir.

Hərbi xidmətini başa vurduqdan sonra Kərim Yusifov 2016-cı il dekabrın 17-dən Tərtər rayonunda “N” saylı hərbi hissədə MAXE hərbi qulluqçu kimi işə başlamışdır. 2020-ci ilin sentyabr ayında məzuniyyətdə olmasına baxmayaraq vəziyyətlə əlaqədar olaraq 26.09.2020-ci il tarixində saat 13:00-da geriyə hərbi hissəyə qayıdır. Azərbaycan Ordusunun MAXE hərbi qul-

luqçusu olan Kərim Yusifov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış və Suqovuşan kəndlərinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb və döyüşlərin ilk günündə (sentyabrın 27-də) şəhid olub. Goranboy rayonunun Faxralı kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Kərim Yusifov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi [63].

## YUSİF OQTAY OĞLU YUSİFOV



Yusif Oqtay oğlu Yusifov 2002-ci il yanvarın 31-də Goranboy rayonunun Faxralı kəndində anadan olub. 2019-cu ildə Faxralı kəndindəki T.Sadıqov adına Faxralı kənd tam orta məktəbi bitirmişdir. Subay idi.

2020-ci il may ayının 7-də həqiqi hərbi xidmətə yollanmış və hərbi xidmətini Füzuli rayonunda yerinə yetirməyə başlamışdır. Azərbaycan Ordusunun əsgəri olan Yusifov Yusif 2020-ci il

sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənıın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azad olması uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Onun son döyüşü Zəngilan rayonunun azadlığı uğrunda olub. Yusif Yusifov oktyabrın 29-da Zəngilan uğrunda döyüşlər zamanı şəhid olub. Goranboy rayonunun Faxralı kəndində dəfn olunub. O, Goranboy rayonundan şəhid olan ən gənc əsgərdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Yusif Yusifov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir [64].

## KƏNAN FEHRUZ OĞLU YUSİFLİ



Kənan Fehruz oğlu Yusifli 1999-cu il iyulun 10-da Goranboy rayonunun Səfikürd kəndində anadan olmuşdur.

2005-ci ildə Goranboy rayonu Səfikürd kənd tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. 2014-cü ildə 11 sinfi bitirdikdən sonra nağara üzrə Ağdam musiqi kollecinə daxil olmuşdur. 2018-

ci ildə həmin kolleci bitirərək, iyul ayında hərbi xidmətə çağırılmışdır.

2020-ci ilin yanvar ayınadək DSX-nin Qazax rayonunda yerləşən 11 saylı hərbi hissəsində xidmət etmişdir. Xidməti dövründə kiçik çavuş hərbi rütbəsinə layiq görülmüşdür. 2020-ci il sentyabrın 8-də öz xahişi ilə Müdafiə Nazirliyinin Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətdən artıq hərbi qulluqçu kimi xidmətə başlamışdır. Həmin ayın 27-də İkinci Qarabağ müharibəsi başlayan gün Talış istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları il təltif olunub [65].

## RƏŞAD NAZİM OĞLU YUSİFOV



Rəşad Nazim oğlu Yusifov 1996-cı il avqustun 19-da Şəmkir şəhərində anadan olub. 2002-ci ildə Şəmkir şəhəri C.Rüstəmov adına tam orta məktəbin birinci sinfinə başlayıb. 2013-cü ildə həmin məktəbi bitirib. 2014-cü ildə həqiqi hərbi xidmətə çağırılır. 2016-cı ildə həqiqi hərbi xidmətdən tərxis olunur. 2018-ci ildə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətə başlayır. 2020-ci il 27 sentyabrda Vətən müharibəsi başlanan

zaman Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmiş və oktyabr ayının 2-də şəhid olmuşdur.

## XUDAYAR MÜSLÜM OĞLU YUSİFZADƏ



Xudayar Müslüm oğlu Yusifzadə 1998-ci il iyulun 15-də Bərdə şəhərində anadan olub. Atası – Bərdənin tanınan qarmon ustası Müslüm Yusifoğlu, anası – Rada Yusifzadə isə evdar xanım idi. Ailədə dörd uşaq olublar – üç qardaş və bir bacı. Xudayar Yusifzadənin doğumundan 24 gün sonra atası vəfat edib. Xudayar Yusifzadə 2004-2015-ci illərdə Bərdə şəhərində Bülbül adına 1 №-li Uşaq İncəsənət Məktəbində təhsil alıb. Subay idi.

Xudayar Yusifzadə 2016-2018-ci illərdə Dövlət Təhlükəsizliyi Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Daha sonra isə o, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət etdi və "gizir" hərbi rütbəsi aldı. 2020-ci ilin Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra öz istəyi ilə Bərdə Rayon Hərbi Komissarlığına müraciət edib.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının giziri olan Xudayar Yusifzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Si-

lahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı əvvəlcə Füzuli rayonunda sərhəd məntəqəsində xidmət edib, daha sonra isə Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xudayar Yusifzadə oktyabrın 22-də Zəngilan döyüşləri zamanı Ağbənd istiqamətində şəhid olub. Bərdə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Xudayar Yusifzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə, "Azərbaycan Bayrağı ordeni ilə, "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edildi. Xudayar Yusifzadə ölümündən 2 gün əvvəl Əlağa Vahidin "Vətən yaxşıdır" şerini ifa edib və bunu telefon vasitəsilə lentə alıb. Həmin video qısa müddət ərzində sosial medialarda tirendə çevrilib. Onun şəhid olmasından sonra isə həmin video daha geniş vüsət aldı və Xudayar Yusifzadə qısa müddət ərzində fenomenə çevrildi.

2020-ci ildə Xudayar Yusifzadənin ifasında "Vətən yaxşıdır" təsnifi yeni aranjemanda təqdim olundu. Abbas Bağırov mahnını Xudayar Yusifzadənin ifası ilə duet formasında oxuyub.

2021-ci il fevralın 18-də Xudayar Yusifzadənin təhsil aldığı Bərdə şəhərinin Bülbül adına 1 nömrəli Uşaq İncəsənət Məktəbində onun büstünün açılış mərasimi oldu [111].

# RƏŞAD QİYAS OĞLU ZEYNALLI




Rəşad Qiyas oğlu Zeynallı 1998-ci il aprelin 21-də Bakı şəhərində anadan olub. 2004-2008-ci illərdə İ.Əfəndiyev adına Elitar Gimnaziyada, 2008-2015-ci illərdə isə P.Nəzərov adına 60 №-li tam orta məktəbdə təhsil alıb. 2014-2018-ci illərdə Azərbaycan Texniki Universitetində (ATU) "Cihazqayırma mühəndisliyi" ixtisası üzrə ali təhsil alıb. Subay idi. Azərbaycan Ordusunun əsgəri olan Rəşad Zeynallı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində savaşıb. Rəşad Zeynallı oktyabrın 8-də şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəşad Zeynallı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi [66].

## MƏTLƏB NİZAMİ OĞLU ZAMANOV



Mətləb Nizami oğlu Zamanov 1985-ci il yanvarın 29-da Şəmkir şəhərində anadan olub. 1992-ci il sentyabrın 1-də Şəmkir şəhəri Morul tam orta məktəbinin 1-ci sinfinə qəbul edilmiş və 31 may 2001-ci il tarixdə həmin məktəbin 11-ci sinfini bitirmişdir. 13.04.2005-ci ildə isə müddətli həqiqi hərbi xidmətə çağırılmışdı, 2006-cı il iyunun 13-də ehtiyata buraxılmışdır. 2004-cü il dekabrın 02-də ailə qurub və bu evlilik həyatından 3 övladı dünyaya gəlib.

17.06.2014-cü il tarixdən 2020-ci ilə qədər Şəmkir rayonunda, 2020-ci ilin əvvəllərindən isə Qazax rayonunda yerləşən hərbi hissədə xidmət etmişdir. 44 günlük müharibə dövründə Füzulinin azad olunması uğrunda döyüşlərdə iştirak etmişdir. Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısının alınması ilə əlaqədar "Dəmir yumruq" əməliyyatı çərçivəsində 2020-ci il oktyabrın 25-dən – 26-a keçən gecə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Zamanov Mətləb ölümündən sonra Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçularının "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Döyüşdə fərqləndiyinə gorə" medalları ilə təltif olunmuşdur.

Ailəli idi. Üç övladı var idi [24].

# MƏMMƏD RƏHMAN OĞLU ZAMANLI



2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində düşmənin təxribat törətməsi, eyni zamanda, bütövlükdə təmas xəttində gərginliyin artması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunların cəmlənməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Müzəffər Azərbaycan Ordusu 27 sentyabr 2020-ci il tarixdə başladığı əks-hücum əməliyyatları nəticəsində şücaət və qəhrəmanlıq nümunəsi göstərib, əsgər və zabitlərimiz addım-addım irəliləyərək, düşmənin silahlı qüvvələrinə ağır zərbələr vuraraq əzəli və əbədi torpaqlarımızı azad etməklə, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi.

Azərbaycan Respublikasının Ali Baş Komandanı İlham Əliyev qazanılmış qələbə münasibətilə xalqa müraciətində demişdir: “İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq”.

Şəhidlər ölmür. Onlar bir xalqın, millətin, el-obanın qürur yerinə çevrilir, cismən həyatdan köçsələr də, xalqın qəlbində, yaddaşında özlərinə əbədi məskən salır, eləcə də onların adı Azərbaycanın hərb salnaməsinə qızıl hərflərlə yazılır.

Bu yazıda Vətən müharibəsində böyük şücaət göstərib ölümü ilə şəhidlik zirvəsinə ucalmış cəsur komandir Məmməd Rəhman oğlu Zamanlı haqqında danışacağıq.

Zamanlı Məmməd 1998-ci il avqust ayının 3-də Naxçıvan MR-in Şərur rayonunun Püsyan kəndində Məmməd kişinin ocağında dünyaya göz açmışdır. Anadan olanda hamıdan çox babası sevinmiş və öz adını nəvəsinə verərək: "Məmməd mənim adımı şərəflə daşıyacaq" – demişdir.

Məmməd kişi çox xeyirxah bir insan idi. O, 1941-1945-ci illər Böyük Vətən müharibəsində, oğlu Rəhman isə Birinci Qarabağ müharibəsində iştirak etmişdir. O, 1996-cı ildə ordudan tərxis olunduqdan sonra DİN-in sıralarında çalışmış, ictimai asayişin qorunmasında fədakarlıq nümunəsi göstərmiş və 2014-cü ildə qüsursuz xidmətinə görə təqaüdə buraxılmışdır.

Məmməd ata və anasının bir oğlu, iki bacının tək qardaşı idi. O, kiçik yaşlarından hərbçi olacağını və yağıları torpaqlarımızdan qovacağını deyirdi.

Vətənpərvərlik, yurd sevgisi Məmmədin qanında və canında idi. Naxçıvanın uzun illər blokada şəraitində qalması, Qarabağ və onun ətraf ərazilərinin erməni quldurları tərəfindən işğal olunması onun qəlbini çox sıxırdı.

Məmməd təhsil aldığı M.Əsgərov adına Püsyan kənd orta məktəbinin 9-cu sinfini bitirdikdən sonra Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Liseyə daxil olur. Liseydə kursantlara tədrisin vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə aparılması onların cəld komandir kimi yetişməsində böyük rol oynamışdır.

O, 2015-ci ildə Liseyi müvəffəqiyyətlə bitirib, Bakı şəhərində Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olur, burada hərbi biliklərə dərindən yiyələnir. 2019-cu ildə təhsilini uğurla başa vuraraq leytenant rütbəsi alır və Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə artilleriya üzrə xidmətə başlayır. Məmməd 1 il 2 ay ərzində ona tapşırılan işlərin öhdəsindən bacarıqla gəldiyinə görə, onun vəfatından əvvəl rütbəsi artırıldı.

Məmmədin ən böyük arzusu torpaqlarımızı erməni quldurlarından azad etmək olub. O, 2020-ci il sentyabrın 27-də Füzuli istiqamətində gedən döyüşlərdə əsgərləri ilə cəsarətlə döyüşürdü. Düşmən tərəfdən top mərmisi atıldı. Məmməd vaxt itirmədən əsgərlərini səngərə yığıb, onları ölümdən qurtarsa da, öz həyatını xilas edə bilmədi. Onlara yaxın bir yerdə partlayan mərminin qəlpələri ətrafa yayıldı və cəsur komandir ağır xəsarət alaraq, Vətən uğrunda qəhrəmancasına şəhid oldu.

Məmməd Zamanlının nəşi 2020-ci il dekabr 1-də Heydər Əliyev adına Azərbaycan Hava Limanında böyük izdihamla doğulub boya-başa çatdığı Naxçıvana yola salındı. Hava Limanında Vətənin qəhrəman oğlu çox böyük hörmət və ehtiramla qarşılanmış və Şərur rayonu Püsyan kənd qəbiristanlığında dəfn edilmişdir.

Məmməd Zamanlı Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır [24].

## 2.4. Azərbaycanın Qarabağ müharibəsində erməni təcavüzünə qarşı mübarizə aparan bir sıra qadınlar

Azərbaycanın tarixi Qarabağ bölgəsi tarixin bütün mərhələlərində xalqımıza məxsus olmuş, əcdadlarımıza xas maddi-mənəvi irsi, milli-mənəvi dəyərləri, ənənəvi ailə-məişəti indi də yaşamaqdadır.

Ailə dəyərlərinin əsası isə ailənin qadını ilə sıx bağlıdır. Y.V.Çəmənzəminli yazır: “Ana insaniyyətin məşəl aparanıdır” [7].

Belə bir məsəli dəfələrlə eşitmişik “Dar gündə qadın kişinin arxasıdır”.

“Kitabi-Dədə Qorqud” dastanı da ana nəfəsinin istiliyindən, ana südünün müqəddəsliyindən, saflığından, qadınların qəhrəmanlığından xəbər verir [13, s.145].

Əlbəttə, Azərbaycan xalqının üzləşdiyi Birinci və İkinci Qarabağ müharibələrində tarixi həqiqətlər qadınların həm ana kimi tərbiyə etdikləri mərd əsgərlər, həm də özlərinin fədakarlıqları dediklərimizi sübut edir. Onların Qarabağ müharibələrində iştirak etmiş bir qrupu haqqında məlumat vermək yerinə düşərdi.

## SALATIN ƏZİZ QIZI ƏSGƏROVA



Salatın Əsgərova Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ müharibəsi şəhidi, 1991-ci il yanvarın 9-da Laçından Şuşaya yollanarkən Qaladərəsi kəndi yaxınlığında Ermənistan Silahlı Qüvvələri tərəfindən amansızcasına qətlə yetirilən Azərbaycanın ilk şəhid qadın jurnalistidir.

Salatın Əsgərova 1961-ci il dekabrın 16-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1979-cu ildə Bakı şəhərində Mikayıl Müşfiq adına 18 saylı orta məktəbi əla qiymətlərə başa vurmuşdur. O, həmin il Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuşdur. Onun müəllimi Firəngiz Haşımovanın sözlərinə görə, Salatın Əsgərova uşaqlıqdan öz möhkəm iradəsi ilə seçilirdi [67].

1984-cü ildə geofizika ixtisası üzrə mühəndis diplomu alan Salatın Əsgərova jurnalistika sahəsinə böyük maraq göstərirdi. Nəticədə 1984-cü ildə müqavilə ilə "Bakı" qəzetində, 4 il sonra

isə “Molodyoj Azerbaydjana” qəzetində işləməyə başlayıb. Onun toxunduğu məsələlər Azərbaycan torpaqlarının bütövlüyü ilə bağlı idi. O, tez-tez cəbhə xəttinə gedər, qaynar nöqtələrdən operativ materiallar hazırlayardı. Ailəsi, iş yoldaşları ondan bərk nigaran idilər. Dəfələrlə onun döyüş bölgəsinə getməyinin qarşısını almağa çalışsalar da, heç nəyə nail ola bilmirdilər.

Onun sonuncu yazısı Xocalıdakı xüsusi təyinatlı polis dəstəsinin fəaliyyətindən, çətin döyüş əməliyyatlarından bəhs edən “Omonçular” idi. O, “Molodyoj Azerbaydjana” qəzetinin 1991-ci il 3 yanvar tarixli sayında, təkcə azərbaycanlı döyüşçülərin igidliyindən yazmır, həm də imperiya nökərlərini kəskin tənqid edirdi.

O, 1991-ci il yanvarın 8-dən – 9-na keçən gecə Bakıdan Şuşaya Oleq Larionovun yanına getməyi qərara aldı. O, evdən hərbi forma geyinib çıxmışdır. Batalyon komandiri podpolkovnik Oleq Larionov sibirli idi. O, 5 il batalyona rəhbərlik etmişdi, həmin batalyon 1990-cı ilin yazında Qazaxın Bağanis Ayrım kəndini ermənilərin hücumlarından qorumuşdu. Buna görə də ermənilər Larionovun başına 10 min rublluq mükafat vəd etmişdilər. O, həm də Qazaxda Salatın Əsgərovanı ölümdən xilas etmişdi. Salatın Əsgərova Oleq Larionovla söhbət etdi [67].

1991-ci il yanvarın 9-da pusquda durmuş erməni terrorçuları tərəfindən Yevlax-Laçın yolunun 141 km-də Qaladərəsi kəndi yaxınlığında, Gəncə şəhərinin “N” saylı hərbi hissəsinə məxsus “UZ 469” markalı 30-14 NB dövlət nömrə nişanlı avtomaşın atəşə tutuldu. Ermənilər hərbi maşını iki istiqamətdən – həm avtomatdan, həm də snayper tüfəngindən qabaqdan, arxadan və soldan güllələdilər. Sonradan hadisə yerinə gələnlər maşında 113 güllə deşiyi saymışdılar. Hərbi maşının sürücüsü – serjant İ.Qoyek ölməzdən əvvəl əyləci basa bilir, mayor İqor İvanov dərhal ölür. Podpolkovnik Oleq Larionov isə ermənilərə avtomatdan atəş açmağa imkan tapır. O, beş güllə yarası almasına baxmayaraq maşından yerə düşə bilir, yolu keçib ermənilərdən xeyli uzaqlaşıb, silahındakı patronlar qurtarana qədər onlarla döyüşür. Sonda o yerə yıxılır və ermənilər ona yaxınlaşıb yenidən güllələyirlər.

Daha sonra erməni silahlıları maşının qapısını açıb, yaralı Salatın Əsgərovanı dayanmadan güllələyirlər. Güllələrdən biri onun gicgahına dəymişdi.

Salatın Əsgərovanın qatillərinin ələ keçməsində İsrafil Şahverdiyevin rolu böyük idi. Onların ölümünə bais olan Arno Mkrtıçyan, Qraçik Petrosyan, Arvid Manqasaryan, Qaqik Arustamyan müəyyənləşdirilərək, 1991-ci ilin mayında həbs olunmuşdu. 1993-cü ildə cinayətkarlar ölümə məhkum edilirlər. Lakin göstərilən şəxslərin hamısı 1996-cı il mayın 8-də birtərəfli qaydada Ermənistana təhvil verilmişdir.

Salatın Əsgərova Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ailəli idi, Ceyhun adlı oğlu yadigar qalıb. Poeziyanı, musiqini və kitab oxumağı çox sevərdi. Salatın Əsgərova 1992-ci il noyabrın 6-da ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Ölümündən sonra Beynəlxalq Jurnalistlər İttifaqı Konfederasiyasının laureatı adına layiq görülüb. Salatın Əsgərovanın yaxınlığında həlak olduğu kənd Salatınkənd adlanır. Onun Bakıda yaşadığı binada xatirə lövhəsi vurulub. Bakıda küçələrdən biri, Bakı buxtasında gəzinti gəmisi və Qadınlar İctimai Birliyinin təsis etdiyi mükafat onun adını daşıyır. 1993-cü ildə bəstəkar Elza İbrahimova "Salatın" mahnısını onun xatirəsinə həsr etmişdir. Mahnı Flora Kərimova tərəfindən ifa olunmuşdur.

Nəbi Xəzri Salatın haqqında elegiya-poeması yazmışdır.

2016-cı ildə Salatın Əsgərovaya həsr olunmuş qısametrajlı "Vətən üçün gedirəm" filminin təqdimatı keçmişdir [67].

## GÜLTƏKİN MƏLİK QIZI ƏSGƏROVA



Gültəkin Məlik qızı Əsgərova 1960-cı il noyabrın 20-də Bakı şəhərində anadan olub. O, 1985-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə 8 №-li təcili yardım stansiyasında başlamış, 1991-ci ildən Uroloji kliniki xəstəxanada işləmişdir. Qarabağ müharibəsi başladığı zaman, öz körpəsini anasına əmanət edərək, cəbhəyə erməni gülləsindən yaralanan əsgərlərə yardım etməyə getmişdi.

O, 1992-ci il aprelin 4-də könüllü cəbhəyə yollanıb, Turşsu, Şuşa xəstəxanalarında, Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi fəaliyyət göstərib. O, ilk dəfə olaraq özü ilə 5 tibb bacısını götürərək könüllü döyüşə gedib.

Şuşa şəhərinin həbsxanasında olanların da qapısının açıb azad olunmasında onun xidməti də olub. Həbsxananın qapısı açılmasaydı orada olanlar əsir götürüləcəkdi.

1992-ci il mayın 8-də Şuşanın işğalından bir gün sonra Şuşanı sonuncu tərk edənlərdən biri olmuşdur. Anasına göndərdiyi məktubda yazılmışdı:

Ana, salam. Mən sağ və salamatam, hər şey normaldır. Bizə yaxşı yemək verirlər. Mən qələbənin sonuna qədər buradayam. Şuşa alınana qədər! Bəlkə də indi alınmadı...

Şuşanın işğalından sonra, Gültəkin Əsgərova Laçının, daha sonra isə Qubadlının müdafiəsində iştirak etmişdi [68].

O, 1992-ci il mayın 14-də Ağdam istiqamətində gedən döyüşlərdə iştirak etdi. O, Bakıdakı hərc-mərclikdən cana yığılmışdı. Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi yenidən xidmətə başlayır. Aranzəmin yüksəkliyinin ətəyində onun tibbi xidməti, üçün yer ayrılır. Buraya yaralıları hərbçilər gətirməliydi ki, o da əsgərləri müalicə etsin. Lakin atəş səslərinin gücləndiyini eşidir. Burada dayana bilməyib, Aranzəmin yüksəkliyinə qalxır. Aranzəmin yüksəkliyi uğurunda gedən döyüşdə 1992-ci il 19 iyul saat 15:00-da şəhid olub.

Onu özündən də kiçik olan dəmir tabutda Azərbaycan Respublikası Müdafiə Nazirliyinə UAZ-la gətirmişdilər. Onun tabutunun üstündə də xarı bülbül var idi. 1992-ci ildə Bakıda Şəhidlər xiyabanında dəfn edilib. Ölümündən sonra Gültəkin Məlik qızı Əsgərova "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Ailəli idi. Əminə adlı qızı yadigar qalıb.

Gültəkin Əsgərovanın oxuduğu 200 saylı orta məktəbə onun adı verilmiş və büstü qoyulmuşdur. Bakıda Nərimanov rayonundakı xəstəxananın önündə büstü qoyulmuşdur. Bakıda yaşadığı Mustafa Kamal Atatürk prospekti 2[a] ünvanındakı binaya xatirə lövhəsi vurulmuşdur. Xəzərdə üzən gəmilərdən biri onun adını daşıyır, gəmidə muzeyi yaradılmışdır.

2014-cü il iyunun 20-də Nizami Kino Mərkəzində Gültəkin Əsgərovaya həsr olunan "Gültəkin" filminin təqdimat mərasimi keçirilmiş, ona həsr olunan "Gültəkin zirvəsi" kitabı təqdim olunmuşdur [68].

# QARATEL ŞƏMİ QIZI HACIMAHMUDOVA



Qaratel Şəmi qızı Hacımahmudova 1948-ci ildə Qazax rayonunun Aşağı Əskipara kəndində dünyaya göz açmışdı. 1962-ci ildə Aşağı Əskipara kənd orta məktəbini bitirib və Bakı Ticarət Texnikumuna daxil olub. 1970-1975-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil alıb. 1976-1991-ci illərdə Neft Kəşfiyyatı İdarəsində işləyib. Qaratel Hacımahmudova həm də Azərbaycan Milli Azadlıq Hərəkatının ən fəal üzvlərindən olub.

1990-cı ildə kiçik qardaşı Hümbətlə son dəfə meydanda rastlaşırlar. Qaratel Hacımahmudova ondan fikrini soruşur. Hümbət Qarabağa gedəcəyini deyir. Hacımahmudova qardaşına Aşağı Əskiparada müharibə getdiyindən, ona ora getməyi məsləhət görür. Hümbət Qarabağ döyüşlərinə yollanır. O isə öz kəndlərinə gəlir və kəndin cavanlarından ibarət könüllü özünümüdafiə dəstəsinə qoşulur.

O, döyüşçülərin yeməyini bişirir və paltarlarını yuyurdu. Yemək çatmayanda, gedib bağlardan göy-göyərti yığıb bişirərdi ki, döyüşçülər ac qalmasın. Qaratel Hacımahmudova həm də, Azərbaycan döyüşçüləri ilə birgə səngərdə döyüşürdü. 1992-ci il iyunun 8-də ermənilər güclü hücuma keçdilər. O, hərəyə bir avtomat və 2 ədəd qumbaraatan verilən 28 nəfərlik dəstədə idi. Bütün çətinliklərə baxmayaraq, dəstə ermənilərin hücumunu dəf edə bilmişdi.

1992-ci il iyunun 14-də səhər tezdən ermənilər rus hərbi bölmələrinin köməyi ilə növbəti güclü hücuma keçdilər. O, komandir Yaşar Qasımovun taqımında döyüşürdü. Tağım Fələməz adlanan mövqedə hər tərəfdən top və tank atəşinə tutulur. Qaratel Hacımahmudova komandirin çətin tapşırığını yerinə yetirmişdi. O, başqa səngərdən qumbaraatan mərmisini gətirir.

Düşmənlə Azərbaycan döyüşçülərinin qüvvəsi qeyri-bərabər olduğundan, hər an vəziyyət pisləşə bilərdi. Komandir Qasımov Hacımahmudovaya səngəri tərk etməsini, hətta kənddən çıxmasını əmr etmişdi. Lakin o geri çəkilmir, arabir mövqeyini dəyişirdi. O, döyüşçü Mərdan Əsgərovla bərabər döyüşürdü. Bu son döyüşün şahidi kənd ağsaqqalı Vəli kişi də onların yanında olur. Ermənilər onu əsir götürürlər.

Ermənilər Qaratel Hacımahmudovanın başına pul qoymuşdu. O həmişə özü ilə köynəyinin yaxalığında zəhər gəzdirərdi. Qaratel Hacımahmudova düşmən əlinə sağ keçməmək üçün üzərində gəzdirdiyi zəhəri içdikdən sonra güllə ilə özünü vurur. Komandir Yaşar Qasımovun sözlərinə görə, o uzaqdan Hacımahmudovanın bərkdən qışqırtısını eşitdi. Daha sonra onu saçından tutub sürüyə-sürüyə komandirin yanına gətirdilər. Cəsədi qan içində idi. Ermənilər onunla bərabər həlak olmuş Alıyev Alı, Əsgərov Mərdan, Əmiraslanov Şəmistanın meyitlərini də götürüb aparırlar. Həmin il iyunun 26-da onun cəsədi Mərdan Əsgərovun, Şəmistan Əmiraslanovun, Surxay Məmmədovun və Alı Alıyevin cəsədləri və əsir düşmüş kənd sakini Vəli Namazov ilə birgə erməni girovlarla dəyişdirilmişdir.

Subay idi. O, rəhmətə getmiş qardaşı Məhəmmədin üç uşağını böyütmüşdü.

Şair Məmməd İlqar Qaratel Hacımahmudovaya poema həsr etmişdir:

*Bahar – ömründə qışdı,*
*İllər – yaşında xışdı*
*Telin ağarmamışdı*
*Qaratel bacım mənim*
*Onun haqqında filmlər çəkilmişdi.*

1. Dağların telli havası (film, 2003).

2. Qaratel (film, 2009) – (tammetrajlı sənədli televiziya filmi).

O, 1994-cü ildə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub [69].

Birinci Qarabağ müharibəsində qadınlar da ordulara cəlb olunur, döyüşlərdə iştirak edirdilər. Onlar əsasən yaralı əsgərlərə ilk tibbi yardım edir, döyüşlərdə yaralı insanları evakuasiya etmək kimi köməkçi rollarda xidmət edirdilər.

Birinci Qarabağ müharibəsində qadınlar həkim, jurnalist, yazıçı kimi də iştirak edirdilər. Onlar müharibəni və müharibə iştirakçılarını işıqlandırmaq, düzgün məlumatı mənbədən yazmaq, əsgərləri müalicə etmək məqsədi ilə döyüş bölgələrinə gedirdilər.

Birinci Qarabağ müharibəsində Qazax rayonunun Daş Salahlı kənd sakini Vəfa Mansurova da könüllü olaraq döyüşlərə qatıldı. O, kənddən ianə toplayıb silah, sursat alınmasında və kənd uğrunda döyüşlərdə 1993-cü ilədək iştirak edib. 1998-ci il aprelin 25-də isə vəfat edib.

Zəngilan rayonunun Şəfibəyli kənd sakini Şücaət İsgəndərova döyüş əməliyyatlarında iştirak edirdi. 1992-ci il may ayının 20-də döyüşçülərə yardım apararkən erməni gülləsinə tuş gəlib, şəhid oldu. Onun bir qız övladı qaldı.

Bu gün dəhşətli anları xatırlayan Solmaz Əliyeva Ağdam rayonunda hərbi kəşfiyyatlarda iştirak edirdi.

Təranə Orucova Ağdamda tibb bacısı kimi yaralı əsgərlərə xidmət edirdi.

Jurnalist Zemfira Məhərrəmli döyüş gedən ərazilərdə olurdu. Bu haqda kitabların müəllifidir.

Jurnalist Firuzə Əsədullayeva 90 nəfər Qarabağ şəhidi haqqında kitab yazmışdır. Onların 7-si şəhid qadınlardır.

Növrəstə Yusifova ilk snayper qadın kimi səngərlərdə döyüşüb. Şuşa və Şuşa ətrafında gedən döyüşlərdə iştirak edib. Çoxlu sayda düşmən əsgərini və canlı qüvvəsini məhv etmişdir.

Qarabağ döyüşlərində şəhid olmuş Könül Qəhrəmanova, Rəhilə Orucova, Aytən Abdullayeva, Məlahət Nəsibova, Zöhrə

Quliyeva, Alimə Əsgərova müharibədə iştirak etmiş Fəridə Hicran, Xatirə Məmmədova, Mərziyə Quliyeva, Sevda Səfərova, Gültəkin Quliyeva, Mətanət Abbasova, Ruhəngiz Məmmədova və digərlərinin adları bu gün fəxrlə çəkilir.

1993-cü ilin oktyabr ayında Heydər Əliyev rəsmi olaraq Prezident seçildi və itirilmiş ərazilərdən əlavə, ölkədə sosial nizamı bərpa etməyi öhdəsinə götürdü. Həmin ay Azərbaycan MDB-yə qatıldı. Qış mövsümü əvvəlki il kimi oxşar şəraitlərdə keçirdi: hər iki tərəf aylar əvvəl yığılan ərzaqlar ilə dolanırdı. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı iki sonrakı BMT Təhlükəsizlik Şurasının qətnamələri oktyabr və noyabr ayında (874 və 884) qəbul edildi.

Yanvarın əvvəllərində Azərbaycan Silahlı qüvvələri Füzuli rayonunun bir hissəsini, o cümlədən, İran sərhədində Horadiz dəmir yolu qovşağını ələ keçirsə də, Füzuli şəhərini geri ala bilməmişdi. 1994-cü il yanvarın 10-da Azərbaycan döyüşçüləri Ağdərə rayonunun şimal hissəsini ələ keçirmək üçün hücuma başladı. Hücumda Azərbaycan ordusu Qarabağın şimalında və cənubunda bir neçə əraziləri götürsə də, onları saxlaya bilmədi.

Altı il gərgin döyüşlərdən sonra hər iki tərəf atəşkəsə hazır idi. Azərbaycan Ermənistan qüvvələrinin Bakıya yürüş planlarından xəbərdar olduğundan, ATƏT-in və ya Rusiyanın yeni atəşkəs təklifinə ümid bağlayırdı. Münaqişənin son döyüşləri gedirdi və 1994-cü ilin əvvəllərində Goranboy rayonunun Gülüstan kəndində Azərbaycan və Ermənistan diplomatları atəşkəsin detallarını həyata keçirmək üçün görüş keçirdi.

Mayın 5-də Rusiyanın vasitəçiliyi ilə, bütün tərəflər hərbi əməliyyatları dayandırmağa razılaşdı. Mayın 12-si saat 00:00-dan etibarən atəşkəs rejimi barədə "Bişkek protokolu" adlı sənəd imzalandı. Azərbaycanın müdafiə naziri Məmmədrəfi Məmmədov mayın 9-da, Ermənistanın müdafiə naziri Serj Sarkisyan mayın 10-da, Dağlıq Qarabağ qoşunlarının komandanı Samvel Babayan mayın 11-də sənədi imzaladılar. Ara-sıra döyüşlər bəzi yerlərdə davam etsə də, bütün tərəflər atəşkəs şərtlərinə əməl edəcəyini bildirmişdi.

2008-ci ilin əvvəlində Ermənistan və Azərbaycan arasında gərginlik artdı. Diplomatik xəttində Prezident İlham Əliyev Azərbaycanın lazım olsa ərazi bütövlüyünü hərbi yolla almaq açıqlamalarını qeyd edirdi; eyni vaxtda, təmas xətti boyunca atəş insidentlərin sayı artırdı. 2008-ci ilin mart ayında Ermənistan silahlı qüvvələri Tərtərdə hərbi təxribat törətmişdir. Hər iki tərəf döyüşün başlanmasında bir-birini ittiham etmişdi. Bundan əlavə, atışmalarda əvvəlki qarşıdurmalarda snayper və ya pulemyot atəşindən fərqli olaraq, ağır artilleriyadan istifadə olunmuşdu. 18-19 iyun 2010-cu ildə toqquşmalar Çaylı yaxınlığında da baş vermişdir.

Gərginlik yenidən 2014-cü il  noyabrın 12-də 13:45 radələrində Ağdam rayonunun Kəngərli kəndi yaxınlığında Azərbaycan silahlı qüvvələri və Ermənistan silahlı qüvvələri arasında baş vermiş hadisədən sonra artdı. Nəticədə Azərbaycan Silahlı qüvvələrində müddətdən artıq hərbi xidmət keçən komandiri İlkin Muradov helikopterlərdən birini İQLA daşınan zenit-raket kompleksi vasitəsi ilə məhv etdi.

Qeyd etdiyimiz kimi, bölgədə gərginlik 2016-cı il aprelin 1-dən – 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermiş "Dördgünlük müharibə" adlandırılan hərbi münaqişədən sonra daha da artdı. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Çocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur.

2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tavuş mərzi və Tovuz rayonu ərazilərində baş verən döyüşlərdə 16 əsgər həlak olmuşdur. Döyüşlərdən bir neçə saat sonra Bakıda şəhidləri qarşılamaq üçün küçələrə çıxmış insanlar daha sonra toplaşıb, şəhərin mərkəzinə "Qarabağ bizimdir" şüarı ilə yürüş etmişdilər.

27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhə boyu zonada

yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif iriçaplı artilleriya qurğularından intensiv atəşə tutulması nəticəsində Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əkshücum əməliyyatı başlaması barədə qərar verilmişdi. Qarşıdurmalar nəticəsində Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik Azərbaycanda isə hərbi vəziyyət və komendant saatı, 18 sentyabrda qismən səfərbərlik elan edilmişdir. Qarşıdurmalar qısa müddətdə sürətlə alovlanmış və İkinci Qarabağ müharibəsinə çevrilmişdir.

Çoxsaylı ölkələr və Birləşmiş Millətlər Təşkilatı münaqişəni kəskin şəkildə qınamış və hər iki tərəfi gərginliyi azaltmağa və mənalı danışıqları təxirə salmadan davam etdirməyə çağırmışdır. Əfqanıstan, Ukrayna, Pakistan, Türkiyə və Şimali Kipr Türk Respublikası isə Azərbaycana dəstək olduqlarını bildirmişdir. 29 sentyabr tarixində BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağdakı vəziyyətlə əlaqədar təcili iclas keçirmişdir. Rusiyanın vasitəçiliyi ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən dəstəklənən və həm Ermənistan həm də Azərbaycan tərəfindən qəbul edilən humanitar atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində qüvvəyə minsə də, Ermənistan silahlı qüvvələrinin mülki vətəndaşları hədəfə alan terror aktları nəticəsində atəşkəs yenidən pozulmuş yaralıların və məhbusların mübadiləsi dayandırılmışdır.

İkinci Qarabağ müharibəsində həyatına son qoyulanların sırasında Azərbaycan qızı Arəstə Kərim qızı Baxışova da vardı.

# ARƏSTƏ KƏRİM QIZI BAXIŞOVA



Arəstə Kərim qızı Baxışova 1989-cu il mayın 4-də Xaçmaz şəhərində anadan olub. Atası – baş leytenant Kərim Baxışov Fövqəladə Hallar Nazirliyində Mühafizə İdarəsinin rəisi vəzifəsində çalışıb və Arəstənin dörd yaşı olanda vəfat edib.

Baxışova Arəstə 1995-2004-cü illərdə Biləcəri qəsəbəsində yerləşən Şuşa şəhər 3 nömrəli tam orta məktəbdə təhsil alıb. 2004-2008-ci illərdə isə Azərbaycan Dövlət Pedaqoji Kollecində "İngilis dili" üzrə təhsil alıb. Mərdan adında oğlu və Zəhra adında qızı yadigar qaldı.

Baxışova Arəstə 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Baş Hərbi Hospitalında tibbi statist olaraq çalışıb. 2019-cu il iyulun 12-dən isə Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində operator vəzifəsində xidmət edirdi.

Azərbaycan Ordusunun çavuşu olan hərbi feldşer Arəstə Baxışova 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə

döyüş meydanında tibbi yardım göstərib. Arəstə Baxışova oktyabrın 23-də Qubadlı döyüşləri zamanı şəhid olub. Biləcəri qəsəbəsinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 15.12.2020-ci il tarixində Arəstə Baxışova ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Arəstə Baxışova ölümündən sonra 2021-ci il mayın 12-də Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən ingilis tibb bacısı Florens Naytingelin şərəfinə təsis olunan "Florence Nightingale" medalı ilə təltif edildi.

Arəstə Baxışova İkinci Vətən müharibəsinin ilk şəhid xanımı olub [70].

Göründüyü kimi, tarixi Azərbaycan torpaqlarında yaradılan Ermənistan dövləti havadarlarının dəstəyi ilə Azərbaycana qarşı daim ərazi iddiaları irəli sürüb, işğalçılıq siyasəti yürüdüb. 30 illik işğal dövründə də Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən əlavə 7 rayonu da viranə qoyub, dinc əhali silaha tuş gəlib, tarixi ərazilərimiz viran edilib və 2020-ci ilin sentyabr-noyabr aylarındakı 44 günlük müharibədə də Ermənistan qadağan olunmuş silahlardan istifadə etdi. Belə bir mürəkkəb tarixi dövrdə Azərbaycan anaları da başlarını dik tutdular. Şanlı Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində qazandığı zəfərlə XXI əsrin əvvəllərində hərb sahəsində yeni səhifə açdı.

Qadın gözəllik, məhəbbət, müqəddəslik, sədaqət rəmzidir. Qadın həm də qəhrəmanlıq, ləyaqət və cəsarət simvoludur.

Bu gün Azərbaycan qadını həyatın bütün sahələrində özünəməxsus yer tutur. Qarabağ müharibəsində də qadınlarımız bir daha özlərini təsdiq etdilər.

## 2.5. İkinci Qarabağ müharibəsində qazanılan qələbədə iqtidar-xalq birliyi

İkinci Qarabağ müharibəsi milli dövlətçilik və hərb tariximizin şanlı, qürur verici səhifəsinə çevrildi. Bu savaşda qazanılan parlaq qələbə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərkərdə qüdrətinin, doğma vətənini canından artıq sevən Azərbaycan əsgərinin və Azərbaycan xalqının qəhrəmanlığı sayəsində gerçəkləşdi. Xalq və Ordunun sarsılmaz vəhdəti Dəmir yumruğa çevrilib məkrli düşməni darmadağın etdi.

Ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır. Ulu öndərin təşəbbüsü ilə 2001-ci ilin 9-10 noyabr tarixlərində keçirilən Dünya Azərbaycanlılarının Qurultayında dediyi: "Müstəqil Azərbaycanın əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı milli mənsubiyyəti ilə fəxr etməlidir, biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət və ənənələrini inkişaf etdirməliyik" və "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" tezisləri harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlıları vahid ideya ətrafında sıx birləşdirdi.

"Azərbaycan tolerant ölkədir, ölkəmizdə müxtəlif xalqların, millətlərin nümayəndələri sülh, əmin-amanlıq, dostluq şəraitində yaşayırlar" deyən Ümummilli Lider Azərbaycan əhalisinin çoxmilli tərkibini sərvətimiz, üstünlüyümüz kimi dəyərləndirir [23].

Məlumdur ki, XIX əsrdən başlayaraq Dağlıq Qarabağa köçürülən ermənilər Azərbaycan torpaqlarına yiyələnmək iddiasında idilər.

1987-1989-cu illərdə Ermənistanda yaşayan azərbaycanlılar öz tarixi torpaqlarından zorla qovuldu.

1991-ci ilin sonu – 1992-ci ilin əvvəllərində münaqişənin hərbi mərhələsi başlandı.

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi – Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayon, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun 1 kəndi Ermənistan ordusu tərəfindən işğal olundu. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1 milyondan artıq azərbaycanlı məcburi köçkün vəziyyətinə düşdü.

27 sentyabr 2020-ci il Azərbaycan xalqının mübarizə tarixinə "Vətən müharibəsi, İkinci Qarabağ müharibəsinin başlandığı gün kimi düşdü. 30 illik işğal dövründən sonra, həmin gün səhər saatlarında təcavüzkar erməni ordusunun cəbhə boyu Azərbaycan ərazisinə hücum etməsindən sonra, cavab olaraq Ali Baş Komandanın əmri ilə bütün təmas xətti boyu əks-hücum əməliyyatlarına başlanıldı.

Dövlət başçısının "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır" şüarı Azərbaycan Ordusunun, bütün xalqımızın şüarı oldu. Azərbaycanın hərbi potensialı və müdafiə qüdrətinin gücləndirilməsi sahəsində əldə edilən nailiyyətlər işğal altında olan torpaqlarımızın addım-addım azad olunmasına gətirib çıxardı.

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsi başlanan gündən xalqımız Azərbaycan dövləti, torpaqlarımız uğrunda mübarizəyə qalxdı.

Xalqımıza məxsus ailə dəyərləri, milli dəyərlər, maddi-mənəvi irsə malikli özünü göstərdi. Belə ki, gənclərimiz könüllü olaraq Vətənin müdafiəsinə qalxdılar. Dövlət, ordu, xalq birliyi, onların Azərbaycan Dövləti, Prezidenti ətrafında sıx vəhdəti – "Dəmir yumruq" yarandı. Torpaqlarımızın azadlığı uğrunda ixtisasından asılı olmayaraq hər kəs mübarizəyə qalxdı.

İkinci Vətən Müharibəsinin ilk xanım şəhidi Arəstə Baxışova bu ərəfədə mətbuatda çıxış edərkən demişdi: "Oğlum Mərdanın 11 yaşı var. O da ordumuzla qürur duyur. O da hərbçi olmaq niyyətindədir. Varlığımla inanıram ki, nəinki mənim oğlum, hətta çağırış yaşlılarımız da işğaldan azad edəcəyimiz torpaqlarımıza xidmət edəcəklər".

Azərbaycan Respublikasının əməkdar jurnalisti Səlahəddin Quliyev İkinci Qarabağ müharibəsi dövründə həlak olmuş şəhidlərimizə həsr etdiyi "Qayıt gəl" şerində sanki özünün ömrünü şəhidlərin ömrünə calayır, ömür payını onların yolundan salırdı:

*Heyf deyir, sızıldayır qohum, yad,*
*Qazanmısan el içində şöhrət, ad,*
*Mənasızdır sənsiz keçən bu həyat*
*Darıxırıq səndən ötrü qayıt gəl*

[17, s.293].

İkinci Qarabağ müharibəsi dövründə Azərbaycan övladlarının Vətənimizin azadlığı naminə uğurları onu sevindirirdi. Odur ki, qələmini sözün həqiqi mənasında süngüyə çevirmişdi. "Yeni tarix, yeni təqvim yazırdı" şerində vətənpərvər jurnalist Milli Ordumuzun qələbələrini alqışlayaraq yazırdı:

*Baş komandan, milli ordu,*
*Azad edir doğma yurdu.*
*Suqovuşandan, Laçından,*
*Zəngilan, Kəlbəcərdən.*
*Yağı düşmən qovulur,*
*Yeni təqvim, yeni tarix yazılır.*
*İlhamın mərd igidləri,*
*Polad, mübarizləri.*
*Qırıb düşmənin sipərini,*
*Qazanır zəfərləri.*
*Şah İsmayıl, İlham Paşa,*
*Qan uddurub düşmənə.*
*Torpaq verməyib yada,*
*Tarix yaratdı qoşa.*
*Gəldi Şuşa şəhərindən,*
*Qələbənin müjdəsi.*
*Gözləyirik məscidlərdən*
*Ucalsın azan səsi.* [17, s.290].

Quliyev Səlahəddin Azərbaycan xalqına bu zəfəri yaşadan Ali Baş Komandan İlham Əliyevin və Şanlı Ordumuzun qələbəsini qələmə alaraq sətirlərə, sətirləri isə xalqın nəğməsinə çevirdi.

Müharibənin nəticəsi olaraq noyabrın 9-dək 5 şəhər – Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa; 4 qəsəbə – Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz və Xocavənd rayonunun Hadrut qəsəbəsi; 286 kənd – Cəbrayıl rayonunun 90, Füzuli rayonunun 53, Zəngilan rayonunun 52, Xocavənd rayonunun 35, Tərtər rayonunun 3, Qubadlı rayonunun 41, Xocalı rayonunun 9, Laçın rayonunun 3 kəndi işğaldan azad edildi.

Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən 2020-ci il 10 noyabr tarixində imzalanmış birgə Bəyanata uyğun olaraq Ermənistan silahlı qüvvələrinin 1 dekabr tarixinədək Azərbaycanın Ağdam, Kəlbəcər və Laçın rayonlarından çıxarılması təmin edildi, beləliklə, Azərbaycan ərazisində ölkəmizin suverenliyi bərpa olundu [91].

Azərbaycan ərazisini tərk edən Ermənistan qoşunları və əhalisi vandalizm aktları həyata keçirdilər. Yaşayış məskənlərinin, habelə ağ fosfordan istifadə etməklə meşələrin yandırılması, fauna və floranın məhv edilməsi ilə Ermənistanın növbəti dəfə Azərbaycana qarşı ekoloji cinayətlər törətməsi, qanunsuz arxeoloji qazıntılar apararaq aşkar olunmuş nadir nümunələrin Ermənistana daşınılması, işğal olunmuş ərazilərdə Azərbaycanın maddi-mənəvi irsinin talan edilməsi, Azərbaycan torpaqlarının ermənilər tərəfindən minalanması, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Ermənistan tərəfindən sosial-iqtisadi infrastruktura, tarixi-mədəniyyət və dini abidələrə, ətraf mühitə, fərdi və çoxmənzilli yaşayış evlərinə külli miqdarda maddi zərər vurulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu tarixi qələbə haqqında demişdir ki, qələbə bizim əyilməz ruhumuzu göstərdi. Göstərdi ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildi və bütün xalqımız lap balaca uşaqlar, yaşlı insanlar, o torpaqları tərk edənlər, qayıtmaq arzusunda olanlar, o

torpaqlarda heç vaxt olmayan, amma o bölgələrdən olan gənc nəslin nümayəndələri, biz hamımız bir arzu ilə yaşayırdıq və bu arzunu həyata keçirmişik. Bu gün bizim bütün arzularımız çin olub. Bu, hər birimiz üçün doğrudan da böyük xoşbəxtlikdir. Artıq müharibə arxada qaldı [24].

Azərbaycan Respublikasının Prezident İlham Əliyev Azərbaycan xalqına müraciətində demişdir: “İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir”.

Azərbaycan dövlətinin düzgün siyasəti, Azərbaycan Ordusunun şücaəti, Azərbaycan xalqının birliyi nəticəsində torpaqlarımız azad edildi. Lakin bir atalar sözündə “torpaq uğrunda ölən varsa vətəndir”, deyildiyi kimi itkilərimiz də oldu. Şəhidlər, yaralılar, qazilər Azərbaycan xalqının mərd oğullarıdırlar.

Tarixdən məlumdur ki, Azərbaycanın qədim tarixi ərazisi olan İrəvan xanlığı Çuxursəəd bəylərbəyiliyi əsasında təşəkkül tapmışdı. Nadir şah 20 iyun 1747-ci ildə qətlə yetirildikdə İrəvan bəylərbəyi Pir Mahmud xan hakimiyyəti əldən verməməyə cəhd göstərmişdisə də İrəvanda İran ağalığına qarşı üsyana başçılıq edən yerli feodal Mir Mehdi xan özünü xan elan edərək, müstəqil İrəvan xanlığının əsasını qoydu.

Lakin İrəvan xanlığı keçmiş bəylərbəyiliyin bütün ərazisini əhatə edə bilmədi. Onun bir hissəsi Naxçıvan və digər xanlıqların tərkibinə daxil edildi. İrəvan xanlığı Azərbaycanın qərbində Göyçə gölü ətrafında yerləşmiş və 15 mahaldan ibarət idi: Qırxbulaq, Zəngibasar, Qarnibasar, Vedibasar, Şərur, Suran, Dərək, Saatlı, Tala, Seyidli-Axaclı, Sərdarabad, Gərni, Abaran, Dərəçiçək və Göyçə. Xanlığın mərkəzi İrəvan şəhəri idi.

1751-ci ildə bu xanlığı Urmiya xanı Fətəli xanın sərkərdəsi Azad xan zəbt etdi. 1755-ci ildə Mir Mehdi xanın qardaşı Həsənəli xan İrəvan xanlığını öz hakimiyyəti altına almağa müvəffəq oldu. Daha sonra isə xanlıq taxtına Həsənəli xanın qardaşı Hüseynəli xan keçdi.

Xanlıq əhalisinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edirdi [1, s.413-414]. Vətənpərvər jurnalist Səlahəddin Quliyev İrəvanın tarixi Azərbaycan torpaqları olmasını bir daha xatırlayaraq "İrəvan Azərbaycandır" şerini yazmış, Vətəninə, xalqına təqdim etmişdi:

*Düş Qazaxdan düzəl yola*
*Döngə sağa, döngə sola*
*Çıxacaqsan dağ başına*
*Geridə yol dilicandır*
*İrəvan Azərbaycandır!*

*Aşıq kökləyəndə simi*
*Dilə gəlir "Göyçə gülü"*
*Dərələyəz, Göyçə gölü*
*Gözəldir, cənnət məkandır*
*İrəvan Azərbaycandır!*

*Basar keçər, Vedibasar*
*Biz qovarıq, düşmən qaçar*
*Babaların ruhu yaşar*
*Bir yanı dağ, bir tərəf arandır*
*İrəvan Azərbaycandır!*

*Türk adlıdır, Türk soyludur*
*Bütün küçələr döngələr*
*Təpə başı, məhəllələr*
*Minarələr, məscidlər*
*Minbərdən ucalan səslər*
*Quran səsidir, azandır*
*İrəvan Azərbaycandır!* [17, s.290-291].

Vətənə məhəbbət, dədə-baba yurduna bağlılıq azərbaycanlılara xas olan nəcib bir xüsusiyyətdir. Odur ki, xalqımız öz torpağını, dilini, adətlərini qoruya bilmiş, dövlətçilik ənənələrini yaşatmışdır.

## 2.6. Birinci və İkinci Qarabağ müharibələrinin Azərbaycan ailələrinə vurduğu maddi-mənəvi ziyanlar

İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi və ya "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Dağlıq Qarabağ ərazisində davam edən silahlı qarşıdurmaların 27 sentyabr 2020-ci il səhər saatlarında Qarabağ müharibəsindən sonra yaradılmış təmas xətti boyunca erməni ordusunun hücumu ilə başladı. Ermənistan silahlı qüvvələri ilə Azərbaycan silahlı qüvvələri arasında davam edən müharibə nəticəsində 2020-ci ilin oktyabr ayında Azərbaycanın Gəncə şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən 5 dəfə ayrı-ayrı zamanlarda bombalandı. Nəticədə 27 nəfər şəhid oldu. 125 nəfər yaralandı. Erməni təcavüzü Bərdədə 31 nəfərin həyatını əlindən aldı, 70 şəxs yaralandı. 2020-ci il sentyabrın 29-da Ermənistan silahlı birləşmələrinin dinc Azərbaycan əhalisini hədəfə alması səbəbindən növbəti dəfə toplarla atəş nəticəsində Naftalanın Qaşaltı kənd sakini Qurbanov Elbrus İsa oğlu və onun 4 ailə üzvü həlak oldu [54; 72; 78; 80].

Ermənilər nəinki döyüş bölgələrində, hətta cəbhədən uzaq məsafələrdə yerləşən Gəncə, Bərdə, Beyləqan və digər ərazilərdə yaşayan mülki əhalini raket və ağır artilleriya hücumlarına məruz qoydu, Azərbaycanın dinc, günahsız vətəndaşlarını evlərində qətlə yetirdi. Həlak olanlar arasında hətta 10 aylıq Narin də vardı. Narin ermənilərin oktyabrın 17-də törətdikləri ikinci Gəncə terrorunun qurbanı oldu [12].

Erməni barbarlarının Gəncəyə atdıqları raket nəticəsində dağılan binaların divarları altından yaralı vəziyyətdə çıxarılan Ömər Nəsirov hadisə zamanı başına gələnləri belə xatırlayır: "Daşın altında qaldım. Qorxdum... Bu heç vaxt yadımdan çıxmayacaq...". Azyaşlı Ömərin bu söylədikləri nəinki özünün, heç bir azərbaycanlının yaddaşından silinməyəcək...

O gecə Nilaylar, Hüseynlər də yetimləşdi. Xain düşmən neçə-neçə ailənin ocağını söndürdü, insanlar əzizlərini, doğmalarını

itirdilər, uşaqlar ata-anasız, bacı-qardaşsız, nənə-babasız qaldı. Ermənistanın gecə törətdiyi Gəncə terroru (11 oktyabr 2020) zamanı dağılan binada yaşayan balaca Nilay atasını, nənəsini itirdi. Məlum hadisədə yaralanmış anası Günay isə bir gün sonra xəstəxanada həyatla vidalaşdı. Ömrünün səkkizinci payızını yaşayan Hüseynlə 16 yaşlı bacısı Sevilin valideynləri həmin terrorda həlak oldular.

Erməni silahlı bölmələrinin yenə eyni ssenari ilə (17 oktyabr 2020-ci il) gecə saatlarında törətdikləri Gəncə teraktı nəticəsində xoşbəxt həyatları yarımçıq qalanlardan biri də Şahnəzərovlar ailəsi oldu. Ermənistan ərazisindən atılan raketin yaratdığı dağıntılar altından ailənin yalnız bir üzvü – 2017-ci il təvəllüdlü Xədicə Şahnəzərova sağ çıxarıldı. Azyaşlı qızın atası, anası və yaşyarımlıq bacısı Məryəm isə bu terrorun qurbanına çevrildilər. O dəhşətli günlərdə baş verənləri anlamayan üçyaşlı Xədicənin doğmalarını axtaran ürkək baxışları hər kəsi qəhərləndirdi. İşğalçılar onları təkcə valideynsiz qoymadı, eyni zamanda ömrün qayğısız illəri adlandırdığımız uşaqlıq sevincindən məhrum etdi [51; 54].

Azərbaycan Respublikası ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və itkilərin qiymətləndirilməsi üzrə İşçi Qrupunun indiyə qədər apardığı hesablamalara əsasən, bu işğal nəticəsində əhaliyə 147,8 milyard, dövlətə isə 126,46 milyard dollar ziyan dəyib. Təbii sərvətlərə, maddi irsə və digər sahələrə dəyən ziyan da əlavə edilərsə, Ermənistanın Azərbaycan torpaqlarını işğalı nəticəsində ölkəmizə ümumilikdə 818,88 milyard dollar ziyan vurulub. İşçi qrup dəymiş ziyanın hesablanması istiqamətində işi davam etdirir [73; 114; 117].

Ermənistanın təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli, 292 ölkə əhəmiyyətli və 330 yerli əhəmiyyətli tarix və mədəniyyət abidəsi, 40 mindən çox eksponatın toplandığı 22 muzey, 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 31 məscid, 9 tarixi saray, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi dağıdılıb. Ağdam Çörək muzeyi yerlə-yeksan edilib, dünya şöhrətli Kəlbə-

cər tarix-diyarşünaslıq muzeyinin 13 minədək, Laçın tarix-diyarşünaslıq muzeyinin 5 mindən çox qiymətli və nadir eksponatı Ermənistana daşınıb. Şuşanın işğalı nəticəsində 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi viran edilib. Şuşa şəhərinin tarixi muzeyinin 5 minədək eksponatı, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyinin Şuşa filialının, Dövlət Qarabağ Tarixi Muzeyinin 1000-dək eksponatı, dahi bəstəkar Üzeyir Hacıbəylinin, böyük müğənni Bülbülün, görkəmli musiqiçi və rəssam Mir Mövsüm Nəvvabın xatirə muzeylərinin, Ağdam, Qubadlı və Zəngilan tarix-diyarşünaslıq muzeylərinin fondları qarət edilib. Görkəmli Azərbaycan musiqiçisi Qurban Pirimovun Ağdam rayonundakı xatirə muzeyi, Cəbrayıl, Füzuli və Xocalı rayonlarının tarix-diyarşünaslıq muzeyləri də dağıdılıb. Ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında qeyri-qanuni arxeoloji qazıntılar aparıb, məzarlar, qəbirüstü abidələr dağıdılıb [73].

Otuz ilə yaxın işğal altında qalan ərazilərdə ekoloji cinayətlər törədilib. Bölgədəki biomüxtəliflik məhv edilib, meşələr qırılıb, faydalı qazıntı yataqları talan edilib, su anbarları və ətraf mühit qəsdən çirkləndirilib. Ən əsası isə təcavüz nəticəsində on minlərlə Azərbaycan vətəndaşı həlak olub və yaralanıb, bir milyondan çox insan isə doğma yurdundan didərgin düşüb.

Qeyd etmək lazımdır ki, "Azərbaycan ərazilərinin Ermənistan Silahlı Qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə işçi Qrup" Nazirlər Kabinetinin 26 fevral 2014-cü il tarixli sərəncamı ilə yaradılmışdı.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "İşğalda olan ərazilərdə ətraf mühitə və təbii sərvətlərə dağıdıcı təsiri müəyyənləşdirən Operativ Mərkəzi"nin bir neçə il ərzində topladığı araşdırma materiallarına əsasən 2016-cı ildə erməni təcavüzü və işğalı nəticəsində Azərbaycanın ətraf mühitinə və təbii sərvətlərinə 6 əsas sahə – faydalı qazıntı yataqlarının talanı, biomüxtəlifliyin, meşələrin məhv edilməsi, torpaqların sıradan çıxarılması, istifadədən məhrum olunması, su, su anbarları və ətraf mühitin çirkləndirilməsi üzrə ekoloji zərərlər, o cümlədən əhaliyə dəymiş mənəvi-ekoloji zərərlər qiymətləndirilib, 22 illik işğal dövrünü əhatə

edib və Azərbaycana dəyən ziyan 265 milyard 281 milyon 198 min 203 dollar cuvarında hesablanıb.

Ermənistanın Azərbaycana hücumu nəticəsində bütün dəymiş zərər qiymətləndirmə komissiyası tərəfindən hesablanıb. 20 faiz Azərbaycan torpaqları işğal edilmiş, oradakı infrastruktur, 6 mindən çox müəssisə dağıdılmış, 150 mindən çox ev, 320 min mal-qara məhv edilmiş, XX əsrin 90-cı illərinin əvvəllərində torpaqlarımızın işğal olunması nəticəsində Azərbaycan iqtisadiyyatına 818 milyard dollardan çox ziyan dəymişdir. Əlbəttə, ermənilərin törətdikləri bəşəri cinayətlərə görə Ermənistanın keçmiş və indiki rəhbərliyi məsuliyyət daşıyır və təcavüzkar Ermənistan Azərbaycana son 30 ildə vurduğu maddi və mənəvi ziyana görə reparasiya ödəməlidir.

Azərbaycan dövlətinin Azərbaycan ordusunun şücaəti nəticəsində torpaqlarımız azad edildi. Lakin itkilərimiz də oldu. Bu itkilər: Birinci Qarabağ müharibəsində 20 min, İkinci Qarabağ müharibəsində 3000 Azərbaycan ailəsinin övladı şəhid oldu. Şəhidlər, yaralılar, qazilər xalqımıza baş ucalığı gətirdilər.

Azərbaycan tərəf müharibədən sonra açıqlama verərək bildirib ki, 44 günlük əməliyyat zamanı ölkənin 100-ə yaxın dinc sakini ölüb, 400-dək adam yaralanıb. Baş Prokurorluğun isə mülki əhaliyə dəyən zərərlə bağlı açıqlamasında deyilir ki, müharibə zamanı Azərbaycan tərəfində 4186 ev yararsız hala düşüb.

Qurum habelə 135 çoxmənzilli yaşayış evinin, 548 mülki obyektin yararsız vəziyyətə düşdüyünü açıqlayıb.

Ermənilər Birinci Qarabağ müharibəsi illərində məlum Xocalı soyqırımı, Qaradağlı soyqırımı, Bağanis-Ayrım soyqırımı, Ballıqaya soyqırımı və işgəncə ilə adam öldürmə, terrorçuluq əməlləri və digər qeyri-insani əməllər törətmişlər [40].

Ermənistanın işğal olunmuş ərazilərdə törətdiyi ağır cinayətlərdən biri də ekoloji cinayətlərdir. Silahlı təcavüzün başlanmasından keçən müddət ərzində işğal altında olan Azərbaycan ərazilərində Ermənistanın cinayətkar fəaliyyəti nəticəsində regionun təbii sərvətləri də talan edilmiş, bu ərazilərdə mütəmadi olaraq yanğınlar törədilmiş, regionun flora və faunasına, bölgənin

ekoloji durumuna bərpa edilə bilməyəcək zərər vurulmuşdur. Həmçinin ərazilər minalanmışdır. Mütəmadi olaraq əhali partlayan minaların qurbanı olurlar.

Təsadüfi deyildir ki, tarix və mədəniyyət abidələrinin mühafizəsi, bununla da insanların mədəni hüquqlarının təmini tək o ölkələrin daxili qanunvericiliyi ilə deyil, həmçinin beynəlxalq hüquq normaları ilə tənzimlənir. 16 dekabr 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt, 14 may 1954-cü il tarixli "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyası, 19 dekabr 1954-cü il tarixli Avropa Mədəniyyət Konvensiyası, 16 noyabr 1972-ci il tarixli UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyası və digər beynəlxalq sənədlər tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi, onlardan istifadə və ümumilikdə insanların mədəni hüquqlarının müdafiəsi ilə bağlı müddəaları təsbit edir.

